


Scanned by CamScanner

MÜNDƏRİCAT

I FƏSİL
SİRLİ MARKET
5

II FƏSİL
TALEYİN QİSMƏTİ
38


III FƏSİL
ŞÜBHƏLİ ADAM
269

IV FƏSİL
SOYUQQANLI ƏR
285

V FƏSİL
TƏCİLİ AXTARIŞ ƏMƏLİYYATI
296

VI FƏSİL
"DAMA – QIRMIZI ÜRƏK"
313

EPİLOQ ƏVƏZİ
328



Scanned by CamScanner

I FƏSİL

SİRLİ MARKET

Mən alın yazısına, yəni başımıza gələcək hadisələrin əvvəlcədən yazıldığına inanmıram. Ona inanıram ki, həyat yolumuzda hər dəfə irəli addım atanda qarşımızda çoxlu sayda yeni cığırlar açılır və biz bu cığırlardan birini seçib öz taleyimizi yaza-yaza ölümə doğru irəliləyirik.

Saat 9-a beş dəqiqə qalmış yuxudan ayılıb gözlərini açdı. Həyat yoldaşı yanında deyildi. Nilufər xanım yataqdan hər gün saat 7-də qalxırdı və onun bu vərdişi evliliklərinin ilk günlərindən Qasımlının xoşuna gəlmişdi. Ər-arvad sevgisini uzun illər qoruyub saxlamaq istəyən yaxşı qadın səhərlər yataqdan ərindən azı bir saat tez durmalı, vacib işlərini görüb özünə baxmalı idi ki, əri oyananda onu, həmişəki kimi, gözəl və təravətli görsün...

Küçədən gələn avtomobil səslərini dinlədi. Bakının mərkəzindəki bu mənzil Nilufərin kitabxanaçı işlədiyi məktəbə yaxın olduğu üçün Qasımlı

Scanned by CamScanner

onu bir neçə il əvvəl apardığı bir təhqiqatla bağlı kirayələmişdi. Həmin təhqiqatda mütləq Nilufərə yaxınlaşmaq, bu gözəl qadının rəğbətini qazanmaq lazım gəlirdi. Təcrübəli cinayət-axtarış eksperti isə bunu bacardı. Elə etdi ki, hələ gənc bir xanım olan Nilufər ona bağlandı, onu özünə yaxın bildi. Hətta Qasımlının gözləmədiyi halda, daha qabağa gedərəkonu sevdi.

Lakin məsələnin ən maraqlı tərəfi heç də bu deyildi. Həmin məqsədli yanaşmanın ən gözlənilməz nəticəsi bu oldu ki, sərt və qapalı xarakterli polkovnik Qanbay Qasımlı özü də bu qadına bağlandı. Evləndilər. Təhqiqat bitəndən sonra özünün "Gənclik"dəki mənzilinə qayıtmış polkovnik Nilufərin iş yerinə yaxın olduğu üçün bu mənzili birdəfəlik alıb yenidən bura köçməli oldu...

Avtomobillərin yeknəsəq uğultusuna bir qədər uzaqdan gələn ambulans sirenası da qarışdı. Bu zaman işıqforda qırmızı işıq yandı. Hər iki istiqamətdən gələn avtomobillər zolaqlı piyada keçidində dayandılar. Yatağında arxası üstə uzanmış xəfiyyə bütün bunları görməsə də, eşitdiyi səslərdən küçədə nələrin baş verdiyini anlayırdı. Budur, ambulansın yüksək səsli "naləsi" daha yaxından eşidildi. Qırmızı işıqda dayanmış avtomobillər onun qarşısını kəsmişdilər. Ambulans yenə "nalə çəkdi". Sonra isə aradakı qadağan xəttini tapdayaraq qarşıdan gələn maşınların yoluna çıxdı, beləcə, sürətlə uzaqlaşıb getdi.

Scanned by CamScanner

Yatağında uzanmış Qasımlı ambulansın bu hərəkətindən duyğulandı. Qəribədir, uzun illər cinayət-axtarış polisində çalışmış, bir-birindən qəddar canilərlə üzləşmiş, neçə-neçə tükürpərdici qətlin üstünü açmış, çoxlarının daş ürəkli və duyğusuz biri kimi tanıdığı polkovnik Qasımlı son illər bəzi şeylərdən uşaq kimi təsirlənməyə başlamışdı ki, bunun da biri ambulans sirenası idi. Xüsusilə də gözləri qarşısında ağır xəstə aparan ambulans insan dilinə "amandır, mənə yol verin, burada insan ölür" kimi tərcümə olunan zil səsli sirenası ilə öz yolundan çıxaraq yol hərəkəti qaydalarını bilərəkdən pozanda bundan əməlli-başlı duyğulanırdı.

Bəlkə bu onun yavaş-yavaş yaşlanması ilə bağlı idi?

Amma yox, məsələ yaşda deyildi. O, ambulansın çığırtısını insan dilinə yenicə tərcümə edərək anlamış, hansı ağıllı adamınsa düşünüb kəşf etdiyi bu sirenanın mahiyyətini yenicə dərk etmişdi.

İnsan bütün ömrü boyu çox şeylər görsə də gördüklərinin az bir qismini dərk edir. Sadəcə, baxıb keçir və elə bilir ki, hər şeyi anlayır. Bəli, bu, polis maşınıdır, salonunda polislər oturub, iş dalınca gedirlər. Bu isə balaca uşaq da bilir ki, ambulansdır, xəstə aparır. Hə, əlbəttə ki, xəstə aparır... Lakin bunu bilmək hələ heç də məsələnin mahiyyətini anlamaq demək deyil. Sən özünü həmin xəstənin yerinə qoya bilərsənmi? Ölümlə qalımın arasında... Arxada gözüyaşlı doğmaları...

Yox, bütün bunları bilməyin özü də hələ reallığı lazımınca anlamaq demək deyildi. Qasımlı isə artıq

Scanned by CamScanner

bunu dərk etmişdi və bu səbəbdən də dəmir kimi möhkəm iradəli olmasına baxmayaraq, ambulans səsi eşidəndə təsirlənirdi.

Bir insanı qəddar ölümün pəncəsindən qurtarmaqdan daha xeyirxah iş ola bilməzdi. Və bu xeyirxah iş təkcə həkimlərin boynuna düşməmişdi. Onlar insanları yalnız xəstəliyin gətirdiyi ölümdən xilas edirdilər. Bəs sərhədlərdə keşikdə dayanmış əsgərlər? Polislər? FHN-in xilasedici əməkdaşları? Nəhayət, müstəqil fəaliyyət göstərən cinayət-axtarış eksperti Qanbay Qasımlı? Şəxsən o özü bu vaxta kimi neçə-neçə günahsız insanı qətldən, ölümün pəncəsindən qurtarmışdı.

İnsan taleyi nə qədər mürəkkəb, nə qədər qaranlıq imiş... Və bu dünyada hər kəs öz taleyini yaşayır. Başqalarından xəbərsiz... Bax, az əvvəl küçədən keçən ambulansın apardığı o xəstə... O, hər kimdirsə, böyük ehtimalla Bakı sakinidir. Qasımlı nə qədər yüksək təfəkkürlü, analitik düşüncəli biri olsa da, o xəstə barədə bundan artıq heç nə deyə bilməzdi. Kim idi o? Qadın, kişi, uşaq? Xəstəliyi nə idi? Ürəktutması, zəhərlənmə, yüksək qan təzyiqi, təsadüfi qəzadan yaranan travma? Ya bəlkə bıçaqlanıb, güllə ilə vurulub?

Hər halda, o xəstə real həyatda idi. Onun da öz taleyi vardı və taleyinə bir gün ambulansla klinikaya aparılmaq da yazılıbmış...

Bir insanın həyatını tam öyrənmək üçün elə bütöv bir insan ömrü lazımdır. Deməli, hər insan ömrü boyu yalnız bir insanın taleyini axıra kimi öyrənib

Scanned by CamScanner

duya bilər. Qasımlı isə bəzən elə düşünürdü ki, indiyə kimi çox insanın yaşadığı taleyi bütün dərinliyinə qədər öyrənib. Amma yox...

Yataq otağının qapısı astadan yarıya kimi açıldı. Qasımlı bu səsi eşitməsəydi belə, burnuna gələn xəfif ətir qoxusundan qapının açıldığını və onu açanın Nilufər olduğunu biləcəkdi.

– Sabahın xeyir...

Siz heç səslə ətrin möcüzəli qarışığını duymusunuzmu? İpək kimi yumşaq, həlim qadın səsi ilə xoş bir ətrin qarışığını... Hələ buna sevən qadın qəlbinin istisi və sevgi ilə dolu süzgün baxışlarının sehirli mehi də əlavə olunarsa... Mağazadan alıb əlinizdə tutduğunuz ən bahalı ətir hələ özlüyündə bir şey deyil. O, yalnız bu möcüzəli qarışığı yaradacaq bir ünsürdür.

Həyat yoldaşı analıq məzuniyyətinə çıxandan bəri hər gün bu vaxt – səhər saat 9-da yeni başlanan günün ilk müjdəsi kimi eşitdiyi ətirli səsə tərəf çevrildi:

– Sabahın xeyir!

– Süfrə hazırdır, – Nilufər xanım bunu deyib getdi.

Qanbay Qasımlı heç vaxt yemək-içmək azarkeşi olmamışdı. Yeməyi yalnız aclığını dəf etmək, yəni yaşamaq üçün yeyənlərdən idi. Qisas qurbanı olmuş əvvəlki həyat yoldaşını və körpə övladını itirib tək yaşamağa məhkum olduğu uzun illər boyu belə olmuşdu. O illər səhər yeməyinə heç önəm vermirdi. Yataqdan qalxıb yuyunandan sonra şirinçayla bir-iki tikə çörək və yağ-pendir yeyir, üstündən bir fincan

Scanned by CamScanner

qəhvə içirdi ki, çəkəcəyi siqaret acqarına pis təsir etməsin, vəssalam.

İndi isə səhər yeməyi onun üçün, əvvəlki yeknəsəqlikdən fərqli olaraq, gündəlik həyatını maraqlı edən kiçik ünsürlərdən birinə çevrilmişdi. Bu da onunla əlaqədar idi ki, Nilufər xanım hər gün açdığı zəngin səhər yeməyi süfrəsində mütləq bir yenilik, bir fərqlilik edirdi. Bir gün firni, bir gün pomidor-yumurta, bir gün qayğanaq... Və hər gün səhər yeməyi süfrəsində özünün bişirdiyi dadlı-ləzzətli şirniyyatlardan bir-iki növ mütləq olurdu. Görəsən, bu gün hansından olacaqdı? Bunu öyrənmək üçün qalxıb yuyunmaq və mətbəxə keçərək süfrə arxasında əyləşmək lazım idi.

Qalxıb geyindi. Yüngül səhər gimnastikasından sonra yuyunmaq üçün vanna otağına girdi. O, tək yaşadığı vaxtlarda özünün də, yaşadığı mənzilin də təmizliyinə, səliqə-sahmanına həmişə ciddi fikir vermişdi. Lakin qadın əli doğrudan da tamam başqa imiş. Bir ildən çox idi ki, o, bunu hər gün görüb qiymətləndirirdi. Bax, elə bu vanna otağı... Sanki öz-özündən işıq saçırdı. Həm işıq, həm də ruhu dincəldən gözəl ətir...

Həyatda bəlkə də təsadüf deyilən bir şey yoxdur. Qarşına çıxan yollardan hansısa birini özün seçirsən. Bu zaman ya hansı yolu seçəcəyin barədə kifayət qədər düşünüb-daşınırsan, ya da bəxtinə güvənərək gözüyumulu addım atırsan. İl yarım bundan əvvəl Cahid adlı tanış polis zabiti onu öz ad günü məclisinə – restorana dəvət etdi. Bunun özü bir təsadüf idimi?

Scanned by CamScanner

Əlbəttə ki, yox. Qasımlı öz hörmətəlayiq xarakteri və Cahidə olan xoş münasibəti ilə bu dəvətin təməlini qabaqcadan özü qoymuşdu. Dəvəti qəbul edib-etməmək barədə isə düşündü və qərar verdi ki, Cahidin könlünü qırmayıb ad gününə getsin. Həmin məclisdə iştirak etmiş adamlardan biri o gecə öz evində öldürüldü. Bu qətlə əslində tamamilə günahsız olan Nilufərin də dəxli var idi. Cahidin bacısı Nilufərin...

Qasımlı onun üzünü bir dəfə də olsun görməmişdi. Təhqiqat zamanı qətl yerində olmuş naməlum qadını axtarırdı. Nəhayət, onu tapdı. Bundan sonra işin ikinci və ən çətin mərhələsi başladı. Bu mərhələdə Qasımlı ona lazım olan bəzi vacib sirləri öyrənmək üçün Nilufər adlı bu ərli qadının qəlbinə yol tapmalı idi. Bu çox çətin mərhələ də uğurla nəticələndi. Eyni zamanda bilikli psixoloq olan polkovnik Qasımlı nəinki Nilufərin qəlbinə yol tapdı, hətta bu təmiz ürəkli qadının könlünü ələ alıb özünü ona sevdirə də bildi.

Lakin təhqiqatın sonunda əvvəlcədən planlaşdırmadığı və ağlına belə gətirə bilməyəcəyi bir şey baş verdi: heç kəsə yovuşmayan qaraqabaq, soyuqqanlı polkovnik birdən-birə anladı ki, özü də bu qadına vurulub.

Nilufər xanım bildiyi bütün gizli sirləri ona danışandan və təhqiqat uğurla başa çatandan sonra ayrıldılar. Yəni əslində cismən ayrılıblarmış. Tezliklə hər ikisi anladı ki, ruhən ayrıla bilməyiblər. Qasımlı keçən ilin mart ayında – Novruz bayramı ərəfəsində

Scanned by CamScanner

artıq ərini itirib tək-tənha yaşayan bu qadını uzaq kənddəki bağ evinə dəvət etdi, Nilufər xanım isə onun dəvətini yerə salmadı.

Orada bir həftəyə yaxın yalnız ikisi bir yerdə oldular. Bu müddət ərzində yaxınlaşıb doğmalaşdılar, bir-birilərini daha içdən tanıdılar. Lakin Qasımlı o evdə Nilufərlə aralarında olan namәhrəmlik pərdəsini qoruyub saxlaya bildi. Bir dəfə də olsun cinsəl duyğularla bir-birilərinə toxunmadılar, bu mövzuda ağızlarına bir kəlmə də alıb danışmadılar.

Baş vermiş xoşagəlməz hadisələrdən, ərinin və doğma bacısı Nərminin xəyanətindən sarsılmış Nilufərin qəlb yaraları hələ sağalmamışdı. Ona görə də Qasımlı hər vəchlə onun bu dərdlərini unutdurmağa çalışır, həyata yenidən bağlanmasına yardımçı olurdu.

Bu mərdanə, kişiyana münasibətin nəticəsində Nilufər ona daha çox inandı, daha çox sevdi. Martın axırlarında Bakıya qayıtdılar. İki gün sonra isə yenidən görüşüb "Köşəm" restoranında yemək yedilər və elə orada da qadına evlənmək təklifi etdi. Həm də necə?! Əsl Qanbay Qasımlıya xas quru və rəsmi tonla.

Lakin onun həmin andakı halı başqalarına quru görünə bilərdi. Nilufər isə artıq onu tanıyır, ilk baxışdan sərt görünən üzünün gizli cizgilərindən daxilən hansı hissləri keçirdiyini müəyyən qədər anlaya bilirdi. Dərhal razılıq verdi və aprelin axırlarında evləndilər.

Nikahı qeyd etmək məqsədilə restoranda qurulmuş məclisdə cəmi 16 adam iştirak edirdi. Nilufərin

Scanned by CamScanner

ata-anası, qardaşları, bacısı Nərmin və Cahidin bir neçə dostu-yoldaşı. Qasımlı tərəfdən isə təkcə özü idi. Məclisə heç kəsi dəvət etməmişdi.

Uzun illər ona elə gəlmişdi ki, mərhum həyat yoldaşı Olqanı əvəz edə biləcək bir qadına rast gələ bilməz. Lakin rast gəldi. Bu rastlaşmada taleyin birbaşa rolu olsa da, son nəticədə Nilufəri özü bəyənib seydi. İnandı ki, məhz bu qadın ona ömrünün sonuna kimi əsl həyat yoldaşı olacaq.

Bu il fevralın 5-də Nilufər ona bir oğul övladı bəxş etdi. Adını Aqil qoydular. Dörd ayı hələ tamam olmamış uşaq Qasımlının təkcə həyatını yox, özünü də dəyişmişdi.

Nilufər xanım uşağa görə məktəbə getmirdi. Analıq məzuniyyətində idi. Və Nərmin də həmin gündən gəlib onlarla qalır, uşağa baxmaqda bacısına kömək edirdi...

Üzünü tərtəmiz təraş edəndən sonra əl-üzünü yuyub dişlərini fırçalayan Qasımlı mətbəxə keçdi. Üstünə təmiz ağ süfrə salınmış masaya tox adamı belə iştaha gətirə biləcək səhər yeməyi düzülmüşdü. Kərə yağında qızardılmış çörək dilimləri, üstünə gülqənd tökülmüş qaymaq, soyulmuş yumurtalar, darçınlı firni, yağ, pendir, həyat yoldaşının özünün hazırladığı iki cür şirniyyat...

Nilufər stəkanlara çay süzürdü. Qasımlı duyduğu xoş ətirdən dərhal anladı ki, həyat yoldaşı çaya mixək atıb.

Başına bənövşəyi rəngli hicab bağlamış Nərmin masanın arxasında əyləşmişdi. Balaca Aqil qucağında

Scanned by CamScanner

idi. Onun içəri girdiyini görəndə hörmət əlaməti olaraq yerində azacıq dikəldi.

– Sabahınız xeyir, – ev sahibi baldızı ilə salamlaşaraq masa arxasındakı yerində əyləşdi.

– Aqibətiniz xeyir, – Nərmin astadan mızıldandı.

O, bir il olardı hicab bağlamağa başlamışdı. Qasımlı gənc qızı evin içində bu qiyafədə görəndə sıxılırdı. Çünki bilirdi ki, Nərmin evdə ona görə qapanır.

Dindar olmayan Qasımlı qadının öz saçını yad kişilərin gözlərindən nəyə görə gizlətməli olduğunu anlaya bilmirdi. Yəni doğrudanmı bunu Tanrı hökm etmişdi? Deməli, O, öz yaratdığı qadınlara daha yaraşıqlı, daha cazibədar görünmələri üçün uzun, gözəl saç verir, sonra da deyir ki, bunu başqalarından gizlət? Nə isə... Əgər Nərmin özü qapanmaq istəyirdisə, ona belə xoş idisə, Qasımlının, yaxud bir qeyrisinin buna qarışmağa ixtiyarı yox idi. Özü bilərdi...

Bu qız, daha doğrusu, qızlığı ilə erkən vidalaşmış qadın hələ orta məktəbin son sinfində oxuyarkən özündən yaşca xeyli böyük birini sevmiş, Təhmin adlı o adam da qıza vurulmuşdu. Aralarındakı yaş fərqinə görə guya ailə qura bilməyəcəklərini düşünən Təhmin Nərmini ömrü boyu yaxınlığında görmək üçün çox qəribə, ağılsız bir üsula əl atır: qızın böyük bacısı Nilufərə yaxınlaşır. Onu guya çoxdan sevdiyini deyərək razılığını alır, evlənirlər. Beləliklə, Nərminlə yaxın qohum olur. Onu hər gün öz evində görür.

Bir qədər sonra isə anlayır ki, bu da onu xoşbəxt edə bilməz. Əksinə, qızı hər gün yanında görmək

Scanned by CamScanner

Təhminə daha ağır imiş. Sanki susuzluqdan yanan birini sərin sulu bulağın düz qarşısında ağaca bağlayıblar və o, gözləri önündə şırıltı ilə axan suya baxıb əzab çəkir. Beləliklə, dözməyib bir gün yataqda qovuşurlar. Nilufər təsadüfən bunun şahidi olur və Təhminin həyatı açılması mümkünsüz görünən bir düyünə düşür.

Əslində bəndələrinin taleyinə nəzarət edən Tanrı bir-birini sevən bu cütlüyə vaxtında ən doğru yolu göstərmişdi. Təhmin hələ Nilufərlə evlənməmiş, Tanrının müdaxiləsi ilə qarşıdakı dolaşıq cığırların ən yaxşısını seçən Nərmin ona yalvarırmış ki, evlənsinlər, bir-birilərinə qoşulub hansısa başqa ölkəyə getsinlər. Təhmin isə xarakterindəki cəsarətsizliyin və prinsipsizliyin ucbatından onunla razılaşmamış, beləliklə, qarşısında açılan tale cığırlarının ən yanlışını seçib onunla irəliləmişdi.

Baş vermiş xoşagəlməz hadisədən – Nərminlə intim münasibətinin Nilufərə məlum olmasından sonra Təhmin yenə qarşısında açılmış növbəti tale cığırlarının ən yanlışını seçir: həm bu sirri batırmaq, həm də Nərminlə həmişəlik qovuşmaq üçün həyat yoldaşı Nilufəri pul verib öldürtdürmək qərarına gəlir. Nəticə isə onun özü üçün acınacaqlı olur. Qanbay Qasımlının işə qarışması nəticəsində Təhmin düzgün yönləndirə bilmədiyi mənasız həyatı ilə vidalaşır...

Kinin, nifrətin nə olduğunu bilməyən Nilufər isə artıq taleyi bəd gətirmiş bacısını bağışlamışdı...

Scanned by CamScanner

– Nərmiş, uşağı apar qoy çarpayısına, yeməyini rahat yc, – ev sahibəsi qayğıkeşliklə dilləndi.

–Yox, belə yaxşıdır, – qız etiraz etdi, – mən rahatam.

Nilufər çayları süzüb özü də əyləşdi və yeməyə başladılar.

Qasımlı gözucu oğluna baxdı. Bu körpə hələ dünyaya gəlməmişdən anası Qasımlıya həyatda ən gözəl hiss olan sevginin nə olduğunu xatırlatmış və onun Nilufərə olan həmin sevgisindən bu balacaya da pay düşmüşdü. Uşağı hər görəndə sevinir, qəm-qüssəsi dağılırdı. Hiss edirdi ki, oğlu öz şirin gülüşü, şən qığıltısı, məzəli əl-ayaq hərəkətləri, bir sözlə, öz kiçik varlığı ilə ona çox şey verir. Sevinc, fərəh, həyat eşqi, yaşamaq həvəsi...

Qasımlının anlayıb kəşf etdiyi ən maraqlı məqam bu idi ki, bu körpə eyni zamanda ona nəsə öyrədir. Bəli, öyrədir... Həyatda çox şeylər görmüş, bir çox sahələrdə elmi biliklərə malik, insan psixologiyasının mahir bilicisi, kriminalist-alim Qanbay Qasımlıya indiyədək öyrəndiklərindən daha vacib olan həyat dərsi keçirdi bu uşaq. O, bu körpənin sayəsində indi daha qayğıkeş, insanlara qarşı daha mərhəmətli olmağa başlamış, qəribə səslənsə də, həyatın fəlsəfəsini daha dərindən anlamışdı.

İctimaiyyət arasında çox vaxt valideyn-övlad münasibətlərində yalnız valideynin övlada verdiklərindən, onun uşağı böyütmək yolunda necə əzablara qatlaşdığından söhbət açılır. Dünyaya gəlmiş körpənin

Scanned by CamScanner

öz gəlişi ilə valideynlərinə verdiyi dünya boyda sevinc, fərəh, xoşbəxtlik isə unudulur. Unudulur ki, Nyuton mexanikasının "təsir əks-təsirə bərabərdir" kimi ifadə olunan üçüncü qanunu təkcə fizika qanunu olmayıb, eyni zamanda bütün həyat fəlsəfəsinin əsas qanunlarından biridir. Yəni yalnız mexaniki qüvvələrin yox, bütün həyati proseslərin xarakterini özündə əks etdirir.

Bəli, valideyn öz övladına verdiyi qədər ondan alır. Həm də məhz verdiyi qədər alır, artıq, ya əskik mümkün deyil...

Bəzən cəmiyyətdə övladları tərəfindən atılmış, yaxud daha pis halda, təhqir olunmuş, fiziki-mənəvi zərbələrə məruz qalmış valideynlərin ağrılı problemləri qabardılır, bütün günah övladların üzərinə atılırdı. Xüsusilə son illər televiziya verilişlərində belə problemlər daha tez-tez gündəmə gətirilirdi. Qasımlı bu tip verilişləri adətən izləmirdi. Lakin rastına çıxan belə məqamlarda acınacaqlı duruma düşmüş valideynlərə müəyyən qədər acısa da, özlüyündə tam əminliklə düşünürdü ki, həmin valideyn həyatı boyu buraxdığı səhvlərin təbii nəticəsini görür, vəssalam. Övladına nə veribsə, ona eyniliklə bərabər qüvvədə təsir alır. Təsir əks-təsirə bərabərdir...

Nərmin soyutma yumurtanın sarısından əzib uşağın ağzına verdi. Aqil onu iştahla yeyəndə Nilufər də, qaraqabaq atası da ürəkdən gülümsədilər.

Qasımlı keçirdiyi hissləri bəlkə də tam anlaya bilmirdi. Amma ona nədənsə elə gəlirdi ki, oğluna

Scanned by CamScanner

qarşı duyduğu atalıq məsuliyyəti bu sevgidən qat-qat güclüdür. Yəni bu uşağın dünyaya gəlməsinin səbəbkarlarından biri o idisə, onun hər şeyinə də özü cavabdeh olmalı idi. Ömrünün sonuna kimi... Bax, Nərminin qucağında yırğalanıb əl-qol atan bu varlıq onun taleyinə qismət olmuş doğma övladı idi. Aqilin bundan sonra heç vaxt ikinci atası olmayacaqdı. Nə də ikinci anası... Yaşayacağı bu həyatda yaxşı nə qazanacaqdısa, valideynlərinin tərbiyəsinə və özlərində daşıyıb ona ötürdükləri genlərinə minnətdar olacaq, pis nə qazanacaqdısa, buna görə yenə də valideynləri məsuliyyət daşıyacaqdı. Bu uşaq dünyaya gəlmişdisə, Qasımlı bir ata kimi onu sağlam bədənli və sağlam düşüncəli bir insan kimi böyütməyə borclu idi.

Polkovnik öz fikirlərini başqaları ilə bölüşən biri olmasa da, hər bir mövzuda olduğu kimi, valideyn-övlad məsələsində də prinsipial şəxsi fikirləri vardı. Məsələn, bəzən düşünürdü ki, qəsdən cinayət törətmiş birini həbs edərkən onun valideynləri niyə cəzalandırılmasın. Ya da vətəninə, millətinə böyük xeyir vermiş bir şəxsiyyətin anasının heykəli qoyularaq üzərində "filan şəxsiyyətin, yaxud filan qəhrəmanın anası filankəs" sözləri niyə yazılmasın?

Səhər yeməyi, həmişəki kimi, sakit keçirdi. Ara-sıra nəsə deyənlər də yalnız balaca Aqilə xitabən danışırdı. Hər kəsin diqqət mərkəzində yalnız o idi.

Qasımlı yeməyi bitirib həyat yoldaşına astadan "çox sağ ol" deyərək ayağa qalxanda Nilufərin masanın

Scanned by CamScanner

üstünə qoyduğu mobil telefonu səsləndi. Ərinə "nuş olsun" deməyi unutmayan qadın telefonu açıb qulağına aparanda Qasımlı artıq mətbəxdən çıxmaq üzrə idi. Lakin Nilufərin səsindəki həyəcanı duyub ayaq saxlamalı oldu.

–Yoox... Nə olub ki, Hafizəyə?

Zəng vuran məktəbdə Nilufərlə kitabxanaçı işləyən Pərvanə adlı qız idi. O, nə dedisə, Nilufər heyrətlə içini çəkdi:

– Nə danışırsan, ay qız, niyə öldürüblər? Kim öldürüb? – sonra da qadınlara xas həssaslıqla vaysındı: – Nə günahı var idi yazığın, kimə neyləmişdi? Əli qurusun onu vuran hər kimdirsə... Caan... Məni soruşdu, hə? Bu gün dərsi yox idisə, niyə gəlmişdi məktəbə? Həə... Deməli, lotereyasına ölüm düşdü bədbəxtin...

Daha sonra söhbəti tələsik yekunlaşdırdı:

– Əlbəttə, gedəcəm! Elə bu saat çıxıram. Özün bilirsən ki, o, mənə bacıdan da artıq olub.

Qasımlının dərhal ağlına gəldi ki, bir qadının rəfiqəsi barədə "mənə bacıdan da artıq olub" kəlməsini öz doğma bacısının yanında dilə gətirməsi heç də yerinə düşmür. Lakin indi bu barədə düşünməyin yeri deyildi. O, Hafizə müəlliməni qiyabi tanıyırdı. Bilirdi ki, Nilufərin işlədiyi məktəbdə musiqi müəlliməsidir. Əri əyyaşın, tüfeylinin biri olduğu üçün ailəni o dolandırır. Həm də təbii ki, müəllimlikdən aldığı cüzi maaşla yox. Evdə lavaş bişirib satırdı.

Scanned by CamScanner

Nilufərdən yaşca böyük olsa da aralarında yaxın rəfiqə münasibəti var idi.

Deməli, bu qadın qətlə yetirilib... Gözucu divardakı saata baxdı. 10-a on beş dəqiqə qalırdı. Nilufərin telefon danışığından belə məlum olurdu ki, Hafizə müəllimə, bu gün dərsinin olmamasına baxmayaraq, məktəbə gedibmiş. Məktəbdə dərslər saat 8-də başlayır. Məktəbə gəlib və tez də gedib. Niyə? Hə, lotereya...

Bilirdi ki, Nilufərgilin məktəbində bəzi müəllimlər aldıqları əmək haqqı ilə "lotereya" oynayırlar. On müəllim birləşir, hər ay öz maaşlarından 100 manatı oyuna qoyur. Bu pulları püşkatma ilə hər ay bir müəllim götürür. Və təbii ki, hər kəs yalnız bir dəfə. Beləliklə, burada udub-uduzan olmurdu. Yalnız hər müəllim bir dəfə 1000 manat pulu birdən əldə edirdi ki, bunu da öz borcuna, digər dərdinə-sərinə verə bilirdi. Bu gün mayın 2-si idi. Həftənin də ikinci günü. Deməli, aprel ayının maaşı kartlara yeni köçürülmüşdü. Görəsən, Hafizə müəllimə bu gün məktəbə öz əmək haqqını kiməsə verməyə getmişdi, yoxsa onun üçün toplanmış 900 manatı almağa? Hə, Nilufər dedi ki, lotereyasına ölüm düşdü. Deməli, ona çatacaq pulu almağa gedibmiş...

Həyat yoldaşının telefonda Pərvanəyə dediklərindən belə görünürdü ki, qatilin kimliyi bilinmir. Günahsız bir müəlliməni kim və nə səbəbdən öldürə bilərdi? Əlbəttə, pula görə. Deməli, Hafizə müəllimə

Scanned by CamScanner

doğrudan da məktəbə ona çatacaq lotereya pulunu almağa gedibmiş. Və belə çıxır ki, qatil bunu bilirmiş? Yaxud bədbəxt qadın marketdə-filanda pulunu çıxaranda görüblər? Onu harada vura bilərdilər? Yəqin izləyərək yaşadığı evin blokuna girəndə vurublar. Çünki qatil üçün ən təhlükəsiz yer məhz oradır. Bakıdakı yaşayış evlərinin əksəriyyətində nəzarət kamerası olmur. Görəsən, nə ilə qətlə yetiriblər yazığı?

Polkovnik Qasımlının xəfiyyəlik təcrübəsi və istedadı bunu da deməyə ona imkan verirdi: lap yəqin bıçaqla...

Telefonu hələ də əlində tutmuş Nilufər ona baxdı:

– Bizim Hafizə müəlliməni öz bloklarında bıçaqlayıb öldürüblər. Mən ora getmək istəyirəm. Onunla çox yaxın idik...

– Hə, – Qasımlı sakitcə dilləndi, – səni maşınla apararam.

Təxminən on dəqiqədən sonra onlar uşağı Nərminə tapşıraraq evdən çıxdılar.

Hafizə müəlliməgilin evi 7-ci mikrorayonda idi. Həyətə xeyli məhəllə sakini yığılmışdı. Binanın giriş qapısında və pilləkənlərdə də adamlar vardı. İçəridən ağlaşma səsi gəlirdi. Nilufər mənzilə daxil olub qadınların yığışdığı otağa keçdi.

Qasımlı isə içəri girmədi. Çalsaç müstəntiq dəhlizdə arıq bir kişini ayaqüstü danışdırırdı. Məlum

Scanned by CamScanner

oldu ki, qoyun gözləri kimi mənasız gözləri olan bu adam Hafizə müəllimənin əridir.

– Həyat yoldaşımı yüz faiz pula görə öldürüblər, – kişi əsəbi halda deyirdi. – Məktəbə getmişdi ki, yoldaşlarından ona çatacaq 900 manat lotereya pulunu alsın. Vuran adam əl çantasını aparıb. Pullar da yüz faiz onun içində olub...

Nilufərin qardaşı – hadisənin baş verdiyi ərazidəki polis bölməsinin təhqiqatçısı Cahid Nəzərli də burada idi. Qasımlını görən kimi cəld yaxınlaşıb görüşdü:

– Siz nə əcəb burdasınız, Qanbay müəllim? – deyə soruşdu.

– Nilufər xanımı gətirmişəm, – polkovnik dedi. – Öldürülən qadın məktəbdə onun iş yoldaşı idi.

Onlar ikinci mərtəbədə yerləşən mənzilin açıq qapısı qarşısında danışırdılar. Cahid qətlin təfərrüatı barədə məlumat verdi:

– Qadını ikinci mərtəbəyə qalxan pilləkəndə arxadan bıçaqla vurublar. Düz ürək nahiyəsindən. Yazıq arvad o dəqiqə keçinib. Həyətdə qatili görən olmayıb. Belə məlum olur ki, qurbanını ustalıqla izləyirmiş. Həm də şəhərin mərkəzindən bura kimi. Yeri gəlmişkən, deyim ki, Hafizə müəllimə evə avtobusla gəlib.

Qasımlının diqqəti eyni zamanda içəridə gedən söhbətdə idi. Bu zaman müstəntiq Hafizənin ərinə növbəti sualını verirdi:

– Həyat yoldaşınızın çantasında başqa nə olub?

– Heç nə, qadına lazım olan xırda-xuruş şeylər. Nə olacaq ki?!

Scanned by CamScanner

– Bəs sizin fikrinizcə, qatil çantadan başqa nəsə aparıb?

– Heç nə. Hafizənin üstündə elə qiymətli şey yox idi. Qızıl-filan taxmırdı. Əlində bir özünün çantası olub, bir də ərzaq torbası. Evə gələndə yolüstü marketə giribmiş. Ərzaq torbasını aparmayıblar.

– Nə alıb marketdən? – müstəntiq laqeydliklə soruşdu.

– Toyuq budu, makaron, günəbaxan yağı...

– Vəssalam?

– Hə...

Müstəntiq sorğu-sualı dayandırıb qapıdan çıxanda onun Qasımlıya maraqla baxdığını görən Cahid cəld dilləndi:

– Tanış olun, Niyazi müəllim, bu, Qanbay Qasımlıdır. Yəqin adını eşidərsiniz, polisdə işləyib. Kriminalistika üzrə alimdir. Bacımın həyat yoldaşıdır. Öldürülən qadın bacımla məktəbdə iş yoldaşı imiş. Hadisəni eşidib gəliblər.

Müstəntiq polkovnik Qasımlı ilə mehribancasına əl tutdu:

– Sizin barənizdə eşitmişəm. Tanışlığımıza şad oldum.

– Mən də, – Qasımlı başını tərpətdi.

Sonra müstəntiq üzünü Cahidə tutdu:

– Meyiti ekspertizaya apardılar?

– Hə, indicə apardılar, – polis kapitanı cavab verdi.

– Əslinə qalsa, bu işdə qaranlıq bir şey yoxdur, – müstəntiq bunu deyəndə Qasımlıya baxırdı. – Məlum

Scanned by CamScanner

məsələdir, qadını çantasındakı pula görə öldürüblər. Həm də qatil onun bu gün məktəbdən 900 manat pulla çıxacağını bilirmiş. Biz bunu araşdıracağıq. Əlbəttə, ilk növbədə məktəbdə işləyənləri danışdırmaqla. Zənnimcə, iş uzun çəkəcək, ancaq mütləq müsbət nəticə əldə edəcəyik. Yaxşı, məni bağışlayın, prokurorluğa getməliyəm. Sağ olun!

Müstəntiq hər ikisinə əl verib ayrıldı və pilləkənlə enib gözdən itdi.

Cahid nəsə demək istəyirdi ki, Qasımlı əlinin işarəsi ilə onu dayandırıb, indicə mənzildən çıxan kişiyə üz tutdu. Bu, Hafizənin əri idi.

– Xahiş edirəm, həyat yoldaşınızın marketdən aldığı ərzaq torbasını içindəkilərlə birlikdə bura gətirin.

–Torbanı? – kişi ona təəccüblə baxdı. – Hə, bu saat!

İçəri girməyi ilə qayıtmağı iyirmi saniyə çəkmədi. Əlində qırmızı rəngli sellofan torba vardı. Qasımlı torbanı ondan alıb içinə baxdı. Alınan ərzaqlar hələ də burada idi – bir bağlama toyuq budu, bir şüşə günəbaxan yağı, bir kiçik torba makaron. Hər birinin bu məhsulların ən ucuzlarından olması bu ailənin necə yoxsul yaşadığını aşkar göstərirdi.

Qasımlını isə başqa şey maraqlandırırdı. Əlini torbaya salıb dibində gəzdirdi, oradan kiçik bir kağız parçası çıxardı. Bu, marketin alıcılara verdiyi alış-veriş qəbzi idi. Qəbzi Cahidlə bir yerdə oxudu. Orada alınan həmin üç malın qiyməti, ödənilən məbləğ və marketin ünvanı qeyd edilmişdi.

Scanned by CamScanner

Sonra qəbzi yenidən yerinə qoyaraq torbanı ev sahibinə qaytardı. Kişinin içəri girməsini gözləyən Cahid dilləndi:

– Bu işlə məşğul olmaq fikriniz var, Qanbay müəllim?

Polkovnik çiynini çəkdi:

– Bəlkə də müstəntiq haqlıdır, ola bilsin qatili məktəb kollektivinin ətrafında axtarmaq lazım gələcək. Yaxud da qətlə yetirilən qadının öz yaxınları arasında... – bir qədər ara verib sözünə davam etdi: – Lakin başqa bir variant da var və biz bunu indicə yoxlaya bilərik.

– Hansı variant? – qaynı soruşdu.

– Doğrusu, buna o qədər də inanmıram ki, kasıb bir qadın çantasında olan 900 manat pulu adamların gözü önündə çıxarsın. Amma hər halda, bu variant da mümkündür. Ola bilər ki, Hafizə müəllimə marketdə aldığı malların pulunu ödəyərkən təsadüfən orada olmuş biri həmin pulları görüb və qadının arxasınca düşüb. Əgər belədirsə, biz marketdəki nəzarət kameralarının görüntülərini izləməklə qatili orada görə bilərik.

Cahid gülümsədi:

– Qəbzə marketin ünvanını öyrənmək üçün baxdınız?

– Bəli! Mənimlə ora getmək istəyirsən?

– Əlbəttə!

– Onda ev sahibindən Hafizə müəlliməninbir fotosunu al və elə bu saat mənim maşınımla marketə

Scanned by CamScanner

gedək, – Qasımlı dedi. – Zənnimcə, tez qayıdarıq, Nilufər xanımı çox gözlətmərik.

– Yaxşı, – polis kapitanı qətlə yetirilmiş qadının fotosunu almaq üçün yenidən mənzilə girdi.

"Azad qadın" heykəlinin qarşısından dönüb, bir qədər üzüyuxarı gedəndən sonra Qasımlı "Porşe"ni küçənin sol kənarında, onlara lazım olan marketdən cəmi bir neçə metr aralı saxladı. Yerə endilər.

Hər iki tərəfində üç və dördmərtəbəli evlər sıralanan küçə o qədər də enli deyildi. Bir vaxtlar, yəni Bakının çar Rusiyasının tərkibində olduğu dövrlərdə ikinci dərəcəli milyonçular tərəfindən tikdirilmiş bu evlərin cəmi iki stul yerləşə biləcək kiçik daş balkonları əsgər gödəkcəsinin ciblərinə bənzəyirdi.

Küçənin sağında, azacıq qabaqda avtobus dayanacağı vardı. Burada dörd nəfər dayanıb avtobus gözləyirdi. Marketin qapısı önündə isə heç kəs yox idi. Qasımlı içəri girməzdən qabaq dönüb küçənin o biri tərəfindəki üzbəüz binaya baxdı. Üçmərtəbəli binanın balkonları boş idi. Sanki bu binada heç yerli-dibli adam yaşamırdı.

Bu zaman marketlə üzbəüz yerləşən həmin binanın üçüncü mərtəbəsindəki balkonların birində kimsə göründü. Kənardan 50-60 yaş verilə bilən bu kişi o qədər ucaboy və iri sümüklü idi ki, Qasımlı bir anlıq kiçik balkonun onun ağırlığına dözməyəcəyini düşündü. Lakin bu aldadıcı bir təəssürat idi. Əlində

Scanned by CamScanner

əsa tutmuş kişi onlara tərəf baxaraq ağır hərəkətlə balkondakı tək stulda oturdu. O, çəpəki oturub dizdən qatlanmayan sağ ayağını qabağa uzatmaqla indi balkonun boş qalan yerini də tutmuşdu. Başını döndərib birinci mərtəbəsində marketin yerləşdiyi binaya baxırdı.

Məsafə o qədər yaxın, hava o qədər aydın idi ki, iti gözlü Qasımlı üzünü qısa çal saqqal basmış bu adamın gözlərini küçənin bu tayından da aydın görə bilirdi. Bu gözlərdə uzun illərin dərin kədəri, həyata küskünlük və qəzəb vardı.

– Kaş içəridə nəzarət kamerası olaydı, – Cahid dilləndi.

– Olar, – Qasımlı cavab verdi və marketə girdilər.

Kiçik marketdə cəmi iki satıcı vardı: orta yaşlı kişi və cavan oğlan. Oğlan girişin sol tərəfindəki içki şöbəsində dayanmışdı, kişi isə qapı ilə üzbəüz piştaxtanın arxasında. İçəridə bircə nəfər də alıcı yox idi.

Hər iki satıcı gələnləri şübhəli nəzərlərlə, diqqətlə süzməyə başladı. Onlar əynində polis zabiti uniforması olan Cahidə yox, nədənsə məhz Qasımlıya baxırdılar. Yəqin tünd boz kostyum və bəyaz köynək geyib sumağı rəngli qalstuk taxmış xəfiyyəni prokurora və ya müstəntiqə bənzətmişdilər.

Onlara salam verən Qasımlı yaxınlaşıb Cahiddən aldığı fotoşəkli orta yaşlı satıcıya göstərərək quru səslə dilləndi:

– Deyin görək, bu qadın sizə tanış gəlirmi?

Kişi fotoşəklə diqqətlə baxıb udqundu:

Scanned by CamScanner

– Bəli, təxminən iki saat bundan əvvəl burada idi. Əvvəllər də bizdən ərzaq alıb, – dedi və tez də soruşdu: – Nəsə olub?

Polkovnik sualı cavabsız qoydu:

– O, sizdən aldığı ərzaqların pulunu ödəyərkən çantasından çıxardığı pulları gördünüz?

Satıcı onu çox gözlətmədən dilləndi:

– Pulqabından bir beşlik çıxardı, vəssalam. Mənə elə gəldi ki, olan pulu da elə həmin beş manat idi.

Qasımlı dönüb mənalı tərzdə Cahidə baxdı. Əgər satıcı düz danışırdısa, onda qatilin lotereya pullarını bu marketdə görərək qadının arxasınca düşməsi versiyası əhəmiyyətini itirirdi. Yox, əgər yalan deyirdisə...

Başını qaldırıb divardakı nəzarət kamerasına baxdı:

– Marketi saat neçədə açmısınız?

– Saat 8-də, – satıcı cavab verdi.

– Kameranın bugünkü qeydlərinə baxmaq istəyirəm.

– Buyurun, – satıcı razılaşdı.

Bir dəqiqədən sonra Qasımlı ilə Cahid monitorda kameranın bugünkü qeydlərini izləyirdilər.

Market doğrudan da saat 8-də açılmışdı. İlk alıcı – 40 yaşlarında, əynində cins şalvar və nazik gödəkcə olan kişi isə marketə saat 08:14-də daxil oldu və bir qutu siqaret alıb çıxdı. Daha sonra başqa alıcılar göründülər.

Deyəsən, bu marketin alveri o qədər də yaxşı getmirdi. Alıcılar seyrək gəlirdilər – təxminən üç dəqiqədə bir alıcı. Aha, budur, bu da Hafizə müəllimə... O, içəri saat 08:37-də daxil oldu. Satıcıya yaxınlaşıb günəbaxan yağı, makaron və toyuq budu

Scanned by CamScanner

aldı. Çantasından götürdüyü köhnə pulqabıdan bir beşlik çıxararaq satıcıya uzatdı...

Satıcı düz deyirmiş, qadın məktəbdən aldığı 900 manat pulu burada üzə çıxarmamışdı. Deməli, Qasımlının ağlına gələn versiya özünü doğrultmadı. Yəni qadının arxasınca düşmüş qatil onun çantasında pul olduğunu marketdə görməmişdi. Həm də kamera qeydlərindən aydın görünürdü ki, Hafizə müəllimə içəridə olarkən bura başqa alıcı girməyib.

Daha bu marketdə görüləcək işləri qalmamışdı. Qasımlının işarəsi ilə küçəyə çıxdılar.

– Müstəntiq haqlı imiş, – Cahid dilləndi, – məktəbdəkiləri danışdırmaq lazımdır. Ancaq qoy bunu Niyazi müəllim özü etsin. Məncə, burada daha bizlik bir iş yoxdur.

Qasımlı küçənin o biri tərəfindəki binaya baxanda bayaqkı kişinin hələ də balkonda oturduğunu gördü. Qolunu əsasına söykəmiş çolaq kişi bu dəfə nədənsə birbaşa onlara göz qoyurdu.

Qasımlı qaşqabaqlı halda başını buladı:

– Amma deyəsən, biz burada hələ işimizi bitirməmişik.

– Niyə ki? – Cahid onu anlamadı.

– Hesab edək ki, məktəbdə Hafizə müəllimə ilə lotereya oynayanların birinin ətrafındakı adamlardan kimsə qadının bu gün məktəbə pul almağa gələcəyini bilirmiş və bu adam qadını məktəbdən çıxandan izləməyə başlayıb. Düz evinə kimi...

– Aha, – Cahid təsdiq etdi, – müstəntiq də belə deyir.

Scanned by CamScanner

– Bəli... – Qasımlı ciddi tərzdə gülümsədi. – Mən əvvəlcədən fikir söyləməyi heç xoşlamıram. Lakin əgər qatil öz qurbanını məktəbdən izləməyə başlayıbsa, deməli, qadın marketə girəndə səkidə dayanaraq onun çıxmasını gözləyib.

– Çox doğru deyirsiniz, Qanbay müəllim, – polis kapitanı həvəslə dillənib ətrafa boylandı və birdən məyus oldu: – Amma təəssüf ki, yaxında küçə nəzarət kamerası yoxdur.

Doğrudan da burada nə küçəyə, nə də marketin və ona ən yaxın bərbərxana və maşın təmiri emalatxanasının çölünə nəzarət edən kamera gözə dəymirdi.

Qasımlı başının işarəsi ilə qarşı binanın balkonunda oturmuş kişini göstərdi:

– Kamera yoxdur, amma belə bir potensial şahidimiz var. Dərhal görünür ki, bu adam tək yaşayır və gününün çox hissəsini balkonda oturub küçəni seyr etməklə keçirir.

– Nəyə əsasən belə deyirsiniz?

– Balkondakı kətilin üstündə kiçik çay termosunu, stəkanı, külqabını görmürsənmi? Zənnimcə, bu kişinin işi-peşəsi bütün günü bu binaya və küçəyə baxmaqdır. İndi də bizə baxır və yeri gəlmişkən, deyim ki, baxışlarından heç xoşlanmadım. Amma biz, hər halda, ondan təxminən iki saat əvvəl marketin qarşısında şübhəli bir adam görüb-görmədiyini soruşa bilərik.

Cahid həvəslə razılaşdı:

– Onda nə dayanmışıq, gedək elə bu dəqiqə soruşaq.

Scanned by CamScanner

Burada xüsusi piyada keçidi yox idi. Hərəkətin birtərəfli olduğu küçədə avtomobillərin seyrəlməsini gözləyib qarşı tərəfə keçdilər. Arxadakı həyətdən binaya daxil oldular və pilləkənlə qalxıb onlara lazım olan mənzilin zəngini çaldılar.

Qapı dərhal açıldı. İndicə balkonda gördükləri kişi qara rəngli əl ağacına söykənərək qarşılarında dayanmışdı. İri cüssəli bu adam Qasımlı ilə həmyaşıd olardı. Amma hansısa ağır dərd onu vaxtından xeyli əvvəl qocaltmışdı. İri, zəhmli gözlərində bütün həyata qarşı acı nifrət oxunurdu. Gələnləri süni laqeyd ifadə ilə süzüb dilləndi:

– Buyurun, eşidirəm sizi. Xeyir ola?

Qapının üzlərinə belə tez açılması artıq Qasımlıda müəyyən şübhə oyatmışdı. Kişi marketdən çıxan polis zabiti və mülki geyimli şəxsin küçəni necə keçdiklərini izləyərək məhz onun yanına gəldiklərini anlamış, qapının zəngi hələ çalınmadan ayağa qalxaraq onu açmağa gəlmişdi. Əgər bu adamın bu gün səhərki qətldə əli vardısa, indicə etdiyi hərəkət onun tərəfindən buraxılmış kobud səhv sayıla bilərdi.

– Sizinlə çox qısa söhbətimiz var, – Qasımlı dedi. – İçəri girmək olarmı?

– Nə söhbət? – ev sahibi narazı səslə donquldandı.

– İçəri girmək olarmı? – polkovnik sualını sakitcə təkrar etdi.

–Yaxşı, gəlin görək...

Kişi özü qabağa düşərək çağırılmamış qonaqlarını salona apardı. Onun sağ ayağı dizdən qatlanmadığı üçün əməlli-başlı axsayırdı. Lap bir zamanlar dünyaya

Scanned by CamScanner

təkbaşına ağalıq etmək iddiasında olmuş əzəmətli türk hökmdarı Əmir Teymur kimi. Tarixçilərin yazdığına görə, onun da sağ dizi qatlanmadığı üçün belə axsayırmış.

Daxil olduqları otağın digər qapısı həmin kiçik balkona açılırdı. Bu, çox sadə bir otaq idi. Belə sadəlik və təklik ab-havası Nilufər xanımla evlənənə kimi uzun illər tək-tənha yaşamış Qasımlıya yaxşı tanış idi. Heç yerdə zərif qadın əlinin izi hiss olunmurdu. Köhnə masa və stullar, bir kitab şkafı, televizor...

Bu otağa yaraşıq verən yeganə qiymətli əşya divardan asılmış orijinal rəsm əsəri idi. Qızılı çərçivəyə salınmış tabloda kiçik daş balkondakı dibçək güllərini sulayan orta yaşlı gözəl bir qadın təsvir olunmuşdu. Əynində mavi don olan qadının ağ dərili üzünün yalnız bir tərəfi görünürdü. Tünd şabalıdı rəngli hamar saçları güllərin üzərinə sallanmışdı.

Tablodakı fiqurlu daş balkon təsviri ilə marketin yerləşdiyi qarşı binanın balkonlarının eyniliyi Qasımlının iti baxışlarından yayınmadı.

Ev sahibi onlara əyləşməyi təklif edəndə Qasımlı dilləndi:

– Narahat olmayın, biz tez gedəcəyik. Mən müstəqil cinayət-axtarış eksperti Qanbay Qasımlıyam, bu isə polis kapitanı Cahid Nəzərli.

– Polis kapitanı olduğunu görürəm, – kişi kinayə ilə qımışdı.

– Xahiş edirəm, siz də özünüzü təqdim edin.

Scanned by CamScanner

– Adım Firdovsidir... – ev sahibi ciddiləşdi. – Mənə hərdən Topal Firdovsi də deyirlər. Qarabağ savaşında şikəst olmuşam. Bilmək olarmı cinayət axtaranların mənim mənzilimdə nə işi var?

Təmkinini zərrə qədər də pozmayan Qasımlı Hafizə müəllimənin fotosunu cibindən çıxarıb kişiyə göstərdi:

– Bu gün səhər saat 08:30 radələrində bu qadın sizin balkonun qarşısındakı marketə girərək ərzaq alıb. Bu zaman küçədə dayanmış şübhəli bir nəfər onun oradan çıxmasını gözləyirmiş. Sizin öz balkonunuzda oturaraq ətrafı seyr etdiyinizi görəndə düşündük ki, həmin adam diqqətinizi cəlb edə bilər. Sizi buna görə narahat etdik...

– Səhv düşünmüsünüz, – Firdovsi narazı səslə mızıldandı. – Mən heç kəsi görməmişəm. Nə bu qadını, nə də onu güdən hansısa avaranı...

– Necə ola bilər ki, görməyəsiniz? – Cahid sözə qarışdı.

Ev sahibi dönüb onu kinayə ilə süzdü:

– Ola bilər, kapitan. Çünki dediyiniz saatda mən balkonda olmamışam. Hər halda, mənim bütün ömrüm orada keçmir.

Onun sözlərində məntiq vardı. Doğrudan da, həmin vaxt balkonda olmaya bilərdi. Qasımlı bir daha divardakı tabloya nəzər salıb icazə alaraq balkona çıxdı. Burada bir stul və üzərində çay termosu, siqaret, külqabı, stəkan-nəlbəki olan balaca kətildən başqa heç nə yox idi.

Scanned by CamScanner

Qarşıdakı bina o qədər yaxın görünürdü ki, sanki əlini uzatsaydın, toxuna bilərdin. Marketin qapısı da, ora girib-çıxan adamlar da... Hafizə müəllimə marketə daxil olanda onu güdən adam istər küçənin o tayında, istərsə də bu tayında dayansaydı, buradan mütləq görünməli idi.

Lakin indi Qasımlını maraqlandıran bu da deyildi. Qarşı binaya nəzər salaraq indicə divardakı tabloda gördüyü balkonu axtarırdı. Və onu çətinlik çəkmədən tapdı. Budur, onunla üzbəüz, üçüncü mərtəbədə olan balkon... Tabloda təsvir olunduğu kimi, sıra ilə düzülmüş beş kiçik gül dibçəyi... Bir neçə başqa balkonda da gül dibçəkləri vardı, lakin xəfiyyə qəti əmin oldu ki, tabloda məhz bu balkon təsvir olunub.

Mənzilə nəzər salan Qasımlı Firdovsinin özünün rəssam olmadığına əmin idi. Belə görünürdü ki, o, buradan həmin qadının fotosunu çəkərək hansısa rəssama verib və rəssam da bu rəsmi işləyib.

Bu an Qasımlının baxdığı balkona əynində qırmızı güllü xalat olan bir qadın çıxdı. Cazibədar bədən quruluşu hər kəsdə xoş hisslər oyada biləcək orta yaşlı bu qadın hər iki əli ilə uzun, hamar saçlarını geriyə doğru daraqlayanda birdən ona baxan Qasımlını gördü və dərhal dönüb otağa girdi. Sanki bu balkonda gözləmədiyi biri ilə rastlaşması onu qorxutmuşdu.

Boynunun arxasında ilıq nəfəs duyan Qasımlı geri çevriləndə mənzil sahibinin geniş açılmış iri

Scanned by CamScanner

gözlərinin birbaşa həmin balkona zilləndiyini gördü. Bu gözlərdəki dərin həsrətlə mənzilin divarındakı portret artıq təcrübəli cinayət-axtarış ekspertinə çox şey deyirdi. Məlum məsələdir, Firdovsi adlı bu kişi o qadına vurulmuşdu və gününün çoxunu da balkonda bu səbəbdən keçirirmiş.

Yenə həmin balkona baxan Qasımlı baxışlarını aşağı endirəndə marketin qarşısında bir polis avtomobilinin dayandığını gördü. İki polis əməkdaşı yerə enib ətrafı nəzərdən keçirəndən sonra marketə daxil oldular. Hər ikisinin yerişi ağırçəkili güləşçilərin yerişinə bənzəyirdi. Onları otağın qapısından küçəyə tərəf boylanan Cahid də görmüşdü.

–Tanıya bildin? – Qasımlı ona müraciətlə soruşdu.

– Bizim rayondan deyillər, – Cahid dedi, – amma birini tanıdım. Bu rayonun polis şöbəsində müstəntiqdir.

Hafizə müəllimə Bakının Binəqədi rayonunda yaşayırdı. Cahid də o rayonun polis şöbəsinə tabe idi. Qarşıdakı bu ərazi isə Yasamal və Nəsimi rayonlarının sərhədində idi. Bu rayonların müstəntiqləri marketə Hafizənin qətlinə görə gələ bilməzdilər. Lakin polis zabitlərinin içəri girməzdən əvvəl diqqətlə ətrafa boylanmaları göstərirdi ki, onlar marketə heç də alışveriş üçün gəlməyiblər. Bu, Qasımlını maraqlandırdı.

– Biz yenə marketə qayıtmalı olacağıq, – deyib balkondan otağa keçdi.

Ev sahibindən onu narahat etdikləri üçün üzr istəyib mənzili tərk etdilər.

Scanned by CamScanner

Marketə yeni gəlmiş polis əməkdaşları da buradakı nəzarət kamerasının qeydlərinə baxırdılar. Lakin Qasımlıdan fərqli olaraq bugünkü yox, dünən səhərki qeydlərə.

Natiq adlı müstəntiq əvvəlcə Cahidlə mehribancasına görüşdü, sonra tanımadığı Qasımlıya əl uzatdı. O, polisdə yeni işə başlayanda bir müddət Cahidlə bir yerdə işləmişdi.

– Marketə nə əcəb gəlmisiniz? – Cahid soruşdu.

– Bura bizim ərazidir, – köhnə tanışı gülümsədi. – Hələ de görüm, sən buralarda nə gəzirsən?!

Cahid Hafizə müəllimənin qətli barədə bildiklərini qısaca danışanda müstəntiq təəccübləndi:

– Təsadüfə baxın, bu məhəllədə yaşayan Behbud adlı kişini dünən səhər saatlarında yaşadığı evin blokunda bıçaqlayaraq öldürüblər. Biz öyrəndik ki, mərhum ölümündən azacıq əvvəl bu marketdən çörək alıb. Elə ona görə də kamera qeydlərinə baxırıq ki, bəlkə nəsə maraqlı bir şey tapa bilək.

Qasımlı ilə Cahid də onlarla bir yerdə nəzarət kamerasının dünənki qeydlərinə baxdılar. 70 yaşlarında olan Behbud adlı kişi marketə saat 08:20-də daxil olmuşdu. Həmin an marketin qapısından girmək üzrə olan bir gənc oğlan Behbud kişini görəndə çəkilib onu hörmətlə qabağa vermiş, özü onun ardınca içəri girmişdi.

Qoca yalnız bir çörək alıb çıxmışdı. Həmin oğlan isə marketdə azı beş dəqiqə yubanmışdı. Deməli, onun Behbud kişini izləməsini düşünmək yersiz olardı.

Scanned by CamScanner

– Natiq, sənin fikrincə, bu qətllərdəki oxşarlıqlar təsadüfdür? – Cahid müstəntiqdən soruşdu.

Müstəntiq indi tərəddüdlə çiynini çəkdi:

– Həyatda o qədər təsadüflər görmüşəm ki... Ancaq burada oxşarlıqlar çoxdur. Hər ikisi bu marketdən çıxıb evinə gedərkən blokda öldürülüb. İkisi də bıçaqla...

Qasımlı heç nə demədən küçəyə çıxdı. Topal Firdovsi yenə də bayaqkı yerində oturmuşdu. Yəqin qırmızı xalatlı o gözəl xanımın balkonuna baxırdı. Ancaq Qasımlını görən kimi onu üstdən aşağı gözaltı süzməyə başladı.

Ardıcıl baş vermiş iki oxşar qətl polkovnik Qasımlını müstəntiqdən və Cahiddən az heyrətləndirməmişdi. Bir də onu heyrətləndirən heç də təsadüfün bu dərəcədə qəribəliyi deyildi. Təcrübəli cinayət-axtarış eksperti təsadüflərə o qədər də inanmırdı. Lakin əgər bu, təsadüf deyildisə, bəs nə idi? Bu məhəllənin sakini olan qoca Behbud kişinin 7-ci mikrorayonda yaşayan Hafizə müəllimə ilə nə yaxınlığı vardı? Onların qətli ilə bu kiçik marketin nə əlaqəsi ola bilərdi? Hafizə müəllimə nə günahın sahibi idi?Yaxşı, tutaq ki, onu çantasındakı pula görə qətlə yetirmişdilər. Bəs bu 70 yaşlı kişi? Marketə çörək almağa gəlibmiş. Qayıdanda evin pilləkənində bıçaqlayıblar. Yəni bu, doğrudanmı sarsaq bir təsadüf idi?Yoxsa bu marketdə elə bir sirr vardı ki...

Dönüb indicə çıxdığı marketə baxanda telefonuna zəng gəldi. Nilufər xanım idi. Evə qayıtmaq üçün Hafizəgildən çıxmış qadın ərinin maşınını həyətdə görməyəndə təəccüblənmişdi...

Scanned by CamScanner

II FƏSİL

TALEYİN QİSMƏTİ

(ALTROMAN)

Tanrı bizi hər an qarşımıza çıxan və geriyə dönüşü olmayan yeni həyat cığırlarının ən doğru olanına yönəltməyə çalışır. Biz isə bunu bəzən anlamır, bizi fəlakətə aparan yanlış cığıra düşürük.

1

Al-əlvan dibçək güllərinin bəzək verdiyi balkonda heç kəs görünmürdü. Bəlkə də buna görə indi Firdovsinin bütün diqqəti marketin önündə dayanmış Qanbay Qasımlıda idi. Bir az əvvəl özünü ona müstəqil cinayət-axtarış eksperti kimi təqdim etmiş bu adam telefonda kiminləsə danışırdı.

Onunla gəlmiş polis kapitanı da sonra marketdən çıxdı. Onlar qara rəngli "Porşe"yə minib getdilər. Polis maşınında gəlmiş iki polis zabiti isə hələ də marketdə idi...

"Porşe" gözdən itənə kimi onu kinayəli baxışları ilə ötürən Firdovsi sonra qarşısındakı balkona baxdı.

Scanned by CamScanner

Ora yenə boş idi. Diqqəti həmin balkonda olduğu halda termosdan stəkana çay süzüb içdi, ardınca bir siqaret yandırdı.

Xəyalı onu ötən əsrin 80-ci illərinə aparmışdı...

Sözə baxın: "ötən əsr..." Naşükür insan bəzən ömrün çox qısa olmasından gileylənir. Əslində isə insan ömrü kifayət qədər uzundur. Bu Topal Firdovsinin indi 53 yaşı vardı. Lakin hərdən ona elə gəlirdi ki, dünya yarananda o da bu dünyada olub və indiyədək neçə müxtəlif ömür yaşayıb. Bəli, yaşadığı o ömürlər sanki eyni insanın yox, başqa-başqa adamların ömrü imiş kimi müxtəlif ömürlər idi. Təkcə adları eyni idi o adamların: Əhəd müəllimlə Səbirənin sevimlisi olan uşaq Firdovsi, kənd məktəbinin ən çalışqan şagirdi, qəlbi gözəl arzularla coşub-daşan, kənd kitabxanasında oxumadığı bir dənə də kitab qoymayan şagird Firdovsi, universitet tələbəsi Firdovsi, sadə kənd müəllimi Firdovsi müəllim, Bakıda kəndbəkənd gəzib daş yonan, bənnalıq edən usta Firdovsi, torpaq uğrunda könüllü döyüşən qəhrəman Firdovsi, uzun illər həbsxanada məhkum həyatı yaşayan Topal Firdovsi, nəhayət, dünyada bir kimi-kimsəsi olmayan, işi-gücü balkonda oturub qarşıdakı binanı seyr etmək olan indiki qoca Firdovsi... Bu adamların yaşadıqlarının hər biri ayrı-ayrı, fərqli ömürlər deyildimi?

Lakin indi o, yaşamış olduğu ömürlərin ən yaddaqalanını – tələbəlik illərini xatırlamışdı. Hazırkı Bakı Dövlət Universiteti o zaman Sergey Mironoviç

Scanned by CamScanner

Kirov adına Azərbaycan Dövlət Universiteti adlanırdı. Əslində bu ali təhsil ocağına adı verilmiş Kirov Azərbaycanın qəddar düşmənlərindən biri olmuşdu. Xalq Cümhuriyyəti dövründə bu təhsil ocağını minbir əziyyətlə yaratmış qeyrətli ziyalıları məhv edən sovet imperiyası özünün əlaltılarından olmuş bu caninin adını universitetə verməklə kifayətlənməmiş, Bakının ən gözəl yeri olan Dağüstü Parkda, şəhərin ən hündür yerində onun böyük heykəlini ucaltmışdı.

Topal Firdovsi bütün bunları yaxşı bilir və sovetlərə nifrət edirdi. Lakin o zamankı ADU-nun tələbəsi olan gənc Firdovsi Vladimir Leninə dünyanın ən dahi insanı, yaşadığı sovetlər ölkəsinə dünyanın ən ədalətli ölkəsi kimi baxırdı.

Universitet korpuslarının arxasında, köhnə Yasamal məhəlləsi tərəfdəki yataqxanaların birində – "Riyaziyyatçıların yataqxanası" adlandırılan 2 saylı yataqxanada qalırdı. Bir otaqda dörd nəfər idilər və hərəsi bir rayondan gəlmişdi: Firdovsi Oğuzdan, Sənan Naxçıvandan, Oruc Ağsudan, Qəşəm isə Masallıdan. Dördü də mexanika-riyaziyyat fakültəsində, eyni kursda oxuyurdu. Oxuyurdular deyəndə ki, o zaman tələbələrin əksəriyyəti yalnız birinci kursda nəsə oxuyurdular. Sonra isə sadəcə, günlərini keçirir, yalnız semestr imtahanları yaxınlaşanda əlayağa düşürdülər. Mühazirələrdə verilmiş elmi məlumatları kiçik vərəqlərə çox kiçik hərflərlə köçürür, tələbələr arasında "şparqalka" adı ilə məşhur olan bu vərəqləri ciblərinə doldurub imtahana girirdilər.

Scanned by CamScanner

İmtahan zamanı müəllimin və assistentin gözündən oğurlanaraq "şparqalka"lardan istifadə etmək bacarığı tələbələr arasında əsl məharət hesab olunurdu. Bu baxımdan, oxumaqla arası olmayan bəzi qızların imkanı daha böyük idi. Onlar qeydlər yazılmış vərəqləri yubkalarının altından, dizdən azacıq yuxarı budlarına bağlayır, imtahan zamanı onlardan daha rahat istifadə edirdilər. Hətta bəzi çətin düsturları qələmlə birbaşa budlarına yazanlar da olurdu. Hansı müəllim, hətta şübhələnsə belə, auditoriyada yaxınlaşıb qızın yubkasını qaldıra bilərdi? Əlbəttə, heç kim!

Firdovsi fakültədə azsaylı tələbələrdən biri idi ki, "şparqalka"dan istifadə etmirdi. Yəni edə bilmirdi və etmək də istəmirdi. Birinci kursda mühazirə materiallarını dönə-dönə oxuyub imtahana girir, halal "yaxşı" və ya uzaqbaşı "kafi" qiymətini alırdı. İkinci kursdan isə fakültənin ictimai işlərində fəallıq göstərməyə başladı, bununla əlaqədar mühazirələrə vaxtaşırı girə bilmədi və dekanlıq onu imtahanlarda "tapşırmağa" başladı.

Hə, bu "tapşırıq" və onunla birbaşa əlaqəsi olan "dayı" sözü də "şparqalka" kimi universitet tələbələrinin işlətdiyi əsas terminlərdən idi. Hər bir tələbənin mütləq bir "dayı"sı olmalı idi ki, semestr imtahanlarında onu imtahan götürən müəllimə tapşırsın. Firdovsi bu baxımdan da seçilirdi. Yəni onun şəxsi "dayı"sı yox idi və fakültənin dekan müavini onu yalnız dekanlığın fəal köməkçisi olduğu üçün tapşırırdı.

Scanned by CamScanner

Tək-tək müəllimlər istisna olmaqla, əksər imtahan götürən müəllimin "məxfi" cib dəftərçəsi olurdu. Burada imtahan verəcək tələbələrin qrup-qrup siyahısı yazılır, hər tələbənin qarşısında onu tapşıran müəllimin adı qeyd olunurdu. Yəni imtahan zamanı bilsin ki, filankəsi peşmənkəs tapşırıb.

Bir çox başqa ali məktəblərdən fərqli olaraq bu universitetdə semestr imtahanları zamanı tələbədən pul alınmırdı. Müəllimlər bunu öz qürurlarına sığışdırmırdılar. Çünki onsuz da hər tələbənin atası universitetə qəbul imtahanları zamanı bir "dayı" taparaq ona külli miqdarda pul verirdi. Daha semestr imtahanlarında xırdaçılığa ehtiyac qalmırdı. Yalnız "tapşırıq", vəssalam! Ya gecəni gündüzə qatıb oxuyaraq "üç"dən, "dörd"dən nəsə al, ya da tapşırtdır, rahatca qiymətini al. Elə-belə müəllim tapşırsa – "kafi", nüfuzlu biri tapşırsa – "yaxşı", lap nüfuzlusu tapşırsa – "əla"... Bəzi ali məktəblərdə isə bu qiymətlər verdiyin pulun məbləği ilə müəyyən edilirdi.

Bu rüşvət məsələsi o zaman da gündəmdə idi. Ona qarşı istər ölkə rəhbərliyi, istər mətbuat və ictimaiyyət tərəfindən müəyyən mübarizə aparılsa da, bunun elə bir nəzərəçarpacaq əhəmiyyəti olmurdu. Firdovsinin yaxşı yadında idi, o zamanlar xalq arasında belə bir fikir formalaşmışdı ki, rüşvət azərbaycanlıların guya qanındadır və bunu çıxarmaq mümkün deyil. Guya bu millət nə yaxşı ki, rusun tabeliyi altındadır, nə yaxşı ki, başı üstündə Moskva varmış... Hətta belə bir gicbəsər fikir də vardı ki,

Scanned by CamScanner

bütövlükdə rüşvətdən uzaq olan rusları da bu çirkin əmələ azərbaycanlılar alışdırır.

Firdovsi yalnız çox sonralar əsl həqiqəti öyrənə bildi. Anladı ki, əvvəlcə çar Rusiyasının, daha sonra isə sovetlərin Azərbaycana vurduğu saysız-hesabsız yaralardan biri də bu təmiz, saf əqidəli xalqı rüşvətə alışdırması imiş. Azərbaycan Rusiyanın bir əyaləti olarkən yerlərdə hakim mövqe tutan rus qubernatorlar, pristavlar, onların işçiləri rüşvətsiz heç bir iş görmürmüş.

Bu, bir qorxunc siyasət idi ki, rus imperiyası döyüşkən keçmişi olan Azərbaycan türklərini hərbi xidmətə çağırmırdı. Düşünürdü ki, qoy bunların gəncləri tüfəng atmağı bacarmasınlar. Lakin bu məkrli siyasəti yerlərdə necə həyata keçirirdilər? Rüşvət ver, oğlunu əsgər aparmayaq. Bax, bu xalqı rüşvətə belə alışdırmışdılar iki yüz il boyu. Və elə alışdırmışdılar ki, indiyə kimi canından çıxmırdı...

Hə... O illər universitetin mexanika-riyaziyyat fakültəsində güclü riyaziyyatçı-alimlər vardı. İnsafla deyəndə riyaziyyat az qala dünya səviyyəsində öyrədilirdi. Lakin burada "Sov.İKP tarixi", "Siyasi iqtisad", "Dialektik materializm", "Tarixi materializm", "Elmi kommunizm" kimi bəzi fənlər də tədris olunurdu ki, bunların sabah müstəqil həyata atılacaq bir gəncə beş qəpiklik xeyri yox idi. Tələbələr bu mühazirələrdə müəllimi dinləmədən mürgüləyir, heç nə oxumurdular. Altı ay sonra isə semestr imtahanında özünü müəllimə tapşırtdıraraq,

Scanned by CamScanner

imtahan zamanı bəxtinə düşən bilet sualından "abır-həya" xatirinə bir-iki kəlmə demək üçün "şparqalka" hazırlayırdılar.

Firdovsinin belə fənlərdən "verdiyi" imtahanlardan biri heç yadından çıxmırdı. Siyasi iqtisaddan mühazirələrə girməmiş, bircə sətir də oxumamışdı. Semestr imtahanı gəlib çatanda dekan müavininə xatırlatdı ki, onu tapşırmaq lazımdır.

Müəllim ilk olaraq dörd tələbəni otağa salıb bilet çəkdirdi, cavabları qeyd etmək üçün ağ vərəqlər verdi. Hazırlaşmağa 15-20 dəqiqə vaxt ayrılırdı. Bu müddət bitəndə həmin tələbələr bir-bir gəlib masanın arxasında müəllimlə üzbəüz oturur, "şparqalka"dan köçürdükləri qeydlərə baxaraq danışırdılar. Sonra müəllim daha bir neçə şifahi sual verib tələbənin "biliyini" qiymətləndirirdi. Firdovsidən başqa qrup yoldaşlarının demək olar ki, hamısı tapşırılmışdı. Dekan müavini isə hələ də gəlib çıxmaq bilmirdi. Nəhayət, əlifba sırası ilə növbə onun adına çatdı. Qrup nümayəndəsi onu otağa çağırdı. Firdovsi narahat halda içəri daxil olub müəllimin masası üstünə tökülmüş biletlərdən birini çəkdi. Müəllim ona acıqlı nəzərlərlə baxırdı. Məlum məsələdir, nə mühazirələrdə iştirak etmişdi, nə də özünü tapşırtdırmamışdı.

– Mühazirələrimə də gəlməmisən, – dedi, – keç hazırlaş görüm nə cavab verəcəksən! Bu başdan deyirəm, hər iki suala tam düzgün cavab verməsən, sənə "qeyri-kafi" yazacam!

Scanned by CamScanner

Firdovsi keçib parta arxasında oturdu. Otaqda ondan başqa üç qız vardı. Onlar həyəcanla çəkdikləri biletlərin suallarını axtarırdılar. Əlbəttə, beyinlərindən yox, ciblərindən və başqa gizli yerlərdən. Firdovsinin isə heç nəyi yox idi. Bəxtinə düşmüş suallara nəzər saldı. İki sualın hər biri təxminən on sözdən ibarət cümlə idi ki, bu sözlərin heç birindən anladığı nəsə yox idi. Tək birinci sualdakı "ticarət" sözü istisna olmaqla. Əslində onun ticarət deyilən şeydən anlayışı olmasa da, hər halda, bilirdi ki, ticarət alver deməkdir. Yəni nəyisə pul ver al, nəyisə sat, pul qazan...

Elə ürəyində dekan müavininin qarasınca deyinirdi ki, birdən qapı açıldı və o, içəri girdi. Müəllim onu hörmətlə qarşıladı. Ayağa qalxmaq istəyəndə dekan müavini buna imkan vermədi. Özü bir qədər aşağı əyilib sol əlini müəllimin sol çiyninə qoydu. Sağ əlini isə onun qarşısındakı iri vərəqə uzadaraq barmağını vərəqdə gəzdirdi. Sonra həmin barmağını lap yəqin Firdovsinin adı üzərində saxlayaraq müəllimin qulağına nəsə dedi. Yalnız bircə kəlmə dedi, gülümsədi, müəllimi də gülümsəməyə vadar etdi və başını qaldırıb Firdovsiyə gizlincə göz vuraraq otaqdan çıxdı.

Bir azdan müəllim onu qarşısına dəvət etdi:

– Ay bala, gəl görüm necə hazırlaşmısan...

Firdovsi vərəqə heç nə qeyd etməmişdi. Qalxıb masaya yaxınlaşdı, müəllimlə üzbəsurət oturdu. Müəllim:

Scanned by CamScanner

– Buyur, birinci sual barədə danış, – deyə ucadan səsləndi və partalarda əyləşmiş digər üç tələbəni gözaltı süzdü.

Bədbəxt Firdovsi nə danışsın, heç nə bilmirdi axı...

– Danış, danış, çəkinmə! – müəllim onu ruhlandırmaq istədi.

Dəqiqələr keçirdi. Müəllim baxışları digər tələbələrdə olduğu halda ondan nəsə gözləyirdi. Firdovsi isə gözlərini əlindəki biletin birinci sualına zilləmişdi. Çətin terminlər, anlaşılmaz ifadələr... Birdən "ticarət" sözü yenidən gözünə sataşdı. Təxəyyülünü işə salaraq astadan danışmağa başladı:

– Qədim zamanlarda Azərbaycanda ticarət güclü inkişaf etmişdi. Tacirlər malları dəvələrə yükləyib satmaq üçün uzaq ölkələrə aparırdılar. Onları orada satıb çoxlu pul qazanırdılar...

Bunu deyib dayandı. Çünki deyə biləcəkləri qurtarmışdı. Bir anlıq gözlədi ki, müəllim bu saat onu söyərək otaqdan qovacaq. Lakin müəllimin gözü hələ də arxada oturmuş digər tələbələrdə idi. Baxırdı ki, onlar öz işləri ilə məşğul olsunlar və Firdovsini dinləmək fikrinə düşməsinlər. Birdən baxışlarını bir anlıq ona çevirib yenə ucadan səsləndi:

– Aha... Buyur, davam elə...

Dekan müavininin tapşırığından sonra ona normal bir qiymət yazmaq qərarına gəlmiş bu müəllim əgər bilsəydi ki, qarşısındakı tələbənin sözü qurtarıb, yəqin ki, belə deməzdi. Lakin artıq demişdi. Firdovsi yenidən beynini zorlayıb nəsə tapdı və əvvəlki asta səslə mızıldanmağa başladı:

Scanned by CamScanner

– Tacirlər getdikləri o uzaq ölkələrdə mallarını satıb pul qazanandan sonra həmin pula başqa mallar alıb geri qayıdır, onları öz ölkələrində satıb pul qazanırdılar...

Yenə susdu. Və nə yaxşı ki, müəllim bu dəfə "davam elə" demədi. Çünki davam eləməli heç bir şey qalmamışdı. Artıq "tacirlər öz evlərinə qayıtmışdılar"...

– Aha... – müəllim razılıqla dilləndi. – Yaxşı, keç ikinci suala!

İkinci sualdan bir kəlmə belə danışa bilməyəcəyini anlayan Firdovsi guya utanırmış kimi əzilib-büzüldü:

– Müəllim, doğrusu, ikinci sualı o qədər də yaxşı bilmirəm.

Sanki birinci sualı elə yüksək səviyyədə cavablandırmışdı ki... Bu artıq tələbə həyasızlığının ən yüksək həddi idi və müəllim bu dəfə onu hökmən otaqdan qovmalı idi. Ancaq o, yenə bunu etmədi. Bir gözü digər tələbələrdə olduğu halda:

– Yaxşı, – dedi, – onda sənə "dörd" yazıram. Gedə bilərsən...

Hə... Universitet illəri belə maraqlı əhvalatlarla yadında qalmışdı. Hələ daha yaddaqalan yataqxana macəraları vardı...

Ötüb keçən uzun illər ərzində yataqxanadakı otaq yoldaşlarının heç biri ilə əlaqəsi yox idi. Lakin hərdən onları xatırlamışdı. Ən çox da qumarbaz Qəşəmi. Universitetə bir qədər gec – əsgəri xidmətdən sonra qəbul olunmuş bu oğlan yaşca onlardan böyük

Scanned by CamScanner

idi. Tanrı ona qeyri-adi bir istedad vermişdi. Əgər o, bu istedadını riyaziyyata sərf etsəydi, indi yəqin ki, ölkənin ən məşhur alimlərindən olardı. Ancaq o, istedadını qumara yönəltmişdi. 36 kartı gözünün qarşısında inanılmaz sürətlə qarışdırıb nəticədə öz istədiyi kartları elə çıxarırdı ki, bunu necə etdiyini heç cür anlamaq olmurdu. Bir sözlə, qeyri-adi bacarığa malik qumarbaz idi bu adam.

Çeçələ barmağının dırnağını xüsusi olaraq uzatmışdı. Bu da qumar fırıldaqlarında onun əməlli-başlı işinə yarayırdı. Kartları öz məqsədinə uyğun qarışdırandan sonra kart dəstini rəqiblərdən birinə uzadıb "kəs" demək lazım idi. Və rəqib də barmağı ilə dəstdəki kartların bir qismini geri itələyirdi ki, kartları qarışdırmış adam həmin qismi üstdən götürüb alta qoysun, beləliklə, əgər öz xeyrinə hiylə işlədibsə, kartların düzümü pozulsun. Firdovsi də çeçələ barmağının dırnağını bu məqsədlə uzatmışdı və o dırnağını heç vaxt kəsmirdi. Kartı qarışdırıb öz istədiyi konfiqurasiyanı yaradandan sonra rəqiblərin diqqətini cəlb etmədən onların bir qismini altdan götürüb üstə qoyur, çeçələ barmağının uzun dırnağını bu iki qatın arasına salırdı. Beləliklə, rəqib kartların bir qismini ayırmaq məqsədilə onları geri itələyəndə məhz Firdovsinin nəzərdə tutduğu qat geri sürüşürdü. Əlbəttə, kartların arasına girmiş uzun dırnağın köməyi ilə...

O, bəzən axşamlar harasa gedib bir də səhər qayıdırdı. Bir dəfə içkili olanda etiraf etmişdi ki, axşamlar qumar oynamağa gedir. Hansısa naməlum

Scanned by CamScanner

adamlar bahalı avtomobillə gəlib Qəşəmi aparırdılar. Gizli bir yerdə, hansısa kafenin gizli otağında onu qumar masası arxasında otuzdurub özləri arxasında dayanırlarmış ki, Qəşəm qarşısındakıları "qaz kimi yolsun". Qəşəm deyirdi ki, onu aparıb oynadan adamların tapançası da varmış. O, hər dəfə rəqiblərinin bütün pullarını udub həmin adamlara verir, onlar da bunun cibinə "qəpik-quruş" qoyaraq yataqxanaya qaytarırmış.

Sənan onun qumar oynamasının qəti əleyhinə idi. Oruc yalnız bunu deyirdi ki, otağı qumarxanaya çevirməsin. Yəni oynayırsa, başqa yerdə oynasın. Firdovsi isə onun kartları neçə ustalıqla qarışdırdığını görəndə həvəslənirdi və bir gün xahiş etdi ki, bunu ona da öyrətsin. Qəşəm həvəslə razılaşdı.

Ondan sonra artıq Firdovsi yataqxanadakı boş vaxtlarını yalnız kartlarla keçirir, Qəşəmdən öyrəndiyi mürəkkəb "düsturları" əzbərləyərək durmadan kart qarışdırırdı...

2

Firdovsi Bakıya o vaxt Vartaşen adlanan Oğuz rayonundan gəlmişdi. Kənddə yaşayırdılar. Atası Əhəd kənd məktəbində ədəbiyyatdan dərs deyirdi. Anası Səbirə evdar qadın idi. Bir ildən çox idi ayaqları tutulmuş, normal yeriyə bilmədiyi üçün

Scanned by CamScanner

yorğan-döşəyə möhtac olmuşdu. Bacısı Nazlı Şəkidəki tibb məktəbində oxuyurdu. Qız gözəl olduğu üçün istəyəni çox idi. Ancaq deyəsən, könlünü hələ heç kəsə verməmişdi. Fikri yalnız təhsilində, bir də xəstə anasına qulluq etməkdə idi.

Firdovsi Nazlının xətrini çox istəyirdi. Bakıda olanda onun üçün darıxırdı və hər dəfə kəndə gedəndə çalışırdı ki, ona nəsə alıb aparsın. Ən azı baş sancağından-filandan.

Özünün də hələ ki sevdiyi qız yox idi. İctimai işlərdə fəal iştirakına görə onu bütün fakültə tanıyır, tənəffüs zamanı dəhlizdə rastlaşdığı qızların çoxu onunla salamlaşırdı. Ucaboy və yaraşıqlı olduğu üçün ona yaxınlaşmaq istəyənlər də az olmurdu. Lakin Firdovsi bu qızların heç birinə xüsusi nəzərlə baxmırdı. Bəlkə də bu onların çoxluğundan idi. Gündə o qədər qız görür, o qədər qızdan xoş söz eşidirdi ki, onların arasından kimisə seçib ona üstünlük verməkdə çətinlik çəkirdi.

Anası isə onu evlənməyə tələsdirirdi. Deyirdi ki, ömrünün sonuna bir şey qalmayıb, sağ ikən oğul toyu görmək, gəlininin kim olacağını bilmək istəyir. Elə bir həftə bundan əvvəl yolu Bakıya düşmüş Əhəd müəllim də oğluna cibxərcliyi vermək üçün universitetə gələndə bu məsələyə toxundu. Dedi ki, ananın arzusunu ürəyində qoyma, bir qız tap, sizi nişanlayaq, anan da gəlinini görsün.

Firdovsi anasının gəlini olacaq o qızı necə tapmalı idi? Məgər bu asan iş idi? Atası həmişə nəsihətlərində

Scanned by CamScanner

deyirdi ki, özünə həyat yoldaşı seçmək insanın həyatında verdiyi ən çətin və ən vacib imtahandır. Deyirdi, universitet imtahanlarına nə var axı, kəsilərsən, gələn il yenidən gedib imtahan verərsən. Yenə kəsilərsən, uzaqbaşı gedib fəhlə işləyərsən. Hamının ali təhsilli olması vacib deyil ki... Lakin həyat yoldaşı seçmək imtahanı tamam başqadır. Ömrünün sonuna kimi sənlə bir evdə yaşayacaq birini seçməlisən. O, sənlə bir evin içində yaşayacaq, bir qazandan xörək yeyəcək, sənlə eyni yataqda yatacaq.

Bəli, qız tapıb evlənmək sözdə asan görünə bilərdi, amma əslində çox böyük problem idi. Bax, Sənan, Oruc və Qəşəm yataqxanada otaq yoldaşı kimi onun bəxtinə düşmüşdülər. Yəni bir-birilərini bəyənib bir otaq tutmuşdular. Artıq üç ilə yaxın idi ki, bir otaqda qalırdılar. Bu üç ildə bir-birilərini daha yaxından tanıdıqları üçün, xarakterlərindəki fərqə görə aralarında indidən narazılıqlar yaranmağa başlamışdı. Məsələn, Qəşəm gecənin bir aləmində qumardan gəlib qapını taqqıldadır, onların yuxusuna haram qatırdı. Sənan gecə dərslərini hazırlayanda yatağa yoldaşlarından gec girirdi və Oruc hər dəfə narazılığını bildirirdi ki, işığı söndür, düş birinci mərtəbədəki "qırmızı guşə" otağında oxu dərsini. Oruc özü isə yatanda xoruldayıb Sənanı və Firdovsini dəli eləyirdi və sair.

Dörd gənc oğlan bir otaqda üç ilə yaxın güclə dözüb yaşamışdılar. İndi isə o, hansısa bir qızla ailə qurub ömrü boyu bir yerdə yaşamalı idi. Düzdür,

Scanned by CamScanner

qız başqa, oğlan başqa, amma yenə söhbət iki insanın birgə yaşayışından gedirdisə, Firdovsinin fikrincə, bu, çox çətin bir məsələ idi.

İş hələ bununla da bitmirdi ki... Özünə həyat yoldaşı seçməklə gələcəkdə övladlarının necə insan olacaqlarını indidən müəyyənləşdirmiş olursan. Firdovsi hələ çox gənc olsa da özünə görə həyat müşahidələri vardı. Atasının böyük qardaşı, Kazım əmisi bütün kənddə hamı tərəfindən hörmət qoyulan bir kişi idi. Mərd, əliaçıq, düzgün, ədalətli bir ağsaqqal kimi tanınırdı. Ancaq onun arvadı qonşu kəndin çox aşağı səviyyəli bir nəslindən idi. Bu nəslin nümayəndələri oğru, aravuran, sözgəzdirən kimi ad çıxarmışdı. Xalq deyimi ilə ifadə etsək, "sümüyünü it sümüyünə calamış" əmisinin dörd oğlu, bir qızı vardı, uşaqların beşi də xasiyyətdə ana tərəfə çəkmişdi. Firdovsi əmisini nə qədər çox sevsə də, onun övladlarından zəhləsi gedirdi. Əqidəsi, düşüncəsi onlarla heç cür uyğun gəlmirdi və təəssüf hissi ilə düşünürdü ki, əmisi öləndən sonra onun ailəsi Firdovsiyə tamamilə yad olacaq.

Bəli, "qız tap evlən" demək dildə asan idi, lakin Firdovsi bu barədə düşünəndə qayğısız tələbə həyatına ciddi bir problem qarışırdı – taleyinin qismətini arayıb tapmaq problemi...

Özünə qalsaydı, hələlik evlənmək barədə heç düşünmək də istəməzdi. Gələcəyi üçün gözəl planları vardı. Universiteti bitirəndən sonra aspiranturaya qəbul olunmaq, burada qalıb gələcəkdə ölkənin

Scanned by CamScanner

tanınmış riyaziyyatçılarından olmaq istəyirdi. Dissertasiya müdafiə edib alimlik dərəcəsi alandan sonra evlənmək barədə də düşünə bilərdi.

Qəşəm də qızlarla bir o qədər maraqlanan deyildi. Xarici görkəmi də elə idi ki, heç qızlar da onunla maraqlanmırdılar. Bədəninə görə iri başı, yaşına yaraşmayan qalın bığları onu yaşlı və bir qədər məzəli göstərirdi.

Yoldaşları arasında qız-qadın düşkünü olan əsas Oruc idi. Tənəffüs zamanı qızlara tamaşa etmək üçün koridorlarda it kimi sülənirdi. Daha çox da gözəl qızları ilə məşhur olan biologiya fakültəsinə gedirdi. Lakin boyunun xeyli balaca, burnunun isə uzun olması onu hansısa qıza yaxınlaşıb uğur əldə etmək imkanından məhrum etmişdi.

Bir gün xəbər tutdular ki, sən demə, bu əclaf şəhərin harasındasa gizli fəaliyyət göstərən fahişəxanaya gedib-gəlirmiş. Bunu eşidəndə Firdovsi qəzəblənib Oruca ağzına gələni dedi, üstəlik, sifətinə bir sillə də vurdu. Çünki onun yoxsul bir ailədən olduğunu bilirdi. Bilirdi ki, ata-anası beş qızdan sonra tapdıqları bu vecsiz oğullarının oxuyub təhsil alması üçün gecə-gündüz işləyib dəridən-qabıqdan çıxırlar. Beş bacısının beşi də pambıqçı idi, qızmar günün altında pambıq yığıb qazanclarını Oruca göndərirdilər. Bu qeyrətsiz isə həmin pulları ucuz fahişələrə xərcləyirmiş.

Firdovsi öyrəndi ki, Orucun getdiyi həmin fahişəxanada əsasən el arasında "xalaşka" deyilən orta

Scanned by CamScanner

yaşlı qadınlar "fəaliyyət göstərir", qiymətləri də özlərinə uyğun olaraq ucuzdur. Bir saatı üç, ya da beş manata...

Firdovsi Orucu heç cür anlaya bilmirdi. Axı adam tanımadığı, ilk dəfə gördüyü bir qadınla necə əlaqədə ola bilər? Onunla yaxından tanış olmadan, az da olsa doğmalaşmadan, onun qəlbinin istisini öz qəlbində hiss etmədən...

Bu o zamankı gənc Firdovsinin düşüncəsi idi. Bu düşüncə sonralar bir qədər dəyişdi və o, belələrini müəyyən qədər anlamağa başladı. Bildi ki, əgər içində sevgi yoxdursa, tanış olduğun qadını dərindən öyrəndikcə, o, sənin gözündə adiləşir, nöqsanları bir-bir ortaya çıxır və intim əlaqə zamanı artıq sənə kifayət qədər zövq vermir. Lakin ilk dəfə gördüyün fahişə zahirən xoşuna gəlibsə, öz işvə-nazı ilə səni yoldan çıxarır və gözündə az qala ideal görünməyə başlayır. Sənə elə gəlir ki, o, tanıdıqlarının hamısından yaxşıdır, onlarda olan nöqsanlar bunda yoxdur və sair...

Oruc sifətinə dəyən silləyə görə Firdovsiyə heç nə demədi və deyə də bilməzdi. Firdovsi ikinci zərbəni vurmaq istəyəndə Sənan qalxıb araya girdi, onu sakitləşdirdi. Sonra özü də Orucu xeyli məzəmmət elədi. Məsələ bununla da yekunlaşdı.

Otaq yoldaşlarından təkcə Sənanın istədiyi Güləsər adlı bir qız vardı və bu da Firdovsinin fikrincə, ağlabatmaz sevdaya bənzəyirdi.

Qruplarında Neftçaladan Yaqut adlı bir qız oxuyurdu. Fikrini əsasən dərslərinə verən ağıllı, bir

Scanned by CamScanner

qədər də ciddi xarakterli qız idi. Oğlanlarla işi olmazdı. Firdovsi qrup yoldaşı olduqları bu üç ildə onunla beş dəfə kəlmə kəsib danışmamışdı.

Tənəffüslərdə Yaqutun yanına biofakın birinci kursunda oxuyan çox gözəl bir qız gəlirdi. Qız o qədər cazibədar, eyni zamanda o qədər istiqanlı idi ki, bir azdan bütün qrup uşaqları onu tanıdı. Bildilər ki, Güləsər adlı bu qız Yaqutun yerlisidir, hər ikisi Bakıya Neftçaladan gəliblər.

Güləsər tələbə qızların əksəriyyətindən seçilirdi. Firdovsiyə elə gəlirdi ki, onun işi-gücü yalnız özünə baxmaq, bəzənib-düzənməkdir. Saçlarını xüsusi zövqlə darayır, kosmetikadan istifadə edirdi. Özünəməxsus incə bir hərəkəti vardı. Danışanda tez-tez başını nazla yana atır, bu zaman üzünə tökülən hamar saçları dalğalanaraq arxaya çəkilirdi.

Uzunsov badamı gözlərinin rəngi də az rast gəlinən qeyri-adi rənglərdən idi – açıq səma rəngində. Bu rəngdən olan gözlər baxanları istər-istəməz içinə çəkir, sonsuz bir boşluğa aparırdı.

Çox vaxt göy rəngli cins şalvar geyinirdi ki, bu da onun cəzbedici əndamını formaca açıq-aşkar nəzərə çarpdırırdı.

Cins parçadan olan yubka və şalvarlar o vaxt Bakıda yenicə dəbə minirdi və bir çox yerli qızlar Amerikanın dünyaya yaydığı belə geyimlər üçün sinov gedirdilər. Firdovsigilin universitetində təhsil alan afrikalı ərəb tələbələr bunu bildiyi üçün özləri ilə Bakıya cins yubkalar, şalvarlar gətirib baha

Scanned by CamScanner

qiymətə satırdılar. Hətta bir dəfə Qəşəm cins yubkalı bir qızı göstərib dedi ki, bu qız zəncilərin yataqxanasına gedib-gəlir, orada bir zənci tələbə ilə cinsi əlaqədə olur və yubkanı da buna o bağışlayıb. Firdovsinin ərəblərdən o vaxtdan zəhləsi gedirdi. İndi, üstündən 30-35 il keçəndən sonra, Bakıya axışan ərəb turistləri barədə elə iyrənc şeylər eşitmişdi ki, onlara olan nifrəti bir az da artmışdı.

Güləsər Firdovsigilin fakültəsinə gələndə hamıdan həm də ona görə seçilirdi ki, mexmatın, yəni mexanika-riyaziyyat fakültəsinin kasıb qızlarının heç biri onun kimi geyinmirdi və geyinə də bilməzdilər. Bəli, Firdovsinin oxuduğu mexmat öz elmi mövqeyinə və əhəmiyyətinə görə universitetin fakültələri siyahısında birinci idisə və bu səbəbdən adı həmişə siyahının başında yazılırdısa, digər siyahıda, yəni hüquq və tarix fakültələrinin başda olduğu "varlı fakültələr" siyahısında ən sonuncu idi. Çünki riyaziyyat hər nə qədər "elmlərin şahı" adlansa da, sovet cəmiyyətində bu "şah"ın yaxşı pul qazanmaq imkanı az qala heçə endirilmişdi.

Bir gün dərsdən çıxıb yataqxanaya qayıdanda Sənan yoldaşlarına xüsusi bir həyəcanla xəbər verdi ki, bu gün universitetdə tənəffüs zamanı Güləsər şəxsən onu danışdırıb. Guya ona yaxınlaşaraq mehribanlıqla salam verib və "Necəsən, Sənan?" deyə soruşub. Oğlanın gözlərində əməlli-başlı sevinc qığılcımları parlayırdı.

Orucun dərhal ağzı sulandı:

Scanned by CamScanner

– Sən canın, doğru deyirsən? Qız özü yaxınlaşdı sənə?

– Hə, vallah, – Sənan dedi. – Məndə o cəsarət hardadır ki, ona yaxınlaşım? Özü gəldi. Həm də utana-utana. Hiss elədim ki, ürəyində mənə qarşı əməlli-başlı sevgi var.

Orucdan fərqli olaraq, Firdovsi bu xəbərə ciddi əhəmiyyət vermədi. Çünki Güləsərin açıq xasiyyətli olduğunu yaxşı bilirdi. Elə bircə ay bundan əvvəl o qız Yaqutla birlikdə, tənəffüs zamanı dəhlizdə ona da yaxınlaşmışdı. Guya utanırmış kimi əzilib-büzülərək salam vermişdi. Söhbəti isə Yaqut başlamışdı:

– Firdovsi, bizim fakültədə Ülvi adında oğlan tanıyırsan? Güləsərin qohumudur. Onu tapmaq istəyir.

– Hansı kursda? – Firdovsi Güləsərə üz tutmuşdu.

– Hansı kursda olmağını dəqiq bilmirəm, – qız nazla başını geri atıb əli ilə saçlarını düzəltmişdi.

–Yox, elə adda birini tanımıram.

Qızlar aralanıb getmişdilər. Ondan sonra Güləsər onunla üç, ya dörd dəfə salamlaşmışdı. Hətta birində "Salam, necəsən, Firdovsi?" – demişdi. İndi nə olsun ki?!

Sənana beləcə də dedi:

– Nə olsun ki!? Adam adama salam verər də...

– Necə nə olsun, – Sənan etiraz etdi, – mən onun nəyiyəm? Qrup yoldaşı deyiləm, qohumu deyiləm. O, biofakda oxuyur, mən mexmatda...

Nədənsə Firdovsiyə elə gəlirdi ki, o qızın xəyalı göylərdədir və bu səbəbdən yerdə yaşayan heç kəsə

Scanned by CamScanner

könül verməz. Gülümsəyib başını buladı və daha heç nə demədi.

Sənan isə o gündən Güləsərə göz qoymağa başladı. Tənəffüs olan kimi biofaka qaçırdı. Yataqxanada lap tərkidünya olmuşdu. Arxası üstə çarpayısına uzanıb saatlarla fikrə dalırdı. Dərs oxuya bilmir, mühazirələrdə gözünü qol saatından çəkmirdi. Dərdini isə həmişə Firdovsiyə danışırdı. Biofaka gedib qızı uzaqdan görəndə belə bunu gəlib ona deyirdi.

– Əgər sevirsənsə, yaxınlaş, fikrini bildir, – Firdovsi bir gün ona dostyana məsləhət verdi.

Sən demə, Sənan özü də bu fikirdə imiş:

– Hə, bu gün mütləq dərsdən sonra dalınca düşüb sözümü deyəcəm, – dedi.

O gün yataqxanaya gec qayıtdı. Qanı da yaman qara idi.

– Nə oldu, yaxınlaşa bildin? – Firdovsi soruşdu.

– Yox, yanında qızlar vardı, – dedi.

Səhəri gün yenə belə. Sənanın kefi tamam pozulmuşdu. Dedi ki, qıza yaxınlaşmağa imkan olmur.

Onun bu qızla macərası iki aya yaxın çəkdi. Sonra Firdovsi yavaş-yavaş fərqinə vardı ki, otaq yoldaşı daha nə Güləsərdən danışır, nə də onu görmək üçün tənəffüsdə biofaka qaçır.

– Sevgilindən nə xəbər var? – bir gün özü dillənib soruşdu.

– Kimdən? – Sənan sanki anlamadı.

– Neçə sevgilin var ki? Güləsəri deyirəm.

– Əşi, qoy rədd olsun! – Sənan əlini yellədi.

Scanned by CamScanner

– Niyə, nə oldu ki? Qızın dərdindən dəli-divanə idin...

– Divanə-zad deyildim, sadəcə, ondan xoşum gəlirdi, vəssalam! Özün bilirsən ki, birinci o özü yaxınlaşmışdı mənə. Ancaq tanıyandan sonra gördüm ayağı sürüşkənin biridir. Gündə bir oğlanla gəzir.

– Sən hələ bir de görüm ona yaxınlaşıb ürəyini açdın?

– Əlbəttə, yox, – Sənan başını buladı. – O, kimdir ki, ona ürəyimi açım?! Özü məni istəyirdi, mənim də elə tərbiyəsizlərlə işim ola bilməz.

Firdovsi daha söhbəti uzatmadı. Özü də əvvəldən bilirdi ki, adama belə bir qızdan həyat yoldaşı olmaz.

Firdovsi bir-iki gündən sonra hansısa işlə əlaqədar biofak tərəfə keçəndə Güləsəri Mirəli ilə söhbət edən gördü. Hüquq fakültəsinin dördüncü kursunda oxuyan ayı kimi bu yekəpər oğlan başqa bir fakültənin dekanı Üzeyir Məlikzadənin oğlu idi...

3

3 may, 1983-cü il... Həftənin ikinci günü... Firdovsi bu tarixi ömrünün sonuna kimi unutmayacaqdı. Həftənin neçənci günü olması isə ona görə yaddaşında qalmışdı ki, həmin gün mexmatın üçüncü kurslarında hərbi hazırlıq günü idi və hərbi dərslər tələbə şəhərciyindəki "1 nömrəli yataqxana"

Scanned by CamScanner

adlandırılan binada keçirildiyi üçün tələbələr universitetin əsas korpusuna getmirdilər.

Firdovsi isə bu gün səhər tezdən yuxusuna haram qataraq birbaşa əsas korpusa gəlmişdi. Çünki bu gün Tanrı ona taleyinin qisməti olan qızı tanıtdıracaqdı. Bəli, anasının onu evlənmək üçün durmadan tələsdirdiyini görən Firdovsi axşam bu barədə Tanrı ilə "razılığa gəlmişdi" və qəti inanırdı ki, bu gün, uzağı yarım saatdan sonra taleyinin qismətini görüb tanıyacaq.

Universitetin qarşısında bir nəfər də adam yox idi. Qapılar hələ açılmamışdı. Binanın qarşısındakı meydançada gəzişərək giriş qapısına göz qoymağa başladı. Özündən asılı olmayaraq həyəcanlanırdı və bu da təbii idi. Necə olmasa da, bir azdan bütün gələcək həyatını paylaşacağı qızı görəcəkdi.

Bəs o böyük Yaradan onunla xoşagəlməz bir zarafat edib onu dolasaydı, necə? Oruc da, Qəşəm də axşam elə bunu deyib gülmüşdülər ona. Amma yox, bu ola bilməzdi. Olmayacaqdı. Firdovsi oruc tutub namaz qılan olmasa da Tanrıya ürəkdən inanırdı və Yaradanın onun axşamkı yalvarışını eşitdiyinə əmin idi.

Universitetin qarşısında o baş-bu başa gəzişərək öz-özü ilə danışırdı. Daha doğrusu, birbaşa Tanrı ilə. Ona yalvarırdı ki, bəxtinə çıxaracağı qız gözəl olsun, saçları qara, gözləri ala, boyu onun boyuna uyğun, ağıllı, təmizkar, işgüzar olsun. Ən əsası isə anasının da xoşuna gəlsin.

Scanned by CamScanner

Birdən dayanıb düşündü ki, Tanrıya belə sifarişlər verməkdə haqlı deyil. O, uca Yaradandan bu səhər qarşısına taleyinin mümkün olan ən gözəl qismətini çıxarmasını istəmişdi, deməli, qarşısına kimi çıxaracağını Tanrı özü daha yaxşı bilirdi. Bunu düşünəndən sonra susdu. Lakin bir qədər sonra dözməyib yenidən asta səslə mızıldandı: "Sənə qurban olum, Allahım, axşam danışdığımız kimi, qismətimə qızların ən yaxşısını çıxar. Məni xoşbəxt edəcək birini..."

Taqqıltı səsi gələndə dönüb universitetin girişinə baxdı. Bu zaman qapının bir layı açıldı. Orta boylu gecə gözətçisi içəridən boylanıb ona baxdı. Sonra qapının ikinci layını da açaraq yenidən öz balaca köşkünə qayıtdı.

Firdovsi o zaman 50 yaşlarında olan həmin kişinin adını indi xatırlaya bilmirdi. Ancaq həmin vaxtlar onunla yaxşı münasibətləri vardı. Bu kişi yataqxanadakı arıq, vaxtından tez qocalmış, iş vaxtı karamel konfetlə araq içən gözətçidən kəskin fərqlənirdi. O qədər şeir, əhvalat, hikmətli sözlər bilirdi ki, bu məsələdə universitetin filologiya alimlərinin bəzisi onunla yarışa bilməzdilər. Xüsusi avazla Nəsimidən, Ömər Xəyyamdan, Nizamidən, Sədidən, Firdovsidən, Hafizdən, Şəhriyardan fars dilində ibrətamiz fəlsəfi beytlər deyir, sonra həmin beytlərin Azərbaycan türkcəsində izahını verirdi.

Bu məqsədlə çənəsinin altına saldıqlarından biri də o olurdu. Adı Firdovsi olduğu üçün ona daha çox Əbülqasım Firdovsidən misallar çəkir, tələbə Firdovsi

Scanned by CamScanner

isə şeiri bir o qədər xoşlamasa da, atası yaşda olan kişiyə hörmət xatirinə onu axıradək dinləyirdi.

Birdən ağlına gəldi ki, universitetin qarşısında beləcə təkcə dayanmağı kimlərəsə qəribə görünə bilər və irəli yeriyib binaya daxil oldu. Gözətçi onu qabaqlayaraq birinci salam verdi:

– Sabahın xeyir, ey böyük şairin adaşı! Səndən nə əcəb belə tezdən gəlmisən?

– Sabahın xeyir, dayı, – Firdovsi gözətçi köşkünə yaxınlaşıb kişiyə əl uzatdı. – Bu gün bizdə hərbi dərs günüdür, mənim də burada işim var, tez gəldim ki, onu həll edib qayıdım.

Gözətçi mehribanlıqla gülümsədi:

– Hə, yaxşı eləmisən...

Gözü taybatay açılmış giriş qapısında olan Firdovsi ürəyində Allaha yalvarırdı ki, kişi şeir deməyə başlamasın. Belə də oldu. Yəqin gözətçi özü də rektorun və prorektorların bir azdan universitetə gələcəkləri bir vaxtda işini buraxıb şeir demək fikrində deyildi.

Söhbət edə-edə gəlib içəri keçən iki tələbə oğlan onlara salam vermədən pilləkənə doğru getdi. Deyəsən, fizfakdan idilər. Kirovun böyük heykəlinin qoyulduğu foyedə indi elə ikisi idi – gözətçi kişi və Firdovsi. Bir qız, sonra daha iki oğlan gəlib yanlarından ötərək pilləkənlə yuxarı qalxdılar. Bir neçə saniyədən sonra isə fakültələrinin dekan müavini içəri daxil oldu. Gözətçiyə başı ilə salam verəndən sonra təəccüblə ona baxdı:

Scanned by CamScanner

– Sabahın xeyir, Firdovsi, kef-hal? Sən burada nə edirsən, bu gün sizdə hərbi hazırlıq günü deyil?

– Sabahınız xeyir, – Firdovsi ədəblə dilləndi. – Bəli, hərbi hazırlıqdır. Burada bir nəfərlə görüşməliyəm, ona görə gəldim, indi gedəcəm.

Dekan müavini daha heç nə demədən onlardan ayrılıb sola burulan dəhlizdə görünməz oldu. Tələbə və müəllimlər bir-bir gəlib onların yanından keçirdilər. Bir azdan qismətinin gələcəyini düşünən Firdovsi gərgin halda gözünü qapıya dikmişdi və ona nəsə deyən gözətçini heç eşitmirdi.

Onunla eyni kursda oxuyan Ülkər gəlib keçdi. Deyəsən, qız ona salam da verdi, lakin gözləri açıq qapıya və oradan görünən üzbəüz meydançaya zillənmiş Firdovsi onun salamını ala bilmədi. Ülkərin dalınca biofakdakı Güləsər gəlirdi. Sənanın keçmiş "sevgilisi"... Əyninə nazik bəyaz parçadan şalvar və eyni rəngli uzun kofta geymiş qız bu geyimdə həmişəkindən daha cəzbedici görünürdü. Lakin Firdovsi onu görəcək halda deyildi. Gərginliyin son həddində idi və qızın arxasınca kiminsə gəlib-gəlmədiyini görmək üçün boynunu sağa-sola döndərib boylanırdı.

Aha! Güləsərin ardınca bir qız universitetin giriş qapısına yaxınlaşırdı... Bax, bu qız idi Tanrının onun taleyinə yazdığı qismət. Gəlirdi! Firdovsi: "Allahım, ürəyimdən muğayat ol, partlamasın", – deyə pıçıldadı.

Bu zaman gəlib qarşısında dayanan Güləsər özünəməxsus işvəli təbəssümlə boynunu yana əyərək onu salamladı:

Scanned by CamScanner

– Sabahın xeyir, Firdovsi! Necəsən?

"Heç yeridir?"– deyə ürəyindən keçirən Firdovsi bütün diqqəti qapıda olduğu halda mızıldandı:

– Sağ ol, yaxşıyam.

– Nə əcəb belə tez gəlmisən?

– İşim var...

–Yaxşı ki, səni gördüm...

Firdovsinin gözləri bu anlarda qapıdan içəri daxil olan qara yubkalı, sarı köynəkli qıza zillənmişdi. Qız yaraşıqlı bir qız idi. Siyah saçlı, qara gözlü... Bir qədər arıq... Boyu da ona uyğun... İndi Firdovsinin ürəyi elə şiddətlə döyünməyə başlamışdı ki, sanki yerindən çıxmaq istəyirdi.

– Sənlə bir az söhbət etmək istəyirdim... – onun bu halından xəbərsiz olan Güləsər sözünə tərəddüdlə davam etdi. – Əgər vaxtın varsa...

Sarı köynəkli qız onlara yaxınlaşırdı. Maraqlıdır, Firdovsi indiyədək onu universitetdə görməmişdi. Deməli, yüz faiz mexmatdan deyildi. Bəs görəsən, hansı fakültədə oxuyurdu?

Taleyinin qisməti gəlib çatanda ani olaraq Firdovsiyə baxdı. Sonra onların yanından ötərək ikinci mərtəbəyə qalxan pilləkənə doğru getdi.

Bunu görən Firdovsiyə elə gəldi ki, qızı ömürlük itirəcək.

– Sonra! Sonra söhbət edərik! – deyə Güləsəri tələsik başından edib qızın ardınca yollandı.

İkinci mərtəbənin dəhlizində sarı köynəkli qızın arxasınca addımlayırdı. Tanrının ona göndərdiyi

Scanned by CamScanner

qismətin arxasınca... Həmin anlarda ona elə gəlirdi ki, qarşısında yeriyən bu qız dünyada ona ən doğma insandır. Yox, insan deyil, Tanrının göndərdiyi mələkdir. Elə bir mələk ki, onun həyatını gülüstana çevirəcək, onu xoşbəxtlərin xoşbəxti edəcək...

Qız mexmatın dekanlığına tərəf gedirdi. Dəhlizdə sağa dönüb dekanlığı arxada qoyanda Firdovsi anladı ki, o, kitabxanaçılıqda oxuyur. Lap yaxşı, qoy olsun! Deməli, qismətinə düşən doğma varlığa məxsus daha bir şeyi öyrənmiş oldu. Bəs görəsən, neçənci kursdadır? Firdovsidən yaşca kiçik olması üçün kaş ki, ya birinci, ya da ikinci kursda olaydı. Bir də, görəsən, adı nədir qismətinin? Hansı rayondandır?

Taleyinin qisməti bir auditoriyaya daxil olanda artıq dəqiq bildi ki, o, kitabxanaçılıq fakültəsində oxuyur. Özündə cəsarət taparaq onun arxasınca birbaşa həmin mühazirə zalına girdi. Qız burada tək idi. Yoldaşlarından hələ kimsə gəlməmişdi.

Özünü toparlamağı bacaran Firdovsi fakültələrində apardığı ictimai vəzifəsinə uyğun ciddi bir tövrlə:

– Burada hansı kursun mühazirəsi olacaq? – deyə soruşdu.

Bu sual taleyinin qismətinə ünvanladığı ilk müraciət idi və yəqin ki, ömrü boyu unutmayacaqdı.

– İkinci kursun, – qız dərhal cavab verdi.

Bu da tale payının ona ünvanladığı ilk kəlmələr...

Qızın səsi də xoşuna gəldi. Bu səs bir qədər qalın olsa da, qızın qarabuğdayı simasına yaraşırdı. İstədi

Scanned by CamScanner

elə buradaca onunla tanışlıq yaratsın. Yəni ən azı adını soruşsun. Ancaq buna cəsarət edə bilmədi və dönüb auditoriyadan çıxdı.

Bu qızın yerində bir başqası olsaydı, əlbəttə, Firdovsi heç çəkinmədən onun adını soruşardı. Fakültəsində apardığı ictimai vəzifə onu xeyli açılışdırmışdı və istənilən tələbə ilə rahat ünsiyyət qura bilirdi. Lakin bu qız onun üçün digər tələbələrin tayı deyildi. Tanrının ona məsləhət bildiyi sevgi, məhəbbət, ömürgün qismәti idi və deməli, artıq sevməyə başladığı bu qızın qarşısında həyəcanlanması təbii hal idi.

Bəli, artıq sevməyə başladığı...

Onun mənsub olduğu xalqın keçmişində sevib-sevilmək, evlənib ailə qurmaq adətən belə olmamışdımı? Keçmişdə evlənmək yaşına çatmış oğlanlar yetkin, ərgən qızları indiki kimi rahatlıqla görüb bəyənə bilmirdilər. Lakin indikindən bir qədər fərqli olaraq, o zaman anaya sonsuz hörmət, ilahi sevgi vardı. Ana gəlib oğluna deyirdi ki, sənin üçün filan qızı bəyənmişəm, çox yaxşı qızdır, onu sənə almaq istəyirəm. Və təkcə ananın bu sözləri adı taleyinə həmişəlik yazılmağa başlayan o qıza qarşı oğlanın qəlbində məhəbbət rüşeyminin yaranmasına kifayət edirdi. Sonra isə bu rüşeym tədricən böyüyərək əsl məhəbbətə çevrilirdi. Azərbaycan ailələri bu səbəbdən möhkəm olur, ərlə arvad "bir yastıqda qocalırdı". İndi isə oğlan və qızlar özləri bir-birilərini bəyənərək və guya sevərək evlənirdilər, yeni evlənən hər beş ailədən azı ikisi isə heç altı ay keçməmiş

Scanned by CamScanner

dağılırdı. Bu da sənə azadlıq, gənclərin öz gələcək həyatlarını özlərinin müəyyənləşdirməsi...

İndi hələ adını belə bilmədiyi bu qızı Firdovsiyə anası yox, anadan da uca və müqəddəs hesab edilən Uca Tanrının özü məsləhət görmüşdü. Ona görə də Firdovsidə bu qıza qarşı elə ilk andan sevgi hissinin yaranmasını təbii qəbul etmək lazım gəlirdi.

O gün hərbi hazırlıq dərslərinə getməyən Firdovsi vaxtını dəhlizdə keçirdi. Kitabxanaçılıq fakültəsinin komsomol fəalı Müşfiq gələn kimi onunla komsomol otağına girdi. Hər ikisi öz fakültələrinin ictimai vəzifə aparan fəal tələbələri olduqları üçün bir-birilərini yaxşı tanıyırdılar. Firdovsi ondan xahiş etdi ki, ikinci kursda oxuyan tələbələrin komsomol qeydiyyat kartlarını ona göstərsin. Səbəbini də gizlətmədi. Dedi ki, sizin ikinci kursda oxuyan bir qızdan xoşum gəlir, onun adını öyrənmək istəyirəm. Bu kartlarda tələbə barədə məlumatlar yazılmaqla bərabər onun kiçik fotosu da yapışdırılırdı. Müşfiq etiraz etməyib kartlar yığılmış qutunu onun qarşısına qoydu.

Firdovsi kartlardakı fotolara bir-bir baxıb onları kənara qoyurdu. Nəhayət, bəxtinə yazılmış qızın fotosuna rast gəldi və onun adını tələsik oxudu: Şəmiyeva Nədimə Yadigar qızı. Deməli, qismətinin adı Nədimə imiş...

Əgər bircə dəqiqə bundan əvvəl Firdovsidən ən çox xoşladığı qız adlarını soruşan olsaydı, Xalidə, Nərgiz, Leyla, Nazlı, Fatimə kimi bir çox adları

Scanned by CamScanner

sadalayar, Nədimə adı isə heç yadına da düşməzdi. İndi isə həmin suala düşünmədən belə cavab verməyə hazır idi: ən çox xoşladığım qız adı Nədimədir!

Sonra başqa məlumatlara da göz gəzdirdi. Nədimə Bakıda qeydiyyatda idi. Köhnə Yasamal məhəlləsində yaşayırdı...

Komsomol otağından çıxanda artıq bilirdi ki, onun tale qisməti olan bir qız var və bu qızın adı Nədimədir. Sevinci aşıb-daşır, bu xəbəri kiminləsə bölüşməyə tələsirdi. O vaxtlar mobil telefon deyilən şey yerli-dibli yox idi. Rayonla danışmaq üçün poçtların birinə gedib saatlarla gözləməli idin. Yoxsa bu xəbəri birinci elə anasına verərdi. Deyərdi ki, artıq gələcək gəlininin adı məlumdur, ay ana – Nədimə...

3

O gün mexmatın komsomol otağında oturaraq dəqiqələri saymış Firdovsi ikinci dərsin tənəffüsündə bufetdən tək çıxan Nədiməyə yaxınlaşıb qarşısını kəsdi:

– Sizinlə bir dəqiqə danışmaq olar?

Qız dayanıb təəccüblə onun üzünə baxdı:

– Nə danışacaqsan mənimlə?

– Sizin adınız nədir?

– Adım nəyinə lazımdır?

– Tanış olmaq istəyirəm...

Scanned by CamScanner

Yalnız bir neçə saniyə duruxub qalan qız etiraz mənasında başını yelləyərək:

– Yanlış qapıya gəlmisən! – dedi və tələsik ondan aralanıb öz auditoriyalarına getdi.

Bu soyuq münasibətdən əvvəlcə pərt olmuş Firdovsi bir az sonra düşündü ki, əslində belə də olmalıdır. Yəni ciddi ailə tərbiyəsi almış hər bir qız belə etməli idi. Nədimə ilk dəfədən onunla laqqırtı vurmağa başlasaydı, bu, Firdovsinin özünə də xoş gəlməzdi. Əslinə qalsa, elə anası da oğluna Nədimə kimi ciddi, ağır təbiətli bir qız arzulayırdı.

Qərara gəldi ki, daha bu günlük bəsdir. Çıxıb yataqxanaya getdi və günortadan sonra hərbi hazırlıq dərslərindən qayıdan yoldaşlarına hər şeyi danışdı.

– De sən öl! – Sənan heyrətləndi. – Vay səni, bəxtə bax e! Doğrudan yaxşı qızdır?

Qəşəm fikrini əsl qumarbaz dilində bildirdi:

– Afərin, deməli, kartına "iyirmi bir" çıxıb!

Oruc isə ümidsiz halda gözlərini döyürdü:

– Birdən sabah da əl vermədi, onda necə olacaq?

– Birinci dəfə belə olmalıdır, – Firdovsi dedi. – Sabah dərsdən sonra dalınca düşəcəm. Ünvanını götürmüşəm. Yasamalda köhnə məhəllədə olur. Yəqin ki, evə yataqxanaların arasından piyada keçib gedir. İmkan düşən kimi yaxınlaşacam.

Səhəri gün dediyi kimi də elədi. Nədimə ilə dərsləri eyni vaxtda bitdiyi üçün axırıncı zəng vurulan kimi pilləkənlərlə tələsik yüyürüb həyətə çıxdı. Dayanıb qızı gözləməyə başladı.

Scanned by CamScanner

Bir dəqiqə keçməmiş otaq yoldaşları taleyinin ona verdiyi qisməti görmək üçün gəlib yanını kəsdirdilər. Firdovsi yalvar-yaxar elədi ki, heç olmasa ondan aralı dursunlar, özlərini qıza göstərib hər şeyi korlamasınlar. Yoldaşları razılaşıb gülə-gülə kənara çəkildilər.

Tələbələr universitetdən dəstə-dəstə çıxıb evlərinə gedirdilər. Nədimə də qrup yoldaşı olan iki qızla çıxdı. Firdovsinin yanından keçəndə başını azacıq döndərib oğrun nəzərlərlə onu süzdü. Baxışlarında pis heç nə yox idi. Bu münasibət Firdovsini xeyli cəsarətləndirdi və dərhal qızların arxasınca düşdü. Otaq yoldaşları da onun dalınca gəlirdilər. Firdovsi bunu geriyə baxmadan, onların şit gülüş səslərindən anlamışdı.

Qızlar sola dönüb səki ilə bir az gedəndən sonra Azərbaycan türklərinin qatı düşməni – erməni Avakyanın adını daşıyan küçəni keçərək, tələbə şəhərciyinə girdilər. Firdovsi onları arada beş-altı metr məsafə ilə izləyirdi. Deyəsən, Nədimə Firdovsinin onun arxasınca düşdüyünü bilirdi. Arada bir-iki dəfə gizlincə geriyə boylanmışdı.

Uzun pilləkənlərlə qalxıb tələbə şəhərciyinin yuxarı başına yetişəndə Nədimənin yanındakı qızlar ondan ayrılıb soldakı 4 nömrəli qızlar yataqxanasına getdilər. Nədimə isə təkcə yoluna davam etdi. Burdan o yana Köhnə Yasamal məhəlləsi başlayırdı və qızgilin evi haradasa yaxında olmalı idi. Bunu düşünən Firdovsi ilk imkan düşən kimi, sakit bir səkidə sürətini artıraraq arxadan qıza yetişdi.

Scanned by CamScanner

– Xahiş edirəm, bir dəqiqə dayanın!

Nədimə dayanıb geriyə çevrildi:

– Sən məndən nə istəyirsən? Niyə arxamca düşmüsən? Heç bilirsən qardaşım bizi görsə, neyləyər?

Belə desə də Firdovsi qızın səs ahəngində hiddət və nifrət olmadığını hiss edirdi. Buna görə də onun təhdidlərinə əhəmiyyət vermədi:

– Burada pis nə var ki?! Sadəcə, sizinlə tanış olmaq istəyirəm. Mən mexmatın üçüncü kursunda oxuyuram. Adım...

– Adını bilirəm, – qız onun sözünü kəsdi, – Firdovsidir.

– Haradan bilirsən? – Firdovsi çaşqınlıqla soruşdu.

– Fakültə komsomolunda çalışdığın üçün səni hamı tanıyır. Deməli, mən də adını eşitmiş ola bilərəm.

– Lap yaxşı, onda xahiş edirəm, siz də adınızı deyin.

Nədimə başını silkələdi:

– Sən hansı əsasla belə hesab edirsən ki, mən adımı hər yoldan ötənə deyən qızlardanam?

Bu an arxadan gülüş səsləri eşidən Firdovsi geri çevriləndə otaq yoldaşlarının tində dayanıb maraqla onlara göz qoyduqlarını gördü. Acığından dişlərini qıcayıb qıza tərəf dönəndə isə o, artıq gedirdi.

– Nədimə! – deyə qeyri-ixtiyari olaraq onu səslədi.

Qız dərhal dayandı və çevrilərək təəccüblə soruşdu:

– Sən mənim adımı haradan bilirsən?

Firdovsi gülümsədi:

– Əgər komsomolda çalışıramsa, deməli, hansısa tələbənin adını öyrənmək mənim üçün çətin olmamalıdır.

Scanned by CamScanner

Onun təbəssümü Nədiməni da gülümsəməyə vadar etdi:

– Adımı bilirdinsə, daha niyə soruşurdun?

– İstədim adını özün deyəsən.

– Ancaq gördün ki, demədim.

– Hə, demədin... – Firdovsi yenə gülümsədi.

Qız isə bu dəfə ciddiləşib ətrafa göz gəzdirdi:

– Burada dayanmağımız yaxşı deyil, bizi görərlər. Sabah universitetdə danışarıq.

Bu artıq tanışlığın yüz faiz baş tutması demək idi. Firdovsi onunla sevincək razılaşdı:

– Yaxşı, onda hələlik!

– Sağ ol! – qız bunu deyib cəld uzaqlaşdı.

Firdovsi geri qayıdıb tində onu gözləyən otaq yoldaşlarına özünü nə qədər acıqlı göstərməyə çalışsa da, alınmadı. Çünki necə bəxtəvər olduğu üz-gözündən aydın oxunurdu.

– Siz nə həyasız adamlarsınız, – yalnız bunu dedi, – imkan vermədiniz qızla bir-iki kəlmə söhbət edim.

Birinci Oruc bic-bic gülərək dilləndi:

– Mübarəkdi, qardaş, maşallah, çox qəşəng qızdır. Lap ceyran kimidir gəlinbacımız.

– Yaxşı görək, – Sənan ona etiraz etdi, – adi qızdır da...

Qəşəm isə lap kökündən vurdu:

– Ayaqları xoşuma gəlmədi. Çox nazikdir.

Firdovsi dönüb qumarbaz otaq yoldaşına nifrətlə baxdı:

– Nə olsun, arıqdı da! Hamı sənin kimi yekəqarın olmaz ki...

Scanned by CamScanner

– Arıqlığı ilə işim yoxdur, – Qəşəm təcrübəli adamlar kimi qaşlarını çatdı, – baldırlarından aşağı hissələr çox nazikdir. Sümüyünü deyirəm. Məndən sizə məsləhət, qız seçəndə təkcə üzünə baxıb aldanmayın. Ayaqlarına da baxın.

Firdovsi pərt olmuşdu. Taleyinin qismәti olan qız barədə belə ədəbsiz sözlər onu əsəbiləşdirirdi. Yaxşı ki, onun əvəzinə Oruc dilləndi:

– Qəşəm müəllim, Firdovsi at bazarından at almır e, özünə gələcək həyat yoldaşı axtarır.

– Yaxşı, mən nə dedim ki... – Qəşəm boynunu burdu. – İndi ki, Firdovsi özü bəyənir, Allah mübarək eləsin!

O gecə Firdovsinin gözünə yuxu getmədi. Səhər isə Nədiməni görmək üçün universitetə həmişəkindən tez getdi. Onu görməyə, söhbət etməyə elə tələsirdi ki... Kitabxanaçılıq fakültəsinin dərs cədvəlinə baxdı. Nədiməgilin birinci dərsi fakültə dekanının mühazirəsi idi. Dərsin hansı auditoriyada olacağını öyrəndi və gedib qapının yanında gəzişməyə başladı.

Nədimə mühazirənin başlamasına on dəqiqə qalmış bir qızla gəldi. Auditoriyaya girəndə ona tərəf baxıb başını yüngülcə tərpətməklə salam verdi. Onun bu hərəkəti Firdovsini çox sevindirdi. Gözlədi ki, qız bəlkə ona görə yenidən dəhlizə çıxacaq, amma çıxmadı. Zəng vuruldu. Professor Xələfov ağır addımlarla gəlib auditoriyanın qapısını açanda dönüb bir anlıq boş dəhlizdə tək-tənha dayanmış Firdovsiyə nəzər yetirdi və içəri girib qapını arxasınca örtdü.

Scanned by CamScanner

Firdovsi mexmatın komsomol otağına getdi ki, tənəffüsü orada gözləsin. Dərslərə girməyə heç həvəsi yox idi.

Kiçik tənəffüsdə Nədimə dəhlizə çıxmadı. Firdovsi onu bir də böyük tənəffüsdə bufetə gedərkən görə bildi. Tələbələr ət qutabı yemək və südlü kakao içmək üçün dəstə-dəstə bufetə axışırdı. Yaxşı ki, Nədimə tək idi. Firdovsi ona yaxınlaşa bildi. Salamlaşandan sonra bufetə girib-çıxan tələbələrin yolunu kəsməmək üçün divarın dibinə çəkildilər.

Qızın əynində dizlərini tamam örtən çəhrayı rəngli don vardı. Firdovsinin fikrincə, bu da ona çox yaraşırdı. Kiçik döşləri sinəsi bağlı donun yaxasını azacıq qabartmışdı. Qara saçlarını iki yerdən hörüb kürəyinə atmış qızın üz-gözündə zərrə qədər də olsun makiyaj-filan izi görünmürdü. Tünd rəngli dodaqları uzunsov, qarabuğdayı sifətinə özünəməxsus yaraşıq verirdi. Geniş açılmış qara gözlərini oğlanın üzünə zilləmişdi. Firdovsi bu gözlərdə özünə qarşı rəğbət oxudu.

Bir anlıq düşündü ki, qarşısında dayanmış bu qız onun taleyinin qismәti, Tanrının ona ömürlük əmanətidir. Bu qız anasının gəlini ola bilər və mütləq olacaq. Olmalıdır! Özünü birdən-birə elə xoşbəxt hiss etdi ki, bu hiss qeyri-ixtiyari olaraq beynini dumanlandırdı.

– Hə, eşidirəm səni! – birinci qız dilləndi.

Firdovsi bunu gözləmirdi. Qəfildən boğazı qurudu. Axşamdan bəri fikirləşdiyi sözlər uçub getdi.

Scanned by CamScanner

Lakin tez də anladı ki, Nədimə heç də ondan pis mənada haqq-hesab tələb etmir. Qız ona qarşı biganə deyil və istəyir ki, söhbətə o başlasın. Bu düşüncələri ona kifayət qədər cəsarət verdi:

– Dünənkinə görə bağışla, – deyə o da "sən"ə keçdi, – onların bizim arxamızca gəldiklərini bilmirdim... Otaq yoldaşlarımı deyirəm...

– Amma yaman abırsız yoldaşların var, – qız başını hikkə ilə silkələdi. – Sənin o Sənan dostun bizim "patok"dan bir qız istəyir. Əl çəkmir qızdan. O uzunburun, balacaboy var e, Orucdu-nədi adı, ondan heç danışma, şorgözün biridir, bizim qızlara elə baxır ki, elə bil heç ömründə qız görməyib. Hələ o biri yekəbaş, bığlı... Qəşəm... – bir an ara verib birdən gülümsədi: – Sən canın, bunları hardan tapıb yığmısan başına?

Firdovsi qızın onun otaq yoldaşlarının adını bilməsinə təəccüblənsə də, buna o qədər də əhəmiyyət vermədi. Əsas o idi ki, taleyinin qismәti sayılan qız onunla danışırdı. Həm də lap yaxın adamı kimi danışırdı. Buna görə də heç düşünmədən yoldaşlarını qızın ayağına verdi:

– Hə, daha demə! Dünənki hərəkətlərinə görə bir-iki kəlmə acı söz dedim onlara.

– Sən Vartaşendənsən? – qız birdən soruşdu.

– Hə.

– Orada yaşayırsınız?

– Hə, çox gözəl kəndimiz var.

– Bəs Bakıda eviniz yoxdur?

Scanned by CamScanner

–Yox... Olsaydı, yataqxanada qalmazdım ki...

– Hə, doğrudur...

Deyəsən, qız onunla danışmağa söz tapmır, sıxılırdı. Elə Firdovsi də. Ona elə gəlirdi ki, yanlarından keçən tələbələrin hamısı dönüb onlara baxır. Birdən Qəşəmin dünən Nədimənin ayaqları barədə dediyi xoşagəlməz sözü xatırladı. Azacıq geri çəkilib oğrun-oğrun qızın ayaqlarına baxdı. Nədimə qara rəngli dikdaban tufli geymişdi. Baldırlarının aşağı hissəsində sümükləri qoşanağara çubuqları kimi nazik görünürdü. Yenə o fikrə gəldi ki, bu hal qızın arıqlığı ilə bağlıdır, azacıq kökəlsə, hər şey yoluna düşəcək. Bir də ki, Orucun sözü olmasın, o, at almırdı ha, özünə ömürlük ömür-gün yoldaşı seçirdi. Əsas o idi ki, xasiyyəti yaxşı olsun. Nədimə də əsl azərbaycanlı qızı kimi ağır təbiətli, abırlı-həyalı qız idi. Bir də ki, gözəlliyinə nə olmuşdu?! Toy günü qalın qaşlarını aldırsa, üz-gözünə azacıq əl gəzdirsə, hamıdan gözəl görünəcək...

– Sənin bacıdan-qardaşdan nəyin var, Nədimə? – deyə başqa söz tapmadığına görə bunu soruşdu.

– Bir qardaşım var...

– Adı hədir?

– İntiqam.

Firdovsiyə nədənsə elə gəldi ki, qız öz qardaşının adını o qədər də rəğbətlə çəkmədi. Lakin bunun fərqinə varmayıb sorğu-sualı davam etdirdi:

– Səndən böyükdür?

– Hə... Bəs sənin nəyin var? – bu dəfə qız sual verdi.

Scanned by CamScanner

Firdovsinin üzünə dərhal xoş bir təbəssüm yayıldı:

– Tək bir bacım var. Adı Nazlıdır. Məndən kiçikdir. Şəkidə tibb məktəbində oxuyur. Tibb bacısı olacaq...

Nədimə qısqanclıqla gülümsədi:

– Deyəsən, onu çox istəyirsən?

– Hə, əlbəttə! O da məni çox istəyir...

– Atan-anan sağdır? – qız onun sözünü kəsdi.

– Hə, Allaha şükür, sağdırlar. Ancaq anam xəstədir. Yazıq arvad çox vaxt yataqda olur.

– Xəstəliyi nədir ki?

– Başında şiş var, həkimlər deyirlər əməliyyat olunmalıdır...

– Atan nə işləyir?

– Kənddə ədəbiyyat müəllimidir.

Bu zaman Firdovsinin gözü bir qədər aralıda dayanıb onlara baxan Güləsərə sataşdı. Qız bunu duyan kimi onlara yaxınlaşdı və bir qədər çəkingən tövrlə dilləndi:

– Salam...

– Salam... – qızın salamını bacardığı qədər laqeydliklə aldı.

– Yaqut dərsə gəlməyib?

Həmin anlarda Firdovsinin yadına Yaqut-filan düşmürdü. Yəni heç kəs düşmürdü. Dünyada bir özü vardı, bir də Nədimə...

– Bilmirəm, – soyuq səslə dedi, – mən dərsə girməmişdim.

– Hə... – qız bu soyuqluğu duyub pərt oldu, – bağışla...

Scanned by CamScanner

Güləsər dönüb uzaqlaşanda Firdovsi özündən asılı olmayaraq onun arxasınca baxdı. Yenə Qəşəmin sözü yadına düşmüşdü və Güləsərin ayaqlarına baxıb onları Nədimənin ayaqları ilə müqayisə etmək istəyirdi. Yaqutun bu ərköyün yerlisi əyninə yenə dar cins şalvar geymişdi. Bu onun ayaqlarını gizlətsə də ətli baldırlarının aşağı hissəsinin heç də nazik olmadığı nəzərə çarpırdı.

Etiraf etmək lazım idi ki, Güləsərin gözəl ayaqları vardı...

– Bu qız kimdir? – Nədimənin səsi onu fikirdən ayırdı.

– Heç, – dedi, – bizim qrupda Neftçaladan Yaqut adında qız var, onun yerlisidir. Biofakın birinci kursunda oxuyur.

– Maşallah, yerini-yurdunu da dəqiq bilirsən ki... – Nədimə dodaqlarını kinayə ilə büzdü. – İndiki bəzi qızlarda da heç abır-həya qalmayıb. Geyiminə bax bunun, dar şalvarı geyib əyninə, hər şeyi qalıb bayırda...

Onun səsindəki kinayəni duyan Firdovsi buna pis məna vermədi. Əksinə, indi bu qızı özünün ən yaxın, doğma adamı hesab etdiyi üçün onun qısqanclığı oğlana xoş təsir göstərirdi.

– Yaqutun yanına tez-tez gəlib-gedir, – deyə izahat verməyə başladı, – ona görə də qrupumuzda hamı tanıyır onu.

Nədimə yenə gileyləndi:

– Bu rayon qızları Bakıya gələn kimi özlərini əməlli-başlı açırlar. Çünki üzərlərində ata nəzarəti

Scanned by CamScanner

yox, qardaş nəzarəti yox. Gündə biri ilə gəzib hər oyundan çıxırlar, rayondakılar da deyir ki, qızımız Bakıda dərs oxuyur...

– Həə... – Firdovsi onun sözlərini qeyri-iradi təsdiq etdi.

Çünki onun nə deməsindən daha çox səsinin ahənginə, dodaqlarının tərpənməsinə diqqət yetirirdi. Bir də ki, sözlərində də həqiqət vardı. Bax, Nədimə özü şəhərdə yaşayırdı, ancaq onun sadəliyini görənlər heç deməzdi ki, şəhərlidir.

Növbəti dərsə çağıran zəng səslənməsəydi, hələ çox söhbət edəcəkdilər. Lakin ayrılmağa məcbur idilər. Nədimə ona məftunedici bir baxış hədiyyə edərək "Görüşənədək!" dedi və ayrılıb auditoriyaya getdi.

O gündən hər gün tənəffüslərdə görüşməyə başladılar. Artıq mexmat və kitabxanaçılığın bütün tələbələri bu cütlüyün arasında ciddi münasibətin olmasından xəbər tutmuşdular.

Firdovsidən xoşu gələn qızlar bundan qısqanclıq hissi keçirsələr də, o, həyatından məmnun və xoşbəxt idi...

5

May ayının ortaları olardı. Nədimə universitetdən o gün ilk dəfə idi ki, tək çıxırdı. Bundan istifadə edən Firdovsi elə universitetin həyətində otaq yoldaşlarından ayrılaraq ona qoşuldu. Söhbət edə-edə birlikdə

Scanned by CamScanner

tələbə şəhərciyinə tərəf qalxmağa başladılar. 2 nömrəli yataqxananın tuşuna çatanda qızdan ayrılmaq istəməyib onu məhəllələrinin girişinə qədər ötürmək qərarına gəldi. Qızlar yataqxanasının arxasında olan "Aspirantlar" kafesini yenicə keçmişdilər ki, Nədimə qarşıdan onlara tərəf gələn cins şalvar, qısaqol, damalı köynək geymiş oğlanı görüb həyəcanla dilləndi:

– Ay aman, qardaşım bizi gördü!

Yerlərində dayandılar. Firdovsi qıza astadan: "Qorxma", – deyib İntiqam adlı gələcək qaynına göz qoymağa başladı. Bu o zamankı şəhər "ceyilləri" stilində saçını vurdurmuş, nazik bığ buraxmış arıq, orta boylu bir oğlan idi. Əlində kiçik bir təsbeh oynadırdı. Onlara çatanda acıqlı nəzərlərini əvvəlcə bacısına, sonra Firdovsiyə zillədi:

– Sənin bu qızla nə işin var, qaqaş?

Firdovsi çiynini çəkdi:

– Heç... Nə işim olacaq, tələbə yoldaşıyıq...

– Küçədə nə yoldaşlıq, alə? – oğlan sağ əlini havada yellədi.

– Mənim ona qarşı pis niyyətim yoxdur.

– Onda get öz tayını tap da, çuşka!

"Çuşka..." O zaman bu xoşagəlməz ifadəni çoxları rus dilində işlənən "çoşka", yəni "donuz balası" sözü ilə eyniləşdirirdi. Firdovsi də belə hesab edirdi və Nədimənin yanında özünə qarşı bu təhqiramiz kəlməni eşitmək ona ölümdən betər gəldi.

Bu söyüşün bakılıların dilinə haradan düşdüyünü və əslində nə məna verdiyini çox sonralar öyrəndi.

Scanned by CamScanner

Deməli, ötən əsrin əvvəllərində Bakıda əsasən rus fəhlələrin işlədiyi zavodların birində dəmir filizi əridilərək ondan çuqun külçələr düzəldilirmiş. Xammal kimi istifadə olunmaq üçün nəzərdə tutulan bu külçələr elə ağır imiş ki, onları bir fəhlə heç cür qaldıra bilmirmiş. Kürə və ya bir qədər yumurta formasında olduğu üçün iki fəhlə əllərində rahat saxlaya bilmirmiş. Fəhlələr nifrət etdikləri bu yöndəmsiz, kobud külçələr "çuqun" sözünə uyğunlaşdıraraq, "çuşka" adı qoyublarmış. Böyük ehtimalla, sonradan bəzi lüğətlərdə tək çuqun külçəsini yox, ümumilikdə bütün xammal məhsullarını "çuşka" adlandırmaq da buradan gəlirmiş.

Bəli, o zaman həmin zavodda hansısa fəhlə hirsli vaxtında hansısa yoldaşına deməyə söz tapmayanda onu həmin naqolay, kobud, ələgəlməz çuqun külçələrinə bənzədərək "çuşka" adlandırır. Sonra bu ifadə digərləri tərəfindən təkrarlanır.

Lap sonra bu söz fabrik-zavodların hüdudlarından çıxaraq Bakı əhalisinin dilinə düşür. Həm də söyüş kimi. Onlar rayonlardan gəlmiş adamlarda xamlıq, qabalıq, kobudluq, avamlıq və sair xüsusiyyətlər görəndə onlara bu sözlə müraciət edirlər. Çoxunun əsli rayonlu olan müasir dövrün, 80-ci illərin bakılıları isə bu sözün kökünü, əsl mənasını bilmədən onu rayonlardan Bakıya yenicə gəlmiş və şəhər mədəniyyətinə hələ tam alışmamış adamların hamısına ikrah hissi ilə şamil edirdilər.

O zaman tələbə Firdovsi həmin sözü "donuz balası" mənasında qəbul edirdi və Nədimənin xatirinə

Scanned by CamScanner

nə qədər dözüb susmaq istəsə də bacarmayıb oğlana cavab qaytardı:

– Danışığına fikir ver, çuşka özünsən!

İntiqamın gözləri heyrətdən böyüdü:

– Alə, mənə deyirsən?!

Bunu dedi və əlini atıb dal cibindən bir bıçaq çıxardı. Qorxusundan nə edəcəyini bilməyən Nədimə əlləri ilə üzünü tutmuşdu. Səsini çıxarıb bir kəlmə də olsun danışmırdı.

O illərdə xarici döyüş filmləri Bakıya yenicə ayaq açırdı, şəhər cavanları karatenin nə olduğunu təzə-təzə anlayırdılar. Çılğın yeniyetmələr həmin xarici filmlərə baxandan sonra küçəyə çıxır, guya karate fəndi göstərirlərmiş kimi, yeri gəldi-gəlmədi, bir-birilərinə təpik atırdılar.

Onda Bakının heç yerində karate aşkar şəkildə bir idman növü kimi öyrədilmirdi, bu, hətta qanunsuz sayılırdı. Firdovsi isə artıq altı aydan çox idi ki, bu döyüş idmanını birbaşa peşəkar karate ustasından öyrənməkdə idi.

Karateni Moskvada – Yaponiyadan gətirilib gizlicə tərcümə olunmuş kitablardan və peşəkar karate ustalarından öyrənmiş Adil adlı gənc Bakıya qayıdandan sonra qərara gəlmişdi ki, peşəsini ən azı özünə yaxın olan cavanlara öyrətsin. Özü əslən şamaxılı olduğu üçün bu məqsədlə başına məhz bu rayondan olan beş-altı tələbəni toplamışdı. Çünki bu sirr kənara çıxıb yayılsaydı, onu həbs cəzası gözləyirdi.

Firdovsini də bu dəstəyə həmin şamaxılılardan biri – mexmatda onunla eyni kursda oxuyan bir oğlan

Scanned by CamScanner

cəlb etmişdi. O, Adili inandırmışdı ki, Firdovsi mərd oğlandır və onları satmaz.

Karate məşqləri üçün gizli bir yer axtarırdılar, o yeri də tezliklə tapdılar. Bu dəstəyə cəlb edilmiş uşaqlardan biri Bakının hansısa orta məktəbində gecə gözətçisi işləyirdi. Qərara gəldilər ki, karate məşqləri həftədə iki dəfə həmin məktəbin idman zalında keçirilsin. Təbii ki, gecələr...

Həmin günlər axşam qaranlıq düşən kimi Firdovsi guya şəhərdə yaşayan qohumugilə getmək bəhanəsi ilə yoldaşlarından ayrılıb "28 aprel" metro stansiyasının qarşısına gedir, orada idmançı yoldaşları ilə görüşərək, məşqin keçiriləcəyi məktəbə yollanırdılar. Məktəbin arxa qapısı xəlvəti, qaranlıq bir səkiyə açılırdı. Gecə gözətçisi işləyən oğlan qapını içəridən açır, onlar da heç kəsin diqqətini cəlb etmədən məktəbə girirdilər.

İdman zalı elə yerdə idi ki, onun işıqları küçədən görünə bilməzdi. İşığı yandırıb məşqə başlayırdılar, məşq bəzən iki-üç saat davam edirdi. Adil ilk gündən onlara ciddi xəbərdarlıq edib demişdi ki, öyrədəcəyi bu üsullardan yalnız özünüzü müdafiə, zəruri hallarda isə haqsız hücuma məruz qalmış birinə yardım üçün istifadə edəcəksiniz.

Firdovsi indi nə qədər çalışsa da həmin məktəbin konkret olaraq harada yerləşdiyini xatırlaya bilmirdi. Amma o günlər yadına düşəndə Bakıda ilk həqiqi karate dərsi alanlardan biri olduğu üçün qürur hissi keçirir, eyni zamanda üzünə qeyri-ixtiyari təbəssüm

Scanned by CamScanner

qonurdu. Çünki doğrudan da maraqlı günlər idi. Həmin məktəbin direktoru, idman müəllimi, ümumiyyətlə, bütün kollektivi səhər məktəbə gələndə ağıllarına da gətirə bilməzdilər ki, gecə buranın idman zalında gizli karate dərsi keçilib.

Hə... Adil onlara bir çox fəndlərlə bərabər rəqibin əlindən bıçağı almaq fəndini də öyrətmişdi. Bu səbəbdən Firdovsi bir qədər sakit idi. Bilirdi ki, İntiqamın əlindən ən azı salamat qurtula biləcək.

Ancaq sən demə, Qəşəmgil yenə onların arxasınca gəlirmiş. Məsələnin ciddiləşdiyini görəndə yüyürüb özlərini yetirdilər. İntiqam rəqiblərinin çoxaldığını görəndə, məlum məsələdir ki, qorxmuşdu. Ancaq bunu büruzə verməməyə çalışır, özünü o yerə qoymurdu. Bıçağı qatlayıb yenidən cibinə qoydu və barmağını silkələyərək Firdovsini hədələdi:

– Bax, burada deyirəm, qoy yoldaşların da eşitsin, bir də səni bacımın yanında görsəm, yortacam, bıçağı qarnına soxacam!

Sonra bacısının qolundan tutub dartdı:

– Gəl gedək, sənlə evdə danışacam, qancıq!

Hirsindən dişi bağırsağını kəsən Firdovsinin bir qolundan Qəşəm, digər qolundan Sənan tutmuşdu. Oruc isə sinəsindən geri itələyirdi:

– Sən canın baş qoşma, bir yumruq vuracaqsan, Yasamal uşaqlarının hamısı töküləcək üstümüzə...

Qayıdıb yataqxanaya gəldilər. Firdovsi həmin vaxt Nədiməni düşünüb əməlli-başlı dərd çəkirdi. Qorxurdu ki, başdanxarab qardaşı onu evdə

Scanned by CamScanner

döyüb-incidər. Amma nə edə bilərdi, əlindən heç nə gəlmirdi...

Gecəni də bu narahatlıqla keçirib səhər qızı görmək ümidi ilə universitetə yollandı. Zəng vurulana kimi auditoriyanın qarşısında gözləsə də, Nədimə gəlmədi.

Yenə dərsə girməyib vaxtını komsomol otağında keçirdi. Birinci böyük tənəffüsdə Nədiməni görmək ümidi ilə dəhlizə çıxanda Yaqutla Güləsər onun qabağını kəsdilər.

– Dərsə niyə girməmişdin? –Yaqut ərklə soruşdu.

– Heç, işim var idi, – dedi.

Güləsər ona xüsusi maraqla baxırdı. Baxışlarında adamın içini titrədən cəzbedici məna vardı. Firdovsi istər-istəməz ürəyindən keçirdi ki, görəsən, bu ərköyün qız hamıya belə baxırmı. Yəqin ki... Sənanın Güləsər barədə dedikləri yadına düşdü: "Gündə biri ilə gəzən qız nəyimə lazımdır..."

Amma gözəl gözləri var idi Güləsərin. Süzgün, badamı gözlər... Rəngi isə... Firdovsi əvvəllər onu açıq səma rənginə bənzətmişdi, əslində isə boz idi, deyəsən. Açıq boz... Çox nadir rast gəlinən bu göz rəngi əslində mavi rəngin bir növünə aid idi. Mavi-boz gözlər... Haradasa oxumuşdu ki, belə gözə malik qızlar cazibədar, coşqun və ünsiyyətcil olurlar. İnsanlarla çox tez dil tapırlar. Kinli olmurlar. Mənfi tərəfləri isə bu idi ki, şıltaq olurlar, bir də hər şeyə tez öyrəşib tez də soyuyurlar... Bütün bu xarakterlər Güləsərə necə də uyğun gəlirdi...

Scanned by CamScanner

– Sənə bir işimiz düşüb, – Yaqut dilləndi.

– Nə iş? – bir gözü Güləsərdə olan Firdovsi soruşdu.

– Birinci kursları yayda Krasnodara aparırlar axı. Tələbə-inşaat dəstəsinə. Pasportlarını da indidən alıblar. Deyiblər ki, kim bu tədbirdən yayınsa, Krasnodara getməsə, universitetdən qovulacaq. Ancaq Güləsərin vəziyyəti elədir ki, gedə bilmir. Sən ona kömək edə bilərsən?

Əslində bu olduqca çətin iş idi. Universitetdə birinci kursu bitirən bütün tələbələri yay tətilində iki aylığa tələbə-inşaat dəstəsinə aparırdılar. Qızların hamısı, oğlanların fiziki cəhətdən nisbətən zəifləri və ya "dayı"sı olanlar Rusiyanın Krasnodar şəhərinə, oğlanların qalanı isə SSRİ-nin şimaldakı ən uzaq rus şəhərlərindən biri sayılan Arxangelsk şəhərinə. Krasnodara gedənlər konserv zavodunda, Arxangelskə gedənlər isə tikintidə fəhlə kimi çalışaraq bunun müqabilində azacıq əməkhaqqı alırdılar.

Firdovsi sonralar anladı ki, əslində bu da Azərbaycanın Rusiya tərəfindən istismar edilməsinin bir forması imiş. Yazıq tələbələr birinci kursu bitirib rayona – öz doğmalarının yanına istirahətə qayıtmaq əvəzinə gedib ruslar üçün işləyirdi. Və həmin iki ayda oradakı rus fəhlələrdən heç də az iş görməsələr də, onlarla müqayisədə qəpik-quruş alırdılar.

O zaman isə bunu anlayan yox idi. Rusiyaya getmək, orada yeni şeylər görmək bəzi tələbələrin özlərinə də maraqlı gəlirdi.

Scanned by CamScanner

Lakin təbii ki, tələbələrin çoxu tələbə-inşaat dəstəsinə qoşulmaq istəmirdi. Xüsusilə də qızlar. Birinci kursu yenicə bitirmiş qız uşağının belə yad, uzaq yerlərdə nə işi var idi axı?! Buna görə də may ayı gələn kimi hamı güclü "dayı" tapıb tələbə-inşaat dəstəsindən yayınmaq üçün özlərini tapşırtdırmağa çalışırdı. Bu işə məsul universitet komsomolunun rəhbəri Vaqif müəllim olduğu üçün "dayılar" əsasən onun yanına minnətə gedirdilər. Lakin ağız açanlar nə qədər nüfuzlu adamlar olsalar da, Vaqif müəllim onların yalnız üç-dördünə güzəşt edə bilirdi. Çünki bu, çox vacib dövlət tədbiri idi və birinci kurslarda oxuyan iki mindən çox tələbənin azı iki min nəfəri inşaat dəstəsinə göndərilməli idi.

Vaqif müəllim bir fəal ictimaiyyətçi tələbə kimi Firdovsinin xətrini istəyirdi. Amma nüfuzlu professorların sözünün keçmədiyi bir yerdə Firdovsi kim idi ki?!

– Niyə getmək istəmir? – deyə Firdovsi Yaqutdan soruşdu.

Yaqut onun sualına nədənsə gec cavab verdi:

– Gedə bilməz... Neftçalaya getməlidir yayda.

– Nə olsun, hamı istəyir yayda öz evində olsun, ancaq bu məcburi tədbirdir axı. Özün dedin ki, getməyənləri qovmaqla hədələyirlər. Mən burada nə edə bilərəm?

–Vaqif müəllimə desən, sözünü yerə salmaz. Xahiş edirəm. Nə olar... Mənim xətrimə...

Firdovsi dönüb Güləsərə baxanda bu dəfə onun boz-mavi gözlərində yalvarışa bənzər bir şey oxudu.

Scanned by CamScanner

Ancaq doğrudan da bu qızın gözləri çox cazibədar idi. Birdən-birə iki il əvvəl Arxangelskdə tanış olduğu Nataşanı xatırladı. İndiyə kimi yaxın əlaqədə olduğu yeganə qızı. Onun da gözləri buna bənzəyirdi. Amma yox, onun gözləri əksər rus qızlarında olduğu kimi göy rəngə çalan mavi idi. Güləsərin gözləri isə tamam başqa...

Firdovsi də, otaq yoldaşları da birinci kursu bitirəndən sonra Arxangelskə getmişdilər. Universitetdən cəmi 30 nəfər idilər. Hamısı da oğlan... O uzaq şimal şəhərinə yetişənə kimi qatarla beş gün yol getdilər. Yaxşı yadında idi, həmin beş gündə qatarda tələbələr yalnız bir şeydən – Arxangelskdə rus qızlarını necə "bişirəcəklərindən" danışırdılar. Hamı həsrətlə gözləyirdi ki, bu uzaq şimal şəhərinə tez yetişsinlər və dərhal bir qız tapıb onunla tanış olsunlar.

Bu dörd otaq yoldaşından rus dilini nisbətən yaxşı bilən Qəşəm idi. Firdovsi ilə Sənan fikirlərini birtəhər izah etməyi bacarırdılar. Oruc isə rus dilində bircə kəlmə də bilmirdi.

Firdovsi elə şəhərə çatdıqları gün, əşyalarını yataqxanada yerləşdirib şəhərə çıxan kimi Nataşa adlı 16 yaşlı qəşəng bir qızla tanış oldu. Sadəcə, yaxınlaşıb parkda rəfiqəsi ilə əyləşmiş qızın yanında oturdu və dili dolaşmamaq üçün rus dilində bir neçə dəfə məşq etdiyi "Sizinlə tanış olmaq olarmı?" cümləsini işlətdi. Bununla da iş düzəldi. Qız dərhal adını dedi. Sonra isə səmimi söhbətə başladılar.

Sənan onun qədər olmasa da, xarici görkəmcə gözəgəlimli idi. İki gündən sonra o da özünə Sveta

Scanned by CamScanner

adlı birini tapdı. Qəşəm rus dilini yaxşı bilsə də, qızlarla dil tapmaqda çətinlik çəkirdi. Yalnız dördüncü gün 28 yaşlı bir fəhlə qadınla "dostluq" münasibəti qura bildi.

Oruc bədbəxtin isə işi çox çətin idi. Nə adam arasına çıxarılası babat görkəmi, sir-sifəti vardı, nə də dil bilirdi. Hələ qatarda ikən rus dilində üç cümlə əzbərləmişdi: "Sənlə tanış olmaq olarmı?", "Mənim adım Oleqdir", bir də "Xahiş edirəm, gəl bura keçək..."

Rus qızlarının tez yola gəlməsi barədə eşitdiklərini əslində səhv anlamış Oruc əzbərlədiyi üçüncü cümlədə "bura" deyəndə çox güman ki, hansısa xəlvəti bir künc-bucağı, yaxud kolluğu-filanı nəzərdə tutmuşdu. Lakin orada keçirdikləri iki ayın sonuna kimi Orucun bu bəsit yanaşma "taktikası" bir dəfə də olsun işə yaramadı, o, nəinki qızlarla, heç yaşlı arvadlarla da tanışlıq yarada bilmədi...

– Hə, nə deyirsən? – Yaqut təbəssümlə dilləndi. – Bax, əgər bu işi düzəltsən, Güləsər sənin yaxşılığını heç vaxt unutmaz. O da sənin xətrini çox istəyir, vallah...

Firdovsi:

– Yaxşı, bir sınayaram görək nə olur, – dedi və düşündü ki, bu barədə Vaqif müəllimə ağız açar.

– Bax, belə! – Yaqut sevincək səsləndi. – Bir dənəsən e, sən!

Güləsər isə utancaq halda gülümsəyib başını özünəməxsus işvəkar jesti ilə yana atdı və:

Scanned by CamScanner

– Çox sağ ol, – dedi...

Firdovsi elə həmin gün birinci növbənin dərsləri bitən kimi alt mərtəbəyə enib universitet komsomol katibinin kabinetinə girdi və sıxıla-sıxıla dilləndi:

– Vaqif müəllim, xalam qızı biofakın birinci kursunda oxuyur. Anası rayonda xəstə olduğu üçün Krasnodara getmək istəmir. Xahiş edirəm, əgər mümkündürsə...

Sözünü tam bitirməmiş katib nədənsə güldü:

– Hələ bir de görüm, bu xalan qızı hansı rayondandır?

– Neftçaladan... – dedi.

– Maşallah, sənin hər rayonda xalan varmış, hamısının da qızı bizim universitetdə oxuyurmuş ki...

Firdovsinin qəfildən yadına düşdü ki, bu dərs ilinin əvvəlində əslən Qazaxdan olan mexmat tələbəsi Fazilənin yataqxana problemi üçün də Vaqif müəllimə ağız açmış, onu da xalası qızı kimi təqdim etmişdi.

Deməyə bir söz axtarırdı ki, komsomol katibi dilləndi:

– Yaxşı, ta sənsən də... Əməkdaşlara mənim adımdan de, xalan qızının adını siyahıdan çıxarsınlar. Pasportunu da al ver qızın özünə.

Firdovsi sevincək halda kabinetdən çıxıb digər otaqda ona lazım olan əməkdaşa yaxınlaşdı. Güləsərin adını tələbə-inşaat dəstəsi tərkibində Krasnodara gedəcək tələbələrin siyahısından pozdurub pasportunu aldı. Oradan çıxan kimi biofaka qaçdı ki, qızı sevindirsin. Lakin həmin vaxt Güləsər artıq dərsini

Scanned by CamScanner

bitirib evə getmişdi. Buna görə də çarəsiz qalan Firdovsi pasportu özü ilə yataqxanaya aparmalı oldu.

Nədiməni isə bir də səhəri gün görə bildi. Qız yaman kədərli və susqun görünürdü. Onunla dəhlizdə qorxa-qorxa yalnız bir neçə kəlmə danışdı. Sonra da xahiş etdi ki, Firdovsi bir müddət universitetdən kənarda ona yaxınlaşmasın.

Qarşıdan isə uzun yay tətili gəlirdi...

6

Firdovsi növbəti dərs ilinin başlaması ərəfəsində Nədiməni görmək ümidi ilə Bakıya bir qədər tez gəldi. Haradasa avqustun 25-i olardı. Yataqxana işini həll edəndən sonra hər gün bir neçə dəfə Yasamaldakı köhnə məhəlləyə qalxır, lakin qızgilin evinin qarşısından dəfələrlə keçməsinə baxmayaraq, onu görə bilməyib kor-peşman yataqxanaya qayıdırdı. Axırda öz qismətini görə bilmək üçün sentyabrın 1-ni – universitetdə dərslərin başlanacağı günü gözləməkdən başqa çarəsi qalmadı.

Yay tətilini Oğuzda keçirmişdi. Öz kəndlərində. Anası hərdən durub həyətdə gəzsə də, çox halsız idi. İş görməyə taqəti qalmamışdı. Ona görə də bütün ev işləri bacısı Nazlının üzərinə düşürdü. Kənd yerində də ev işləri bitib-tükənən deyildi. Xörək bişirmək, bulaqdan su gətirmək, paltarları yumaq,

Scanned by CamScanner

toyuqlara dən səpmək, inəyi sağmaq, nehrə çalxamaq, bostana qulluq etmək və daha nələr, nələr... Bütün günü ora-bura qaçan yazıq qızcığaz hələ üstəlik, qardaşı hər dəfə çağıranda "can" deyərək hay verib onun buyruğunu yerinə yetirməyə tələsirdi.

Firdovsinin isə həmin günlər bütün fikri-xəyalı Bakıda – Nədimənin yanında qalmışdı. Elə hey onun barəsində düşünürdü. Artıq anasına da, bacısına da Tanrının əbədilik olaraq bəxtinə yazdığı bu qız barədə danışmışdı. Onu o qədər tərifləmişdi ki, Səbirə gələcək gəlinini, Nazlı isə gəlinbacısını görməyə tələsirdilər.

Heyif ki, Nədimənin fotosunu alıb özü ilə kəndə gətirməyi unutmuşdu. Həm anasıgilə göstərər, həm də darıxanda özü baxardı. Darıxanda deyəndə ki, darıxmadığı dəqiqəsi heç olmurdu. Gündüzlər həyətdəki iri tut ağacının kölgəsində, axşamlar yatağında uzanıb Nədimənin qara gözlərini, qarabuğdayı üzünü, bir qədər nazik, amma xarakterik cizgili dodaqlarını gözləri önünə gətirirdi.

Hərdən isə bekarçılıqdan Güləsərin pasportuna baxırdı. Bu qırmızı cildli sovet pasportunu Bakıda sahibinə verməyə imkan olmadığı üçün özü ilə kəndə gətirmişdi. Birinci səhifədəki fotoya baxdıqca içində öz-özünə etiraf edirdi ki, bu neftçalalı qız Nədimədən də gözəldir. İki-üç il bundan əvvəl, qızın 16 yaşında çəkdirdiyi bu fotoda onun olduqca şirin, məsum görünüşü vardı. Və mavi-boz rəngli badamı gözlərindən nədənsə qəmginlik yağırdı...

Scanned by CamScanner

Hə, Güləsər Nədimədən gözəl idi. Amma nə olsun?! Taleyi Firdovsinin bəxtinə onu yox, Nədiməni yazmışdı. Nədimə ona Uca Tanrının hədiyyəsi idi. Anası da həmişə demişdi ki, ailə qurmaq üçün çox gözəl qız axtarma, gözəl qızlar adətən sədaqətli olmurlar...

Maraqlıdır, Sənan bu qızdan niyə birdən-birə imtina etdi, görəsən? Ona görə ki, özünün dediyi kimi, Güləsər gündə bir oğlanla gəzənlərdəndir? Deyirdi ki, Güləsər ona yaxınlaşmağa cəhd göstərir. Əgər belə idisə, bu qızla ən azı xoş saatlar keçirə bilərdi. Sənanın Arxangelskdə tanış olduğu Svetadan nəyi əskik idi Güləsərin? Əlbəttə, heç nəyi! Qat-qat üstün idi ondan. Həm üz gözəlliyi, həm də fiqurası ilə. Hələ bu badamı gözlər... Bu gözlərin dünyada tayı-bərabəri yox idi...

Əlbəttə, şəxsən Firdovsinin özü elə şey etməzdi. Yəni sadəcə, gəzmək, əyləncəli vaxt keçirmək xatirinə hansısa azərbaycanlı qızın adına söz çıxarmaq istəməzdi. Rus qızları tamam başqa idi. Onların mentalitetində müxtəlif oğlanlarla gəzmək, öpüşmək, hətta eyni yatağa girmək qeyri-əxlaqi bir şey hesab olunmurdu. Bunlar öz yerində... Ancaq onun tanıdığı Sənan xoşuna gələn bir azəri qızı ilə əylənmək istərdi axı. Güləsər kimi qəşəng qızı bəs niyə bəyənmədi?

Firdovsi hələ rayona gəlməmiş Yaquta demişdi ki, Güləsərin işi düzəlib, Neftçalaya – valideynlərinin yanına arın-arxayın gedə bilər. Lakin həmin vaxt

Scanned by CamScanner

qızın pasportu üstündə deyildi, bu səbəbdən onu Yaquta verə bilməmişdi.

O zamanlar dərslər indiki kimi sentyabrın 15-də yox, 1-də başlayırdı. İlk dərs gününün böyük tənəf- füsündə biofakda Güləsəri tapıb pasportunu özünə qaytardı. Dedi ki, tələbə-inşaat dəstəsində iştirak etmədiyi üçün universitetlə heç bir problemi olma- yacaq. Həmin an qız sevincindən ona minnətdarlıq etməyə söz tapmırdı...

Ancaq Firdovsiyə elə gəldi ki, Güləsər nədənsə bir qədər arıqlayıb, yorğun-əzgin görünür... Heç yay tətili boyu istirahət edənə oxşamırdı. Firdovsi bunu hiss etsə də, heç nə soruşmadı. Güləsərin ürə- yinin dərinliklərindən gələn təşəkkürlərinə, sadəcə, "dəyməz" deyərək ondan ayrıldı.

Nədimə ilə hələ birinci dərs başlamamış kitabxa- naçılıq fakültəsinin dəhlizində görüşmüşdü. Qəri- bədir, o da Firdovsinin gözünə çox zəifləmiş kimi göründü. Sanki bir az da arıqlamış, rəngi avazımış- dı. Ağır xəstəlik keçirmiş adama oxşayırdı. Firdovsi qızdan bu halının səbəbini soruşanda ağlabatan bir cavab verə bilmədi, dedi ki, heç nə olmayıb, sadə- cə, özünü bir az halsız hiss edir, vəssalam. Qərara gəldilər ki, sonuncu mühazirəyə girməyib Elmlər Akademiyasının yaxınlıqdakı bağında görüşsünlər...

Kölgəlikdəki skamyaların birində yanaşı otur- muşdular. Qarşılarından Akademiyanın əməkdaşla- rı, universitet müəllimləri və tələbələr keçib-gedir, hər kəs öz işinə-gücünə tələsirdi. Sadəcə, vaxt keçir- mək üçün gəzişənlər də vardı.

Scanned by CamScanner

Nədimə ətrafa boylanıb qəmli halda gülümsədi:

– Atam, ya qardaşım bizi burada görsələr, məni öldürərlər.

– Niyə belə deyirsən axı?! – Firdovsi narazılıqla başını yellədi: – Biz nə pis iş görürük ki?

– Bizim ailədə həmişə ciddi qayda-qanun olub, – qız izah etdi. –Təsəvvür elə ki, uşaqlığımdan indiyə kimi məni küçəyə çıxmağa qoymurlar. Ancaq evdən məktəbə, məktəbdən evə, vəssalam. Mağazaya-filana da getməmişəm. Atamın çox ağır xasiyyəti var. Anam dindardır, başını bağlayır, mənə də deyir bağla, ancaq universitetdə buna icazə verməzlər deyə çox üstümə gəlmir. İntiqam isə qəlbiqaralıqda, qısqanclıqda atamdan da betərdi. Heç universitetdə oxumağımı da istəmirdi. O gün gördün də bizi bir yerdə görəndə necə qızışıb özündən çıxmışdı. Hələ evə gedəndən sonra ata-anamın gözünün qabağında məni döydü də... Əvvəl belə deyildi. Avara məhəllə uşaqlarına qoşulub nəşə çəkməyə başladı. Heç yerdə işləmirdi. Bir dəfə nə eləmişdisə, az qala tutacaqdılar, atam pul verib qurtardı. Hə, yeri gəlmişkən, deyim ki, atam özü bir dəfə həbsdə yatıb. Adam bıçaqlamaq üstündə... İntiqam indi bir ildir ki, ağıllanmaq istəyir, özünə iş tapıb. 50 yaşında Həzi adlı bir qonşumuz var, suvaq ustasıdır. İntiqam indi həmin Həzinin əlinin altında fəhlə işləyir.

Firdovsi taleyinə yazılmış sevimli varlığı çox diqqətlə dinləyirdi. Ona elə gəlirdi ki, yanında oturmuş bu qız həyatda ona ən doğma olan insandır.

Scanned by CamScanner

Anası qədər, bacısı Nazlı qədər doğma... Hələ bəlkə bir az da artıq... Və bu doğma varlıq o qədər də xoş olmayan bir mühitdə yaşayır, ailəsinin nadanlığından əzab çəkir. Onu bu mühitdən qoparmaq, xoşbəxt eləmək Firdovsinin vəzifəsi idi. Həm də Tanrının özü tərəfindən ona tapşırılmış vəzifə...

Qızın əlindən tutmaq istədi. Görəsən, pis çıxmazdı ki? Yəni hələ tez deyildi ki? Ancaq niyə də tez olsun? Onlar artıq bir-birilərini anlayırdılar. Nədimə bilirdi ki, bu oğlan ondan nə istəyir və əgər dərsdən qaçıb onunla bu bağa gəlmişdisə, deməli, o da öz gələcək həyatını Firdovsi ilə birgə yaşamağa razı idi.

Bu fikirlə cəsarətlənib qızın əlindən nəvazişlə tutdu. Nədimə əvvəlcə diksindi, sonra ona baxıb qəmgin-qəmgin gülümsədi və əlini çəkmədi. Bunu görən Firdovsi sevgilisinin əlini bu dəfə daha artıq cəsarətlə sığalladı:

– Nədimə, bunu bil ki, sənin barəndə fikrim çox ciddidir, – dedi. – Evdəkilərə də səndən danışmışam. Anam səni uzaqdan-uzağa, üzünü görmədən sevməyə başlayıb... – Çöhrəsi birdən-birə işıqlandı. – Hələ Nazlı bacım... Çox yaxşı qızdır. İnşallah, bilirəm ki, sən də onu sevəcəksən. Bəlkə inanmayacaqsan, amma sənin adın yayda evimizdə hər gün çəkilirdi. Məsələn, Nazlı nəsə bişirirdi, deyirdi kaş Nədimə da indi burada olaydı, mənim bişirdiyim bu xörəkdən yeyəydi. Anam xəstədir axı. Hərdən bir az bədbinləşirdi, deyirdi kaş toyunuzu görəydim. Bir dəfə elə bədbin vaxtında gördüm ki, qızıllarını ortaya

Scanned by CamScanner

töküb Nazlıya vəsiyyət edir. Deyir ki, bu üzük, bu saat sənin olsun, ancaq əgər görə bilməsəm, bu üzüyü, qolbağı və boyunbağını Nədiməyə verərsən...

Nədimə güldü:

– Onda mən artıq varlıyam ki...

– Həə... – Firdovsi də onun sözünə güldü.

Və bu an qız birdən-birə ciddiləşdi:

– Firdovsi, əgər biz evlənsək, sizin kənddə yaşayacağıq?

– Hə, – Firdovsi cavab verdi, – Nazlı nə vaxtsa çıxıb ərə gedəcək, anamı o vəziyyətdə tək qoya bilmərəm...

– Tək niyə olur, atan var, – Nədimə dedi.

– Atam da qocalır daha. Həm də işi-gücü çoxdur... – Firdovsi birdən nə düşündüsə, qızın əlini sığallamağını saxlayıb onun üzünə baxdı: – Nədir, yoxsa sən kənddə yaşamaq istəmirsən? Bizim kəndimiz çox səfalı, gözəl kənddir. Acığın gəlməsin, sizin Yasamaldakı məhəllənizdən hər üzünə yaxşıdır.

Nədimə duruxdu:

– Yox... Mənim üçün fərqi yoxdur, şəhər olsun, ya kənd olsun, əsas odur ki, sənin lə bir yerdə olaq...

Bu, artıq sevgi etirafı idi. Firdovsi hələ ona konkret olaraq sevgisini bildirib "səni sevirəm" deməmişdi. Və əslində bu qızı doğrudan da sevirdimi? Bunu hələ özlüyündə dəqiqləşdirə bilmirdi. Nə anlayırdı axı sevmək nədir?! Arxangelskdə Nataşanı qucaqlayıb bağrına basanda, ehtirasının ən şiddətli anlarında qıza dəfələrlə "ya tebya lyublyu" demişdi. Lakin

Scanned by CamScanner

onun əqidəsinə görə, bu sözlər Azərbaycan dilinə tərcümədə "mən səni sevirəm" mənasını versə də, tamam ayrı məfhumları ifadə edirdi. Bəli, bir rus qızına "lyublyu" deyərək qəlbini müvəqqəti ələ almaq, beləliklə, vücuduna sahib olmaq böyük qəbahət deyildi. Azəri-türk qızına isə "səni sevirəm" demək üçün aylarla ciddi düşünmək lazım gəlirdi. Çünki bu qızların vücudları kimi qəlbləri də bircə dənə idi və onu kiməsə verəndə yerində heç nə qalmırdı...

Görəsən, Firdovsi yanında oturmuş, öz əlini onun əlinə vermiş bu qızı sevirdimi? İçində ona qarşı keçirdiyi ülvi hissləri sevgi adlandırmaq olardımı? Yəqin ki, olardı... Firdovsi bütün yay tətili günlərində yalnız Nədiməni düşünmüşdü. Bu, məgər sevgi deyildimi? Bir də ki, əgər söhbət ailə qurmaqdan, anasına gəlin gətirməkdən gedirdisə və bu gəlinin Tanrının öz diqtəsi ilə Nədimə olduğu artıq məlum idisə, daha bu qədər düşünüb baş sındırmağa nə gərək vardı? Nədiməni taleyinin qismәti, gələcək ömür-gün yoldaşı, gələcək övladlarının anası kimi qəbul etmiş Firdovsi "səni sevirəm" sözünü gedib başqasına deməyəcəkdi ki...

Düşündü ki, o sözü Nədiməyə deməyin əsl vaxtıdır və qurumuş dodaqlarını yalayıb astadan dilləndi:

– Nədimə...

– Hə... – qız utancaqlıqla gülümsədi.

– İstəyirəm biləsən ki...

– Nəyi?

– Mən səni sevirəm!

Scanned by CamScanner

Bu sehrli kəlmələr Nədiməyə onun gözlədiyindən də artıq təsir elədi. Qız bu sözlərdən əməlli-başlı məst olmuşdu. Başını oğlanın çiyninə qoydu, ona qısıldı və həzin səslə pıçıldadı:

– Mən də... Mən də səni sevirəm, Firdovsi...

Nədimənin sözləri, Firdovsiyə qısılması ona sanki dünyaları bəxş etdi. Ancaq qızın bu hərəkətindən eyni zamanda bir qədər də ehtiyatlandı. Akademiyanın həyətində idilər. Gəlib keçən adamlar onları görürdü.

Sevgilisinin üzünün təması nə qədər xoş olsa da, Firdovsi bu bəxtəvər anlardan imtina edib qızın başını ehmalca özündən araladı. Yəni həmin vaxt bunu bacardı...

Sonrakı görüşlərində də arada pərdə saxlamağa çalışırdılar.

Lakin iki ay sonra, həmin yerdə...

Bu günə kimi anlaya bilmirdi: Əhəd müəllimin, Səbirənin ciddi tərbiyəsini görmüş Firdovsi axı necə oldu ki, elə bir əxlaqazidd hərəkət etdi?

Əxlaqazidd? Bəli, əlbəttə, azərbaycanlı əxlaqına zidd! O hərəkəti Rusiyada və ya hansısa Qərb ölkəsində etsəydi, bu, o yerlərin əxlaq qanunlarına zidd sayılmazdı. Amma bura Azərbaycan idi axı!

Yenə sonuncu dərsə girməyib həmin bağa gəlmiş, həmin skamyada oturmuşdular. Noyabrın əvvəlləri olsa da, Bakıda havalar mülayim keçirdi. Qızın əynində uzun yubka, yaxası düyməli köynək və nazik gödəkcə vardı. Köynəyinin yuxarıdan iki düyməsi

Scanned by CamScanner

açıq idi. İndi onlar artıq bir-birilərini sevgili hesab edir, gələcək ailə həyatlarından danışırdılar.

Yan tərəfdəki skamyaların birində 35 yaşlarında bir kişi oturub qəzet oxuyurdu. Qarşıdan adamlar gəlib keçirdi. Firdovsi Nədimənin əlindən tutmuşdu. Sonra necə oldusa qız ona bir az da yaxın oturdu. İki ay əvvəl həmin bu yerdə olduğu kimi başını onun çiyninə qoydu.

Firdovsi bu hərəkətdən yenə duyğulandı. Axı başını onun çiyninə qoymuş bu qız taleyinin qismәti, Tanrının ona əmanəti idi! Keçən dəfəki kimi dərhal qızı özündən kənarlaşdırmaq istəmədi. Qorxdu ki, qəlbinə dəyər. Qarşılarından gəlib keçən adamlara oğrun nəzərlərlə baxdı. Onların heç biri skamyada əyləşmiş bu gənc cütlüyə laqeyd qalmır, hamısı ani də olsa dönüb onlara baxırdı. Bəli, bura Azərbaycan idi...

Sonra Nədimə başını onun sinəsinə doğru sürüşdürdü. Ehtiraslı və ölgün bir səslə:

– Səni çox sevirəm, Firdovsi! – dedi.

Firdovsi sağ əli ilə onun başını azacıq qaldırdı və bu zaman köynəyinin üçüncü düyməsinin də açılmış olduğunu gördü. Qızın kiçik döşləri və qırmızı rəngli lifciyi gözünə sataşanda səsi titrədi:

– Mən səni daha çox sevirəm, Nədimə, – dedi və onun qurumuş dodaqlarından öpməyə başladı.

Eynən iki il əvvəl Nataşanın öyrətdiyi kimi, əsl intim kişi öpüşü ilə öpürdü. Firdovsi bu rus qızını ilk dəfə öpəndə qız ona demişdi ki, Fedya, sən əsl

Scanned by CamScanner

kişi kimi öpüşməyi bacarmırsan, elə öpürsən, sanki körpə uşaq anasını yalayır...

Lakin tez də özünə gəlib geri çəkildi. Axı bura ictimai yer idi. Akademiyanın həyəti idi. Onları görürdülər.

Bakıda gənclərin parkda və digər ictimai yerlərdə öpüşməsi əxlaqsız hərəkət sayılırdı. Bunu anlamaq olardı. Başqalarının gözü baxa-baxa bir-birinə sarılıb ehtirasla öpüşmək, intim hərəkətlər etmək, tərbiyəsizlik bir yana dursun, "intim" sözünün gizlilik mənasına da zidd idi.

Əslinə qalsa, sovet əxlaqında gənclərin ailə qurmazdan öncə hətta mənzildə, meşədə, düzənlikdə, bir sözlə, hər hansı qapalı yerdə də öpüşməsi qəbahət və əxlaqazidd əməl sayılırdı. Bu qadağa yerli və xarici dillərdən tərcümə olunmuş ədəbiyyatda da, ölkəyə idxal olunan filmlərdə də özünü göstərirdi. O zamanlar sovet Azərbaycanına xaricdən, demək olar, yalnız Hindistan filmləri gətirilirdi ki, onlarda da öpüşmə səhnələri yerli-dibli olmurdu.

Bəli, həqiqətən belə idi. Lakin qəribədir ki, həmin bu sovet Azərbaycanının paytaxtı Bakıda, qeyri-rəsmi olaraq, doyunca öpüşmək, hətta bir az da qabağa gedərək cinsi əlaqəyə girmək üçün rahat bir məkan yaradılmışdı. Bu, şəhərin ən hündür yerində yerləşən Kirov adına Dağüstü Park idi. Burada yaşıl xiyabanlar boyu sıralanan skamyaların arasını daşla hörüb onları bir-birilərindən təcrid etmişdilər. Bu da öpüşmək, ehtiraslarını söndürmək istəyənlərin işini asanlaşdırmaqdan savayı bir məqsəd daşımırdı.

Scanned by CamScanner

Firdovsi çox sonralar, yalnız ölkəsi müstəqillik qazanandan sonra anladı ki, Kirov parkındakı bu "azadlıq" səbəbsiz deyilmiş. Sən demə, bu park kommunistlərin özünə düşmən saydığı Xalq Cümhuriyyəti dövründə Azərbaycanın qeyrətli övladlarının və Türkiyədən bura qardaş köməyinə gəlmiş qəhrəman əsgərlərin uyuduğu müqəddəs məzarlıq – Şəhidlər Xiyabanı olub... Deməli, sovet dövləti türklərin ölülərindən də intiqam alırmış. Sən kinin-küdurətin, düşmənçiliyin dərəcəsinə bax...

Firdovsi bir də onu gördü ki, bir polis leytenantı düz onlara tərəf gəlir. Daha doğrusu, milis leytenantı. O vaxt xarici ölkələrdən fərqli olaraq sovetlərdə asayişi qoruyan poqonlulara polis yox, milis deyirdilər. Bayaq yan skamyada oturub qəzet oxuyan gənc kişi də onlara doğru gələn bu milis leytenantının yanında idi.

Firdovsi hələ kənddə olandan, yeniyetməlik yaşlarından milisdən qorxurdu. Belə düşünürdü ki, onlardan adama heç vaxt xeyir gəlməz. Çünki kimi istəsələr, tutub milis şöbəsinə aparar, ayaqlarının altına salıb döyər, sonra da "içəri ata" bilərdilər. Həbsxana isə uşaqlıqda ondan-bundan eşitdiklərindən beyninə yerüstü cəhənnəm kimi həkk olmuş və illər keçdikcə bu düşüncəsi dəyişməmişdi.

İndi milis zabitinin düz onların üstünə gəldiyini görəndə özünü yığışdırdı. Yəni əslində içdən özünü yığışdırdı. Qorxusundan düşünmək qabiliyyətini elə itirmişdi ki, oturuşunu heç dəyişmədi. Ayağını ayağının üstünə necə aşırmışdısa, eləcə də qaldı.

Scanned by CamScanner

Nədimə isə deyəsən, ilk növbədə yaxasının açılmış üçüncü düyməsini bağlayırdı.

Gəlib onlara yetişdilər və bayaq qonşu skamyada qəzet oxuyan kişi onları göstərib əsəbi halda dedi:

– Bunlardır, yoldaş leytenant, bayaqdan burada heç kəsdən utanıb-çəkinmədən öpüşürlər.

Firdovsi ani olaraq hiss etdi ki, bir az əvvəlki adam deyil. Bəli, buna başqa ad vermək olmazdı, o, qorxu və həyəcandan titrəyib-eləmirdi. Heç qızarmamışdı da. Çox sakit idi və yenə ayağını ayağının üstündən götürmədən sakitcə onlara baxırdı.

Qəşəmin bığları kimi topa bığları olan dolu bədənli milis leytenantı üzünü birbaşa ona tutub qəzəblə soruşdu:

– Bu nədir ə, ictimai yerdə əxlaqsız hərəkət edirsən? Qalxın ayağa, ikiniz də mənimlə bölməyə gedəcəksiniz!

Bu, əslində onu qarşıda gözləyən dəhşətli rüsvayçılığın ilk siqnalı idi. Təsəvvür edin ki, onları milis bölməsinə aparırlar. Universitetə və valideynlərinə xəbər verirlər. Firdovsinin Bakıda bir nəfər belə olsun imkanlı, sözükeçən adamı yox idi. Deməli, milisin təqdimatı ilə onu universitetdən də qovurlar...

Amma qəribədir ki, o, həmin an bunları düşünmürdü və heç tövrünü də pozmamışdı. Leytenantın gözlərinin içinə baxaraq:

– Biz nə edirik ki? – deyə soruşdu.

Sual da, onun verilmə tərzi də həm milis işçisi, həm də onu bura gətirmiş gənc kişi üçün gözlənilməz

Scanned by CamScanner

idi. Leytenant psixoloji olaraq bir anlıq "səntirlədi". Lakin tez də özünü düzəldib, poqonlarının ona verdiyi səlahiyyəti yada salaraq hökmlə dilləndi:

– Çox pis hərəkət edirsiniz!

– Xeyr, lap yaxşı hərəkət edirik.

Əvvəlkindən də sakit tərzdə deyilmiş bu sözlər Firdovsi tərəfindən vurulan ikinci psixoloji zərbə idi. Heyrətlənmiş milis leytenantı səsinin tonunu bir qədər alçaltdı:

– Dedim ki, çox pis hərəkət edirsiniz!

Geriyə yol yox idi və Firdovsi bu barədə düşünə də bilmirdi. Keçirdiyi qorxu hissi onun beyninin reallığa xidmət edən fəaliyyət bölməsini tamam durdurmuşdu. İndi onu idarə edən beyninin alt qatındakı başqa bir bölmə idi. Və çox qəribədir ki, bu sirli bölmə onu həyəcanlanmağa qoymur, əksinə, getdikcə sakitləşdirirdi.

Milis leytenantının üzünə gülümsədi:

– Mən də sənə deyirəm ki, lap yaxşı hərəkət edirik!

Bu, artıq qarşılıqlı psixoloji savaşın pik nöqtəsi idi. Sonralar bu əhvalatı dönə-dönə xatırlayıb onu anlamağa çalışan Firdovsi bu qərara gəlmişdi ki, həmin an milis leytenantı əməlli-başlı qorxuya düşübmüş. Düşünübmüş ki, qarşısında oturub ayağını ayağının üstünə aşıran bu oğlan əgər belə danışırsa, deməli, arxasında ən azı hansısa qüdrətli nazir durur.

Məlum məsələdir ki, öz vəzifəsindən və poqonlarından məhrum olmaq istəməyən yazıq leytenant həmin an düşdüyü bu sarsaq vəziyyətdən çıxmaq üçün yollar axtarırmış.

Scanned by CamScanner

Bu zaman Nədimə özü də bilmədən onun köməyinə çatdı. Arada yaranmış gərginliyə dözməyən qız birdən ayağa qalxdı və qaçıb onlardan uzaqlaşdı. Onun bu hərəkəti, çox güman ki, "savaşı dayandırmaq üçün" leytenantın əlinə bəhanə vermişdi. O da dönüb burnunun altında: "Eyib olsun sizə", – deyərək, yanındakı adamla birlikdə Firdovsidən uzaqlaşdı...

Firdovsi sonralar düşünüb bu qərara gəldi ki, xəyalpərəst adamların beyninin gizli alt qatında onların yenilməz qəhrəman olması barədəki xəyalları, daha doğrusu, xülyaları toplanıb qalır. Bəzi məqamlarda beynin əsas üst qatı qorxudan, ya başqa bir səbəbdən fəaliyyətini donduranda həmin alt qat hakimiyyəti ələ alır və adamın bütün davranışını idarə edir. Məsələn, təxminən Servantesin Don Kixotu kimi...

Bir də ola bilsin ki, adamın uzaq keçmişindən gələn həqiqi qəhrəmanlıq nişanələri onun genində qorunub saxlanır və ciddi təhlükə anında alt qatda qalmış o genlər özünü göstərib adamı büsbütün dəyişir.

Bu lap itlə pişiyin məsələsinə oxşayırdı. İt pişiyi qovur ki, parçalayıb yesin. Qorxmuş pişik canını qurtarmaq üçün var qüvvəsi ilə qaçır. Elə bir an gəlir ki, itin ona çatdığını görən pişiyin qorxudan reallığı idarə edən beyin şöbəsi müvəqqəti dayanır və həmin alt qat işə düşür. Bu məqamda pişiyin beyni artıq öz pələng əcdadının beyni kimi işlədiyi üçün geri dönüb itə elə bir cəsarətli həmlə edir ki, it qorxusundan quyruğunu qısaraq əkilir...

Scanned by CamScanner

O gün Firdovsi böyük bir xətadan və rüsvayçılıq-dan qurtarsa da, taleyinin qismәti olan qıza qarşı o hərəkətinin verdiyi xəcalət hissi onu uzun müddət tərk etmədi. Həm də maraqlıdır ki, o, həmin işdə Nədiməni qətiyyən günahlandırmırdı. Tam əksinə, özünü onun qarşısında günahkar sayırdı. Bu səbəb-dən də bir-iki həftə qızın gözünə görünmədi...

7

Sonra yenə görüşdülər. Nədimə dedi ki, o gün utandığından az qala ölüb yerə giribmiş. Neçə gün özünə gələ bilməyibmiş. Qərara gəldilər ki, daha o xoşagəlməz hadisəni xatırlamasınlar və bir də elə şey təkrarlanmasın.

İndi Firdovsi tam əmin idi ki, Nədimə onun ta-leyinin qismətidir, ömürlük tale yoldaşıdır və onlar ölənə kimi bir-birilərinə bağlı olacaqlar.

Yenə tez-tez görüşürdülər. Və çox vaxt univer-sitetin boş auditoriyalarından birinə çəkilib orada söhbət edirdilər.

Fevral ayının 8-i idi. Bəli, bu tarix də Firdovsinin yaddaşına ömürlük həkk olunmuşdu: 8 fevral, 1984-cü il...

Dərsləri bitəndən sonra universitetin əsas korpu-suna körpü-dəhlizlə birləşdirilmiş II korpusa keçdilər. Bura humanitar fənlərin binası sayılırdı. Dördüncü

Scanned by CamScanner

mərtəbədəki boş auditoriyanın qapısını içəridən bağlayıb sərbəst söhbət etməyə başladılar. Sonra bir-birilərinə sarılıb doyunca öpüşdülər. Nədimə dəli bir ehtirasla oğlana sarılıb dodaqlarını onun ixtiyarına vermişdi. Daha doğrusu, Firdovsinin dodaqlarını öz ixtiyarına almışdı və arada yalnız bu kimi sözləri demək üçün ağzını oğlanın ağzından çəkirdi:

– Səni sevirəm. Sən mənim taleyimsən. Ömrümün sonuna kimi səndən ayrılmayacam. Səni heç kəsə verməyəcəm. Sən yalnız mənimsən, Firdovsi, yalnız mənim...

Bir qədər sonra Firdovsi hiss etdi ki, yalnız qızın arzusunu yerinə yetirmək üçün öpüşür. Çünki özü bundan artıq doymuşdu və içinə axan yad ağız suyu mədəsini bulandırırdı.

Bir də ayıldılar ki, hava qaralıb, auditoriyanın işığı yandırılmadığı üçün bir-birilərini çətinliklə görürlər. Bunu ilk olaraq anlayan Firdovsi qız üçün narahatlıq keçirdi:

– İndi yəqin evdə səni gözləyirlər...

– Hə... – ondan ayrılmaq istəməyən qız təəssüflə ah çəkdi.

– Gedək, – Firdovsi bunu deyərək ayağa qalxdı, – axşam düşüb, səni evinizə kimi ötürəcəm.

Bu korpusda axşam növbəsi vardı. Ona görə də onların bu vaxta kimi burada qalması heç kimin diqqətini cəlb etmədi. Tələsik birinci mərtəbəyə endilər. Qapıdan çıxaraq dinib-danışmadan Köhnə Yasamal məhəlləsinə doğru qalxmağa başladılar.

Scanned by CamScanner

Nədiməgilin həyət qapılarının qarşısından dar bir küçə keçirdi. Əslində isə bura küçə yox, dalan demək daha doğru olardı. Bu dalanda elektrik işığı olmadığı üçün axşamlar çox qaranlıq olurdu. Bu məhəlləyə təsadüfən gəlib çıxmış yad adamlar buradan keçəndə adətən xoflanır, qaranlıq dalanı tez keçib getməyə çalışırdılar.

Hər şey də elə burada baş verdi. Dalana yenicə girmişdilər ki, İntiqam qaranlıqda qəflətən qarşılarını kəsdi. Əlindəki təsbehi əsəbi halda oynadaraq, heç nə demədən onları süzürdü.

Onun qıyılmış gözlərindəki kəskin, xoşagəlməz ifadəni görən Nədimə qorxusundan dərhal Firdovsiyə sığındı. İntiqamın onlara zillənmiş baxışları burada az sonra nəsə pis bir şeyin olacağından xəbər verirdi. Firdovsi də qorxmuşdu. Ancaq qərara gəldi ki, burada ölsə də, taleyinin qisməti olan Nədiməni bu qansızın əlində buraxıb getməyəcək.

Nəhayət, İntiqam əvvəlcə bacısına müraciətlə dilləndi:

– Bu gecə vaxtı hansı cəhənnəmdən gəlirsən, ay tərbiyəsiz? Keçən dəfə ağzının-burnunun qanını az axıtdım deyə qudurdun? Gör indi sənin başına nə oyun açacam!

Qızın əvəzinə Firdovsi cavab verdi:

– Universitetdə tədbir vardı, Nədimə ona görə gecikdi. Qaranlıq düşdüyü üçün evə qədər ötürmək istədim. Onun heç bir günahı yoxdur...

– Sən səsini kəs, çuşka! – İntiqam barmağını silkələyib onu hədələdi. – Sənə keçən dəfə xəbərdarlıq

Scanned by CamScanner

etmişdim. Demişdim ki, bu qızdan kənar dur, bu sənin tayın deyil, get öz taymı axtar tap. Ancaq sən öz kəndçiliyinlə mənim sözümü vecinə almadın. İndi daha səni mənim əlimdən heç kəs qurtara bilməz. Elə burada bağırsaqlarını söküb ayaqlarına dolayacam!

Bunu deyib cibindən bıçağını çıxardı. Firdovsinin arxasında gizlənmiş Nədimə yenə dinib-danışmırdı. Vəziyyət olduqca gərgin idi. Firdovsi görürdü ki, İntiqam zarafat edənə oxşamır və onu vuracaq.

– İntiqam, özünə gəl, – dedi, – biz Nədimə ilə bir-birimizi sevirik. El adəti ilə evlənəcəyik.

İntiqam bəlkə yenə də nəşə çəkmişdi deyə onu eşidəcək halda deyildi. Yavaş-yavaş üstünə gəlirdi.

Bu zaman Firdovsinin ölüm qorxusu beynindəki reallıq bölməsini qapadı, alt qat işə düşdü və o, tədricən sakitləşməyə başladı. İndi yalnız bıçağı İntiqamın əlindən necə almaq barədə düşünürdü. Adil karate dərslərində bu məqsədlə onlara iki fənd öyrətmişdi. Birinci fənd bundan ibarət idi ki, sağ əlində bıçaq üstünə gələn adamın bıçaq tutan əlinə, biləyinə sağ ayağınla zərbə endirirsən, onun barmaqları bu zərbənin təsirindən dərhal boşalıb açılır və soyuq silah yerə düşür. Lakin bu fənd o zaman işə yarayardı ki, rəqibin səndən azı bir neçə metr aralı olsun. İndi isə İntiqam artıq Firdovsiyə çatmışdı və bıçağı onun qarnına soxmaq üçün qolaylanırdı.

Başqa yol görməyən Firdovsi məşqlərdə öyrəndiyi ikinci fəndə əl atdı. Baş barmaqlarını digər barmaqlarından aralayıb qollarını yana açdı. Sonra

Scanned by CamScanner

hər iki əli ilə cəld hərəkət edib rəqibin biləyindən yapışdı və onun qolunu burub öz başının üstündən sürətlə geri qaytardı. Hələ də İntiqamın əlində olan bıçağın tiyəsi yarıya kimi onun öz qarnına girdi...

Yaralı İntiqam yerində səntirlədi. Əli boşaldı, bıçağın dəstəyini buraxdı və böyrü üstə asfalta sərildi. Firdovsi qeyri-iradi olaraq cəld yaxınlaşıb bıçağı yaralının qarnından çıxardı. Heyrət və vahimə içində ona baxan qıza tərəf dönüb:

– Mən onu yaraladım, – dedi, – tez həkim çağırmaq lazımdır. Qaç evdən təcili yardıma zəng elə!

–Yox! – Nədimə etiraz etdi.

– Necə yəni yox? Keç atangilə xəbər ver, təcili yardıma zəng vursunlar.

– Onda milis səni tutar...

Həmin an əlləri ilə qarnını qucaqlayıb yerdə qıvrılan İntiqam da zarıyıb zəif səslə bacısına yalvardı:

– Sənə qurban olum, Nədimə, qaç ataya de, məni tez xəstəxanaya aparsın... Ölürəm... Tez ol!

Nədimə susub dayanmışdı. Ona baxan Firdovsi bu dəfə bir qədər tərəddüdlə dilləndi:

–Axı həkim gəlməsə, o öləcək!

Qız yaxınlaşıb yerdə uzanmış qardaşına nəzər saldı:

– Qoy ölsün! Sən çıx get, qorxma, onu sənin vurduğunu heç kəs bilməyəcək.

– Sən nə danışırsan, Nədimə?! – Firdovsi heyrətləndi. – Bu oğlan sənin qardaşındır axı...

Onlar pıçıltı ilə danışırdılar. Ancaq bu həyəcanlı pıçıltılar gecənin qaranlığını qılınc kimi kəsib-doğrayırdı.

Scanned by CamScanner

– Cəhənnəmə ki... – Nədimə hikkə ilə səslən-
di. – Günah özündə oldu. Qabağımıza çıxmayaydı.
Sənə deyirəm çıx get, sonra danışarıq. Qoy ölsün!
Bu zaman Firdovsinin gözləri qaranlıqda qızın
gözlərinə sataşdı və bu gecə ilk dəfə olaraq dərin va-
himə hissi keçirdi. Nədimənin gözləri qəribə şəkildə
parıldayırdı.

– Qoy ölsün! – deyə qız bir də təkrar etdi. – Sən
çıx get!

Qız elə hökmlə əmr edirdi ki, Firdovsi ona qeyri-
iradi tabe olaraq arxasına belə baxmadan oradan
tələsik uzaqlaşdı. Durmadan, sürətlə gedirdi. Yalnız
"Aspirantlar" kafesinin yanından keçib tələbə şəhər-
ciyinə girəndə İntiqamın qanlı bıçağını hələ də əlin-
də tutduğunun fərqinə vardı.

Sanki insan qanı tökməklə necə bir cinayət törətdi-
yini indi anladı. Yox, o, İntiqamı öldürmək istəmirdi.
Heç yaralamaq da istəmirdi. O, sadəcə, vurulacağını
görüb bildiyi özünümüdafiə fəndinə əl atmışdı. Həm
də düşünmədən, ani olaraq... Məqsədi də yalnız özü-
nü xilas etmək üçün bıçağı İntiqamın əlindən almaq
idi. Onun başqa yolu yox idi. Qaça bilərdimi? Yox,
qaça bilməzdi. Lap qürurunu tapdayıb qaçmağa cəhd
göstərsə də, İntiqam onu arxadan vuracaqdı...

Firdovsiyə elə gəldi ki, bu dəqiqə arxasınca milis
işçiləri düşüb və heç yataqxanaya yetişmədən onu
tutacaq, qollarını qandallayaraq aparacaqlar. Bütün
vücudunu titrətmə tutdu. Ətrafa göz gəzdirib gö-
zünə ilk sataşan səmtə – bəzək kollarına tərəf yüyür-
dü. Bıçağı kolluğa atıb yenə yan-yörəsinə boylandı.
Bəxtindən yaxınlıqda ins-cins yox idi...

Scanned by CamScanner

Yataqxananın qarşısında mexmatın ikinci kursunda oxuyan iki oğlana rast gəldi. Biri ona salam verdi. İndi onların kim olduğunu xatırlamırdı. Həmin oğlanların kim olduğunu nə onda, nə də həmin hadisədən bir neçə gün sonra yadına sala bilmədi. Çünki o vaxt gözünə heç nə görünmürdü.

Yataqxanaya girib öz mərtəbələrinə qalxdı. Əlüzyuma otağında əllərini, üzünü yuyub yalnız bundan sonra qaldığı otağa getdi. Yoldaşlarının üçü də otaqda idi. Salam belə vermədən keçib paltarlı halda öz çarpayısına uzandı. Onun qeyri-adi halı birinci Sənanın diqqətini cəlb etmişdi:

– Nə olub, Fedya? – deyə soruşdu.

Cavab vermədi.

– Ə, sənin ləyəm e, bu nə sir-sifətdir? Səni döyüblər?

– Heç nə olmayıb, – dedi.

Qəşəmlə Oruc onun çarpayısına yaxınlaşdılar.

– Vallah, sənə nəsə olub, – Oruc dilləndi.

– Dedim ki, heç nə olmayıb! – Firdovsi artıq əsəbiləşirdi.

– Mənə qulaq as, Firdovsi, – Qəşəm bir ağsaqqal ədası ilə dilləndi, – biz burada dörd yoldaşıq. Evimizi-eşiyimizi atıb rayondan bura oxumağa gəlmişik. Bir-birimizin dərdindən xəbər tutmasaq, halımız necə olar? Sən başına gələni de, bəlkə bizim də bir köməyimiz dəydi sənə...

Firdovsi dinmirdi. Gözləri qarşısında yalnız İntiqamın yerdə çapalayan, ölümlə çarpışan vücudu canlanırdı.

Scanned by CamScanner

– Qızla idin? – Oruc soruşdu.

Yenə dinmədi.

– Eşitmirsən, bir danış da! – Qəşəm səsini qaldırdı.

– Bəsdir, əl çəkin məndən! – Firdovsi birdən çığırdı. – Rədd olun başımdan! Gedin öz işinizlə məşğul olun!

– Mənim üstümə niyə qışqırırsan? – Qəşəm də əsəbiləşdi. – Demirsən demə, özün bilərsən! Can sənin, cəhənnəm Tanrının!

Firdovsi özünü həmin vaxt elə cəhənnəmdə hiss edir və Tanrıya yalvarırdı ki, onu bu cəhənnəmdən çıxarsın. Yalvarırdı ki, İntiqam ölməsin, sağalıb ayağa qalxsın. Ondan sonra lap əvəz çıxsın ondan, onu yüngülcə bıçaqlasın, amma ölməsin. İntiqam ölsəydi, onu tutacaqdılar. Lap Nədimə onu satmasa da, araşdırıb tutacaqdılar. Firdovsi isə həbsxanaya girmək istəmirdi. Özünün oradan qorxması bir yana dursun, həbs olunsaydı, anası bu dərdə dözməzdi...

8

Ertəsi gün yuxudan günortaya yaxın – saat 1-ə işləmiş ayıldı. Paltarlı halda çarpayıya uzanmışdı. Gicgahlarında küt ağrı vardı. Ona elə gəlirdi ki, başı şişərək böyüyüb.

Gördüyü dəhşətli yuxunu xatırladı. Guya bu gecə Köhnə Yasamalda İntiqamı bıçaqlamışdı. O qanlı hadisənin yuxuda baş verdiyini qəbul edərək az qala

Scanned by CamScanner

sevinəcəkdi ki, birdən acı həqiqət bütün çılpaqlığı ilə gəlib gözləri qarşısında durdu, onu silkələyib ayıltdı. Və hər şey yadına düşdü. Deməli, o müdhiş hadisə reallıqda baş vermişdi. İndi İntiqamı necə vurduğunu, onun yerə sərilərək yaralı halda necə çapaladığını aydınca xatırlayırdı.

Bəs sonra? Sonra o, həkim çağırmaq istədi, Nədimə qoymadı. Dedi ki, səni tutarlar... Dedi ki, qoy öl-sün, sən çıx get burdan... O da oğlanı qan içində çırpınan vəziyyətdə qoyub yataqxanaya gəldi. Belə-cə, çarpayısına uzandı. Yoldaşları onu durmadan sor-ğu-suala tutur, amma o, cavab verməyib susurdu. Sonra, deyəsən, Sənan dedi ki, yatmaq vaxtıdır, dur soyun yat. O, yenə qımıldanmadı. Uşaqlar işığı sön-dürdülər, soyunub yerlərinə girərək yatdılar.

Firdovsi isə yata bilmədi. Hər dəqiqə, hər saniyə qapının bərk-bərk döyüləcəyini gözləyirdi. Gözlə-yirdi ki, milis işçiləri gəlib onu aparacaqlar. İçində tamam ikiləşmişdi. İki Firdovsi vardı sanki. Birincisi Tanrıya yalvarırdı ki, İntiqam ölməsin. Deyirdi ki, o da insandır, yazıqdır, bu dünyaya gəlibsə, qoy qoca-lıb ölənə kimi yaşasın. Həm də ölsəydi, Firdovsini tutub azı 10 il iş kəsə bilərdilər. Yox, əgər ölməsəy-di, bəlkə də nə İntiqam özü, nə də valideynləri Nədiməyə görə şikayətçi olmazdılar...

İkinci Firdovsi isə bir qədər tərəddüdlə də olsa, İntiqamın ölümünü istəyirdi. Deyirdi ki, əgər ölsə, sirr bata bilər və hər şey yavaş-yavaş yoluna düşər. Əgər ölməsə, İntiqam ondan qisas almaq üçün bütün

Scanned by CamScanner

Yasamal uşaqlarını üstünə tökər, ya da şikayətçi olub tutdurar onu...

Belə fikirlərlə, deyəsən, bir də səhərə yaxın gözünə yuxu getmişdi. Səhər Orucun onu silkələyib oyatmaq istədiyini güclə xatırlayırdı. Onlar çaylarını içərək universitetə getmişdilər. Üstündəki adyalı yəqin axşam uşaqlardan biri sərmişdi. Onu kənara atıb yerindən qalxdı. Yağ, pendir, çörək, bulaşıq çay stəkanları, həmişəki kimi, yenə stolun üstündə eləcə qalmışdı, otaq yoldaşları onları yığışdırmamış getmişdilər. Firdovsi key nəzərlərlə əvvəl bu pərakəndə süfrəyə, sonra otağa göz gəzdirdi. Birdən ona elə gəldi ki, bu yataqdan sonuncu dəfə qalxır, bu otağa sonuncu dəfə tamaşa edir.

Və ağzıüstə çarpayıya uzanıb ağlamağa başladı...

Bir xeyli ağlayıb içini boşaldandan sonra ağır-ağır yerindən durdu. Azacıq yüngülləşsə də, vücudu hələ titrəyir, özünü canlı meyit kimi, ölgün və zəif hiss edirdi. Ayaqlarını sürüyə-sürüyə otaqdan çıxdı. Əlüzyuma otağına gedib əl-üzünü yudu. Otağa qayıdanda dəhlizdə yəqin ki, universitetdən qayıdan Babəklə üzləşdi. Ondan bir kurs yuxarı oxuyan bu oğlan onu təəccüblə süzərək:

– Firdovsi, dərsə getməmisən, xəstəsən? – deyə soruşdu.

– Hə, xəstələnmişəm, – deyə ölgün səslə mızıldandı.

– Nə olub ki?

– Soyuq dəyib...

Scanned by CamScanner

– Həəə... Uşaqlar gələndə kürəyinə banka qoydur.

Babək bunu deyib hansısa oynaq bir mahnını fit-lə çala-çala öz otağına getdi. Yəqin ki, onun üçün həyat özünün bütün gözəlliyi ilə davam edirdi. Firdovsi üçünsə zaman donmuşdu. Qarşıda onu han-sı dəhşətlərin gözlədiyini bilmir və bu ona cəhən-nəm əzablarından da betər gəlirdi.

Otağa qayıdıb süfrəyə baxdı. Nəsə yemək istədi, ancaq heç iştahı yox idi. Çaynikdəki boyat və soyuq çaydan süzüb bir-iki qurtum içdi. Keçib çarpayıda oturdu.

İndi Nədimə barədə düşünürdü. Qızın o qaranlıq dalanda qorxunc şəkildə parıldayan gözlərini xatır-ladı. Nədimə qardaşı barədə qorxunc bir pıçıltı ilə "Qoy ölsün!" deyirdi.

– Qoy ölsün!.. Qoy ölsün!.. Qoy ölsün!..

İnsan da öz doğma qardaşı barədə belə qəddar hökm verərmi? Həm də bacı! Bacılar qardaşlarını daha çox sevirlər axı. Məsələn, Nazlı onun üçün düşünmədən ölümə gedərdi. Canından çox istəyir-di Firdovsini və belə də deyirdi: "Qabağında ölüm sənin, ay qardaş..."

Nədimədən heç gözləməzdi bunu. Axı o, məsum, kövrək, təmiz ürəkli bir qız idi. Ona birdən-birə nə oldu ki, belə qəddarlaşdı?

Dedi ki, həkim çağırsaq, səni tutarlar. Yəni Firdovsiyə görə... Onu sevdiyi üçün, həbsxana-ya düşməsini istəmədiyi üçün elə deyirdi? Yəni onu bu qədərmi çox sevirdi Nədimə? Taleyinin

Scanned by CamScanner

qismәti... Tanrının ona verdiyi qismәt payı... Bu idimi Firdovsinin qismәti? Demәli, taleyində adam öldürmәk dә varmış onun? Qarışqanı belә bilәrәkdәn tapdayıb öldürmәyәn Әhәd müәllimin, kәnddә böyüklәrin bacı, kiçiklәrin ana hesab etdiyi Sәbirәnin oğlunun taleyinә qatillik dә yazılıbmış? Yox, kaş ölmәyәydi İntiqam. Kaş o, yataqxanaya qayıdandan sonra Nәdimә insafa gәlib hәkim çağırmış olaydı qardaşı üçün. Kaş sağalaydı İntiqam. Sonra onu döyәydi, bıçaqlayaydı, lap tutduraydı. Bәdәnә xәsarәt yetirәn biri kimi bir-iki il iş kәsәydilәr ona... Ancaq İntiqam kaş ölmәyәydi...

Saat 2-yә işlәyirdi. Otaq yoldaşları bir azdan dәrsdәn qayıdacaqdı. Qalxıb üst-başını düzәltdi. Otaqdan çıxıb aşağı endi. Qapıdakı qoca gözәtçi ona nәsә dedi, ancaq Firdovsi kişini eşitmәdi, yataqxanadan çıxıb Köhnә Yasamal mәhәllәsinә tәrәf addımladı.

Sanki özü dә istәmәdәn ayaqları çәkib aparırdı onu. Qorxsa da, getmәk istәmәsә dә, gedirdi. Çünki axşamkı işin nәticәsinә olan maraq indi tutulmaq vә ya İntiqamın qohumları tәrәfindәn döyülmәk qorxusundan daha güclü idi. İntiqamın sağ qalıb-qalmadığını bilmәk istәyirdi...

Nәdimәgilin hәyәti dә, hәyәt qapısının qarşısındakı dar küçә dә adamla dolu idi. Onların üzlәrindәki matәm ifadәsi vә küçәyә qoyulmuş boş mafә Firdovsiyә dәhşәtli hәqiqәti anlatdı. Bәli, İntiqam ölmüşdü... O, hәyatda yox idi. Onu hәyatdan mәhrum etmiş Firdovsi isә artıq qatil sayılırdı...

Scanned by CamScanner

Ona bir anlıq elə gəldi ki, hamı qatilin kim olduğunu bilir. İndicə kimsə onu tanıyıb adamlara göstərəcək. "Baxın, İntiqamı öldürən Firdovsi budur", – deyəcək və İntiqamın dəliqanlı gənc qohumları onun üstünə tökülüşəcəklər. İstədi geri qayıtsın. Ancaq bunu bacarmadı. Canavar görmüş eşşək kimi dar küçənin ortasındaca quruyub qalmışdı.

Küçəyə toplaşmış adamlardan hansısa ona tərəf nəzər salanda az qalırdı ürəyi yerindən çıxsın. Bəlkə də yarım saat beləcə əzab içində dayanandan sonra izdihama tərəf yeriyib onlara qarışdı. Həmin vaxt dörd gənc kişi küçəyə qoyulmuş boş mafəni həyətə aparırdı. Az sonra oradan qadınların ağlaşma səsləri eşidildi. Bir qadın ucadan ağı deyirdi: "Balamı vuranın Allah tifağını dağıtsın!"

Yəqin anası idi. Firdovsi özündən asılı olmayaraq həyət qapısına yaxınlaşıb içəri boylandı. Qadınlar vidalaşmaq üçün daş döşəməyə qoyulmuş cənazənin başına yığışmışdılar.

Sonra kişilər qadınları cənazənin yanından kənarlaşdırdılar. Firdovsi bu zaman başdan-ayağa qara geyinmiş Nədiməni də görə bildi. İki qadın özünü cənazənin üstünə atmış qızın qollarından tutaraq onu meyitdən aralamağa çalışırdı. Nəhayət, güclə də olsa, buna nail ola bildilər və qızı sürükləyib evə tərəf apardılar. Həmin an Firdovsi sevgilisinin səsini də eşitdi. Nədimə "Məni qoyub getmə, ay qardaş! Məni də özünlə apar, ay İntiqam!" – deyib dəli çığırtı ilə nalə çəkirdi.

Scanned by CamScanner

Eşitdiyi bu nalədən Firdovsinin başının tükləri biz-biz oldu. İçinə bayaqdan keçirdiyi qorxu hissindən fərqli bir vahimə doldu və cəld həyət qapısından geri çəkildi. Düşündü ki, belə məqamda dərddən az qala ağlını itirmiş Nədimə onu görməsə yaxşıdır. Əgər görsə, birdən heç nəyə baxmadan üstünə hücum çəkər, dırnaqları ilə onun üz-gözünü cıraraq: "Qardaşımı sən öldürdün!" – deyər.

Mərhumun qohumları və dostları cənazəni yerdən qaldırıb küçəyə çıxardılar. İzdiham ağır addımlarla hərəkətə gəlib cənazənin arxasınca düşəndə Firdovsi də qeyri-ixtiyari onlara qarışaraq Yasamal qəbiristanlığına kimi getdi.

Qəbir artıq hazır idi. Ağ kəfənə bükülmüş İntiqamı götürüb məzara qoydular. Molla Qurandan ayələr oxumağa başladı.

Firdovsi əvvəl nə etdiyini dərk etmədən addım-addım gəlib düz qəbirin yanında dayanmış, yuxulu adamlar kimi key nəzərlərini məzara zilləmişdi. Sonra birdən sanki yuxudan ayıldı. Qəbirə torpaq atanların əl-ayağına dolaşdığını anlayıb geri çəkildi.

İndi qəbirdən xeyli aralı dayanmış adamların arasında idi. Xüsusi avazla Quran oxuyan mollanın səsi bura olduqca zəif gəlib çatırdı. Bəlkə də bu səbəbdən Firdovsinin ətrafındakı kişilər öz aralarında iki-bir-üçbir söhbət edirdilər. Bu zaman eşitdiyi hər bir kəlmə Firdovsinin beyninə həkk olurdu:

– Zalım oğlunun dili dil deyildi ki... İlan zəhəri idi. Allah bilir kiminləsə dalaşanda ağzından pis söyüş çıxarıb.

Scanned by CamScanner

– Bəs xəbərin yoxdur, bunun bacısı axşam hara-
dansa evə qayıdanda bu gədəni evin arxasındakı da-
landa Həzi ilə görübmüş. Qaranlıqda nəyinsə üstün-
də mübahisə edirlərmiş…

– Nə danışırsan?

– Hə! Qız evə keçib. Bir az sonra anası deyib ki,
İntiqam harasa getdi, gəlib çıxmadı. Bu da anasına
qardaşını küçədə Həzi ilə gördüyünü deyib. Çıxıb
baxıblar ki, İntiqamın meyiti asfaltda…

– Qonşuları usta Həzini deyirsən?

– Hə, bu İntiqam axır vaxtlar onunla işləyirdi.

– Yaxşı, bəs Həzi nə deyir bu işə?

– Nə bilim, görünmür… Yəqin tutub aparıblar…

Firdovsi daha orada dayana bilmədi. Adamların
arasından sivişib çıxdı. İzdihamdan aralandı və əs-
rarəngiz sirli ölülər səltənətini xatırladan, hündür
ağacların kölgə saldığı ucsuz-bucaqsız Yasamal qəbi-
ristanlığında, "ölü məhəllələri"nin aralarındakı dar as-
falt yollarla hara getdiyini bilmədən qaçmağa başladı.
Müdhiş bir qorxu yenidən bütün ruhuna hakim kə-
silərək ağlını başından almaq üzrə idi. Ona elə gəlirdi
ki, İntiqam indicə əynində ağ kəfən qəbirdən çıxıb:
"Nədimə yalan deyir, məni Həzi yox, bu rayonlu gədə
öldürüb", – deyəcək, onun dalınca düşəcək.

Yorulanda addımlarını yavaşıtdı və qəbiristanlıqdan
"dirilər şəhəri"nə çıxmaq üçün yollardan birini tutub
getməyə başladı. Lakin burada yollar tez-tez şaxələ-
nir, bəxtinə güvənərək seçdiyi cığırların hər biri onu
yenidən qəbiristanlığın içərilərinə doğru aparırdı.

Scanned by CamScanner

Şəhərin ən köhnə məzarlıqlarından olan Yasamal qəbiristanlığı nəhəng bir meşəni xatırladırdı. Hara baxsan, nə göyün üzü görünürdü, nə də ətrafdakı şəhər...

Bir adama da rast gəlmirdi ki, çıxışın hansı tərəfdə olduğunu soruşsun. Yəni əslinə qalsa, burada onun bütün ətrafı adamla dolu idi. Lakin hamısı ölü... Və bu ölülərin, məlum məsələdir ki, dirilərdən zəhləsi gedirdi. Çünki onların fikrincə, dirilər işıqlı dünyada sərbəst gəzir, yeyib-içib kef eləyirdilər, onlar isə bundan əbədi məhrum olmuşdular. Bir də, təbii ki, ölülər, əgər öz əcəlləri ilə ölməmişdilərsə, onları həyatdan məhrum edib bura göndərən adamlara daha çox nifrət edirdilər. Yəni Firdovsi kimilərə...

Firdovsi bu "ölülər səltənəti"nin sakinləri sırasına daha bir nəfəri əlavə edənlərdən biri idi. Və bir anlıq ona elə gəldi ki, bunu burada "yaşayan" ölülərin hamısı bilir. Canındakı qorxu hissi bir az da artdı.

Bu da azmış kimi, getdiyi yolda diqqətini qara mərmərdən hazırlanmış bir başdaşı cəlb etdi. Başdaşının üstündə iri hərflərlə yazılmışdı: "Bir gün yanıma gələcəksən..."

Hiss etdi ki, həmin məzarın yanından keçə bilməyəcək. Dönüb geri qayıtdı. Yenə qarşısına çıxan yollardan istənilən birini tutub sürətlə addımlayırdı. Bu saat buralarda rastına bir diri adam çıxsaydı, millətindən, dinindən, yaşından, işindən-peşəsindən asılı olmayaraq onu öz doğması kimi bağrına basmağa hazır idi. Hətta bu adam onu həbs etməyə gəlmiş milis əməkdaşı olsaydı belə... Təki onu buradan çıxaraydılar...

Scanned by CamScanner

Qarşıda lap təzə bir qəbir gördü. Kimisə yeni dəfn etmişdilər. Torpaq qəbrin üstünə sərilmiş qırmızı xara parça parıldayırdı. Maraqlanıb yaxınlaşdı. Bir müddət dayanıb qəbirə tamaşa edəndən sonra onun baş tərəfinə keçdi. Müvəqqəti qoyulmuş kiçik başdaşındakı yazını oxuyanda isə qorxudan az qala ödü ağzına gəldi: "Şəmiyev İntiqam Yadigar oğlu..."

Deməli, dəfn bitmiş, adamlar çıxıb getmişdilər. Havanın qaralmaq üzrə olduğunu da sanki indi hiss etdi. İri, qol-budaqlı ağacların kölgə saldığı qəbiristanlığa alatoranlıq hakim kəsilmişdi.

Bir də yazıya baxdı və dönüb qaçmağa başladı. Bu zaman qulağına İntiqamın səsi gəlirdi: "Hara qaçırsan, çuşka, bura gəl, sənlə işim var..."

Şiddətlə döyünən ürəyi sanki sinəsindən çıxacaqdı...

Yalnız oralardan xeyli uzaqlaşandan sonra addımlarını yavaşıdıb nəfəsini dərdi. Dayanıb ətrafa boylandı. Ona diri adam lazım idi. Nəhayət ki, onu görə bildi. Saqqallı bir kişi köhnə qəbirlərdən birinin qarşısındakı daşın üstündə oturub dua edirdi. Sevindiyindən nə edəcəyini bilməyən Firdovsi yüyürərək özünü ona yetirdi və az qala qışqıraraq:

– Buranın çıxışı haradadır? – deyə soruşdu.

Kişi bu səsdən diksinsə də, duasını axıra kimi tamamlamağa çalışdı. Firdovsinin isə həmin dəqiqələrdə nəinki dua-filan, heç özünün hansı dinə mənsub olduğu da yadına düşmürdü. Bu dəfə daha bərkdən səsləndi:

– Dayı, sənə qurban olum, mən buradan necə çıxa bilərəm?

Scanned by CamScanner

Kişi bu dəfə Firdovsiyə tərəf döndü. Onun tər damcıları süzülən üzünə, qorxudan böyümüş gözlərinə təəccüblə baxaraq birdən gülümsədi:

– Oğlum, əgər dirisənsə, narahat olma, indi mənimlə bir yerdə çıxarıq. Yox, əgər ölüsənsə, bil ki, buradan çıxış yoxdur!

Bu saqqallı kişi də zarafat eləməyə adam tapmışdı...

9

Bir neçə gündən sonra eşitdi ki, Həzi adlı o adam həqiqətən də həbs olunub və istintaqdadır. Nədimə isə universitetə gəlmirdi. Həm qardaşının yasını saxladığına, həm də yəqin ki, dindirilmək üçün tez-tez prokurorluğa çağırıldığına görə.

Firdovsini isə hər gün əzablı səksəkə içində gözləsə də, istintaqa çağırmırdılar. Nədimə o uğursuz fevral axşamı universitetdən evə niyə gec qayıtması barədə nə demişdi, nə uydurmuşdu – bunları da bilmirdi. Amma hər halda, belə məlum olurdu ki, qız müstəntiqə izahat verərkən onun adını çəkməyib.

İndi Firdovsinin içində bu qıza qarşı ikili fikirlər vardı. Birincisi o idi ki, Nədimənin öz doğma qardaşına qəddar münasibəti və günahsız Həziyə şər atması qızı onun gözündən xeyli salmış, nəzərindəki yüksəklikdən aşağı endirmişdi. Çünki bu əməllər insanlığa yaraşan əməllər deyildi.

Scanned by CamScanner

Qardaşın ölümünü arzulamaq? Günahsız birinə böhtan atmaq? Anası Səbirə çox tez-tez xalq deyimindən istifadə edərək yaxınlarına belə bir alqış edərdi: "Tanrı səni şəri-şeytandan, quru böhtandan, məkri-zənəndən qorusun!"

Məkri-zənən, yəni qadın hiyləsi... İndi Həzi adlı o bədbəxt yasamallı usta qadın hiyləsi ilə quru bir böhtana düşmüşdü. Və əlbəttə, bu işdə şeytanın da şəri yox deyildi.

Nədiməyə acığı tutmaqla bərabər, özünün də vicdanı sızlayır, vicdan əzabından az qala boğulurdu. Axı o, necə kişi idi ki, günahsız biri onun ucbatından həbsdə zülm çəkdiyi halda buna dözüb səsini çıxarmır, milisə gedib "onu buraxın, qatil mənəm" demirdi?

Firdovsi bəzən belə düşünürdü. Bəzən isə həbs olunmaq qorxusu yenidən ruhuna hakim kəsilir, gecələr yuxusunu ərşə çəkirdi. Və bu həbs qorxusu həmin vaxtlar Həzi ilə bağlı keçirdiyi vicdan əzabından da güclü idi. Firdovsi belə məqamlarda fikirləşirdi ki, taleyinin qismәti olan Nədimə onu qoruyur, həbsə düşməməsi üçün hər cür fədakarlıq edir.

Həbs qorxusunu dərindən yaşadığı anlarda bir daha dərk edirdi ki, hazırda dünyada ona Nədimədən yaxın kimsə yoxdur. Bu qızın Tanrı tərəfindən ona məsləhət görülən ən yaxşı namizəd olduğuna bir daha inanırdı. İnanırdı ki, bu çətinliklərdən məhz Nədimənin köməyi ilə qurtulacaq, bütün pis şeylər arxada qalacaq, onlar ailə qurub ömürlərinin sonuna kimi xoşbəxt yaşayacaqlar.

Scanned by CamScanner

Hələlik isə özünü olduqca bədbəxt adam sayırdı. Dərslərə girmir, çox vaxt isə heç universitetə də getməyib axşama kimi küçələrdə gəzirdi. Dərdini dağıtmaq üçün içkiyə qurşanmışdı. Həm də ən pisi bu idi ki, hər gün "Elmlər Akademiyası" metrosunun yaxınlığındakı "Üfüq" kafesinə gedərək orada "Ağdam" çaxırı içirdi.

Bu çaxır həm ucuzluğuna, həm də içənləri dərhal sərxoş etdiyinə görə o zamanlar xalq arasında "alkaş"ların, yəni əyyaşların içkisi kimi tanınmışdı. Bir də "ağıllı" Azərbaycan kişiləri Rusiyaya gedərkən orada tanış olacaqları gözəl qızları daha tez ələ almaq üçün bu çaxırdan mütləq bir-iki şüşə alıb özləri ilə aparırdılar. Çünki bilirdilər ki, bir şüşə "Ağdam" çaxırı hətta ən ağıllı rus qızını belə lüt soyundurub onların yatağına salmağa qadirdir...

Otaq yoldaşları artıq tam əmin olmuşdular ki, Firdovsinin dərdi Nədimə ilə bağlıdır. Düşünürdülər ki, yəqin qız onu atıb, sevgisinə rədd cavabı verib.

Hər biri Firdovsiyə öz ağlına, düşüncəsinə görə məsləhət verirdi. Qəşəm deyirdi ki, mən o qızı heç əvvəldən bəyənmədim, nəyinə lazımdır, qız qəhətliyi deyil, Allaha şükür. O, Nədiməni unutmaq üçün təcili olaraq başqa bir qız tapmağı təklif edirdi. Sənanın fikrincə, qız özü gəlib Firdovsidən üzr istəyəcəkdi. Buna görə də Firdovsi səbirli olub gözləməli idi. Oruc isə deyirdi ki, əgər bu qız taleyinin qismətidirsə, ondan əl çəkmə, get yalvar-yaxarla da olsa aranı düzəlt...

Scanned by CamScanner

Heç kim onun dərdini anlamırdı. Çünki başına gələn müsibətdən xəbərsiz idilər. Ona görə də Firdovsi həmin günlər otaq yoldaşları ilə bir yerdə bacardığı qədər az olmağa çalışır, hər gün səhər yataqxanadan çıxıb bir də gecə qayıdırdı.

Firdovsinin sirrini bilən, lazım gəlsə, onun keçirdiyi hissləri anlaya biləcək biri vardısa, o da Nədimə idi. Ancaq onunla da görüşə bilmirdi.

Nəhayət, dəfndən sonrakı səkkizinci gün qız universitetə gəldi. Dəhlizdə qarşılaşanda ayaqüstü kədərli halda salamlaşdılar və şərtləşdilər ki, sonuncu mühazirəyə girməyib humanitar fənlər korpusundakı həmin auditoriyada görüşsünlər.

Firdovsi nəzərdə tutmuşdu ki, qızla təklikdə qalan kimi ondan günahsız bir adama niyə şər atması ilə bağlı haqq-hesab tələb edəcək. Bu onun vicdanını doğrudan da ağrıdırdı. Axı Həzi adlı o adam heç bir günahı olmadığı halda niyə gedib həbsxana həyatı yaşamalı idi? Hələ Firdovsinin bildiyinə görə, bu kişi ailəli idi, arvadı, bir oğlu, bir qızı vardı.

Lakin nəzərdə tutduğu alınmadı. Auditoriyaya girib əyləşən kimi Nədimə başını partanın üstünə qoyub ağlamağa başladı. Elə dərdli-dərdli ağlayırdı ki...

Qızın yanında oturmuş Firdovsi əlini uzadıb onun saçlarını sığalladı. Ağlayıb ürəyini boşaltmasını gözlədi və yalnız bundan sonra dilləndi:

– Mən çox pisəm, Nədimə. Elə pisəm ki, tamam bezmişəm həyatımdan. İntiqamı mən öldürdüm. Bu olmaya da bilərdi. O, bıçaqla üstümə gələndə ən azı qaçıb gedə bilərdim. Ancaq qürurumdan qaçmadım.

Scanned by CamScanner

İnsan qatili oldum. Həm də öldürdüyüm özgəsi yox, sevdiyim qızın qardaşıdır. Bunun vicdan əzabı azmış kimi, bu yandan da bu Həzi... Belə çıxır ki, günahsız yerə mənim əvəzimə türmədə yatacaq. Sən niyə belə elədin axı? Milisə niyə onun adını verdin?

Nədimə başını qaldırıb yalnız bir anlıq onun üzünə baxdı. Gözləri ağlamaqdan qızarmışdı. Sonra başını yenə aşağı salıb danışmağa başladı. Tez-tez içini çəkir, çətinliklə danışırdı:

– Sən elə bilirsən mənim halım çox yaxşıdır? Yox, neçə gündür özümü öldürmək istəyirəm, ancaq bacarmıram. Bircə qardaşım ölüb mənim. Dəli idi, narkoman idi, hər nə idi, amma doğma qardaşım idi. O gecə sən onu vurandan sonra elə qorxdum ki, tamam ağlımı itirdim. Ən çox da bilirsən nədən qorxdum? Sənin tutulacağından. Sənin türməyə düşməyini, cavan ömrünü orada çürütməyini istəmirdim. İndi də istəmirəm. Qızlığımla bilirəm ki, ora necə bir cəhənnəmdir. Atam türmədə olub. İndi də oranı xatırlayanda halı pisləşir. İstəmədim sən də tutulasan, ona görə dedim ki, çıx get, qoy ölsün. Qorxudan ağlımı itirmişdim onda...

Bir anlıq susdu. Firdovsi də gözünü partaya dikmişdi və onu diqqətlə dinləyirdi.

– Sən gedəndən sonra... – qız sözünə davam etdi, – mən həyətə girdim. Dayanıb fikirləşdim. Doğmaca qardaşım küçədə köməksiz vəziyyətdə can verirdi...

Bunu deyəndə onu yenə ağlamaq tutdu. Bir dəqiqə sonra Firdovsinin susduğunu görüb özü toxtadı və sözünə davam etdi:

Scanned by CamScanner

– Onda istədim evə gedib təcili yardıma zəng vurum, sonra küçəyə qaçaraq İntiqamın köməyinə yetişim, yarasını sarıyım... Ancaq yenə səni düşündüm. Düşündüm ki, səni tutacaqlar, universiteti itirəcəksən, həyatın məhv olacaq. Buna isə heç vaxt imkan verə bilməzdim, çünki sən bu dünyada mənə hamıdan – atamdan, anamdan, qardaşımdan da əzizsən. Ürəyimə daş bağlayıb dözdüm, dayandım. Bu vaxt Həzigilin qonşuluqdakı həyətindən arvadı Zibanın səsini eşitdim. Atamdan, anamdan, qardaşımdan da əziz, harada qaldın, gəl də, televizorda yaxşı kino başlayır. Həzi ona öz həyətlərindən cavab verdi. Dedi ki, həyətdə siqaret çəkirəm, indi gələcəm. Bax, onda haradansa ağlıma gəldi ki, səni xilas etmək üçün onu küçədə İntiqamla gördüyümü deyim. Mən kiməsə şər atmaq, kiminsə yuvasını dağıtmaq istəmərəm. Nə bilim... Həmin vaxt beynimdə təkcə sən idin. Fikirləşirdim ki, sən tutulsan, bu dərdə dözə bilmərəm. Həm də Həzidən əvvəldən acığım gəlirdi. Əclafın, oğraşın biridir... Evə çıxdım. Atam evdə yox idi, hansısa dostugilə nərd oynamağa getmişdi. Anam bu saata kimi harada olduğumu soruşdu. Dedi ki, İntiqam yaman əsəbiləşib, səni öldürməsə yaxşıdır. Onu küçədə Həzi ilə gördüyümü dedim. Anam təəccübləndi ki, orada nə işləri var, həyətə niyə keçmirlər, dedim bilmirəm, nəsə ciddi söhbət edirdilər. Yarım saat beləcə keçdi. Ürəyim həyəcandan bərk-bərk döyünürdü... Anama dedim ki, mən İntiqama görə narahatam, bayaq onların davranışından heç gözüm su içmədi, gedib

Scanned by CamScanner

küçəyə baxacam. Həyətə, oradan da qaranlıq küçəyə çıxdım. Qorxudan əsirdim. Ora çatanda İntiqamın yerdə hərəkətsiz uzandığını gördüm. Əyilib baxdım. Təzəcə keçinmişdi. Bədəni hələ tam soyumamışdı...

Firdovsi daş kimi hərəkətsiz oturaraq Nədiməni dinləyir, kədərdən boğulan qız isə yenə ağlaya-ağlaya danışırdı:

– Evə qaçıb anama xəbər verdim. Anam saçlarını yola-yola özünü həyətə atdı. Səsinə qonşular çıxdılar... Sanki onda bütün dərinliyi ilə anladım ki, mənim qardaşım ölüb, o, artıq həyatda deyil. Anam meyiti görüb oğlunun öldürüldüyünü biləndən sonra səsə gəlmiş Həzinin üstünə şığıdı. Onu söyməyə, vurmağa başladı. Sonra Ziba ilə də dalaşdı. Bir azdan atam da gəldi. Sonra da milislər gəlib Həzini apardılar... İndi neçə gündür müstəntiq məni danışdırır. Hər dəfə onun qarşısında oturanda səni düşünürəm. Özümözümə deyirəm ki, tutduğum bu iş günah olsa da, buna görə öləndə cəhənnəm əzabında yanası olsam da, səni ələ verməyəcəm. Qoymayacam o xarabaya düşəsən...

Həbs olunmaq qorxusu yenidən Firdovsinin qəlbinə hakim kəsilmişdi. Əgər ora düşsəydi, doğrudan da həyatı məhv olacaqdı. Anası, hətta atası da bu dərdə dözməyəcəkdilər. Bacısının ipək kimi nazik qəlbi parçalanacaqdı. Özünün isə bütün gələcək arzularının üstündən çalın-çarpaz xətlər çəkiləcəkdi...

Bunları düşünərkən yanında oturub içini çəkə-çəkə ağlayan bu qızın onun üçün necə böyük bir fədakarlıq etdiyinin fərqinə vardı. Bəli, onu həbs ediləcəyi ilə bağlı bütün gələcək bəlalardan xilas

Scanned by CamScanner

edirdi bu qız. Tanrının onun qarşısına çıxardığı tale qismati... Nə yaxşı ki, bu qız vardı. Nə yaxşı ki, taleyinin qismətinə məhz bu qız yazılmışdı...

Nədimənin başını qaldırıb özünə tərəf çevirdi:

– Qulaq as, – dedi, – bu günə kimi sənə deməmişdim, amma indi deyirəm. Anam məni evlənmək üçün tələsdirəndə Allaha yalvardım ki, qarşıma məni xoşbəxt edəcək bir qız çıxarsın. Səhəri gün səni göndərdi mənə. O gündən özlüyümdə səni taleyimin qisməti adlandırıram. Sən doğrudan da mənim tale qismətimsən və mən bu qismətimdən çox razıyam. Allaha qurban olum, doğrudan da hər şeyin ən yaxşısını O bilirmiş. Mən sənə ömrümün sonuna kimi sadiq olacam. Bir də heç vaxt belə dərd çəkməyinə, göz yaşları axıtmağına imkan verməyəcəm. Bizi Tanrı özü qovuşdurdusa, deməli, heç kəs ayıra bilməyəcək. Heç kəs!

Bu sözlərdən sonra dəli bir ehtirasla bir-birilərinə sarıldılar və bir saata yaxın beləcə qaldılar...

O gündən dəhlizdə hər gün görüşürdülər. İki dəfə də dərsdən çıxıb Akademiyanın həyətində oturmuşdular. Firdovsi taleyinin qismətı hesab etdiyi qızın onun xatirinə tutduğu günah əməlləri tamamilə bağışlamışdı...

10

Həzinin məhkəməsi may ayının əvvəllərində oldu. Nədimə bu açıq məhkəmədə şahid qismində çıxış edəcəkdi. Firdovsiyə yalvardı ki, onunla

Scanned by CamScanner

məhkəmə iclasına getsin. Həmin vaxt atası xəstə olduğu üçün gedə bilməyəcəkdi, anasını isə Nədimə özü qoymurdu getməyə. Deyirdi orada Həzini görəndə özünü ələ ala bilməz.

Firdovsi qıza etiraz edə bilmədi, onun xatirinə məhkəmədə iştirak etməyə razılaşdı. Ömründə ilk dəfə idi ki, məhkəmə zalına ayaq basırdı. Həm də qorxa-qorxa. Ona elə gəlirdi ki, indicə onu həbs edib müttəhimlər kürsüsündə otuzduracaqlar.

Arxada əyləşmişdi. Həzini gətirib müttəhimlər üçün nəzərdə tutulmuş dəmir qəfəsə saldılar. O, 45-50 yaşlarında, kobud görkəmli, dərisi gündən qapqara qaralmış, orta köklükdə bir adam idi. Üz-gözündən sərt narazılıq yağırdı. Firdovsi hiss etdi ki, xəcalətindən Həzinin üzünə baxa bilmir. Və həm də qorxurdu. Sanki Həzi İntiqamı onun öldürdüyünü bilirdi və gözü ona sataşsaydı, qəfəsin içindən çığırıb "ay biqeyrət, İntiqamı sən öldürmüsən, dur kişi kimi boynuna al, mənim nə günahım var ki, gedib sənin yerinə türmədə yatım" deyəcəkdi.

Hakim gəldi, məhkəmə iclası başladı.

Nədimə şahid qismində danışmaq üçün içəri dəvət ediləndə Firdovsini həyəcan təri basdı.

Əslində hər bir insanda mövcud olan vicdan adlı bir şey var ki, onun nə olduğunu indiyə kimi heç kəs tam mənası ilə anlamayıb. Bəlkə də vicdan bizim məkanı, forması, kimliyi və necəliyi barədə heç nə bilmədiyimiz Tanrının hər bir insanın içində qərar tutan zərrəsidir və məqamında dilə gəlib insana düz

Scanned by CamScanner

yol göstərir, onu ədalətə, dürüstlüyə səsləyir. İnsanlar həmin zərrənin adına "vicdan" deyirlər və deməli, əslində vicdanı olmayan insan yoxdur, sadəcə, vicdanının səsini dinləyib əməl edən, dinləyib əməl etməyən və ümumiyyətlə, dinləmək istəməyən insanlar var bu dünyada.

Həmin gün Firdovsinin qulaqları vicdanının səsini dinləməkdən az qala kar olmuşdu. Lakin ayağa qalxıb: "Həzini buraxın, onun heç bir günahı yoxdur, İntiqamı mən öldürmüşəm", – deyə bilmirdi. İçindəki başqa bir hiss nalə çəkib ona deyirdi ki, İntiqamı öldürdüyünü etiraf etsən, bütün həyatın məhv olacaq, ananın ürəyi partlayacaq, atanın beli əyiləcək, bacının həmişə gülümsər olan üzü bir daha heç vaxt ürəkdən gülməyəcək, ən əsası, taleyinin qismәti olan Nədimə ilə qovuşa bilməyəcəksən...

Bunları deyən içində yuva salmış şeytan zərrəsi idimi, öz qorxusu idimi – bunu bilmirdi. Təkcə onu bilirdi ki, içindəki bu səs vicdanının səsindən daha güclüdür.

Nədimə üzünü birbaşa hakimə tutaraq danışırdı:

– Yoldaş hakim, o gün, fevralın 8-də mən bəzi vacib dərslərimi hazırlamaq üçün universitetdə yubanmışdım. Evə qayıdanda hava qaralmışdı. Məhəlləyə saat 8-ə on dəqiqə işləmiş çatdım. Həyət qapımızın qarşısındakı qaranlıq küçəyə girəndə evimizin düz arxasında, divarın dibində rəhmətlik qardaşım İntiqamla həmin bu Həzini astadan mübahisə edən gördüm.

Scanned by CamScanner

–Yalandır! – Həzi qəfəsin içindən bağırdı: – Mən o gün İntiqamı günortadan sonra heç görməmişəm!

Hakim müttəhimi sakitliyə dəvət edib Nədiməyə dedi:

– Davam et, qızım. Onlar nədən danışırdılar, eşidə bildinmi?

– Mən qorxurdum ki, evə gec qayıtdığım üçün qardaşım məni danlayacaq, – Nədimə sözünə davam etdi. – Ona görə onların yanından tez keçmək istəyirdim. Belə də etdim. İntiqam, deyəsən, məni heç görmədi. Ancaq yanlarından keçəndə onun Həziyə "Mənə hədə-qorxu gəlmə, sən mənə heç nə edə bilməzsən" dediyini eşitdim. Sonra həyətə girdim. Evə çıxanda gec gəldiyim üçün anam məni danladı. Dedi ki, İntiqam sənə görə əsəbiləşib. Mən də dedim ki, onu gördüm, küçədə Həzi ilə idi. Onlar birgə işləyirdilər. Evlərdə suvaq işləri görürdülər. Aralarında nəsə pis bir şey ola biləcəyini ağlıma da gətirmirdim. Ancaq yarım saat keçdi, İntiqam evə gəlmədi. Yanlarından keçəndə eşitdiyim o sözləri xatırlayaraq narahat oldum. Bunu anama da dedim və qardaşımdan xəbər tutmaq üçün küçəyə çıxdım. Gördüm ki, o, bıçaqlanaraq öldürülüb...

Firdovsi oturduğu yerdə heyrətindən donmuşdu. Onun sakit, fağır, dilsiz-ağızsız biri kimi tanıdığı Nədimə Həziyə yönəlmiş böhtanı, ağ yalanları necə də sərrast, tərəddüd etmədən, vicdan əzabı çəkmədən danışırdı! Bu qız Tanrının onun taleyinə ən yaxşı qismət kimi yazdığı Nədimə idimi yəni?

Scanned by CamScanner

Qız hakimin sözü ilə keçib qabaq sıradakı oturacaqların birində oturmuşdu. Hakim isə indi Həzini danışdırırdı:

– Siz şahidin sözlərinin yalan olduğunu bildirirsiniz. Onda deyin görək vətəndaş Şəmiyeva Nədimə Yadigar qızının göstərdiyi vaxtda, yəni saat 19:10-da harada olmusunuz və buna şahidiniz varmı?

– Harada olacam, evimdə, arvad-uşağımın yanında! – Həzi sanki nalə çəkirdi. – Bu ifritə mənə böhtan atır, yoldaş hakim!

– Lakin həyat yoldaşınız Babayarova Ziba Ağasəlim qızı müstəntiqə verdiyi ifadəsində bildirib ki, siz məhz həmin vaxtlar, yəni saat 19:00-19:20 arasında evdə olmamısınız. Televizorda saat 19:20-də film başlayanda həyat yoldaşınız sizi səsləyib və siz ona həyətdən cavab vermisiniz. Deyin görək, bu müddətdə həyətdə nə edirdiniz?

– Siqaret çəkirdim, – Həzi dedi.

– İyirmi dəqiqə? – hakim təəccüblə çiynini çəkdi. – Bir də həyat yoldaşınızın ifadəsindən oxuyuruq ki, siz əslində həmişə evdə siqaret çəkmisiniz. Yəni buna görə həyətə enməmisiniz.

– Həyətdə gəzirdim, yoldaş hakim...

– Qaranlıqda boş-boşuna? Bu bir az qəribə səslənmirmi?

Həzi əlləri ilə başını tutdu:

– Vallah, düzünü soruşsanız, heç özüm də bilmirəm o axşam həyətə niyə çıxmışdım. Nədənsə narahat idim, ürəyim sıxılırdı. Enib evin qarşısında

Scanned by CamScanner

dayandım. İki siqaret çəkdim, Ziba çağıranda evə qalxdım...

Firdovsi düşündü ki, bəlkə də bütün bunlar onu qorumaq istəyən Tanrının işidir. Həzinin beyninə o salıb ki, həyətə ensin və bu da Nədimənin əlinə Firdovsini xilas etmək üçün şans verib.

Ancaq yox! Tanrı nə vaxtdan böhtana arxa duran olub? Bu, olsa-olsa şeytanın işi idi, o gecə Həzini o, yoldan çıxararaq həyətə endirmişdi. Yəni şeytan da Firdovsinin tərəfində imiş bu işdə? Yoxsa o, Nədimənin arxasında idi? Hə, deyəsən, şeytan bu məsələdə ona yox, məhz Nədiməyə kömək edirdi...

Həzi indi çox ucadan, əsəbi-əsəbi danışırdı:

– Ətağanın cəddinə and olsun, o iki balamı sağ görməyim yalan deyirəmsə, İntiqamı mən öldürməmişəm! Bu fahişə mənə bilərəkdən şər atır! Sizə qurban olum, yoldaş hakim, bir ləçərin sözü ilə məni bədbəxt eləməyin, mənim balalarım var...

Nədimə qəfildən yerindən qalxdı:

– Fahişə də, ləçər də sənin arvadındır, qızındır, oğraş köpək oğlu! Qardaşımı sən öldürmüsən, gedib cəzanı çəkəcəksən!

Firdovsi huşunu itirməmək üçün başını bir neçə dəfə silkələyib gözlərini ovuşdurdu. Ürəyində Allaha yalvardı ki, pis bir yuxuya bənzəyən bu məhkəmə iclası kaş tez bitəydi. Həzi qızın söyüşlərinin cavabında nəsə demək istəyirdi ki, hakim onların hər ikisinə ciddi xəbərdarlıq edərək sakitləşdirdi və yenə Həziyə sual verdi:

Scanned by CamScanner

– Deyin görək, vətəndaş Şəmiyeva Nədimə sizə nə üçün böhtan atmalıdır? Sizin fikrinizcə, buna bir səbəb varmı?

– Bəli, var! – dəli kimi bağıran Həzi sağ əlini qəfəsin dəmir barmaqlıqları arasından çıxarıb Nədiməyə uzatdı. – Bu əxlaqsız qadın məndən uşaq götüzdürüb. İnanmırsınızsa, gedin yoxlayın, keçən ilin yayında, düz iyulun 16-da. Uşağı götürən ara mamaçasının adını da deyə bilərəm sizə. Keçən il bunların evində işlədim bir ay. Bu qancıq hər dəfə həyətə çıxıb su kranında qabları yuyanda bilərəkdən yubkasını aşağı elə sürüşdürürdü ki, çılpaq dalının yarısı çöldə qalırdı. Bir dəfə belə, iki dəfə belə, axır ki, mən boyda kişini yoldan çıxartdı bu ifritə! Şeytana uyub buna bircə dəfə əl vuran kimi özü mənə sarıldı. Sonra da neçə dəfə əlaqədə olduq bununla. İndi yəqin özünə adam tapıb, ərə getmək istəyir, ona görə də mənə şər atıb tutdurur ki, gözünə görünməyim...

Nədimə yerindən qəfil sıçrayaraq ona hücum etdi:

– Yalansa sənin arvadının, qızının namusu bütün buradakı kişilərə qismət olsun, it oğlu, it! Sən özün məni zorlamadın? Məni yoldan çıxarıb bədbəxt eləmədin?!

Firdovsi daha dözə bilmədi. Qalxıb iti addımlarla zalı tərk etdi. Daha doğrusu, oradan qaçdı. Eşitdiyi dəhşətli sözlərin qulaqlarında yaratdığı gurultudan qaçıb qurtulmaq istəyirdi...

Qızla yay tətilindən sonrakı ilk görüşlərini xatırladı. Nədimə onda gözünə xəstəhal görünmüşdü.

Scanned by CamScanner

Çox qan itirmiş adamlar kimi idi. Rəngi-rufu tamam qaçmışdı. Deməli, həqiqətən də yayda bətnindən uşaq götüzdürübmüş bu əxlaqsız...

Hara getdiyini belə bilmədən səkidə sürətlə addımlayan Firdovsi həmin anlar o qədər gərgin idi ki, hirsini-hikkəsini tökməyə adam axtarırdı. Xəlvət bir yerdə dayanıb üzünü qəzəblə səmaya tutdu:

– Biz səninlə belə danışmışdıq? Axı o gün sənə yalvardım ki, qarşıma taleyimin ən yaxşı qismətini çıxart! Budur sənin mənə verdiyin qismət? Məni dolamaq üçün başqa vasitə tapmadın?

Kəndlərində yaşayan nəsillərin hərəsinə bir ad qoymuşdular. Bu nəsillərdən biri də "Tanrıya tüfəng atanlar" adlanırdı. Deməli, keçmiş zamanlarda bu adamların ulu babalarından birinin körpə oğlu xəstələnir. Kişi Tanrıya üz tutub yalvarır ki, uşağı öldürməsin. Ancaq uşaq ölür. Oğlunun keçindiyini görən kişi divardan tüfəngini və patrondaşını götürüb dəli kimi həyətə qaçır, üzünü səmaya tutub: "Deməli, mənim oğlumu öldürdün, hə? Deməli, öldürdün?! Onda al gəldi!" – deyə çığırır, sonra da tüfəngin lüləsini yuxarı qaldırır və patrondaşındakı güllələrin hamısını bir-bir göyə atır...

İndi Firdovsi həmin nadan kişinin vəziyyətinə düşmüşdü. Başına gələnlərin hamısını Tanrıdan bilib Ona asi çıxırdı...

Üç gün universitetə getmədi. Həmin günlər xəbər tutdu ki, məhkəmədə Həzini təqsirli bilərək 12 ilə yaxın azadlıqdan məhrum ediblər. Bunu eşidəndə

Scanned by CamScanner

az qaldı ki, gedib özünü dənizə atsın, amma yenə də valideynlərini, bacısını düşünərək özünü ələ almağı bacardı.

Yoldaşları onun keçirdiyi halları yenə Nədimə ilə əlaqələndirir, fikirləşirdilər ki, sevdiyi qız ona dönük çıxdığı üçün belə olub. Firdovsinin adını öz aralarında "Bədbəxt Məcnun" qoymuşdular.

Üç gün sonra universitetin dəhlizində Nədimə ilə üz-üzə gəldilər. Firdovsi yolunu dəyişib uzaqlaşmaq istəsə də, alınmadı, qız onun qarşısını kəsdi:

– Sənlə danışmaq istəyirəm, – dedi, – gedək o biri korpusa.

Firdovsi başını buladı:

– Mən daha sənlə danışmaq istəmirəm.

– Xahiş edirəm, gəl gedək!

–Yox, heç yana getməyəcəm!

Qız əl çəkmədi:

– Mən də səni buraxmayacam. Əgər ora getmirsənsə, elə burada danışaq. De görüm sənə nə olub, Firdovsi? Bəs deyirdin taleyinin qismətiyəm mən, nə tez geri çəkildin?

– Taleyimə lənət olsun! – Firdovsi qəzəbli idi. – Səndən xahiş edirəm, əl çək məndən, bir də mənə yaxınlaşma.

– Niyə axı? – qız heç nə olmayıbmış kimi təəccübləndi.

– Hələ bir soruşursan da? O, nə sifət idi məhkəmədə göstərdin? Necə utanıb-çəkinmədən, qorxmadan qızıl-qırmızı böhtan atdın kişiyə? Sən necə də

Scanned by CamScanner

qorxulu adamsanmış, səni tanımamışam. Həzi düz deyirdi, sən heç adam deyilsən, ifritəsən!

Yanlarından gəlib keçən tələbələr onlara maraqla baxırdılar. Nədimə bəlkə də bu səbəbdən təmkinli olub səsini alçaltdı:

– Unutma ki, o əclafa böhtanı səni xilas etmək üçün atdım, yoxsa onun əvəzinə sən həbsdə çürüyəcəkdin. Bundan sonrakı həyatın üçün mənə minnətdar olmaq əvəzinə məni günahlandırırsan. Heç gözləməzdim səndən!

– Mən belə şərəfsiz, qeyrətsiz həyat istəmirəm, – Firdovsi dedi. – Belə yaşamaqdansa ölmək min dəfə yaxşıdır. Hələ sənin o əxlaqsızlığın! Eşidəndə divarlar yerindən qopub üstümə gəldi sanki. Dəli oldum. Sən evli kişi ilə belə bir namussuzluğu necə edə bilərsən axı? Hələ üstəlik, canisən sən! Günahsız körpəni bətnində məhv etmisən...

Nədimə bu söhbətə, deyəsən, əvvəlcədən ciddi hazırlaşmışdı, Firdovsidən hansı tənəli sözləri eşidəcəyini bilir, bu səbəbdən də özünü belə sakit aparırdı.

– O iş mənim başıma gəlmiş bir faciədir. Hamının, o cümlədən sənin bacının da başına gələ bilər. Uşaqlığımdan istifadə edib məni yoldan çıxartdı o namussuz. Neçə dəfə istədim özümü öldürüm, amma bacarmadım. İndi atamın, anamın məndən az qala imtina etdikləri bir məqamda sən də məni buraxacaqsan? Məni tək qoyacaqsan? Əgər belə olsa, mənim özümü öldürməkdən savayı heç bir çarəm qalmaz, bunu bil! Mənim bu dünyada səndən başqa

Scanned by CamScanner

heç kəsim yoxdur, sən də məni atsan, yaşamağımın nə mənası qalar?

– Nədimə... – Firdovsi bir qədər susandan sonra ağır-ağır dilləndi. – Birincisi, özünü mənim gül kimi təmiz bacımla müqayisə eləmə, ikincisi, mən elə bilirdim sən doğrudan da mənim taleyimin qismətisən. Özümü xoşbəxt sayırdım səninlə. Bilirsən ki, evdə də barəndə danışmışam, səninlə ailə qurmaq istədiyimi demişəm. Ancaq nə yaxşı ki, səni tanıdım. Bildim ki, sən mənim taleyimin qismәti ola bilməzsən. Gəl aramızda nə olubsa, hamısını unudaq. Deyirlər, ziyanın yarısından qayıtmaq da xeyirdir. Bu gündən bizim yollarımız ayrılır. Məni unut və bir də qarşıma çıxma. Bunu səndən acizanə xahiş edirəm...

– Deməli, məni bağışlamayacaqsan? – qız kövrəldi. – Deməli, mənim yaşamağımın doğrudan da bir mənası yoxdur daha?

Firdovsi başını yellədi:

– İstəsəm də bağışlaya bilmərəm səni. Axı səni necə bağışlayım ki, Həzi ilə o işi görüb, üstəlik, sonradan bunu məndən gizlətmisən?! Məni aldatmısan!

– Mən hər şeyi sənə danışacaqdım...

– Nə zaman? Toy gecəsi?

Qız susub başını aşağı dikdi. Titrək əlləri ilə durmadan əl çantasının ipini oynadırdı. Nə düşündüsə, birdən dilləndi:

–Yoxsa biofakdakı sevgilinə görə belə edirsən?

Firdovsi söhbətin Güləsərdən getdiyini anlasa da, özünü o yerə qoymadı:

Scanned by CamScanner

– Biofakdakı sevgilim kimdir? Sən nə danışırsan?

– Əgər ona görədirsə, özünü yorma, o qız Mirəli ilə gəzir. Atası o boyda fakültənin dekanıdır. Sənin kimi kasıb kəndçi oğlunu bəyənməz. Hamı Nədimə deyil...

– Onsuz da səndən həmişəlik ayrılıram, – Firdovsi dedi, – ona görə də ağır sözlər deyib qəlbini parçalamaq istəmirəm. Get özünə uyğun birini tap, onunla ailə qur, xoşbəxt ol.

Nədimə başını qaldırıb onun gözlərinə baxdı:

– Mən səndən başqa heç kəslə xoşbəxt ola bilmərəm...

– Yalandır! Sən məni heç vaxt sevməmisən. Gəl burada söhbəti kəsək, artıq mənim hövsələm daralmağa başlayır.

– Yaxşı, nə deyirəm, – qız getməyə hazırlaşdı, – get deyirsən gedirəm. Amma yadında saxla ki, səni sevən günahsız bir qız uşağını ən ağır vaxtında tək qoyduğun üçün ömrün boyu vicdan əzabı çəkəcəksən. Əlvida!

Nədimə dodaqları titrəyə-titrəyə bunu deyib ondan uzaqlaşdı. Dəhlizdə dayanıb onun arxasınca baxan Firdovsinin ağlına qəflətən qorxunc bir fikir gəldi: bu qız gedib özünü öldürəcək! Az qaldı ki, dalınca qaçıb onu saxlasın, qəti şəkildə heç vaxt bağışlamaq fikrində olmasa da, yalandan ümidlər versin, intihar fikrindən daşındırsın. Ancaq ona qarşı acığı, kini o qədər güclü idi ki, ayaqları getmək istəmədi, yerindən tərpənmədi.

Scanned by CamScanner

O gün hələ qarşıda bir mühazirə və bir seminar məşğələsi olsa da, Nədimə universitetdən çıxıb getmişdi.

Firdovsi indi də anlaya bilmirdi ki, bir insan ürəyi bu qədər qorxuya, dərdə, stressə necə dözüb dayana bilərmiş. Həmin gün onun çiyinlərini onsuz da əymiş qəlb ağrılarına yeni bir qorxu, yeni bir stress də əlavə olundu. Əgər bu axmaq qız gedib özünə qəsd etsəydi, hələ üstəlik, başına gələnləri yazıb evdə bir yerə qoysaydı, Firdovsinin halı necə olardı?

İçini yeyib-tökən, bət-bənizini solduran bu qorxu onu bir də dörd gün sonra – Nədiməni uzaqdan universitetin dəhlizində görəndə qismən tərk etdi.

Deməli, qız özünü öldürməmişdi...

11

Ya həmin gün idi, ya da ertəsi gün, Yaqut tənəffüsdə ona yaxınlaşıb dedi ki, dərsdən çıxandan sonra uşaqlardan ayrılıb Akademiyanın həyətinə gedək, sənə çox vacib sözüm var. Dörd il eyni qrupda oxuduğu bu qıza hörməti vardı, odur ki, artıq heç nə soruşmadan razılaşdı.

Sonuncu seminar məşğələsi bitən kimi hər ikisi qrup yoldaşlarının gözündən yayınaraq deyilən yerdə görüşdülər. Yaqut bağdakı ən xəlvəti skamyanı göstərib əyləşməyi təklif edəndə Firdovsi razılaşmadı. Bu həmin uğursuz skamya idi ki, burada dəfələrlə

Scanned by CamScanner

o ifritə qadınla – Nədimə ilə oturmuşdular. Başqa bir skamyanı göstərdi və keçib orada əyləşdilər.

Firdovsi üçün həyatın mənası tamam itmişdi. Ancaq özü də anlamadan, içindəki hansısa bir hiss dərdlərini bölüşmək üçün onu anlaya biləcək doğma insan axtarırdı. Əlbəttə, o, qəlbini didib-dağıdan dərdlərini açıb heç kəsə danışa bilməzdi. Çünki həmin dərdlərin içində insan həyatına qəsd kimi ağır cinayət də vardı. Lakin belə hallarda insan bəzən dərdini açmasa da, ona qəlbən yaxın biri ilə beləcə yanaşı oturmaq istəyir, bununla müəyyən rahatlıq tapır. Bəlkə də bu səbəbdən Yaqutun indi yanında olması onun ürəyindən idi və dinib-danışmadan qızın nə deyəcəyini gözləyirdi.

Bu neftçalalı sakit qız isə nədənsə tərəddüd keçirirdi. Bir xeyli susandan sonra nəhayət ki, sözə başladı:

– Firdovsi, səni bura çox vacib bir məsələ barədə danışmağa gətirdim. Bilmirəm sən məni bu dörd ildə necə tanımısan, ancaq mən səni elə birinci kursdan qiymətləndirib qardaşım kimi sevmişəm. Sən o biri oğlanlarımızın tayı deyilsən. Mərdsən, ciddisən, ağıllısan... İnanıram ki, məni düzgün anlayacaqsan və ürəyindəkiləri məndən gizlətməyəcəksən...

Bu müqəddimədən Firdovsinin az qala ürəyi qopub düşdü. Görəsən, Yaqut onun başına gəlmiş hadisələr barədə nəsə bilirdimi? Ancaq qızın onu bir qardaşı kimi sevməyini deməsi ürəyini göynətmişdi. Firdovsinin bu məqamda daha çox elə qayğıkeş, dərd anlayan bir bacıya ehtiyacı vardı. Nazlını xatırladı.

Scanned by CamScanner

Görəsən, içini gəmirən dərdlərini olduğu kimi ona danışa bilərdimi? Yəni Nazlı onu anlayıb halına yanar, sirrini hamıdan gizli saxlardımı? Dərhal düşündü ki, bəli, Nazlı həm onu anlayar, həm də sirrini saxlayardı. Lakin... Bacısının o qədər kövrək qəlbi vardı ki, Firdovsi onun bu incə, kövrək qəlbini yaralamaq istəməzdi. Çünki dəqiq bilirdi ki, başına gələnləri Nazlıya danışsa, qız yeni açmağa başlamış zərif qönçə kimi solacaq...

– Mən də sənin xətrini həmişə bacım kimi istəmişəm, – Firdovsi dedi, – ancaq nədən danışdığını anlaya bilmirəm. Məndə səndən, ya başqasından gizlətməli nə var ki?!

Yaqut yenə susub barmaqları ilə oynamağa başladı. Firdovsi məlum hadisələrlə bağlı son aylar yaman hövsələsiz olmuşdu. Odur ki, bu sükuta dözmədi:

– Məni bura nəsə deməyə gətirmisənsə danış da, ürəyim partladı ki...

Bu sözlərdən sonra Yaqut birdən dönüb onun üzünə baxdı:

– Sən bizim Gülü barədə nə fikirləşirsən?

– Gülü kimdir? – Firdovsi anlamadı.

– Güləsəri deyirəm, biz qızlar onu aramızda Gülü çağırırıq axı. Bilmək istəyirəm ki, sən onu necə bir qız kimi tanıyırsan?

– Bunun məsələyə nə dəxli var?

– Xahiş edirəm, sualıma cavab ver. Sənin düşüncənə görə, Güləsər necə qızdır?

Firdovsi cavab verənə kimi bir qədər düşünməli oldu:

Scanned by CamScanner

– Gözəl qızdır. Həm də qədərindən artıq gözəl... İstiqanlıdır, mehribandır, ürəyi təmizdir, hətta deyərdim ki, gözəlliyi kimi bu ürəyitəmizliyi də bir az artıqdır. Amma...

– Hə, nə amma? – Yaqut başını silkələdi. – Heç nə gizlətmə.

– Niyə gizlətməliyəm ki?! – Firdovsi çiynini çəkdi. – Əslində hamının bildiyi şeydən danışıram. Məlum məsələdir ki, o qız varlı ailədəndir, onu ərköyün böyüdüblər. Buna görə də işi-gücü bəzənib-düzənmək, özünü göstərmək, bir də...

– Hə, saxlama! – onun dayandığını görən Yaqut xahiş etdi.

– Bir də oğlanlarla məzələnməkdi.

– Hansı oğlanlarla?

– Nə bilim e, əvvəl bizim Sənana yaxınlaşmışdı, sonra dedilər Miraliilə gəzir. Hüquqda oxuyan oğlanla... Mən özüm də onu bir dəfə o gədə ilə görmüşdüm. İndi bəlkə fikirləşəcəksən ki, Firdovsi bəzi qızlar kimi qeybət eləyir. Əslində onun nə etdiyinin, kiminlə gəzdiyinin mənə dəxli yoxdur, özü bilər. Ancaq nəzərə alanda ki, hələ ikinci kursda oxuyur və birinci kursdan belədir, bir az diqqəti cəlb edir. Yəni incimə ha, sənin həmyerlindir, ancaq sən soruşdun, mən də dedim...

–Yox incimirəm, –Yaqut gülümsədi, – ancaq xahiş edirəm indi sən mənə diqqətlə qulaq as. Gülü barədə dediklərinin birinci hissəsi tamamilə doğrudur. Yəni o, həqiqətən çox gözəldir, mehribandır,

Scanned by CamScanner

şirindildir, saf qəlblidir... Ancaq bundan sonra dediklərinlə qətiyyən razılaşmıram. Birincisi, Güləsər heç də varlı ailədən deyil. Biz Neftçalada bir kənddə yaşamışıq. Atası İlyas dayı rayonda fəhlə işləyir. Gülü evin tək qızı idi. Sənin bir sözündə bu baxımdan həqiqət var ki, evin tək qızı olduğu üçün bir az şıltaq böyütmüşdülər. Doqquzuncu sinifdə oxuyanda anası xəstəlikdən rəhmətə getdi. Məlahət xala o qədər gözəl insan idi ki, mələk kimi qəlbi vardı. Bütün kənddə uşaqdan böyüyə hamı onun hörmətini saxlayırdı. O, rəhmətə gedəndə biz birinci kursda idik. Yay tətilində Güləsəri tanımadım. Yazıq qız anasının dərdindən elə hala düşmüşdü ki... Anasının ili çıxan kimi atası bir qadınla evləndi. Bu, Gülüyə anasının ölümü qədər pis təsir etmişdi. Onun ali təhsil almaq fikri yox idi. Amma atası evə yad arvad gətirəndən sonra mənim yanıma gəldi. Dedi ki, burada yaşaya bilmirəm, ürəyim dözmür, hara baxıramsa, anamı xatırladır. Qərara gəlmişdi ki, nəyin bahasına olursa-olsun, Bakıda universitetə qəbul olunacaq. Mən də universitetin biofakına hazırlaşmaq üçün lazım olan kitabları tapıb ona verdim. Onun necə fədakar qız olduğunu o zamanlar görüb-anladım. Qəbul imtahanlarına altı aydan az qalmışdı, o isə gecəni gündüzə qatıb oxuyurdu. Axır ki, zəhməti hədər getmədi, bura qəbul olundu. Həm də pulsuz-filansız. Əslində bu mənə də çox qəribə gəlirdi, ancaq düşünəndə ki, o, bütün materialı yüksək səviyyədə öyrənə bilmişdi, pulsuz qəbul olunmasına inandım.

Scanned by CamScanner

Bakıda xalası var. İlk gündən onların evində qalır. Ancaq onlara artıq yük olmağı qüruruna sığışdırmadığı üçün keçən dərs ilinin ortalarından özünə iş tapıb işləyir...

– Necə yəni? – təəccübünü saxlaya bilməyən Firdovsi onun sözünü kəsdi. – Güləsər əyani şöbədə oxuya-oxuya işləyir? Bu necə ola bilər?

– Hə, Firdovsi, işləyir, –Yaqut başı ilə də təsdiq etdi, – bir mağazada satıcı kimi işə düzəlib. İkinci növbəyə. Hər gün dərsdən çıxan kimi ora qaçır. Krasnodara da ona görə getmək istəmirdi. İşini itirməkdən qorxurdu. Bütün yayı da Neftçalaya getməyib Bakıda qaldı. O qızmar istilərdə hər gün işə gedirmiş. Hə... Sənin eyhamla dediyin o bəzənib-düzənməyi də öz halal qazancı ilə edir. Bəyəndiyi paltarları alıb geyir. Burada pis nə var ki... Əslində o, universitetdəki, lap elə biofakın özündəki qızların əksəriyyətindən az bəzək-düzək verir özünə. Nə də paltarları onlarınkı qədər sayca çox, yaxud bahalı deyil. Ancaq neyləsin, canıyanmamışın üzü də, fiqurası da elə gözəldir ki, nə geysə yaraşır, diqqəti başqalarından çox çəkir. Bilirsən, Firdovsi, mən Güləsəri yaxşı tanıyıram da. Onun içində elə güclü həyat eşqi var ki... Bu səbəbdən dərd-qəmini gizlədə bilir. Üzdə hamı ilə elə deyib-gülür ki, deyirsən bunun ən kiçik dərdi də yoxdur. Ancaq kim bilməsə də mən bilirəm ki, hər dəfə anasını xatırlayanda qəlbində nələr çəkir...

Firdovsi Güləsərin xarici görünüşünü ilk gündən bəyənmişdi. Onun gözəlliyinə heç bir iradı yox

Scanned by CamScanner

idi. Xüsusilə zalım qızının mavi-boz gözləri... Şərq ədəbiyyatında belə gözləri həmişə canalan gözlər adlandırıblar. Elə xasiyyətində də bəyəndiyi şeylər az deyildi. Bayaq Yaquta dediklərində yalan yox idi. Ancaq indi Yaqutun Güləsər barədə danışdıqlarından sonra qız onun gözündə ikiqat ucalmışdı. Həm zahirən gözəl olasan, həm də daxilində belə üstün cəhətlər ola... Doğrudan da fədakar, qürurlu qız imiş. Ancaq... Onun oğlanlara münasibəti... Sənanın onun barəsində dedikləri...

Firdovsi sanki birdən fərqinə vardı ki, bayaqdan yalnız Güləsər barədə danışır, yalnız onu müzakirə edirlər. Görəsən, Yaqut onu bura yalnız buna görəmi gətirmişdi? Güləsəri tərifləmək üçünmü?

Yaqut isə hələ də danışırdı:

– İndi keçək o biri məsələyə, yəni Gülünün guya oğlanlarla gəzməsi məsələsinə. Əgər onu burada ən yaxından tanıyan mənəmsə, mən də deyirəm ki, bu, ağ yalandır. Güləsər indiyə kimi heç bir oğlana sən dediyin mənada yaxınlaşmayıb və ona yaxınlaşanların da heç birinə könül verməyib. Sənan özü onun dalınca düşmüşdü. Hətta düz üç dəfə yaxınlaşaraq sözünü deyib, Güləsəri sevdiyini bildirib. Ancaq qız hər dəfə onu rədd edib. Mənə deyir ki, Yaqut, qələt elədim bir dəfə ona salam verdim, indi məndən əl çəkmir, bu nə həyasız oğlandır... Sonra o Mirəli... Neçə dəfə qızın qabağını kəsib deyib ki, səndən əl çəkən deyiləm. Ancaq Güləsərin ondan zəhləsi gedir. Deyir, ayıya oxşayan bu gədə elə bilir ki, atasının

Scanned by CamScanner

haram yolla qazandığı puluna görə bütün qızlar bunun qabağında baş əyməlidir...

Hə... Firdovsi dərhal düşündü ki, deməli, Sənan özü Güləsərə yaxınlaşıbmış. Ondan rədd cavabı alanda da başlamışdı yazıq qız barədə ağzına gələni danışmağa. Ay əclaf...

Yaqutun susduğunu görəndə bayaqdan onu düşündürən sualı verdi:

–Yaxşı, ay Yaqut, biz niyə bayaqdan Güləsər barədə danışırıq axı? Bəlkə sözünün canını deyəsən?

– Sözümün canı budur ki, – Yaqut bir az utancaq halda gülümsədi, – Güləsər səni sevir...

– Sevir?! – Firdovsi heyrətləndi. – Məni?

Güləsərin keçən dərs ilindən başlayaraq hər gün tənəffüsdə qaçıb mexmata gəlməsini xatırladı. Deməli, bu qız onların qrupuna Yaqutla görüşmək bəhanəsi ilə onu görməyə gəlirmiş? Yəni Firdovsini? Sonra tələbə-inşaat dəstəsində Krasnodara getməmək üçün xahişi... Onda necə həsrətlə baxırdı qız ona. Ancaq Firdovsi heç nə anlamamışdı. Bəlkə də ona görə ki, ona mehribanlıqla yaxınlaşan, şirin dillə dindirən qızlar çox idi universitetdə. Bəlkə buna görə Güləsərin ona olan məhəbbətini hiss etməmişdi.

Deməli, bu mavi-boz gözlü qız onu sevirmiş... Sən bir işə bax! Nədimə heç onun kəsilib atılan dırnağı da ola bilməzdi. Ancaq Firdovsi "taleyimin qismәti" deyib bərk-bərk yapışmışdı o ifritədən. Çünki Tanrının göndərdiyi qismət idi o...

Scanned by CamScanner

– Bəli, səni! –Yaqut qətiyyətlə dedi. – Bunu sənə deməyimi bilsə, inan ki, məni öldürər. Ancaq mən özüm qərara gəldim ki, bu barədə sənlə danışım, sənin gözünü açım. Neçə vaxt idi o kitabxanaçılıqdakı Nədimənin dalınca düşmüsdün. Düzdür, bu, ürək məsələsidir, ona qarışmaq olmaz. Mənim də sənin şəxsi işlərinə qarışmağa ixtiyarım yoxdur. Ancaq iki şeyə görə buna məcbur qaldım. Birincisi, mən Güləsərin xətrini dünyalar qədər istəyirəm. Onun təmiz sevgisinin necə daşa dəydiyini görəndə çox pis oluram. İkincisi də, bayaq dediyim kimi, sənin xətrini ilk gündən qardaşım kimi istəmişəm. O Nədimə barədə elə xoşagəlməz sözlər danışırlar ki... Qrup yoldaşlarının heç biri sevmir onu. Deyirlər ki, paxılın, acgözün, xəbərçinin, araqarışdıranın biridir. Vallah, bunu tək mən demirəm, bizim qrup qızlarının da heç biri onu sənə yaraşdırmır. Sənin adın onunla çıxanda məəttəl qaldıq e, vallah. Dedik Firdovsi kimi həm yaraşıqlı, həm ağlı başında bir oğlan bu yöndəmsizi haradan tapdı, görəsən. Heç bir qəpiklik xarici görkəmi də yoxdur ki, deyək gözəlliyinə aldanmısan. Son vaxtlar danışırlar ki, daha ondan ayrılmısan. Eşidəndə dedim, belə də olmalı idi, Firdovsi o qızı gec-tez tanımalı idi...

Nədimənin adı çəkiləndə Firdovsinin sanki yarasının qaysağını qoparıb üstünə duz səpdin. Üzgözünü turşutdu. Bu zaman Yaqut gülümsəyərək əlini ərklə onun çiyninə vurdu:

– Doğrudan, ay Firdovsi, sən o bir bacının canı, elə mən də bacınam, sən mənim canım, onu haradan tapmışdın?

Scanned by CamScanner

Qız sualı elə səmimiyyətlə verdi ki, Firdovsi hamıdan gizlətdiyi, yalnız otaq yoldaşlarının bildiyi sirri ona açdı:

– Allah göndərmişdi onu mənim bəxtimə...

– Allah?

– Hə, anam tələsdirirdi ki, tez evlənim. Mənim də nəzərimdə elə bir qız yox idi. Allaha yalvardım ki, mənə taleyimin qismətini göndərsin. O da bunu göndərdi...

Yaqut onun dediklərini tam anlamasa da güldü:

– Sən nə vaxtdan Allaha inanan olmusan? Vallah, Mustafa müəllim bunu eşitsə, universitetin dəhlizində hamının gözü qabağında səni tutub deyər, mən sənə "Elmi ateizm"dən bir il buna görə mühazirə oxudum ki, axırda gedib taleyinin qismətini Allahdan istəyəsən. Vallah, rüsvay edər səni...

Yaqut bunu deyib yenə güldü.

Mustafa müəllim onlara "Elmi ateizm" fənnindən mühazirə oxumuşdu. Universitet tələbələrinə keçilən bu fənnin yeganə məqsədi o idi ki, tələbələri Allahın yerli-dibli olmadığına inandırsın. Mustafa müəllim də oxuduğu mühazirələrdə bu işin öhdəsindən layiqincə gəlirdi. Əlindən heç vaxt yerə qoymadığı qara diplomat çantası vardı. Tələbələr Mustafa müəllimi həmin çantasız təsəvvür edə bilmirdilər. Orta ölçülü adi çanta olsa da Mustafa müəllim bədəncə o qədər hündür və şişman idi ki, çanta onun əlində balaca oyuncaq kimi görünürdü.

Mustafa müəllim bir tələbəsinin ona haçansa ünvanladığı anonim məktubu da bu çantada saxlayır və

Scanned by CamScanner

onu hər il yenilənən tələbələrinə böyük fəxarət hissi ilə oxuyurdu. Həmin məktubda təxminən bunlar yazılmışdı:

"Hörmətli Mustafa müəllim! Siz böyük həvəslə bizə oxuduğunuz yüksək elmi səviyyəli mühazirələrinizlə biz sovet gənclərinin gözünü açırsınız. Bizi Allaha inanan nadan babalarımızın və valideynlərimizin uzun illər kor-koranə yaşadığı cəhalət bataqlığından xilas edir, gələcəyin əsl sovet adamı kimi yetişməyimiz üçün fədakarlıqla çalışırsınız.

Mən sizin bütün mühazirələrinizi diqqətlə, sevə-sevə dinləyirəm. Hərdən şəxsən mənə elə gəlir ki, avam babalarımızın əsrlər boyu səcdə etdiyi o varlıq başqa yerdə yox, məhz sizin o kiçik diplomat çantanızın içindədir. Mən inanıram ki, dərs ilinin axırındakı son mühazirənizdən sonra siz o çantanı açaraq həmin varlığı oradan çıxaracaq, onu auditoriyanın döşəməsinə tullayıb deyəcəksiniz: "Baxın, budur sizin qadir Allahınız!""

Tələbələr bunları Mustafa müəllimin dilindən həvəslə dinləyib məktubun müəllifi olan naməlum tələbəni alqışlayırdılar. Lakin neçə illər sonra Firdovsi həmin Mustafa müəllimi çox yaxından tanıyan bir nəfərdən eşitdi ki, sən demə, universitetdə "Elmi ateizm"dən mühazirə oxuyub Allahın yoxluğunu təbliğ edən bu adam evində əsl müsəlman kimi namaz qılırmış. Bunu eşidəndə əvvəl qulaqlarına inanmadı. İnanandan sonra isə düşündü ki, lap yəqin, Mustafa müəllim hər dəfə namazının sonunda Allaha

Scanned by CamScanner

yalvarırmış ki, universitetdə çörəkpulu qazanmaq xatirinə tələbələrə öyrətdiyi cəfəngiyyata görə günahından keçsin...

Yaqutun sualına cavab verdi:

– Mustafa müəllimin mühazirələrinə baxmayaraq, Allaha inanırdım, amma daha inanmıram.

– Nədiməyə görə? – Yaqut gülməyini kəsərək soruşdu.

– Hə...

– Yaxşı da, bir səhv idi elədin, Nədiməni unut daha. O, sənin taleyinin qisməti-filanı deyil və ola da bilməz. Səni gül qönçəsi kimi bir qız istəyir. Vallah, səni xoşbəxt sayıram buna görə. Çünki Gülünü tanıyıram. Sənə necə deyim e, bu qız hələm-hələm ələ düşən qızlardan deyil. O qədər yaxşı qızdır ki, vallah, mən özüm qızlığımla ona vurulmuşam.

– Yaxşı görək sən də, – Firdovsi qəmgin-qəmgin gülümsədi.

– Anamın canı üçün, düz deyirəm. Mənə nə düşüb e, onu yalandan tərifləyim? Ancaq ürəyim yanır o qıza. Elə bir təmiz ürəkli qızın pis adama qismət olmasını heç istəmirəm. Həm də bilsən səni nə qədər çox istəyir! Əvvəl tez-tez qaçıb mexmata gələndə mən də elə bilirdim ki, məni görməyə gəlir. Yəni əvvəlcə doğrudan da mənim yanıma gəlirdi. Universitet qaydaları barədə bilmədiklərini soruşurdu. Ancaq sonra gördüm ki, hər gələndə gizlicə sənə baxır. Əvvəl üstünü vurmadım. Görəndə ki, qızın fikri-zikri yalnız sənsən, söhbəti açdım. Dedim, Gülü, deyəsən,

Scanned by CamScanner

Firdovsiyə biganə deyilsən, hə... Sən Güləsərin özünü elə sərbəst göstərməyinə baxma, çox utancaqdır. Mənim o sözümdən əməlli-başlı qızardı. Sonra əl çəkmədiyimi görüb boynuna aldı səni sevməyini. Yalvardı ki, bunu sənə deməyim... Heç fikirləşmisən ki, sentyabrdan bəri niyə gəlmir mexmat tərəfə? Nədimə ilə görüşdüyünü bildiyinə görə. Elə pis olmuşdu yazıq qız. Onsuz da qəlbi qırıq idi, bir az da sən qırdın. Bunu da dilinə gətirmək istəmirdi qürurundan, mən özüm söhbət açdım. Dedim, Gülü, sən Firdovsinin Nədimə ilə elə yaxın olmağına baxma, o, elə qızı heç vaxt sevə bilməz. Söhbəti dəyişdi, bircə bunu dedi ki, xoşbəxt olsunlar. Yəni sizin üçün... Ancaq o vaxtdan üzü gülmür, yoldaşlarına qoşulmur. Dərsə gəlir, dərs bitən kimi də mağazadakı işinə gedir. Məndən başqa heç kəs də anlamır ki, bu deyib-gülən, istiqanlı qıza nə olub. Sən bir-iki aydır Nədimə ilə görüşmürsən axı. Bunu bir bəhanə ilə Güləsərə çatdırdım. Gözləyirdim ki, sevinəcək. Ancaq əksinə, kədərləndi. Sənə görə narahat olub soruşdu ki, Firdovsi indi bunun fikrini çəkir, hə... Sonra söhbəti dəyişdi. Təsəvvür edirsən, bu qız sənin xoşbəxtliyini istəyir. Çünki səni həqiqətən sevir. Daha Nədimə kimi yox...

Yaqutun gözləri dolmuşdu. Firdovsi indi xatırladı ki, Güləsər doğrudan da çoxdandır mexmata gəlmir.

Bir neçə dəqiqə də söhbət edib ayrıldılar. Maraqlıdır ki, ayrılarkən Yaqut etdiyi söhbətin ona nə kimi təsiri olduğunu soruşmadı. Firdovsi də heç nə demədi. Sadəcə, mehribancasına sağollaşıb ayrıldılar.

Scanned by CamScanner

Yaqutla bu görüş Firdovsiyə yaşamaq üçün xeyli ümid vermişdi. Düşünürdü ki, əgər Güləsər kimi bir qız onu sevirsə, deməli, bədbinləşmək, həyata mənasız bir şey kimi baxmaq düzgün deyil. Əksinə, çarpışmaq, mübarizə aparmaq lazımdır.

Lakin Güləsərin onu həqiqətən sevməsi barədə ürəyinin dərinliyində nəsə bir şübhə də vardı. İçindəki bir duyğu onun bu qıza layiq olmadığını deyirdi. Onun kimi gözəl, eyni zamanda ağıllı, dərrakəli, qürurlu, cəfakeş qıza özünə yaraşan bir həyat yoldaşı lazım idi. Ciddi, ağıllı, sədaqətli, qorxmaz, mübariz bir ər... Amma Firdovsi öz taleyini qumara qoymuş bir avara idi. Bu qədər qızın içindən öz məhəbbətini axtarmaq, gələcək ailə həyatını qurmaq üçün ağılla yüz ölçüb bir biçmək əvəzinə, qoyun kimi qulaqlarını sallayıb Allahdan buyruq gözləmişdi. Al, bu da Allahın sənə məsləhət bildiyi qismət! Nədimə xanım...

Hələ Firdovsinin pis xüsusiyyətləri bununla bitmirdi. İntiqamı vurandan sonra Nədimənin onu öz böhtanı ilə xilas etməsinə razılıq vermiş, özünün əvəzinə günahsız birinin həbs olunmasına göz yummuşdu.

Yox, o, Güləsərə layiq deyildi, vəssalam!

Ertəsi gün tənəffüslərin birində özündən asılı olmadan ayaqları onu biologiya fakültəsinə aparanda, orada Güləsərlə üzləşəndə bu fikri bir az da qətiləşdi: Yaqut səhv edirdi, Güləsər onu sevə bilməzdi, çünki o, bu qıza layiq deyildi.

Güləsər auditoriya otağı ilə üzbəüz divara söykənib əllərini qoynuna qoymuşdu. Tək idi. Ətrafdakılara

Scanned by CamScanner

elə gələ bilərdi ki, bu qız dəhlizdə ora-bura gedən tələbələrə baxır, lakin əslində onun mavi-boz badamı gözləri yol çəkirdi, fikri haradasa uzaqlarda idi.

Əynində cins şalvar və qısaqol kofta vardı. Tünd göy rəngli bu koftanın üstü ağ və qırmızı rəngli xırda güllərlə suvanmışdı. Əslində sadə, bəlkə də ucuz hesab edilə bilən bu geyim qızın gözəlliyinə elə şirinlik, elə məhrəmlik qatmışdı ki, Firdovsi bir anlıq onu özünün ən doğma adamı hesab etdi və ona yaxınlaşmaqdan vaz keçə bilmədi. Özünü buradan guya təsadüfən keçirmiş kimi göstərib qızın qarşısında qəfil ayaq saxladı:

– Salam, Güləsər. Necəsən?

– Salam... – qəfil müraciətdən diksinən qız dilləndi.

– Tək niyə dayanmısan?

Güləsər özünü əməlli-başlı itirmişdi:

– Heç... Zəngin vurulmasını gözləyirəm.

– Dərslərin necə gedir?

– Sağ ol, yaxşı gedir, – dedi. – Sən nə əcəb buradasan?

Firdovsi dərhal bir yalan uydurdu:

– Sizin komsomol katibinə deyiləcək sözüm vardı...

– Hə... Sənin işlərin necə gedir?

– Şükür, pis getmir.

– Bu yay siz hərbi toplantıya gedəcəksiniz, hə?

Universitetdə oğlanlara hərbi dərs keçilirdi. Dördüncü kursun sonunda isə onları 40 günlük hərbi toplantıya aparır, toplantının sonunda imtahan

Scanned by CamScanner

edərək onlara leytenant rütbəsi verilirdi. İndi Firdovsigilin də dördüncü kursu bitirib toplantıya getmələrinə bir həftə qalırdı.

– Hə, – dedi, – Ermənistanın Leninakan şəhərində 40 günlük toplantıda olacağıq.

– İnşallah, yaxşı olar...

Görünürdü ki, Güləsər onunla imkan daxilində daha çox danışmaq istəyir, lakin içində buna mane olan nəsə var. Qız çox kədərli idi, elə kövrəlmişdi ki, deyərdin indicə ağlayacaq.

Nə yaxşı ki, bu zaman tənəffüsün bitdiyini bildirən zəng vuruldu və qız ondan üzr istəyib, adəti üzrə bir əli ilə saçlarını oynada-oynada, nazlı yerişi ilə auditoriyaya getdi.

Firdovsi dalğın halda dayanıb onun arxasınca baxırdı...

12

Ermənistanın Türkiyə ilə sərhədində yerləşən bu şəhər qədimdən Azərbaycan türklərinin yaşadığı Gümrü kəndi olmuş, sonradan böyüyərək şəhərə çevrilmişdi. Çar Rusiyası ilə İran Böyük Azərbaycanı insafsızcasına iki yerə parçalayıb öz aralarında bölüşəndən sonra ruslar şəhərin adını dəyişərək Aleksandropol, növbəti rus-sovet işğalından sonra isə Leninakan qoymuşdular. Lakin o zaman bütün Azərbaycan gəncləri kimi Firdovsi də bunları

Scanned by CamScanner

bilmirdi. Bildiyi təkcə bu idi ki, o, böyük sovetlər ölkəsinin vətəndaşıdır. Paytaxtı Moskva olan bu qüdrətli dövlət 15 qardaş respublikanın birləşməsindən yaranıb ki, onlardan biri Azərbaycandırsa, digəri də qonşu Ermənistandır. Əhalisinin əksəriyyəti erməni olan Leninakan şəhəri isə onun nəzərində erməni-sovet şəhəri idi, vəssalam.

O böyük imperiya artıq 25 ildən çox idi ki, dağılmış, 15 respublikanın hər biri müstəqil olmuşdu. Azərbaycanda Vladimir Lenini xatırladan hər şeyi silib-süpürüb atdıqları kimi, ermənilər də Leninakan şəhərinin adını dəyişib Kumayri qoymuşdular. Lakin artıq indiki Azərbaycan türkləri 25 il əvvəlki deyildilər. Onlar bu şəhəri Gümrü adlandırır və nə zamansa orada yenidən türklərin yaşayacağına inanırdılar...

O zaman isə Moskva nəyə görəsə qərar vermişdi ki, Azərbaycan Dövlət Universitetinin tələbələri universitetdə əslində heç yaxşı anlamadıqları rus dilində bir-iki il başdansovdu hərbi dərslər keçəndən sonra, dördüncü kursun axırında Ermənistana aparılaraq 40 gün orada hərbi təlim toplantısı keçsinlər. Bu uşaqlara heç orada da düz-əməlli bir şey öyrətmirdilər. 40 gün şəhərin müxtəlif yerlərində fəhlə kimi işlədib axırda saxta imtahanlarla leytenant rütbəsi verilirdi.

Firdovsigilin olduğu hərbi hissənin komandiri rus podpolkovniki Serdyuk, bölük komandirləri isə Abramyan soyadlı bir erməni kapitan idi... Firdovsi həmin günləri xatırlayanda düşünürdü ki, onun

Scanned by CamScanner

təkcə şəxsi həyatı yox, bütünlükdə ömrü yalanlar içində keçib. Bakıdan getmiş türk universitet tələbələri öz komandirləri olan bu Abramyanla az qala fəxr edirdilər. Boy-buxunlu, nizam-intizamlı, səliqəsahmanlı, eyni zamanda bilikli olduğu üçün. Həm də eşitmişdilər ki, Abramyan "şərəfli" bir nəslin nümayəndəsidir. Atası polkovnik, babası general olub. Ona qibtə ilə baxırdılar. Daha heç düşünmürdülər, düşünə bilmirdilər ki, həmin bu Abramyanın babasının vaxtında bir erməni gərək 1000 nəfərdən çox türkün qanını tökəydi ki, gəlib general rütbəsinə çıxa biləydi...

Həmin 40 günlük toplantı müddəti tələbələrin hamısı üçün darıxdırıcı keçirdi. Firdovsinin isə lap ürəyi partlayırdı. Ata-anası, bacısı, ən çox da Güləsər üçün darıxırdı... Sentyabrın gəlməsini, universitetdə dərslərin başlanmasını elə həsrətlə gözləyirdi ki... Bir vərəq götürüb onu qırx damaya bölmüşdü və hər günün sonunda damaların birini qaralayırdı. Axırıncı həftə isə artıq günləri yox, saatları saymağa başlamışdı.

Özünü yaxşı aparan tələbəyə həmin 40 gün ərzində bir dəfə şəhərə çıxmaq üçün bir neçə saatlıq icazə kağızı verilirdi. Bir gün Firdovsi də Serdyukdan belə bir icazə kağızı alıb Leninakanı gəzməyə çıxdı. Əynində kursant uniforması kimi bir geyim vardı. Şəhər əhalisi bu geyimi yaxşı tanıyır, bilirdi ki, onu hər yay Bakıdan hərbi toplantıya gəlmiş azərbaycanlı universitet tələbələri geyinir. İndi Firdovsi

Scanned by CamScanner

həmin günü xatırlayanda öz-özündən utanıb xəcalət çəkirdi. Əllərini ciblərinə qoyub lovğa yerişlə şəhərin adam qaynaşan parklarını, səkilərini gəzir, özlüyündə düşünürdü ki, ətrafındakı ermənilər, xüsusilə də gənc qızlar ona qibtə və həsədlə baxır. Necə də qibtə və həsədlə baxmasınlar ki, hərbi uniformada olan bu ucaboy, yaraşıqlı gəncin bura Bakıdan – o gözəl şəhərin ən böyük ali məktəbi olan dövlət universitetindən gəldiyini bilirdilər.

Bəli, həmin anlar Firdovsi onu süzən qızların baxışlarında özünə qarşı yalnız məhəbbət oxuya bilirdi. Çox sonralar isə qəti şəkildə anladı ki, o gün qarşısına çıxan əksər şəhər sakinləri ona gizli nifrətlə baxır, hətta gənc qızlar da: "Ax, imkanım olsaydı, bu türk köpəkoğlunun başını necə həvəslə kəsərdim..." – deyə düşünürlərmiş.

O günkü gəzintisi zamanı şəhərin əsas yaraşığı sayılan "ermənilərin anası" heykəlinin də yanına getdi. Peşəkar heykəltəraş əlindən çıxmış bu çox nəhəng qadın heykəlinin arxası birbaşa Türkiyəyə baxırdı. Firdovsi kimdənsə eşitmişdi ki, bu heç də təsadüfi deyilmiş...

Xəyali külək qadının nazik donunu arxadan əndamına yapışdırdığı üçün heykəldə naməhrəm əzalar xüsusilə qabarıq nəzərə çarpırdı. Bakıya qayıdandan sonra bir dəfə əclaf Oruc dedi ki, hər dəfə bu heykələ arxadan baxanda əməlli-başlı ehtiraslanırmış...

Hərbi toplantı müddətində Nazlıya iki dəfə məktub yazıb ondan cavab aldı. Bacısı da onun üçün çox

Scanned by CamScanner

darıxır, qardaşının bu yayı kənddə keçirə bilməməsindən üzüldüyünü yazırdı. Hər iki məktubunda Nədimənin da adını çəkmişdi. Soruşmuşdu ki, onunla məktublaşırmı. Nə deyəydi bacısına? Həqiqəti deyə bilmirdi və sualına qısaca olaraq cavab verirdi ki, hə, məktublaşıram.

Nədimə və onunla bağlı qorxunc xatirələr tez-tez yadına düşür, bəzən isə gecələr yuxusuna girirdi. Yasamaldakı qaranlıq küçədə İntiqamı öldürməsi, məhkəmədəki qeyri-adi biabırçılıq... Belə hallarda canını yenidən müdhiş bir qorxu bürüyür, əl-ayağı yerdən üzülürdü. Lakin sonra birtəhər özünə toxtaqlıq verib düşünürdü ki, o pis şeylər artıq keçmişdə qalıb. İntiqamla bağlı cinayət işi bağlanıb. Nədiməyə qəti sözünü deyib və qız da, deyəsən, onu anlayaraq geri çəkilib. Qoy rədd olsun! Qoy gedib bundan sonra özünü kimə istəyirsırısın. Artıq Firdovsinin həyatında o ifritəyə yer olmayacaqdı.

Daha çox Güləsər barədə düşünürdü. Bakıdan ayrılmazdan bir neçə gün əvvəl Yaqutdan qızın fotosunu almışdı və gündə azı yüz dəfə onu cibindən çıxarıb baxırdı. Şəkildən ona yanaqı baxan qızın sağdan və soldan üzüaşağı sallanan nazik saç topaları, qələm qaşlar, badamı gözlər, yaraşıqlı burun, ətli yanaqlar, gözəlliyi ilə dünyanın bütün çiçəklərinə meydan oxuyan incə dodaqlar, ağ yumru çənə... Bütün bunlara həm ayrı-ayrılıqda, həm bütövlükdə saatlarla tamaşa edirdi. Və bəzən az qalırdı ki, var gücü ilə çığırıb

Scanned by CamScanner

dəlicəsinə nalə çəksin. Belə dərdli anlarının birində kağız-qələm götürüb qıza məktub yazdı:

"Güləsər, salam. Bu məktubu sənə Leninakandakı hərbi hissəmizdən yazıram. Bilirəm, sən yayın bu istisində Neftçalaya getməmisən, Bakıda qalıb işləyirsən. Sənin barəndə hər şeyi bilirəm. Səni gördüyüm ilk gündən universitetdə hamıdan gözəl olduğunu düşünmüşdüm. Ancaq necə ağıllı, necə böyük ürəkli, təmiz qəlbli biri olduğunu gec öyrəndim. İndi burada yoldaşlarım deyib-güləndə nə qədər istəsəm də üzüm gülmür. Həm də kimsənin yox, öz səhvlərim, günahlarım ucbatından. Mən kor oldum, Güləsər. Kor oldum ki, səni olduğun kimi görə bilmədim. Allah məni adını belə çəkmək istəmədiyim o qızla yaxınlaşdırdı, sanki məni hansısa günahıma görə cəzalandırırdı. Axı mən o vaxta kimi nə etmişdim? Hansı günahı işləmişdim ki, Allah məni belə amansızlıqla cəzalandırırdı? İndi daha Allah dediyimiz o güc sahibinə də inanmıram. Və bir zamanlar ona inanıb öz əlimlə özümü bədbəxt etdiyim üçün özümü dünyanın ən nadan uzunqulağı hesab edirəm.

Güləsər, mən bilirəm ki, sənə layiq biri deyiləm. Ancaq özümü sənə bu məktubu yazmaqdan saxlaya bilmədim. İstədim biləsən ki, sən adını çəkmək istəmədiyim o qızdan milyon dəfələrlə üstünsən. İstədim biləsən ki, mən səni dəli kimi sevirəm. Gecəm də, gündüzüm də səni düşünməklə keçir. Ancaq yenə deyirəm ki, mən sənə layiq deyiləm. Səni sevmək bir yana dursun, adını dilimə gətirməyə belə layiq deyiləm..."

Scanned by CamScanner

Məktubu yarımçıq qoyub bir neçə gün cibində gəzdirəndən sonra yandırdı. Göndərməyə cəsarəti çatmadı və cəsarəti çatsaydı belə onu hara göndərəcəyini bilmirdi. Yaqutdan qızın xalasıgilin ünvanını soruşub öyrənməyi unutmuşdu...

13

Hərbi toplantı bitəndən sonra Oğuza gəldi. Valideynləri və bacısı ilə görüşdü. Anası gələcək gəlini hesab etdiyi Nədimə barədə soruşanda dedi ki, neçə həftədir ondan xəbəri yoxdur, Bakıya gedən kimi görüşəcəklər.

Əvvəl bacısına da belə dedi. Ancaq Nazlı onun gözlərindəki kədəri görüb xəlvətdə sorğu-suala çəkdi və Firdovsi içində gizlətdiyi bəzi şeyləri qıza danışmalı oldu. Əlbəttə, İntiqamı öldürməsi barədə, Nədimə ilə Həzinin arasında olanlar barədə heç nə demədi. Yalnız bunu dedi ki, Nədimə onun düşündüyü kimi yaxşı qız deyilmiş, başqası ilə gəzirmiş. Bunu eşidəndə Nazlı çox pis oldu. Dişlərini qıcayıb:

– Bu adamlar ikiüzlü olmağı necə bacarırlar axı?! – dedi.

Nazlı bir də Firdovsi Güləsər adlı bir qızı sevdiyini deyərək onun fotosunu göstərəndə özünə gəldi. Güləsərin gözəlliyinə valeh olmuşdu. "Bıy, nə qəşəngdir!" – deyə heyrətini dərhal büruzə verdi. Sonra isə "Sənə qurban olum, ay qardaş, nə yaxşı qız tapmısan!"

Scanned by CamScanner

– deyərək onu qucaqladı. Firdovsi qızı sakitləşdirib tapşırdı ki, hələlik valideynləri bu barədə bilməsinlər, vaxtı çatanda hər şeyi özü açıb deyəcək.

Kənddə çox qala bilmədi. Bir həftə sonra dərslər başlayırdı. Avqustun 29-da Bakıya gəldi.

Yoldaşları ilə görüşüb yataqxana məsələsini həll etdilər. Otağı dəyişmişdilər, ancaq yenə də həmin dördlük bir otaqda qalacaqdı. Nəyə görəsə burada hər şey Firdovsiyə darıxdırıcı görünür, tezliklə universitetə gedib Güləsəri görmək üçün ürəyi quş kimi çırpınırdı.

Sentyabrın 1-də dekanlığa tərəf gedəndə dəhlizdəYaqutla rastlaşdı. Dörd illik qrup yoldaşlığında heç vaxt xüsusi önəm vermədiyi bu qız indi Firdovsiyə o qədər doğma və əziz gəldi ki, az qaldı onu qucaqlayıb bağrına bassın. Deyəsən, Yaqut özü də təəccüblənmişdi onun bu qeyri-adi mehribanlıq münasibətindən. Bir-biri ilə hal-əhval tutaraq yayı necə keçirdiklərini soruşandan sonra Firdovsi dərhal Güləsərdən söhbət saldı:

–Yerlin neçədir?

– Hələ görməmişəm, –Yaqut dedi, – yayda mən Neftçalada olmuşam, o yazıq burada qalıb işləyib.

Firdovsinin ürəyi o qədər dolu idi ki, bu qıza deyəcəklərini sonraya saxlamağa səbri çatmadı. Onu dəhlizin bir küncünə çəkib danışmağa başladı:

–Yaqut, o gün özün dedin ki, bacımsan, vallah, mən də səni bacım Nazlıdan heç ayırmıram. Ona görə də ürəyimdəkiləri səndən gizlətməyəcəm. Mən

Scanned by CamScanner

o ifritəyə yaxınlaşdığım üçün çox peşman olmuşam. Hərbi toplantıda olanda 40 günün oyaq olduğum hər dəqiqəsi Güləsəri fikirləşirdim. Orada anladım ki, əslində mənim Nədiməyə heç bir sevgim-filanım olmayıb, ancaq özüm-özümü aldatmışam. Anladım ki, mən əslində ilk gördüyüm vaxtlardan Güləsəri sevmişəm. Ancaq necə deyim, o vaxt onun gözəlliyinə görə özümü ona layiq bilmirdim, fikirləşirdim ki, məni qətiyyən bəyənməz, həm də barəsində elə danışırdılar, deyirdim anam beləsini özünə gəlin qəbul etməz. Nə bilim e, çox axmaq olmuşam, çox...

Yaqut gülümsədi. Sonra isə birdən-birə ciddiləşib dilləndi:

– Düzdür, Gülünün ürəyi sınıb səndən, ancaq əgər onu doğrudan da sevdiyinə əminsənsə, gec-yil, yaxınlaşıb sözünü deyərsən, ürəyini yenidən ələ almağa çalışarsan.

– Sənin fikrincə, bunun bir xeyri olar?

– Əlbəttə, olar. O, səni həqiqətən sevirdi. Həm də təsəvvür edə bilməyəcəyin qədər çox sevirdi. Yəni əslində indi də bilirəm ki, hamıdan gizlətməsinə baxmayaraq, səni sevir.

Firdovsi Yaqutdan bu sözləri eşitdikcə sanki başqa bir aləmə düşürdü. Elə bir aləmə ki, o aləmdə hər şey yaxşı idi və gələcək daha yaxşı görünürdü. O aləmdə bir-birini sevən Firdovsi və Güləsər vardı, ağıllı, tərbiyəli gəlinləri ilə fəxr edib qürurlanan atası Əhədlə anası Səbirə vardı, hər gün Güləsərin başına fırlanan, onu öpüb-əzizləyən Nazlı vardı...

Scanned by CamScanner

– Səncə, dəvət etsəm, mənimlə kinoya gedər? – deyə soruşdu.

– Ölmür kinoteatra getməkdın ötrü? – Yaqut güldü. – Mayda deyirdi ki, iki ildir Bakıdayam, bir dəfə də imkan tapıb kinoteatra getməmişəm.

– Doğrudan? – Firdovsi bu xəbərə sevindi.

– Hə.

– Sabah bazar günüdür, onda bu gün görüb dəvət edim, sabah axşam gedərik Cəfər Cabbarlı kinoteatrına.

Cəfər Cabbarlı adına kinoteatr universitetə nisbətən ən yaxın olan kinoteatrlardan idi. Firdovsi orada çox olmuşdu. İndi o zaman şəhərdə olan kinoteatrlardan az bir qismi qalmış, çoxu ləğv olunmuşdu. Videomaqnitofonlar dəbə düşəndən sonra şəhər sakinləri istədikləri filmləri öz evlərində oturub seyr etməyə üstünlük verirdilər. O zamankı məşhur Cəfər Cabbarlı kinoteatrının binasında indi "Space" telekanalı yerləşir.

– Yox da, – Yaqut etiraz etdi, – bu gün deyəsən, sabah gedəsiniz, birdən-birə olmaz ki! Sən yaxınlaş söhbət elə, ikinci dəfə yaxınlaşanda kinoya dəvət edərsən. Gələn bazara – ayın 9-na. Həm də qoy hazırlaşmağa vaxtı olsun yazıq qızın. Hə, bir də onu deyim ki, Güləsər Hindistan filmlərini xoşlayır.

– Aha... Görək razılaşacaqmı...

– Razılaşar. Dedim axı, səndən başqa heç kəsi sevməyəcək o. Bilirəm də xasiyyətini. Hə, bir də onu deyim ki, qədərindən artıq nazlı qızdır ha, dəvətinə yox desə, o dəqiqə geri çəkilmə, bil ki, naz eləyir.

Scanned by CamScanner

–Yaxşı...

Firdovsi bunu gülümsəyərək dedi və birdən fərqinə vardı ki, Nədimə bayaqdan mexmat dekanlığının qapısı yanında durub onlara baxır. Qızın baxışlarında açıq-aşkar kin-küdurət qığılcımları vardı. Firdovsinin qanı əməlli-başlı qaraldı.

Bəzən həyatda belə olur. Keçmişdəki bütün pis şeyləri unudub yalnız gələcəyə baxaraq irəliləmək istəyirsən, birdən keçmişinin artıq unutduğunu zənn etdiyin bir parçası qabağına çıxır. Həm də qorxunc kabus şəklində. İndi üzünü görmək istəmədiyi bu qız da Firdovsinin gözlərinə uğursuz keçmişdən qopub gəlmiş qorxunc kabus kimi görünürdü.

Yaqutla tələsik sağollaşıb komsomol otağına doğru getdi. Bunu görən Nədimə ucadan:

– Salam, Firdovsi! – deyərək onun önünə keçməyə cəhd etdi.

Lakin bu cəhdi baş tutmadı. Firdovsi onun salamını almadan özünü komsomol otağına saldı. Yaxşı ki, burada xeyli tələbə vardı. Mexmatın qrup nümayəndələri nəyə görəsə yığışmışdılar. Nədimə içəri girə bilməyib dəhlizdə qaldı.

Firdovsi öz masasının arxasına keçərək başını əlləri arasına almışdı. İki aylıq fasilədən sonra bu ifritənin yenidən qarşısına çıxması onu sarsıtmışdı. O qaranlıq gecədə Köhnə Yasamal məhəlləsində baş vermiş ölüm hadisəsi, günahsız yerə mühakimə edilən Həzinin məhkəməsindəki rüsvayçı mübahisə keçmişin ən pis xatirələri kimi yenidən geri qayıdaraq beynini dağıdırdı.

Scanned by CamScanner

O gün Nədimənin gözünə görünməmək üçün küncdə-bucaqda gizlənib dərslərin bitməsini gözlədi və axırıncı zəng vurulan kimi qaçıb aşağı endi. Tanrının onun taleyinə çıxardığı uğursuz qismətlə burada da qarşılaşa bilərdi. Odur ki, metro stansiyasına tərəf gedərək səkinin sakit bir yerində dayandı. Bura Nədimənin yolunun üstündən uzaq idi. Güləsər isə mütləq bu səkidən gəlib keçməli idi.

Bir azdan Güləsər bir qızla gəldi. Firdovsi Günay adlı bu bəstəboy qızı tanıyırdı. Bilirdi ki, Güləsərin qrup yoldaşı və ən yaxın rəfiqəsidir.

Sevdiyi qız yay tətili ərzində bir az da zəifləmiş, gözlərinə kədər dumanı çökmüşdü. Buna baxmayaraq, o, yenə çox gözəl idi. Əyninə geydiyi açıq qəhvəyi yubka və eyni rəngdə qolsuz köynək ona çox yaraşırdı. Firdovsinin ürəyi şiddətlə döyünməyə başladı.

Çatmağa beş-altı addım qalmış, deyəsən, Güləsər də onu görmüşdü və oğlana elə gəldi ki, qız özünü itirib. Elə Firdovsi də ondan geri qalmırdı. Qıza necə yaxınlaşacağını düşünüb həyəcan keçirirdi.

Nəhayət, qızlar onun bərabərinə yetişəndə Firdovsi bütün cəsarətini toplayaraq irəli yeridi:

– Salam, Güləsər, xoş gördük!

Qızlar dayandılar. Günay ona, sadəcə, maraqla baxırdı. Qara rəngli əl çantasını hər iki əli ilə qabağında tutmuş Güləsər isə əvvəlcə özünü laqeyd göstərmək istədi. Lakin nə qədər gizlətməyə çalışsa da, hiss olunurdu ki, onu gördüyünə sevinir.

Scanned by CamScanner

– Aaa... Salam... – deyə bir qədər gec dilləndi.

Firdovsi isə içindəki həsrəti və qıza olan məhəbbətini pərdələmək fikrində deyildi. Güləsərin mavi-boz gözlərinə baxaraq sevgisinin imkan verdiyi qədər mehribanlıqla soruşdu:

– Necəsən?

Qızın bayaqkı saxta laqeydliyi onun sevgi dolu baxışının istiliyindən dərhal əridi. Öz həmişəki füsunkar təbəssümü ilə gülümsəyərək:

– Sağ ol, yaxşıyam, sən necəsən? – dedi.

– Mən də yaxşıyam. Yay tətilin necə keçdi?

– Pis keçmədi...

– İndi üçüncü kursdasan, hə?

– Hə... Sən beşdə?

– Hə, bu il bitiririk universiteti.

– İnşallah. Sənə uğurlar...

– Sənə də...

Bəlkə yenə nəsə danışa bilərdi və Güləsər də ona həvəslə qoşulardı, ancaq birdən anladı ki, söhbəti davam etdirə bilməyəcək. Qızı kinoya, ya başqa bir yerə görüşə dəvət etməkdən isə söhbət belə gedə bilməzdi. Firdovsi Güləsərin onu sevdiyini Yaqutdan eşidib qızın kədərli gözlərində bunun aşkar təsdiqini oxusa da, aralarında hələ qalın pərdə vardı və bu pərdənin aradan götürülməsi zaman istəyirdi.

–Yaxşı, siz yolunuzdan qalmayın, – dedi, – mən də burada bizim uşaqları gözləyirəm. Şəhərə çıxacağıq.

– Sağ ol, – Güləsər dedi, Günay da başını tərpətməklə sağollaşdı və qızlar dönüb metroya tərəf getdilər.

Scanned by CamScanner

Onların arxasınca həsrətlə baxan Firdovsi ürə-yinin çırpıntısını sakitləşdirmək üçün əlini sinəsinə qoydu. Ona elə gəlirdi ki, ilk dəfə üçün söhbət pis alınmamışdı.

Bəxtindən həmin həftə Cəfər Cabbarlı kinoteatrında Hindistanın "Fillər mənim dostumdur" filmi nümayiş etdirilirdi. Bunu eşidən kimi gedib həmin filmə iki bilet aldı. Güləsərlə nəzərdə tutduğu ikinci söhbətə əməlli-başlı hazırlaşaraq plan qurdu. Daha utanmaqdan keçmişdi, təklifini elə israrla edəcəkdi ki, qız etiraz edə bilməsin. Həftənin dördüncü günü idi, deyəsən, biofaka gedib tənəffüsdə qızı təklikdə tutdu və özünü zorlayıb bacardığı qədər şən əhval-ruhiyyə ilə dilləndi:

– Salam, Güləsər. Nə yaxşı oldu, səni tək gördüm, bura elə sənə görə gəlmişdim. Necəsən?

– Salam... – qız təəccübləndi. – Nə əcəb, xeyir ola?

– O gün Yaqutla filmlərdən söhbət edirdik, dedi ki, sən Bakıya gələndən bir dəfə də kinoya getməmisən. Dünən kinoteatrın yanından keçəndə gözüm afişaya sataşdı, gördüm bu bazar "Fillər mənim dostumdur" göstəriləcək. Yaqutun sözü yadıma düşdü, kassaya girib iki bilet aldım. Yəni səninlə özüm üçün. Səni bazar günü kinoya dəvət edirəm. Əgər mənimlə getmək istəməsən, onda biletləri verərəm Yaqutla gedərsən.

Güləsər ani olaraq çaşıb qaldı. Bunu əvvəldən nəzərə almış Firdovsi isə onun ağzından "yox" cavabının çıxmasına imkan yaratmamaq üçün ara vermədən danışırdı:

Scanned by CamScanner

– Mən şəxsən hind filmlərini çox xoşlayıram. Ən çox da elə bu "Fillər mənim dostumdur" filmini. Çox ustalıqla çəkiblər. Fillər öz rollarını elə oynayır ki, heç aktyorlar elə təbii oynaya bilməz. Təsirli səhnələri də çoxdur. Məsələn, orada bir fil sahibinin körpə uşağını zəhərli ilandan son anda elə xilas edir ki... Bir sözlə, əla filmdir. Sən o filmə baxmısan?

– Hə, – qız cavab verdi, – uşaq vaxtı iki dəfə baxmışam. Neftçalada. Kəndimizə hərdən səyyar kino gətirirdilər.

– Nə olsun ki?! – Firdovsi çiynini çəkdi. – Mən lap üç dəfə baxmışam, amma yenə həvəslə baxaram. Nə deyirsən, bazar günü gedək?

– Sağ ol, zəhmət çəkmisən, ancaq özün başqası ilə get bax...

– Sənlə niyə olmasın? Burada nə var ki?! Səni, sadəcə, kinoya dəvət edirəm.

– Mən işləyirəm axı... – qız nəhayət ki, bəhanə tapdı.

– Bilirəm, amma işdən çıxıb çata bilərsən. Kino axşam 7-də başlayır. Çıxandan sonra da səni aparıb xalangilə qədər ötürəcəm.

Güləsər artıq yola gəlməyə başlayırdı. Hiss olunurdu ki, təklif ürəyincədir. Qəmli bir təbəssümlə gülümsəyib boynunu burdu:

– Bilmirəm xalam icazə verər, ya yox... Həmişə deyir ki, işdən çıxan kimi birbaşa evə gəl.

Firdovsi də özünü kədərlənən kimi göstərib yazıqlaşdı:

Scanned by CamScanner

– Xahiş etsən, icazə verər. Ömrümdə birinci dəfədir kimisə kinoya dəvət edirəm, məni qırma, nə olar...

Bu sözlərdən sonra qız insafa gəldi:

– Onda mən axşam evdə xalamdan icazə alım, nəticəsini sənə sabah deyərəm. Olar?

– Əlbəttə, olar, – Firdovsi sevindi, – elə isə mən sabah birinci tənəffüsdə yenə bura gələcəm.

– Yaxşı...

– Hələlik.

– Hələlik.

Güləsər xalasından icazə ala bildi və bazar günü "Elmlər Akademiyası" metrosunun qarşısında görüşüb piyada gəzə-gəzə Cəfər Cabbarlı kinoteatrına getdilər. Yol boyu yalnız universitetdən, Yaqutdan, həmin günkü havadan danışır, daha çox isə susurdular. O gün, yəni sentyabrın 9-u Firdovsinin həyatında ən xoşbəxt, eyni zamanda ən xoş həyəcanlı gün kimi yadda qaldı. Çünki Güləsərlə bir yerdə idi. Yalnız ikisi... Həm özləri bir yerdə idilər, həm də ürəkləri...

Zalda qız onun solunda oturmuşdu. Sağ qolu xəfifcə Firdovsinin sol qoluna toxunurdu. Bəlkə də yalnız köynəkləri idi toxunan, lakin oğlan bunu hiss edirdi. Lap köynəyinin canı varmış kimi hiss edirdi... Hərdən isə qolları bir az da yaxınlaşırdı, Firdovsi qızın titrək, hərarətli qol əzələsinin təmasını duyur və bu zaman ona elə gəlirdi ki, əgər mümkün olsa, bütün ömrünü beləcə – Güləsərlə bu kino zalında yanaşı oturaraq keçirər.

Scanned by CamScanner

"Fillər mənim dostumdur" filmi indi müasir kompüter dünyasında ən yeni texnologiyalarla çəkilib "Oskar" alan bəzi filmlərdən daha mükəmməl, daha peşəkarcasına çəkilmiş bir film idi. Buna baxmayaraq, Firdovsi gözünü ekrana diksə də, bütün seans boyu diqqəti Güləsərdə qalmışdı. Yalnız bəzi həddən artıq maraqlı kadrların nümayişi zamanı qızı bir neçə saniyəlik unudurdu.

Güləsər də gözünü böyük ekrana zilləmişdi. Yerində qımıldanmırdı. Firdovsi düşünürdü ki, o, sevdiyi filmi izlədiyi üçün bütün fikri ekrandadır. Ancaq kim bilir, bəlkə o da filmə baxmırdı, bəlkə onun da diqqəti Firdovsidə idi.

Demək olar ki, bütün seans boyu bir dəfə də danışmadılar. Tək bir kadrda, fillərindən küsüb gedən gənc ev sahibəsinin avtomobilinin qarşısını kəsəndə Güləsər başını ona tərəf əydi və pıçıltı ilə dedi ki, şəxsən onun fikrincə, bu kadr filmin ən təsirli yeridir. Həmin an ipək kimi hamar və yumşaq saçları oğlanın üzünə toxunurdu. Firdovsi onun ılıq, ətirli nəfəsini üzündə hiss edəndə bu xoş təmasdan içi titrədi.

Film bitəndən sonra qızın etirazına baxmayaraq, taksi tutub onu 8-ci mikrorayona, xalasıgilə apardı. Binanın qarşısında taksidən enəndə artıq saat 9-a qalırdı. Güləsər burada onunla sağollaşmaq istəyirdi ki, qızın sözünü kəsdi:

– Gəl birlikdə yuxarı qalxaq, səni mənzilin qapısına kimi aparacam. Qoy xalan görsün ki, tək deyilsən, səni yarı yolda buraxıb getməmişəm.

Scanned by CamScanner

Aşkar görünürdü ki, bu bir neçə saatlıq görüş-dən Güləsər də razı qalıb. Üzündə bəxtəvər bir ifadə vardı. Hey gülümsəyirdi. Yenə adəti üzrə başını geri atdı, əli ilə saçlarını düzəltdi və Firdovsinin ürəyini yerindən qoparan işvəli bir təbəssümlə:

–Yaxşı, nə deyirəm, gəl qalxaq, – dedi.

Liftlə beşinci mərtəbəyə qalxdılar. Güləsər zəngin düyməsini basdı. Qapını açan gənc oğlan əvvəl Firdovsiyə, sonra isə qıza mehriban bir nəzər salıb:

– Axır ki, gəlib çıxdınız, narahat olmağa başlamışdıq, – dedi.

Güləsər onları tanış etdi:

– Firdovsi, bu, xalamın oğlu Rüfətdir, Politexnik İnstitutunda dördüncü kursda oxuyur. Rüfət, bu da o gün barəsində danışdığım Firdovsidir. Yaqutun qrup yoldaşı...

Rüfət Firdovsiyə hörmətlə əl uzatdı:

–Tanışlığımıza çox şad oldum.

– Mən də, – Firdovsi dedi.

Bir-birilərinin əlini sıxdılar. Bu zaman mənzildən məlahətli bir qadın səsi eşidildi:

– Kimdir, ay Rüfət, Gülüdir? İçəri niyə keçmir?

Səsin ardınca isə qapıda bəzəkli ev xalatı geymiş gözəl, xanım-xatın bir qadın göründü. Bu, Güləsərin xalası Nəzakət idi. Firdovsini qızın yanında görəndə əvvəlcə özünün onsuz da səliqəli olan üst-başını düzəltməyə səy göstərdi. Sonra oğlanı ani müştəri gözü ilə süzərək, deyəsən, bəyəndi və şəfqətlə gülümsəyib ürəkdən xoşgəldin elədi:

Scanned by CamScanner

– Xoş gəlmisən, oğlum! Qapıda niyə dayanmısınız, içəri keçin də! Gəlin, gəlin, keçin içəri...

Bunları deyərək Firdovsiyə əl uzatdı. Firdovsi onun ağ, yumşaq əlini yüngülcə sıxıb tez də buraxdı:

– Yox, sağ olun, getməliyəm. Gecəniz xeyrə qalsın!

Dönüb gedəndə qadın arxasınca səslənirdi:

– Aaa, bu olmadı ki, ay oğul, bir stəkan çayımızı içib sonra gedərdin də... Çox sağ ol, qızımızı tək buraxmadığın üçün...

Firdovsi liftə minmək əvəzinə pilləkənlə enirdi. Yəqin ki, özünü itirdiyi üçün burada liftin olduğunu unutmuşdu. Hə, elədir. Firdovsi həmin vaxt elə halda idi ki, təkcə bu mərtəbəyə liftlə qalxdığını yox, ümumiyyətlə, dünyada lift adında bir texnologiyanın olduğunu belə unuda bilərdi.

Həmin axşam o necə də xoşbəxt idi!

Yarıqaranlıq səki ilə avtobus dayanacağına doğru yeriyəndə yalnız bunu düşünürdü. Şükür etməyə, minnətdarlıq bildirməyə nəsə bir istinadgah axtardı və bu zaman yenə Tanrı yadına düşdü. Bu dəfə ona qızmadı. Fikirləşdi ki, Tanrı doğrudan da var, o, xeyirxahdır və Firdovsini sevir. Düzdür, bu böyük varlıq bir dəfə öz bəndəsi ilə olduqca acı bir zarafat etmiş, ona taleyinin guya ən gözəl qismәti kimi Nədimə adlı bir ifritəni göndərmişdi. Lakin belə görünürdü ki, indi Tanrının ona rəhmi gəlib. İndi də könlünü almaq üçün üçün indi onun qarşısına həqiqətən dünyanın ən yaxşı, ən gözəl qızını çıxarır...

Scanned by CamScanner

Güləsərin xalası da, xalası oğlu Rüfət də xoşuna gəlmişdi. Yaxşı adamlara oxşayırdılar. Onun gələcək qohumları...

Yəni doğrudanmı bütün bunlar yuxu deyildi? Doğrudanmı o, artıq Güləsərlə idi? Hə, əlbəttə, onlar az əvvəl kinoteatrda ən yaxın adamlar kimi yanaşı oturmamışdılarmı? Gecənin bu aləmində Firdovsi onu taksi ilə evlərinə gətirmədimi? Rüfət ona bir yaxını kimi əl uzatmadımı? Güləsərin indi ana əvəzi sayılan Nəzakət xanım onu canı-dildən mənzillərinə dəvət etmirdimi?

Bəli, Firdovsi həyatından olduqca razı idi və Tanrının onu Nədimə ilə çəkdiyi çox ağır sınağı unudub, ona verdiyi indiki bu xoşbəxtliyə görə dönə-dönə şükür etməli idi.

Bu bəxtəvərlik, bu ürəkaçan düşüncələr daha bir gün davam etdi. Ertəsi gün universitetdə biofak tərəfə keçərək Güləsəri görəndə qız özü sevincək ona yaxınlaşdı:

– Salam, Firdovsi. Necəsən?

– Salam, Güləsər. Sağ ol, yaxşıyam. Sən necəsən? Axşam evə gec gəldiyin üçün xalangil səni danlamadı ki?

– Yox, nə danışırsan, əksinə, xalam dedi ki, gərək sən də təkid edəydin, Firdovsi içəri keçib beş dəqiqə oturaydı, çay içib sonra gedəydi.

– Həə? Sağ olsun xalan. Onu deyim ki, çox xoşuma gəldi. Gözəl, həm də mədəni bir xanımdır. Elə Rüfət də yaxşı oğlandır.

Scanned by CamScanner

– Onlar da səni çox bəyəniblər. Xalam deyir ki, indi belə ağır təbiətli, mərifətli oğlanlara az-az rast gəlinir.

– Çox sağ olsun. Həm mənim barəmdəki xoş sözlərinə görə, həm də sənə mənimlə kinoya getməyə icazə verdiyinə görə. Deyirəm bəlkə bu günlərdə dramteatra da gedək, hə? Nə deyirsən? Orada olmusan?

– Birinci kursda həmkarlar təşkilatı bizə orada gedən bir tamaşaya bilet satmışdı. Qrup yoldaşlarımla getmişdik. Vəssalam. Sonra heç olmamışam.

– Onda ikimiz gedərik bu dəfə.

– Hə, gedərik...

Bu zaman zəng vuruldu. Güləsər:

– Mən qaçdım! Hələlik, – deyib doğrudan da qaça-qaça auditoriyaya girdi.

– Hələlik...

Firdovsi bu sözləri onun arxasınca astadan deyib ciyər dolusu nəfəs aldı. Sevdiyi bu qızın artıq ona məxsus olduğuna qəlbində heç bir şübhə qalmamışdı. Bəli, bu gündən Güləsərin adı onun taleyinə iri hərflərlə yazılırdı. Nədimənin pozulmuş adının yerinə...

14

Bəzən düşdüyü növbəti tale cığırı ilə irəliləyən insan qarşısında şaxələnmiş yeni cığırların heç birini gələcəyi üçün məqbul saymır və anlayır ki, onu bu

Scanned by CamScanner

yolayrıcına gətirən cığırın özü yanlışdır. Yəni əvvəl-dən bu cığıra yox, başqasına burulmalı imiş. Lakin bunu düşünmək artıq gec olur. Çünki Tanrı insana həyat yolunda irəli getmək üçün nə qədər çoxşaxə-li cığırlar təklif etsə də, düşdüyü cığırda geri qayıt-mağa heç bir şans verməyib. İnsan yalnız irəli – öz sonluğuna doğru getmək üçün qarşısına çıxan yeni cığırlardan nisbətən daha məqsədəuyğun olanını seçmək məcburiyyətindədir.

Növbəti gün dərsdən çıxıb otaq yoldaşları ilə ya-taqxanalara doğru gedən Firdovsi arxadan adını eşi-dib geri boylandı. Onu səsləyən Nədimə idi. Təng-nəfəs halda dallarınca gəlirdi.

Firdovsi: "Siz gedin, görək bu nə istəyir", – dedi. Yoldaşları onunla razılaşıb yollarına davam etdilər.

Nədimə gəlib ona yetişdi:

– Salam.

– Salam.

– Elə bərk gedirsiz ki, çatmaq da olmur.

– Nə olub? – soyuq səslə soruşdu.

Nədimə əllərini belinə qoyub başını kinayə ilə buladı:

– Bunu mən səndən soruşmalıyam ki, sənə nə olub?

– Mənə heç nə olmayıb.

– Yox, nəsə olub. Məni bədbəxt elədin, indi də özünü elə aparırsan ki, guya heç mən adda adam yoxdur bu dünyada.

– Mən heç kəsi bədbəxt eləməmişəm...

Scanned by CamScanner

Firdovsi üz-gözünü turşudaraq bunu dedi və dönüb getmək istədi. Lakin qız dərhal əlini uzadıb onun qolundan yapışdı:

– Hara qaçırsan, dayan görüm! Yoxsa mən yaxınlaşdım sənə, mən yalvardım ki, gəl tanış olaq? Bunu deyən sən deyildin ki, mən sənin taleyinin qismətiyəm? Mənə "səni sevirəm" deyib yoldan çıxaran, sənə olan istəyimdən, bir də təcrübəsizliyimdən istifadə edib Akademiya bağında adamların içində məni rüsvay edən sən deyildin?

Hə, bu ifritənin sözlərində müəyyən həqiqət var idi. Birinci Firdovsi ona yaxınlaşmış, tanışlıq təklif etmişdi. Demişdi ki, o, taleyinin qismətidir. Çünki Tanrı doğrudan da qismət kimi onu çıxarmışdı qarşısına. Ancaq nə olsun?! Sonradan tanıdı bu qızın pis xislətini. Bildi ki, ona layiq biri deyil. Elə Tanrı özü də indi fikrini dəyişmişdi. Onu Güləsərlə yaxınlaşdırmağa çalışırdı...

– Yaxşı olar ki, öz günahlarını da görəsən, – dedi, – mən sənə yaxınlaşanda sənin necə qız olduğunu bilmirdim. Sonradan tanıdım səni. Və nə yaxşı ki, tanıdım...

Nədimə gözlərini qırpmadan baxışlarını onun üzünə dikmişdi. Bu baxışlarda tənədən, kinayədən başqa nəsə xoşagəlməz bir şey də vardı. Firdovsi həmin şeyin nə olduğunu anlamasa da, onun mənfi təsirinə dözməyib öz baxışlarını yayındırdı. Lakin qız ona baxmaqda davam edirdi:

– De görüm mən neyləmişəm?

Scanned by CamScanner

Bunu elə sakit dedi ki, Firdovsi odlandı:

– Daha neyləyəcəksən?! Qardaşın İntiqam yaralı halda yerdə çapalayanda dedim ki, həkim çağıraq, qoymadın. Dedin, qoy ölsün. Onda sənin necə daşürəkli biri olduğunu anladım. Sonra Həzi söhbəti çıxdı ortaya... Yaxşısı budur, o barədə heç söhbət açmayaq, çünki bu haqda danışmaqdan belə iyrənirəm...

– Pah! – Nədimə qəfildən onun sözünü kəsdi. – Elə danışırsan, sanki İntiqamı mən vurmuşam bıçaqla. Onu sən öldürdün e, ay yoldaş Firdovsi! Sən öldürdün mənim qardaşımı! Bıçağı qarnına soxub qanına buladın! O, mənim doğma qardaşım idi. Bunu anlayırsan, ya yox?! Həmin vaxt ağlım başımda olmayanda "qoy ölsün" dedimsə, bunu sənə sevgimdən dedim. İstəmədim gəlib səni tutub aparsınlar. Bəs sənin kişiliyin harda qalmışdı? Sözümə baxmayaydın, həkim çağıraydın! Yadında saxla ki, sən mənim qardaşımın qatilisən. İndi gözün o modabaz Güləsərə düşüb deyə məni unutmusan, ancaq bil ki, mən həqiqətən sənin taleyinin qismətiyəm, məndən qaça bilməyəcəksən. Bax, budur sənə deyirəm, əgər bir də səni o qızla görsəm, yaxud görüşdüyünüzü kimdənsə eşitsəm, həmin saat birbaşa milis idarəsinə gedib hər şeyi danışacam. Deyəcəm ki, İntiqamı Həzi yox, Firdovsi öldürüb. Səni tutub basacaqlar türməyə, azı 10 il gedəcəksən. Ancaq elə bilmə ki, bununla əl çəkəcəm səndən. Sən tutulub gedəndən sonra o Güləsəri də bədbəxt edəcəm. Bütün Bakıda rüsvay edəcəm onu. İmkan verməyəcəm bir xoş gün görsün. Özün yaxşı bilirsən ki, bu dediklərimi edə bilərəm...

Scanned by CamScanner

Firdovsi daş heykəl kimi donub qalmışdı. Onu dinləyirdi. Handan-hana zəif səslə dilləndi:

– Bilirəm, edərsən... Allahın səni mənə rast gətirdiyi o günə bir daş düşəydi kaş. O gün ayaqlarım qırılaydı, universitetə gedə bilməyəydim.

Nədimə iyrənc bir kinayə ilə ağzını əydi:

– Arvad kimi qarğış eləməkdənsə sözlərimi yadında saxla. Allahdan istəyirəm ki, sənin bir də o qıza yaxınlaşdığını görüb-eşidim. Bax, vurub öldürdüyün qardaşımın qəbrinə and içirəm, səni tutduracam! Ağlını başına yığ, taleyin sənə verdiyi qismətə təpik atma. Bizim bundan sonra yolumuz eynidir. Bir də yadında saxla ki, mən heç bir günahın sahibi deyiləm. O Həzi oğraş yaşımın az olmasından istifadə edib məni yoldan çıxarıbsa, bu mənim günahım deyil... – Sözünü bitirib getmək istəyəndə birdən yadına nə düşdüsə, dayanıb əlavə etdi: – Hə, bir də qoy bunu deyim, sən o qızın gözünə elə ciciş görünməyinə baxma, o, mənim heç kirli ayağımın tozu da ola bilməz. İstər gözəllikdə, istərsə də abır-həyada. Mən özümə onun yarısı qədər bəzək-düzək vursam, o, heç əlimə su tökməyə də yaramaz...

Bunları qəzəbdən ağzı köpüklənə-köpüklənə deyib getdi. Yataqxanalara qədər yolları eyni olsa da, onu gözləmək istəmədi. Firdovsi isə indi hara gedəcəyini belə unutmuşdu...

O gecə səhərə kimi yata bilmədi. Gözünü yuman kimi Nədimə iblis cildində yuxusuna girib onu ayıldırdı. Neçə dəfə üzünü yastığa söykəyib astadan ağladı ki, yatmış otaq yoldaşları səsinə ayılmasınlar.

Scanned by CamScanner

O, qismətinə Nədimənin yazılacağı belə acınacaqlı taleyi istəmirdi. Nədimə ilə ailə qurub onunla bir ömür eyni bir evdə yaşamaqdansa ölüm ona daha xoş gəlirdi. Bu yandan da Güləsərə olan sevgisi... O, yenicə tapdığı bu xoşbəxtliyini necə əldən verə bilərdi axı?! Bir xeyli düşünəndən sonra qərara gəldi ki, Nədimənin təhdidlərini saya salmadan öz həyatına davam edəcək. Qoy o qancıq nə bacarır eləsin! Gedib milisə desin ki, qardaşımı Firdovsi öldürüb. Qoy onu həbs etsinlər. Güləsər onu gözləyər və həbsdən çıxandan sonra evlənib qalan həyatlarını ürəkləri istədiyi kimi bəxtəvər yaşayarlar...

Ancaq az keçmiş bu qərarı özünə də çox qorxunc göründü. O, həbs olunur, dustaqlar onun cinayətini qorxusundan gizlətdiyini, Həzinin onun yerinə həbsdə yatmasına göz yumduğunu biləndə ona nifrət edirlər, onsuz da ağır olan həbsxana həyatı Firdovsi üçün lap cəhənnəmə dönür. Anası onun dərdindən çərləyib ölür, atası oğlunun ucbatından bütün rayonda başıaşağı olur, bacısının gülərüz çöhrəsi həmişəlik yasa batır.

Hələ Güləsər... Firdovsinin qatil olduğunu biləndə o, nə düşünəcək? Nədimə deyir ki, səni həbsə göndərəndən sonra onu da bədbəxt edəcəm. Etməzmi? Əlbəttə, edər! Onun əlindən hər cür pislik gələr. Məhkəmədə özündən əməlli-başlı detektivsüjetuydurubgözünübeləqırpmadan,utanıbqızarmadan o boyda kişiyə böhtan atmadımı?

Yox, Firdovsi həbsxanaya düşmək istəmirdi...

Scanned by CamScanner

Dəqiq bir qərara gələ bilməsə də, o gündən universitetə təsadüfi hallarda getməyə başladı. Nə yaxşı ki, beşinci kursların dərsə davamiyyətinə ciddi baxmırdılar. Və dərslərin özü də xeyli seyrəlmişdi. Beşinci kurs tələbələrinin əsas işi dövlət imtahanlarına və diplom müdafiəsinə hazırlaşmaq idi. İctimai işlərdən də çəkilmişdi. Son kursa keçdiyi üçün sentyabr seçkisində onu komsomol bürosuna üzv seçməmişdilər.

Universitet tamam gözündən düşmüşdü. Gününün çoxu otaqda yatmaqla, durandan sonra da şəhərə çıxıb veyillənməklə keçirdi. Bəzən tək, bəzən də otaq yoldaşları ilə gəzməyə çıxırdı.

Bircə universiteti tez bitirib rayona – öz kəndlərinə getmək istəyirdi. Kəndlərində riyaziyyat müəllimi olmadığı üçün bu dərsləri fizika müəllimi keçirdi. Atası ona deyirdi ki, diplomunu alan kimi kəndə gəl, burada müəllim işlə. Elə də edəcəkdi. Çıxıb birdəfəlik kəndə getsəydi, Nədimə kimi ifritədən də ömürlük qurtulardı.

Elə Güləsərdən də uzaq olardı, onu unutmaq asanlaşardı... Onsuz da Firdovsi özünü bu qıza lap əvvəldən layiq bilmirdi. Qoy gedib özünə layiq biri ilə ailə qursun, xoşbəxt olsun...

Bu fikri qətiləşəndən sonra yalnız günlərini sayır, universitetdən və onun həndəvərindən uzaq olmağa səy göstərirdi. Bacardığı qədər çalışırdı ki, Güləsərlə, Nədimə ilə, bir də Yaqutla rastlaşmasın.

Beləcə, mənasız bir dərs ilinin necə gəlib-getdiyindən xəbəri olmadı. İlin sonu gəlib çatdı. Nə

Scanned by CamScanner

dövlət imtahanlarına, nə də diplom müdafiəsinə hazırlaşmamışdı. Onunla Orucun hər ikisinin seçdiyi diplom işi riyazi-fizika tənliklərindən olduğu üçün diplom rəhbərləri eyni adam idi – Eldəniz müəllim. Bu gənc alim aspiranturanı yenicə bitirmiş, hələ elmlər namizədi alimlik adını almamışdı. Dissertasiyasını yazır, elmi rəhbəri olan qocaman professorun yanına ayaq döyürdü. Firdovsigillə məşğul olmağa isə nə vaxtı, nə də həvəsi yox idi.

Diplom müdafiəsinə az qalmış Firdovsi ilə Oruc onun işlədiyi kafedraya getdilər və bildirdilər ki, diplom işi ilə bağlı hələ heç nə yazmayıblar. Eldəniz azacıq fikrə gedib masanın siyirməsindən bir qalaq vərəq çıxardı. Məlum oldu ki, yazı makinasında çap olunmuş bu yazılar onun yazdığı, lakin elmi rəhbəri tərəfindən bəyənilməmiş dissertasiya işidir. Bütün vərəqlərdəki yazıların üzərindən qırmızı qələmlə çalın-çarpaz xətlər çəkilmişdi. Bu xətləri yəqin onun elmi rəhbəri olan qocaman professor çəkmişdi. Mənası da bu idi ki, apar bunları zibil qutusuna tulla və dissertasiyanı yenidən yaz. Eldəniz vərəqləri saydı. Düz 42 dənə idi. Onların yarısını Firdovsiyə, qalan yarısını Oruca verib dedi, heç olmasa gedin bunları köçürün, diplom müdafiəsində görsünlər ki, əlinizdə nəsə var, guya nəsə yazmısınız, qiyməti də tapşırıqla-filanla birtəhər alarsınız, qurtarıb gedər.

Elə də etdilər. Diplom müdafiəsi günü tələbələr bərk həyəcan keçirirdilər. Komissiyanın sədri ənənəyə uyğun olaraq başqa bir ali məktəbdən –

Scanned by CamScanner

Politexnik İnstitutundan gəlmişdi. Bu, mexmat tələbələrinin vaxtilə kitablarından çox istifadə etdikləri məşhur riyaziyyatçı-alim idi.

Firdovsinin isə heç nə vecinə deyildi. Gözünə təkcə universitet yox, dünyanın özü də görünmürdü. Növbəsi çatanda əlində Eldənizin mənasız qaralamalarından köçürdüyü diplom işi auditoriyaya daxil oldu. Riyaziyyat üzrə 8 professor üzləri uzun yazı lövhəsinə tərəf sıra ilə əyləşmişdi. İkisi başqa yerdən, altısı isə öz universitetlərindən. Ancaq dekan müavini görünmürdü. Yəqin harasa çıxmışdı. Yaxınlaşıb əlindəki yazılarını onlara vermək istəyəndə komissiya sədri dedi ki, onu çıxanda təhvil verərsən, indi isə yazı lövhəsinin qarşısına keçib orada yazdıqlarını bizə anlat. Lövhəyə doğru getsə də, beynində onlara anlatmalı heç nə yox idi. "Cəhənnəmə ki... – deyə ürəyindən keçirdi. – Nə olur-olsun! Beş il bura ayaq döymüşəm, hər halda, məni diplomsuz yola salmayacaqlar ki..."

Lövhəyə yenicə yetişmişdi ki, bəxtindən qapı açıldı və fakültənin dekan müavini içəri daxil oldu. Əvvəl istədi keçib komissiyadakı yerində əyləşsin, lakin lövhə qarşısındakının Firdovsi olduğunu görəndə ona yaxınlaşıb ucadan dedi:

– Bu oğlan bizim ən fəal ictimaiyyətçi tələbəmiz olub. İcazənizlə, bunu özüm sorğu-sual edəcəm.

Komissiya üzvləri bu sözdən sonra nəzərlərini lövhədən çəkib öz aralarında şəxsi söhbətə başladılar. Dekan müavininin bir qədər astadan apardığı

Scanned by CamScanner

sorğu-sualın isə nə Firdovsinin diplom işinə, nə də, ümumiyyətlə, riyazi-fizika tənliklərinə heç bir dəxli yox idi:

– Necəsən, Firdovsi?

– Çox sağ olun, yaxşıyam.

– Təyinatın hara düşüb?

– Elə öz rayonumuza aldım. Vartaşenə. Kənddə işləyəcəm.

– Kəndinizdə boş müəllim yeri var?

– Bəli, var.

– Kəndiniz necə yerdir?

– Yaxşı, səfalı kənddir.

– Nə yetişir orada?

– Hər şey! Qoz, fındıq, şabalıd, tut, zoğal...

– Onda yaxşı tut, zoğal araqları da olar sizdə?

– Bəli, olur...

– Afərin! Təyinatı kəndə almaqda yaxşı eləmisən. Get həm müəllim işlə, həm də təmiz havada ye-iç, kef elə özün üçün...

Dekan müavini son olaraq bunu dedi, sonra dönüb komissiya üzvlərinə ucadan bildirdi ki, bu oğlan yaxşı danışdı, qoyun getsin, "beş" yazmaq olar...

Eldənizin cəfəngiyyatının yarısını diplom işi adı ilə komissiyaya verib çıxdı. Heç sevinmirdi. Nə onda sevindi, nə də iyun ayında diplomunu əlinə alanda...

Hə, universitetdəki son günündə, diplomunu almaq üçün dəhlizdə növbəyə duranda birdən Güləsəri gördü. Artıq neçə ay idi ki, görüşmələri bir yana dursun, bir-birilərini heç görməmişdilər də. O, Güləsərdən qaçırdı, Güləsər isə deyəsən, onu heç

Scanned by CamScanner

axtarıb-eləməmişdi. Bu, Firdovsiyə əvvəlcə qəribə gəlirdi. Fikirləşirdi ki, Güləsər niyə bu aylar ərzində özü onu tapıb hesabat tələb etmədi və ya Firdovsinin ondan nə səbəbə uzaqlaşdığını Yaqut vasitəsilə öyrənməyə cəhd göstərmədi. Sonra azacıq düşünərək anladı ki, Güləsər Nədimənin tayı deyil axı, qızlıq qürurunu, abır-həyasını gözləyən biridir. Yəqin Firdovsinin hansısa məchul səbəbdən ondan uzaqlaşmaq istədiyini anlayıb və onun seçiminə, qərarına hörmətlə yanaşaraq, öz taleyi ilə barışıb...

Qız Yaqutun yanında dayanmışdı. "Görəsən, o, bura niyə gəlib? – deyə ürəyindən keçirdi. – Axı onların dərsləri bitib, indi universitetə yalnız beşinci kurslar diplomlarını almaq üçün gəlirlər..."

Fikirləşdi ki, yəqin Yaquta görə gəlib. Axı bu gün Yaqutun da universitetdəki son günüdür.

Çox istərdi ki, Güləsərlə üz-üzə gəlməmək üçün bu saat buradan qaçıb getsin. Ancaq diplomu şəxsən özü almalı idi, əgər indi almasaydı, sonra günlərlə tədris hissəsinə ayaq döyməli olacaqdı.

Növbəsi çatanda otağa girib diplomunu aldı. Heç açıb içinə baxmadan dəhlizə çıxdı. Yoldaşlarının bir neçəsi onu təbrik etdi.

Bu zaman GüləsərYaqutdan ayrılaraq birbaşa ona doğru gəldi. Sağ əlini irəli uzadaraq:

–Təbrik edirəm. Uğurlu olsun! – dedi.

Qəribədir, qızın mavi-boz badamı gözlərindən ona qarşı heç bir tənə, kinayə, narazılıq-filan oxunmurdu. Yalnız səmimi hörmət vardı bu baxışlarda.

Scanned by CamScanner

Və bir də şəffaf su kimi bu təmiz gözlərin dərinliklərində..., lap dərinliklərində başqalarının yox, yalnız Firdovsinin görə biləcəyi gizli bir həsrət, nakam bir sevgi gizlənmişdi...

Firdovsi həmin vaxt bu əzablı anları yaşamamaq üçün hər şeyə razı olardı. Hətta ölməyə də...

– Çox sağ ol... – pərt halda cavab verib qızın ağ, zərif əlini ehmalca sıxdı.

Qız yenə nəsə demək istəyirdi, deyəsən. Ancaq demədi. Firdovsinin əlini daha bir neçə saniyə əlində saxlayıb birdən qəmgin-qəmgin gülümsədi və əlini çəkərək Yaqutun yanına qayıtdı. Yox, Yaqutun da yanında dayanmadı daha. Dayana bilmədi... Ona nəsə deyərək universitetdən çıxıb getdi...

15

Beş illik qaynar tələbəlik həyatı çoxdan arxada qalmışdı. Bir ilə yaxın idi ki, Oğuzdakı doğma kəndlərində müəllim işləyirdi. Onun Bakıda qalmayıb kəndə qayıtması atasının ürəyindən olmuşdu. Eyni məktəbdə dərs deyirdilər. Atası ədəbiyyatdan, o isə riyaziyyatdan. Dərs saatları, deməli, maaşı ən çox olan iki əsas fənn onların əlində idi. Bu səbəbdən heç də pis dolanmırdılar.

Firdovsinin kəndə gəlişi kənd camaatının da, məktəb kollektivinin də ürəyindən olmuşdu. Təkcə fizika müəllimi Nurbalanın onu görməyə gözü yox

Scanned by CamScanner

idi. Firdovsinin gəlişi ilə o qədər riyaziyyat dərsləri əlindən çıxmışdı axı...

Dünyadan da, canından da bezmiş, Bakıdan az qala başını götürüb bu ucqar kəndə qaçmış Firdovsi ilk günlər məktəbə də, dərslərə də həddən artıq laqeydliklə baxırdı. Hətta kənd uşaqlarına kvadrat tənliklərdən, ədədi ardıcıllıqlardan, həndəsi aksiom və teoremlərdən danışmaq ona mənasız iş kimi gəlirdi. Düşünürdü ki, Evklid həndəsəsində düz xətt üzərində olmayan nöqtədən həmin düz xəttə yalnız bir paralel düz xətt çəkməyin mümkünlüyü haqqında bilik qarşısında oturmuş bu uşaqların nəyinə gərəkdir axı... Firdovsi özü bir zamanlar bunları yüksək səviyyədə öyrənib universitetə qəbul olunmuş, orada da ali riyaziyyatı mənimsəmişdi. Nəticəsi nə oldu? Üçüncü kursun axırlarında gələcək ömürgün yoldaşını, taleyinin qismətini qumar kartları ilə axtardı, Tanrını da bu işə qoşub ona yalvardı ki, qarşısına yaxşı bir qismət çıxarsın. Və Tanrı başına döndüyüm də bir ifritəni onun qarşısına çıxarıb dedi ki, al, bu da sənin taleyinin qismәti...

İndi onun fikrincə, yaxşı olardı şagirdləri paralellər aksiomunu əzbərləməkdənsə yaşadıqları real həyatı öyrənsinlər ki, sonradan bu həyat yollarında büdrəyib yıxılmasınlar.

Ancaq bir-iki aydan sonra məktəbə də, şagirdlərinə də alışmağa başladı. Sinfə daxil olarkən ona zillənmiş baxışlarda bir sevgi, hörmət, özünə qarşı inam görür və düşünürdü ki, taleyini bu peşəyə bağlamağa dəyər.

Scanned by CamScanner

Onun universitet diplomu ilə kəndə gəlməsi kənddəki subay qızları da sevindirmişdi. Qulağına çatan xəbərlərdən bilirdi ki, evlərin çoxunda hər gün onun söhbəti gedir, hər kəs bu gənc müəllimin kiminlə ailə quracağını səbirsizliklə gözləyir. Lakin Firdovsinin evlənmək fikri yox idi. Bacardığı qədər çalışırdı ki, bütün fikrini məktəbdəki işinə versin, bununla başını qarışdırsın. Bu məqsədlə məktəbdə şahmat və foto dərnəkləri yaratmışdı. Dərnəklərə üzv olan şagirdlər dərsi bitirərək evə gedəndən sonra nahar edib yenidən məktəbə qayıdırdılar.

Anası ondan Nədimə barədə soruşanda demişdi ki, qız kəndə gəlməyə razı olmadı, ona görə də münasibətlərimiz pozuldu. İndi Səbirə arvad özü kənddən ona qız axtarırdı. Elə atası da hərdən evdə bu barədə atmacalar atır, kiminsə qızını ağızdolusu tərifləyirdi.

Onun Güləsəri sevdiyini təkcə Nazlı bilirdi, buna görə də bütün digər bacılar kimi qardaşına qız axtarmırdı.

Firdovsi Güləsərin fotosunu sinifdəki masasının siyirməsinə qoymuşdu. Hərdən dərs zamanı uşaqların başı yazı işinə-filana qarışanda şəkli gizlicə siyirmədən götürüb baxırdı.

Şagirdləri arasındakı bəzi çoxbilmiş qızlar onun bu hərəkətindən şübhələnib, tənəffüsdə otağa girib masanın siyirməsini axtararaq şəkli tapıbmışlar. Beləliklə, kəndə xəbər yayıldı ki, Firdovsi müəllimin sevdiyi bir qız var. Bu qız olduqca gözəl bir qızdır və

Scanned by CamScanner

ən maraqlısı budur ki, həmin qız bu kənddən deyil, şəhərliyə bənzəyir...

Neçə dəfə Güləsərə məktub yazmaq istəsə də, sonda fikrindən daşınmışdı. Qızın xalasıgilin ünvanını bilirdi. 8-ci mikrorayondakı o evin beşinci mərtəbəsinə liftlə necə qalxdıqlarını, 46 saylı mənzilin qapısı önündə qızın xalası oğlu Rüfətlə, xalası Nəzakətlə necə görüşdüyünü unutmamışdı və heç vaxt da unutmayacaqdı.

İlk dəfə özü ilə bacara bilmədi, oturub qıza uzun-uzadı məktub yazdı. Ancaq yazdığı məktubları göndərmədən yandırdı. Güləsərə olan məhəbbətini ona dönədönə bildirməyin, nəyisə izah etməyin, üzr istəməyin nə mənası vardı axı?! Yazdığı məktubları yandırarkən düşünürdü ki, qoy yazıq qız onu unuda bilsin. Unutsun ki, sonra başqasını sevib ailə qura bilsin...

Müəllim kimi çalışdığı ilk dərs ilinin sonları idi. May ayının ortaları olardı. Firdovsi yuxarı siniflərdən hansınasa dərs deyirdi. Müəllimlərdən biri qapını açıb dedi ki, onu görmək istəyən var. Dərhal şagirdlərə tapşırıq verib həyətə çıxdı.

Küçədə qəhvəyi rəngli bir "QAZ-24" dayanmışdı. Firdovsinin diqqətini cəlb edən ilk şey bu avtomobilə söykənib ədalı şəkildə təsbeh oynadan 30-35 yaşlarında üzütüklü gənc oldu. Məktəbin həyət qapısı ağzında isə qara yubka və qırmızı rəngli nazik kofta geyinmiş bir qız dayanmışdı. Onun Nədimə olduğunu görəndə heyrətdən Firdovsinin ayaqları az qala yerə yapışdı.

Scanned by CamScanner

İndi o, yuxuda özünü xoşbəxt görüb ayılmış, ayılandan sonra reallıqdakı bədbəxtliyini xatırlayıb sarsılmış adamlara bənzəyirdi. Yaddaşında öz qorxunc xatirələri ilə qalmış Bakını bir neçə ay idi ki, unutmağa başlamışdı. Bir neçə ay idi ki, Bakı artıq onun üçün yalnız Güləsərin yaşadığı gözəl, eyni zamanda çox uzaq bir məkan idi. İndi isə hər şey birdən-birə geri qayıtmışdı. Bakı onun üçün yenidən cəhənnəm diyarına çevrilmişdi. Bu qədər yolu basa-basa durub rayona gələn, küçədə dayanıb onu gözləyən bu ifritə özü ilə həmin cəhənnəm diyarından qorxunc xatirələr gətirmişdi. Köhnə Yasamal məhəlləsindəki o qaranlıq dalanda baş verən qanlı ölüm hadisəsi, "Qoy ölsün!" deyən dəhşətli pıçıltı... Məhkəmə zalındakı çığırtılar, söyüşlər, Həzinin nifrətdən bərəlmiş gözləri... Yataqxana yolunda Firdovsini saxlayıb ağzı köpüklənə-köpüklənə həbslə təhdid edən Nədimənin üzündəki iblis maskası...

"Bu qancığın burada nə işi var, ay Allah!" – deyə ürəyindən keçirdi. Əsəb və həyəcandan, daha çox isə qorxudan əl-ayağı titrəməyə başlamışdı. Bəli, qorxudan! O, artıq etiraf etməyə başlamışdı ki, Nədimədən qorxur. Heç bir insandan, heç bir heyvandan qorxmur, amma Nədimədən qorxur.

Və insan məhz qorxduğu adama nifrət edir. O da Nədiməyə nifrət edirdi. Yalnız ona! Nifrətin nə olduğunu əslində elə Nədimə öyrətmişdi Firdovsiyə. İmkanı olsaydı, qadın qiyafəsinə girmiş bu iblisi öldürər, sonra isə meyitini yandıraraq külünü havaya sovurardı...

Scanned by CamScanner

Həyət qapısından küçəyə çıxanda üzütüklü oğlan təsbeh oynatdığı əli ilə onu göstərib Nədimədən:

– O gədə budur? – deyə soruşdu.

Nədimə başı ilə təsdiq edəndə maşından aralanıb ədabaz bir yerişlə ona tərəf yeridi. Firdovsi indi yalnız ona baxır və heç nə anlaya bilmirdi. Bu adam kimdir? Nədimə onu nə üçün özü ilə bura gətirib? Ondan nə istəyirlər?

Gəlib Firdovsiyə yetişən gənc pis baxışlarını bir neçə saniyə onun üzündə gəzdirdi. Sonra isə əlindəki təsbehi onun gözləri qarşısında yelləyərək dedi:

– Alə, qaqaş, Firdovsisən, Sədi Şirazisən, ya kimsən, bilmirəm, ancaq bir şeyi yadında saxla: biz o qeyrətin sahibi deyilik ki, sənin kimi bir qotur rayon uşağı bacımızın adını özü ilə çıxara, sonra da onu aldadıb qaça. Buna görə adama bilirsən neyləyərlər, alə? Tutub...

Sözünün ardını deməmiş Nədimə gəlib aralarına girdi:

– Ağarəfi, yolda danışdıq axı, sən qarışmayacaqsan. İcazə ver, Firdovsi ilə özümüz bir-iki kəlmə söhbət edək.

– Yaxşı, əmiqızı, – Ağarəfi adlandırılan gənc qızla razılaşdı, – siz söhbətinizi eləyin. Qaqaş necə olmasa qohumumuz olacaq, indidən pisləşməyək onunla. Həm də türmədən təzə çıxmışam, bir az nəfəs almaq istəyirəm.

Firdovsi hirsindən boğulub qalmışdı. Nə deyəcəyini bilmirdi. Ən pisi isə bu idi ki, müəllimlərin

Scanned by CamScanner

bir neçəsi məktəbin qapısına çıxaraq oradan onlara tamaşa edirdilər.

Ağarəfi sözünü bitirərək gedib maşında oturdu. Yalnız bundan sonra Nədimə Firdovsinin qolundan tutub kənara çəkdi. İndi baxışlarında süni bir mehribanlıq vardı:

– Salam, Firdovsi. Necəsən?

– Salam... – qızın üzünə baxmadan mızıldandı.

– Əmioğluma fikir vermə, bir az hövsələsizdir. Bura səni görməyə gəlmişəm. Ona yalvardım ki, maşını ilə gətirsin məni. Yoxsa çox əziyyət çəkərdim, uzaq yoldur...

Firdovsi anlayırdı ki, artıq burada hirslənib özündən çıxmağın, Nədiməni söyüb qovmağın heç bir mənası yoxdur. Belə çıxırdı ki, Tanrı bu qızı həqiqətən onun taleyinə həmişəlik yazmışdı və ondan qaçış yox idi.

– Niyə gəlmisən? – deyə ölgün səslə soruşdu.

Qız məkrli bir tərzdə gülümsədi:

– Gördüm daha sən itirib-axtarmırsan, mən özüm gəldim. Taleyinin qismәti deyiləm? Məndən niyə qaçırsan? Niyə başa düşmürsən ki, biz bir-birimizin qismətinə yazılmışıq? Niyə anlamırsan ki, səni məndən çox istəyən olmayacaq? Bir də ki, məgər alıb-aldatdı dünyasıdı bu dünya? Yaxınlaşdın, yalvar-yaxar elədin, məni özünə bağladın, məhəllədə adıma söz çıxartdın, indi qoyub qaçırsan? Bu, kişilikdəndir, Firdovsi? Namusu olan oğlan belə iş tutar? Bunu kimsə sənin bacına qarşı etsəydi, xoşuna gələrdi?

Scanned by CamScanner

Firdovsinin üzünün qanı tamam çəkilmiş, rəngi ağarmışdı. Əsəbdən əlləri əsirdi. Qurumuş dodaqlarını birtəhər yalayıb islatdı, yalnız bundan sonra dillənə bildi:

– Gəl nə kişilikdən, nə də namusdan danışmayaq. De görək, niyə gəlmisən?

Bu sözlərdən sonra qızın nazik dodaqlarındakı məkrli təbəssüm sərt nifrətlə əvəz olundu və bu nifrət onun dodaqlarını əyib xoşagəlməz hala saldı:

– Niyə gəlmişəm? Düzünü soruşursansa deyim. Neçə vaxtdır İntiqamın ruhu yuxularıma girib məni qınayır. Deyir ki, məni bıçaqlayıb öldürən adam niyə indiyə kimi özü üçün keflə gəzir. Bir də öz vicdanım rahat buraxmır məni. Hər dəfə Həzinin yaman günə qalmış arvad-uşağını görəndə vicdan əzabı çəkirəm. Fikirləşirəm ki, axı bədbəxt Həzi nəyə görə günahsız yerə türmədə yatmalıdır...

– Buna görə gəlmisən?

– Hə, gəldim sənə deyəm ki, sabah, ya birisigün milis idarəsinə gedib hər şeyi olduğu kimi danışacam. Qoy qardaşımın ruhu rahatlıq tapsın, həm də Həzi azadlığa çıxıb ailəsinin yanına qayıtsın. Mən o vaxt Həziyə ona görə böhtan atdım ki, səni tutulmaqdan xilas edim. Düşünürdüm ki, sən mənimsən, mənim əzizim, doğmamsan, ancaq Həzi yaddır, özgədir. Ancaq sən mənim deyilsənsə, niyə sənə görə ömrüm boyu vicdan əzabı ilə yaşamalıyam? Ona görə ki, sən azadlıqda sərbəst gəzəsən, sonra da bir başqası ilə ailə qurub xoşbəxt olasan? Yox, əzizim, canım-gözüm, bu olmayacaq!

Scanned by CamScanner

Nədimə son dərəcə ciddi idi. Firdovsi anladı ki, elə indicə bir tədbir görməsə, qız çıxıb gedəndən sonra hər şey gec olacaq. Gedib milisə hər şeyi danışacaq. Onu kənddən adamların gözü qarşısında əliqandallı aparacaqlar. Anasını, atasını, bacısını düşündü. Hələ şagirdləri... Deyəcəklər Firdovsi müəllim Bakıda birini bıçaqlayıb öldürübmüş.

Firdovsi tutulandan sonra olacaqları gözləri önündən keçirəndə halı pisləşdi, əli-ayağı yerdən üzüldü.

– Mən kiminləsə ailə qurmaq barədə düşünmürəm ki... – deyə barışdırıcı bir səs tonu ilə dilləndi.

Qız kinayə ilə gülümsədi:

– Bəs ömrün boyu subay qalacaqsan?

Firdovsi susub gözaltı "QAZ-24"ə sarı baxdı. Sükanın arxasında oturmuş Ağarəfi bayaqdan gözünü onlara zilləmişdi.

– Firdovsi... – yenə Nədimə danışdı, – gəl bu tərsliyini burax. Yəni anlamırsan ki, bizim taleyimiz birdir? Özün dedin ki, mən sənin taleyinin qismətiyəm... Sən elə bilirsən məni istəyən yoxdur? Məndən ötrü anamın üstünə hər gün elçilər gəlir. Ancaq o da bilir ki, mən yalnız səni sevirəm...

Firdovsi həmin an heç nə düşünə bilmirdi. Onu yalnız içindəki qatmaqarışıq qorxu hissi idarə edib danışdırırdı.

– Sonaxanım xala hər şeyi bilir? – deyə sakitcə soruşdu.

Scanned by CamScanner

– Yox, anam təkcə bunu bilir ki, biz bir-birimizi sevirik. Bura gəldiyimi ona demişəm.

– Bəs Yadigar dayı?

– O, heç nə bilmir.

"Sonaxanım xala... Yadigar dayı..."

Firdovsi həbs olunmaq qorxusundan qızın valideynlərinin adını elə hörmətlə çəkirdi ki, sanki sevimli qayınatasından, qaynanasından danışırdı. Elə özü də bunun fərqində idi. Lakin qarşısında başqa yol görmürdü. Hər şeydən artıq qiymətləndirdiyi azadlığını xilas etməli idi.

– Sən bu il universiteti qurtarırsan, hə? – bunu özü dəqiq bilsə də, danışmaq xatirinə soruşdu.

– Hə, təkcə diplom müdafiəmiz qalıb.

– Hazırlaşmısan?

– Nə hazırlaşmaq, hamı necə, mən də elə...

– Hə, əslində düz deyirsən, nəsə cızmaqara elə ver, onsuz da qiymət yazacaqlar.

– Həə... – Nədimə təsdiq mənasında başını tərpətdi və birdən söhbətin mövzusunu dəyişdi: – Mənim barəmdə evdə nə demisən? Yəni sonradan ayrılmağımız barədə?

– Anam səni soruşdu, dedim ki, sən kəndə gəlməyə heç cür razı olmursan, guya ona görə münasibətimiz korlanıb.

Qız bir az fikrə gedib yenə nədənsə gülümsədi. Ancaq zalım qızının təbəssümündə də bir sərtlik, quruluq vardı:

–Yox, niyə ki?! Kəndə gələrəm. Bir-iki il burada yaşayarıq. Sən özün də ömürlük bu kiçik kənddə ilişib

Scanned by CamScanner

qalmayacaqsan ki... Allaha şükür, Bakıda evimiz var. Atamla anamın məndən başqa kimsələri yoxdur, ev mənə qalacaq...

– Hə, orası elədir...

Araya cansıxıcı bir sükut çökdü. Bu dəqiqələrdə Firdovsi yalnız bunu arzu edirdi ki, münasibətləri korlanmasın. Sükut dəqiqələri uzanır, darıxmağa başlamış Ağarəfi yerində narahat halda qurdalanırdı.

– Elçiləri nə vaxt göndərmək istəyirsən? – Nədimə birdən-birə kəsəsinə soruşdu.

Firdovsi həmin dəqiqələrdə qarşısındakı həyat cığırında düşünülmüş şəkildə irəliləmirdi, onu həmin yolla sel aparırdı və o, bu selin gücü qarşısında aciz idi.

– Bu gün neçənci gündür? – deyə başını qaşıdı. Həftənin hansı günü olduğunu həqiqətən unutmuşdu.

– Bu gün çərşənbə axşamıdır, – qız xatırlatdı, – ikinci gün...

– Onda bu həftə sonu, bazar günü gələrlər, inşallah.

Bəli, son və qəti söz ağzından çıxmışdı. Firdovsi bunu dedi, lakin elə halda idi ki, bu sözlərlə gələcək həyatını Nədimə ilə bağlamaq qərarına imza atdığını kifayət qədər anlamadı.

– İnşallah! – qız başını razılıqla tərpətdi. – Onda biz gedək...

– Qalardınız... Çaydan-çörəkdən...

–Yox, Ağarəfinin Bakıda işi var. Həm də anangilin indi məni burada görmələri yaxşı düşməz. Deyərlər gəlinimiz toy olmadan durub gəlib...

Scanned by CamScanner

– Nə deyirəm... – Firdovsi dərhal razılaşdı. Təki Nədimə buradan tez rədd olub gedəydi.

– Sağ ol. Hələlik...

– Hələlik.

Nədimə ondan ayrılıb "QAZ-24"ün arxa oturacağında oturanda Firdovsi də qeyri-ixtiyari olaraq maşına doğru bir neçə addım atdı. Onu qəribə baxışlarla süzən Ağarəfiyə:

– Bir stəkan çay içərdiniz, – dedi.

Ağarəfi maşını işə salıb ona əl elədi:

– Sağ ol, yeznə, başqa vaxt, inşallah...

"QAZ-24" kəndin yollarında tozanaq qaldıraraq uzaqlaşıb getdi. Müəllimlər hələ də məktəbin qapısı ağzında dayanmışdılar. Yaxşı ki, atası onların arasında deyildi. Firdovsi başa düşdü ki, bu halda müəllim yoldaşlarının yanına qayıda bilməyəcək. Onlara ucadan səslənib dedi ki, işi var, evə getməlidir. Və evlərinə doğru addımladı.

Bu zaman yalnız Güləsər barədə düşünürdü. Ona elə gəlirdi ki, həyatındakı bütün yaxşı şeylərə bu gün son qoyuldu və əgər o, bundan sonra yaşayacaqdısa, bu, yaşamaq yox, həyat yolunda sürünərək belindəki can yükünü daşımaq olacaqdı.

Bir də... Azadlıqdan məhrum edilməkdən qorxan Firdovsi anlamırdı ki, bu gün, bir neçə dəqiqə bundan əvvəl özü-özünü həmişəlik azadlıqdan məhrum etdi...

Firdovsinin o zamankı düşüncəsinə görə, başqa heç bir yolu qalmamışdı. Ertəsi gün yaxınlaşıb anasına dedi ki, guya tez-tez məktublaşdığı Nədiməni

Scanned by CamScanner

kəndə gəlin gəlməyə razı salıb və bazar günü Bakıya elçiliyə getmək lazımdır. Anası bu xəbərə sevindi.

Nazlı isə qardaşının qərarından xəbər tutanda çox pis olmuşdu. Onu dərhal bir xəlvətə çəkdi:

– Bu nə deməkdir, Firdovsi?

– Qulaq as, Nazlı, – vəziyyəti bacısına birtəhər izah etməyə çalışdı, – anladım ki, bu qız həqiqətən mənim taleyimə yazılıb. Allah özü yazıb onu bəxtimə. Sən də bunu qəbul elə, nə olar...

– Bəs Güləsər? – Nazlı heyrətləndi.

Sevdiyi qızın adını eşidəndə Firdovsinin ürəyi parçalandı. Gözlərinin yaşardığını bacısından gizlətmək üçün üzünü yana çevirib:

– O, mənim qismətim deyilmiş, – dedi, – qoy gedib başqası ilə xoşbəxt olsun...

Nazlı onu qucaqlayıb ağladı...

Bazar günü atası özü ilə qohumlardan iki kişi götürüb Bakıya yollandı. Evə bir də gecədən xeyli keçmiş gəlib çıxdı. Qızın barmağına üzük taxmışdılar. Əhəd müəllim gözlərini onun ağzına dikmiş ailə üzvlərinə elçilik barədə həvəslə məlumat verirdi:

– Evlərini bir az çətin tapdıq. Süfrə açıb bizi gözləyirdilər. Atası sakit bir kişidir. Anası da dindar qadındır, başını bağlayır, biz tərəfə heç keçmədi, ancaq ötəri gördüm. Qız bizə çay gətirdi. Pis qız deyil, bir az arıqdır, qarabuğdayıdır, amma ağırtəbiətli, abır-həyalı, ciddi qıza oxşayır...

– O nə sözdür, ay kişi, – Səbirə ərklə ərinin sözünü kəsdi, – sən gəlinimiz barədə necə danışırsan?

Scanned by CamScanner

Bizim oğlumuz, maşallah, bütün Vartaşendə ən ağıllı, ən savadlı oğuldur. Onun axtarıb tapdığı qız pis ola bilər yəni?

– Yox, mən pis demədim ki... – Əhəd müəllim səhvini düzəltməyə çalışdı. – Gəlin xoşuma gəldi. Xoşbəxt olsunlar...

Bir neçə gündən sonra anasının göndərdiyi qadınlar Bakıya danışığa getdilər və qayıdıb qız evinin istəklərini Firdovsigilə çatdırdılar. Nədimənin anası Sonaxanım xeyli qızıl-zinət əşyaları istəmişdi. O zaman orta səviyyəli varlılar arasında dəbə düşmüş brilyant komplekt, tros sep, gül brilyantlı iki üzük, qızıl saat, brilyant qaşlı qızıl qolbaq, medalyon, "layka" plaş və daha nələr... Bir də Firdovsinin qayınatası Yadigar kişi elçilərin qarşısına ciddi şərt qoymuşdu ki, qız kənddə çox qalmayacaq, bir neçə ildən sonra gənclər yığışıb Bakıya köçməlidirlər.

Maraqlıdır ki, qız evinin bu qədər bahalı şeylər istəməsi Firdovsinin valideynlərinə qəribə görünmürdü. Ya bəlkə Firdovsinin yanında özlərini sakit aparırdılar. Hər halda, üzdə belə deyirdilər ki, zarafat deyil, aldıqları şəhər qızıdır, özü də universitet bitirib, daha kənddəki adi qızlarla eyni səviyyədə başlıq istəməyəcək ki... Əlbəttə, öz adına layiq şeylər istəyəcək.

Firdovsi sonra bildi ki, atası tələb olunan əşyaları almaq üçün əvvəldən halal maaşından yığdığı 4000 manatı xərcləyəndən, tövləsindəki bir camışı, iki inəyi, səkkiz qoyunu satandan sonra hələ 6000 manat da borca düşübmüş...

Scanned by CamScanner

Elə həmin il, avqustun axırlarında Nədiməni kəndə gəlin gətirdilər. Həyətdə qurulmuş mağarda toy oldu. Zurna və nağaranın səsi kəndi başına götürmüşdü.

Firdovsi Bakıda və başqa rayonlarda yaşayan keçmiş tələbə yoldaşlarının heç birini toyuna dəvət etməmişdi. İki sinif yoldaşı ilə mağarın girişində durub oynayanlara tamaşa edirdi. Taleyi ilə birdəfəlik barışmışdı...

Yaxın qohumları olan qız-gəlin bir-birinə qarışıb rəqs edirdilər. Nazlı da onlarla idi. Nədənsə bir az qəmli görünürdü. Oynamağına oynayırdı, bacı ola, qardaşının toyunda oynamaya, bu mümkün deyildi. Ancaq Firdovsiyə elə gəlirdi ki, əgər bu toyun gəlini Nədimə yox, bir başqası olsaydı, Nazlı mağardan bir dəqiqə də çıxmaz, yorulub əldən düşənə kimi rəqs edərdi.

Bacısı bu il Şəki tibb məktəbini bitirərək diplomunu almışdı, kənddəki tibb məntəqəsində işləyəcəkdi.

Qızın əynində bir qədər qısa yubka, göy rəngli yarımqol kofta vardı. Bacısına bir də diqqət yetirdi və bu zaman onun geyimi nədənsə Firdovsiyə qəribə göründü. Sanki bacısı ona kimisə xatırladırdı. Nazlı bu paltarını ilk dəfə bu gün geyinirdi, bu geyim gözəl bacısına çox yaraşırdı. Bəs onun gözlərinə qəribə görünən nə idi?

Birdən bunun səbəbini anladı: qızın əynindəki koftanın eynisindən universitetdə Güləsərin əynində

Scanned by CamScanner

görmüşdü. Göy rəngli qısaqol kofta, üzərində çox kiçik ağ və qırmızı güllər...

Güləsərlə birgə Cəfər Cabbarlı kinoteatrına getmələrini xatırlayanda halı birdən-birə pisləşdi. Gözləri doldu. Anladı ki, ağlayıb ürəyini boşaltmasa, özünə gələ bilməyəcək. Yanındakı yoldaşlarından ayrılıb həyətə keçdi. Evin bütün otaqlarında adam vardı. Buna görə həyətin ayağındakı tövləyə doğru getdi. Tövlə boş idi. Nəyi qalmışdı ki, Əhəd müəllimin? Bir inəyi qalmışdı, onu da örüşə ötürmüşdülər. İçəri girib hönkürtü ilə ağlamağa başladı. Əlləri ilə üzünü tutaraq göz yaşı bitib quruyana kimi ağladı.

Çiynində zərif bir əlin təmasını hiss edəndə dönüb arxasına baxdı. Nazlı idi. Onun da gözləri dolmuşdu. Heç nə demədən qucaqlaşdılar. İndi bacısı da ağlayırdı.

Göy koftalı bacısının kürəyini sığallayan Firdovsiyə bu zaman elə gəlirdi ki, qucaqladığı Nazlı yox, Güləsərdir...

Gecə toy bitəndən sonra Firdovsini gətirib zifaf gecəsi üçün bəzədilmiş otağa saldılar. Gəlinlik paltarında olan Nədimə – bəd gətirmiş taleyinin qismətini onu burada gözləyirdi.

Zifaf yatağı çarpayıda yox, nəyə görəsə döşəmədəki xalçanın üstündə salınmışdı. Firdovsi artıq həyat yoldaşı sayılan Nədiməyə salam da vermədi. Gün boyu keçirdiyi stressdən elə yorulmuşdu ki, dərhal elə pal-paltarlı halda, arxası üstə yatağın bir tərəfində uzandı.

Scanned by CamScanner

Vəziyyəti belə görən Nədimə dinib-danışmadan, başının bər-bəzəyini bir-bir özü çıxardı. Bəyaz gəlinlik donunu soyunub boş çarpayının üstünə atdı. Bu zaman əllərini başının altına qoyub gözlərini tavandakı çilçırağa zilləmiş Firdovsi özü də istəmədən gözaltı onun yarıçılpaq bədəninə baxdı. Nədimənin əynində ağ rəngli tuman və lifcikdən başqa heç nə qalmamışdı. Və bu ağ rəng onun qara dərisini bir az da qara göstərirdi. Tez də gözlərini çəkdi. Hiss etdi ki, artıq həyat yoldaşı sayılan bu qadından iyrənir. Həm də ona görə yox ki, qız qarabuğdayıdır, ona görə yox ki, toyqabağı ayaqlarının tüklərini təmizləsələr də bu tüklərin cod kötükləri bilinirdi. Yox! İndi burada Nədimənin əvəzinə bir afrikalı qız olsaydı, Firdovsi onu sevməsə də, xoşlamasa da, nəyinsə xatirinə bağrına basa bilərdi. Ancaq Nədimə... Firdovsi bu qadının təkcə bədənindən yox, bütün varlığından iyrənirdi. Bu hiss onu əməlli-başlı kövrəltdi. Sanki indi daha kəskinliyi ilə anlamışdı ki, bundan sonrakı ömrü cəhənnəm əzabı içində keçəcək.

Xalçanın üzərində açılmış bu yataqda təbii ki, yorğan bir dənə idi və hələ paltarlı olan Firdovsi onu üstünə çəkməmişdi. Otağın işığını söndürən Nədimə həmin yorğanın altına girib bir qədər ona tərəf sürüşdü.

İndi bəy-gəlin otağına yalnız ağ pərdəli pəncərələrdən zəif işıq düşürdü. Bayaqdan eyni vəziyyətdə uzanmış Firdovsi həyat yoldaşına tərəf heç baxmırdı da. Az sonra Nədimə otaqdakı qəbir sükutunu pozaraq özü dilləndi:

Scanned by CamScanner

– Gəlmirsən?

Cavab vermədi. Dəqiqələr isə ötürdü. Firdovsi anlayırdı ki, indi həyətdə ən yaxın qohumları, qonşu otaqda isə toy yengəsi olan Səlvinaz arvad onun otaqdan nə zaman "qalib" çıxacağını gözləyirlər. Ancaq bu o zaman olurdu ki, gəlinin bakirəliyini sübut edən solğun, bulanıq qan damcıları döşəyə salınmış ağ mələfəni bulasın. Nədimə isə qız deyildi. Bakirəliyi çoxdan pozulmuşdu. İndi türmədə Firdovsinin əvəzinə cəza çəkən Həzi pozmuşdu onun bakirəliyini... Ancaq Firdovsi həmin anlar bunları düşünəcək halda deyildi. Nə olacaqdısa olacaqdı...

– Gözləyirəm... – uzanan sükutu yenidən Nədimə pozdu.

Firdovsi istəsəydi də bu gecə ona yaxınlaşa bilməzdi. Yəni lap yaxınlaşsa da, heç nə alınmazdı bundan. Çünki Nədimə onun üçün bir insan, bir qadın yox, tamamilə başqa, iyrənc bir məxluq idi. Eyni zamanda bu dünyada ən qatı, ən qəddar düşməni idi bu qadın. Onu sevdiyi Güləsərdən ayırdığı üçün...

Bir də ki, anlaya bilmirdi: Nədimə bu zifaf gecəsində Firdovsini niyə yanına çağırırdı? Hansı məqsədlə? Bunun nə mənası vardı? Yəni bu ifritə bilmirdi ki, indi yan otaqda oturmuş Səlvinaz arvad onlardan nə gözləyir?

Yarım saat beləcə keçdi. Onun yerindən tərpənmək fikrində olmadığını görən Nədimə ayağa qalxıb çantasından kiçik şüşə qab çıxardı. Onun içindəki qırmızı mayeni ağ mələfəyə çiləyib quru bir səslə, hökmlə dilləndi:

Scanned by CamScanner

– Dur çıx həyətə, qoy yengə gəlib mələfəni aparsın!

Onun hərəkətlərini az qala duyğusuz halda izləyən Firdovsi tabe olub ayağa qalxdı. Qapını açıb həyətə endi. Sonra bildi ki, Nədimənin mələfəyə çiləd iyi toyuq qanı imiş. Bunu arvadı özü etiraf etdi. Dedi ki, toydan bir gün əvvəl Bakıdakı həyətlərində bir toyuğun başını kəsib qanını kiçik dərman şüşəsinə yığıb, kəndə gəlin gələndə onu da çantasında özü ilə gətiribmiş...

Hələ də gur işıq yanan mağarda indi yalnız yaxın qohum ailələrin gəncləri qalmışdı. Gündüz qonaqlara qulluq etdikləri, bu səbəbdən özləri yeməyə imkan tapmadıqları üçün indi neçə saat idi ki, yeyib-içirdilər. Yanlarına dəvət edərək onun üçün də araq süzdülər. Firdovsi dolu qədəhi dərhal başına çəkdi.

Beş dəqiqə sonra Firdovsinin sağdışı olan gənc qohumu tərəfindən göyə atılan və əks-səsləri bütün kəndə yayılan güllə səsi Əhəd müəllimin evinə Bakıdan gəlmiş gəlinin bir neçə dəqiqə bundan əvvələ kimi bakirə olduğunu xəbər verdi. Mağardakı gənclər şən-şən gülüşərək Firdovsini təbrik etdilər...

İki saata yaxın idi beləcə yeyib-içirdilər. Firdovsinin özünə qalsaydı, səhərə kimi mağarda oturar, Nədimənin yanına qayıtmazdı. Ancaq atası gəlib onu durğuzdu, çox içdiyi üçün məzəmmət edib dedi ki, gəlini tək qoymaq olmaz, get yanına.

Atasının sözündən çıxa bilməyib otağa qayıtdı. Yataqdakı qanlı mələfəni götürərək yerinə yenisini salmışdılar. Arxası üstə uzanıb yorğanı sinəsinə qədər

Scanned by CamScanner

çəkmiş Nədimə ona qalib nəzərlərlə baxırdı. Necə olmasa da, böyük bir problemi yoluna qoymuş, Səlvinaz arvad kimi çoxbilmişin birini aldada bilmişdi.

Yenə bayaqkı kimi arxası üstə, paltarlı halda yatağa uzandı. Yenə gözlərini tavandan asılmış çilçırağa dikib susurdu. Bir azdan Nədimə özü danışmağa başladı:

– Görəcəksən, Firdovsi, hər şey çox yaxşı olacaq. Hər şey yoluna düşəcək. Biz çox yaxşı ailə olacağıq...

Durmadan danışırdı. Ancaq Firdovsi daha onu dinləmir, yalnız Güləsər barədə düşünürdü. Görəsən, mavi-boz gözlü o məsum qız Firdovsinin evləndiyini, həm də bu ifritə ilə evləndiyini eşidəndə nə deyəcəkdi, barəsində nə düşünəcəkdi?

Bir də Tanrının onun üçün yazdığı uğursuz, pis tale barədə düşünürdü. Düşünürdü ki, ya Tanrı deyilən o varlıq yerli-dibli yoxdur, ya da varsa, Firdovsinin yalvarışlarına baxmayaraq qismətinə yanındakı bu ifritəni çıxardığı üçün çox insafsızdır...

Otağın alaqaranlığında Nədimənin narazı səsi onu qəfil fikirlərindən ayırdı:

– Elə təkcə mən danışacam? Sən də nəsə danış da...

Yenə susdu. Nə danışaydı axı? Beynindən keçənləri deyib burada dava-qırğın salaydı, yoxsa arsızlığına salıb özünü Nədimənin istədiyi kimi aparmağa zorlayaydı?

Nəhayət, son dərəcə əsəbiləşmiş qadın:

– Danışmırsan, cəhənnəmə-qara gora danış, çox məəttələm elə sənin danışmağından ötrü! – deyib üzünü çevirərək yorğanı üstünə çəkdi.

Scanned by CamScanner

Bir azdan onun pis xorultusunu eşidən Firdovsi öz taleyinə artıq neçənci dəfə lənət oxumağa başladı və səhərə kimi yata bilmədi...

16

Zaman yalnız Albert Eynşteynin dediyi kimi, bir sistemdən başqasına keçərkən, yaxud işıq sürətinə yaxın və ondan çox aşağı sürətlərdə fərqlilik göstərmir, o, elə adi həyatımızda da nisbidir. Hər dəqiqəsi xoş keçən biri ilə həbsxanada günlərini sayan məhbusun nəzərində zamanın sürəti eynidirmi? Əlbəttə, yox! Biz zamanın tez gəlib keçməsini istəyəndə gec, gec keçməsini istəyəndə isə çox sürətlə keçib gedir.

Firdovsi artıq bir ay idi ki, Nədimə ilə evli idi. Bu bir ayda gündüzləri məktəbdə və ya həyət-bacada keçirib axşamın gec gəlməsini, ya da, ümumiyyətlə, heç gəlməməsini istəmişdi. Çünki axşam hamı işıqları söndürüb yatağa girəndə o da Nədimə ilə eyni yataqda uyumağa məcbur olurdu. Odur ki, bu bir ayda Firdovsinin gündüzləri sürətlə, gecələri isə çox ləng keçmişdi.

Bir ay idi ki, hər gecə çarəsizlikdən ikinəfərlik iri çarpayıda yanaşı uzansalar da, ər-arvad kimi intim münasibətdə olmamışdılar. İlk həftə Nədimə ərinin bu soyuq münasibətini hər gecə üzünə vurur, azı bir-iki saat deyinib yatırdı. Sonra nədənsə birdəfəlik susdu. Hər axşam yerinə girən kimi yorğana bürünüb arxasını Firdovsiyə çevirərək yatırdı.

Scanned by CamScanner

Hər gün səhər atası ilə Firdovsi məktəbə, Nazlı tibb məntəqəsinə gedirdi. Nədiməni kənd məktəbində kitabxanaçı kimi işə düzəltmək hələlik mümkün olmamışdı, ona görə də evdə otururdu. Qayınatası xəstə olduğu üçün son illər Nazlının gördüyü ev işlərinin bəziləri onun üzərinə düşmüşdü. Məsələn, ən azı günortalar nahara yeməyi o, hazırlamalı idi.

Elə ilk günlərdən məlum oldu ki, bu şəhərli qızı heç yaxşı yemək də bişirə bilmir. Bişirdiyi xörəklər dadsız və keyfiyyətsiz olurdu. Səbirə arvad nə qədər çalışsa da, oğuzluların ən sevimli xörəyi olan çığırtmalı aşı bişirməyi ona öyrədə bilmədi. Ya aşın qarasını hazırlayarkən toyuq ətinə yumurtanı çox vururdu, ya əti çiy edirdi, ya da aşın düyüsünü əzib xəşilə döndərirdi. Hələ çığırtmalı aş bir yana dursun, adicə kartofu düzgün qızardıb süfrəyə gətirə bilmirdi. Firdovsigilin ailəsi, əsas da atası Azərbaycanın başqa bölgələrində "qutab" adlanan afarı çox sevirdi. Səbirə arvad xəstələnib yatağa düşməzdən əvvəlki günlərində hər həftə həyətdə sac asaraq afar bişirərdi. Sonra bu işi Nazlı boynuna götürdü. Qızın da bişirdiyi afarlar anasının bişirdiyi kimi, çox dadlı olurdu. Ancaq Nədimə bunu da öyrənə bilmədi. Yəni əslində bu qadının mətbəx işinə nə həvəsi, nə də qabiliyyəti vardı.

O, gələndən sonra ev də, həyət-baca da əvvəlki təmizliyini, səliqə-sahmanını itirmişdi. Mətbəxdən çıxan zir-zibili həyətin harasına gəldi tökürdü. Üstəlik, heç ən adi qadın təmizliyi də yox imiş bu zalım

Scanned by CamScanner

qızında. Ayaqyoluna gedib-gəlir, əlini sabunlayıb yumamış xörək bişirirdi.

Bunu görən ata-anası əvvəl iradlarını yalnız Firdovsiyə bildirirdilər. Sonra Səbirə arvad gördüyü nöqsanları gəlinin öz üzünə deməyə başladı. Nazlı isə elə ilk gündən Nədiməni qəbul edə bilmirdi. Onunla soyuq davranır, ailə üzvləri bir yerdə süfrə arxasında oturanda kədərli gözlərini qardaşının dərddən arıqlamış üzünə zilləyib dururdu.

Bir gün yenə Firdovsinin istəyindən asılı olmayaraq, hava qaraldı, axşam düşdü. Yatmaq vaxtı çatanda adəti üzrə həyətə enib daha bir saatını burada öldürdü. Gözlərini aya, ulduzlara dikərək Güləsəri xatırladı. Sonra dərindən ah çəkib evə çıxdı. Otağına girib soyunaraq yatağa uzandı.

Nədimə yerinə çoxdan girsə də, hələ yatmamışdı. Astadan alıb-verdiyi nəfəs eşidilirdi. Sonra bu səs hıçqırtıya çevrildi. Firdovsi əvvəl bir şey başa düşmədi, yalnız az sonra anladı ki, arvadı ağlayır.

O, sanki indi birdən-birə dərk etdi ki, bir aydır hər gecə yanında uzanan qadın onun halalca arvadıdır. O mənada halal ki, onu el adəti ilə gedib atasından istəyərək almışdılar, dövlət orqanı onların nikahını rəsmiləşdirmişdi. Sanki birdən-birə dərk etdi ki, yanında uzanıb ağlayan bu qadının yalnız bir atası, bir anası olduğu kimi bircə əri var və o da başqası yox, elə Firdovsinin özüdür. Elə Firdovsinin də yalnız bir arvadı var və o da Nədimədir. Onun taleyinin qismәti... Pis, yaxud yaxşı, axır ki, qismәti...

Scanned by CamScanner

– Niyə ağlayırsan? – deyə soruşdu.

Nədimə cavab vermədi. Hələ ağlayırdı. Firdovsi yerində ona tərəf çevrilərək yorğanı azacıq qaldırdı:

– Bilirəm, sənin günün də bir gün deyil, mənimki kimi...

Bu sözlərdən sonra qadın daha yanıqlı səslə ağlamağa başladı. Firdovsi buna dözməyib onun saçlarını sığalladı:

– Yaxşı, ağlama, – dedi, – bilirəm, günah məndədir...

Belə deyib azacıq ona tərəf sürüşdü. Bunu görən Nədimə yorğanın bir hissəsini üstündən atıb ona sarıldı. Daha bərkdən hönkürdü. Sonra sakitləşib kəsik-kəsik danışmağa başladı:

– Neçə gündür özümü öldürmək istəyirəm. Fikirləşirəm, gör mən nə qədər pis adamam ki, məni heç kəs istəmir. Sonra öz-özümə deyirəm ki, axı mən neyləmişəm, səni sevməkdən başqa nə günahım var. Atamdan-anamdan ayrılıb gəlib bura düşmüşəm. Qayınatamın qaşqabağı həmişə yer süpürür, qayınanam bişirdiyimi yemir, baldızım hələ bir dəfə məni xoş dindirməyib. Sən özün də belə...

Qadın onun qolları arasında soyuqdan əsirmiş kimi titrəyirdi. Onu ovutmaq üçün durmadan saçlarını sığallayan Firdovsi sevmədiyi, bəyənmədiyi qadına qarşı necə ehtiraslandığını özü də anlamadı. İlk dəfə o gecə ər-arvad kimi qovuşdular. Bu, Nataşadan sonra həyatındakı ikinci sevişmə idi...

Ertəsi gündən başlayaraq Firdovsinin Nədiməyə münasibəti yavaş-yavaş dəyişməyə başladı. Düşünürdü

Scanned by CamScanner

ki, Nədimə də insandır və əgər xarakterində bəzi pisliklər varsa, bu heç də onun günahı deyil, ata-anasından keçib ona. Hətta valideynləri də bu pis xarakterlərini özləri qazanmayıb. Onları da öz genləri ilə bu dünyaya gətirənlər olub...

Beləcə, barışırdı taleyi ilə. Nədimə hər kim idisə, onun qismətinə yazılmış həyat yoldaşı idi və onunla bir ömür eyni damın altında yaşayacaqdılar. Anasına da, Nazlıya da belə dedi. Dedi ki, yola verməyə, alışmağa çalışın, heç vaxt unutmayın ki, o, mənim arvadımdır və onu boşaya bilmərəm.

Əslində isə elə problemin kökü də bunda idi: "Boşaya bilmərəm..." Firdovsi arvadını boşaya bilməzdi, çünki qorxurdu. Qorxurdu ki, Nədimə dərhal milisə gedib, qardaşı İntiqamı onun öldürdüyünü deyəcək və onu tutacaqlar. Lakin bunu bildiyi halda, arvadına olan kəskin nifrətini qəlbində yaşada bilmir, Nədiməni yavaş-yavaş öz həqiqi həyat yoldaşı kimi qəbul etməyə başlayırdı.

İnsanın qəribə bir xüsusiyyəti var. Bu, əslində təkcə insana yox, bütün canlılara aiddir. Əgər bir mühit bir canlını dərhal öldürmürsə, onda o canlı mütləq bu mühitə alışır. Gec, ya tez...

Firdovsi də Nədiməyə alışırdı. Tək özünə yox, bişirdiyi xörəklərə də. Sanki artıq ağzının dadı da dəyişmişdi və indi təsadüfən anası bir xörək bişirəndə onun dadını bəyənmirdi.

Nədimə də həm ailəyə, həm də kəndə alışırdı. İndi su gətirmək üçün bulağa da o gedirdi. Kəndin

Scanned by CamScanner

arvadlarından bir neçəsi ilə dostlaşmışdı. Əsas da Zərnisə adlı qonşu qadınla. Hər gün bulağa gedəndə, ya qayıdanda yolda onunla rastlaşıb saatlarla söhbət edirdi. Anası bir gün gəlininə dedi ki, o Zərnisə sözgəzdirənin, araqarışdıranın biridir, bizləri də sevmir, onunla bu qədər yaxın olma. Ancaq Nədimə onu eşitmədi.

Arvadı hərdən axşamlar yatağa girəndə ona şikayətlənirdi. Deyirdi ki, mən şəhər qızıyam, səni sevdiyim üçün o boyda şəhəri atıb bu geridəqalmış kənddə yaşamağa razı olmuşam, buna baxmayaraq, sənin ata-anan buradakı ən kiçik azadlığımı da əlimdən alırlar. Bu kənddə mənimlə mehriban dolanan bircə Zərnisədir, istəyirlər ondan da uzaq olum. Atan hər işimə qaşqabaq göstərir, məndən anana şikayətlənir. O da məni yerli-yersiz danlayır. Başa düşmür ki, mən hələ uşağam, hər şeyi mənə o öyrətməlidir. Hələ bacın... Zərnisə deyir ki, tibb məntəqəsinə gələn qadınlara mənim pintiliyimdən danışır. Vallah, durub araşdırsan, bu kənddə bəlkə məndən təmizkarını tapa bilməzsən...

Maraqlıdır ki, belə söhbətlər Firdovsinin düşüncəsinə təsir etməyə başlayırdı. Onda yavaş-yavaş belə bir fikir formalaşırdı ki, ailə üzvləri Nədiməyə qarşı haqsızlıq edirlər. Bu fikirlər onun atasından, anasından, hətta çox sevdiyi bacısından az da olsa soyumasına səbəb olurdu.

Buna baxmayaraq, yenə də hər dəfə arvadının şəhərə köçmək istəyinə qarşı çıxırdı. Deyirdi ki,

Scanned by CamScanner

anamı burada belə xəstə vəziyyətdə qoyub heç yana gedə bilmərəm.

Bir gün Firdovsi yataqda olan xəstə anası ilə təklikdə söhbət etdi. Atasından, Nazlıdan şikayətləndi. Hətta bir qədər qabağa gedib anasının özünü də danladı. Dedi ki, siz məni istəyirsinizsə, deməli, arvadıma qarşı da yaxşı olmalısınız.

Oğlunun danlaqlarını dinləyən anası bir müddət uşaq kimi maddım-maddım onun üzünə baxdı. Sonra birdən-birə ağlamsınıb kövrək səslə danışmağa başladı:

– Ay bala, sənə qurban olum, biz ona nə deyirik ki?! Bişirdiklərini yeyə bilmirdim, ac qalsam da, səsimi çıxarmırdım, indi nə versə, ölə-ölə də olsa yeyirəm. Çox şeyi sənə demirəm. Günümü qara eləyib ki, oğlun sənə görə şəhərə köçməyə razı olmur, sən ölsən, biz də gedib Bakıda adam kimi bir gün görərik. İndi Allah məni öldürmür, mən nə edim, ay oğul, özüm-özümü öldürüm? Gedirsiniz yığışın gedin, mən nə deyirəm, harada yaşayırsınız yaşayın, təki sənə xoş olsun. Bulaqda kiminlə çənə yoldaşı olursa, atanı da, məni də ona pisləyir. Ən çox da Nazlıdan danışır. Guya ifritənin biri imiş mənim qızım. Düz eləmir axı sənin arvadın. Mənim balam gül kimi uşaqdır, sabah istəyəni olacaq, niyə yolunu bağlayır? Niyə pis-pis ləkələr yaxır qızıma?

Bir gün Nazlı evə çox əsəbi halda gəldi. Qızın dili-dodağı titrəyirdi. Nədimənin üstünə yeriyib çığır-bağır salmağa başladı. Məlum oldu ki, sən demə, Nədimə onunla məntəqənin həkimi Şakir

Scanned by CamScanner

arasında gizli sevgi münasibətinin olduğu barədə kənd arvadları arasında söz-söhbət yayıbmış.

Həmin vaxt ailə üzvlərinin hamısı evdə idi. Əhəd müəllim qızını sakitləşdirib gəlininə ciddi xəbərdarlıq etdi:

– Danışığına, hərəkətlərinə fikir ver, ay gəlin! Mən elə qız böyütməmişəm ki, əxlaqsız iş tutsun. O Şakir həkim də abırlı-həyalı adamdır, evində gül kimi arvadı, uşaqları var. Bir söz danışanda məsuliyyətini düşün, qızımın adını ləkələyib o kişinin də ailəsini dağıtma. Bir də belə söhbət eşitsəm, səni birbaşa atanın evinə rədd edəcəm!

Nədimə əllərini belinə qoyub kişiyə bozardı:

– Bilirsən nə var, ay kişi, mənim üstümə bağırma! Bəs sənin qızın nə yaxşı hara çatdı mənim pintiliyimdən danışır? Onu niyə danlamırsan? Qızındır deyə? Mənəm pinti? Sizin kimi zır kəndçilərin arasında mən şəhər qızı pinti görünürəm?

O, birinci dəfə idi ki, qayınatasının üzünə belə qayıdırdı. Ümumiyyətlə, Əhəd müəllim belə şey görməmişdi. Nə oğlundan, nə qızından. Dözməyib gəlinini yüngülcə sillə vurdu:

– Səsini kəs, həyasız!

Sillə dəyən üzünü əli ilə tutub qayınatasına bir anlıq nifrətlə baxan Nədimə:

– Baxarsınız siz! – deyib qapını bərk çırparaq həyətə düşdü...

Bir həftə sonra isə elə dəhşətli bir hadisə baş verdi ki, həmin hadisə sonradan dəfələrlə, hətta bu günə

Scanned by CamScanner

kimi, gecələr Firdovsinin yuxusuna girib onu dəli kimi yataqdan sıçramağa məcbur edirdi.

O uğursuz, bəd gündə Nazlı işdən çox qəmgin qayıtmışdı. Qız nədənsə heç özündə deyildi. Firdovsi və anası bunun səbəbini soruşsalar da, Nazlı "xəstələnmişəm" deyib onları azdırdı.

Axşam yeməyi zamanı da elə idi. Heç nə yemədi. Süfrə arxasında otursa da, gözləri yol çəkirdi. Sonra durub birdən anasına yaxınlaşdı. Onu bərk-bərk qucaqlayıb üzündən öpdü və heç kəsə heç nə demədən qaranlıq həyətə düşdü.

– Vallah, bu qıza nəsə olub, – anası dilləndi.

– Hə, Nazlı mənim də gözümə birtəhər dəydi bu gün, – Əhəd müəllim arvadı ilə razılaşdı.

– Nə olacaq, dedi xəstəyəm də... – Nədimə mızıldandı.

Bu vaxt həyətdən damarlardakı qanı donduran dəhşətli bir çığırtı eşidildi. Sanki kimsə "Ay Allah, öldüm!" deyirdi. Ancaq bu səs heç insan səsinə də bənzəmirdi. Heç bir insanın dözüb daşıya bilməyəcəyi qeyri-adi sonsuz bir ağrının, əzabın əlaməti vardı bu məşum səsdə...

Firdovsi ilə atası cəld qalxıb pəncərəyə doğru yüyürdülər. Ətrafı işıqlandıran çox iri bir alov topası dəli çığırtı ilə qaranlıq həyətdə o baş-bu başa qaçırdı.

Nazlının özünü yandırdığını birinci atası anladı.

– Allahım, bu nə işdir?! – deyə hər iki əlini başına çırpdı.

Sonra isə döşəmədən palazı çəkib götürərək həyətə yüyürdü. Firdovsi də əlinə keçən dolu su

Scanned by CamScanner

səhəngini götürüb onun ardınca qaçanda atası "Su olmaz! Su olmaz!" deyə bağırdı və şiddətli alov içində görünməz olmuş qızını tutub yerə yıxaraq palaza bürüməyə başladı. Beləliklə, alovu söndürə bildi. Ancaq Nazlının üz-gözü və bütün bədəni baxılası halda deyildi. Üzü tamam yanmış, paltarı əriyib bədəninə yapışmışdı. Ondan kəskin yanıq və neft qoxusu gəlirdi.

Atası ilə köməkləşib qızı evə çıxardılar.

Anasının ürəyi getmişdi. Ona görə qızının son sözlərini eşidə bilmədi. Yanıb qaralmış göz qapaqlarını çətinliklə qaldırıb atasına baxan Nazlı yalnız bircə kəlmə "Hamısı yalandır..." deyib dərhal da keçindi...

Firdovsi atasının hönkürtü ilə ağladığını ilk dəfə idi görürdü. Bu da ondan sonra ömrü boyu yadından çıxmadı.

Bacısının intiharının əsl səbəbini isə yalnız dəfnin dördüncü günü öyrənə bildi. Sən demə, Nədimə Zərnisəyə deyibmiş ki, tibb məntəqəsinə gedəndə Nazlı ilə Şakiri içəridə biabırçı vəziyyətdə tutub. Zərnisə də bunu dərhal bütün kəndə yayıb. Söhbət Şakir həkimin ailəsinə çatanda arvadı onunla dalaşaraq atası evinə gedib. Səhəri gün Şakir həkim tibb məntəqəsində Nazlıya deyib ki, bu söz-söhbət yalan da olsa, biz daha bir yerdə işləyə bilmərik.

Bu iftiraya dözə bilməyən bədbəxt Nazlı həmin günün axşamı üstünə neft tökərək özünü yandırmışdı...

Scanned by CamScanner

Firdovsi bütün bunları eşidən kimi evə gəlib elə anasının gözləri önündə Nədimənin yaxasından yapışdı:

– Zərnisəyə demisən ki, guya bacımı tibb məntəqəsində həkimlə görmüsən. O qancıq da bunu hamıya yayıb. Bacım buna görə özünü öldürdü. Əgər sən həqiqətən bizim kəndin tibb məntəqəsində olmusansa, onu görmüsənsə, oranı mənə təsvir elə. De görək həyətində nə var, qapısının üstündə nə yazılıb, kimin portreti vurulub? Əgər deyə bilməsən, onda özündən küs!

Firdovsi həmin vaxt demək olar ki, ağlını itirmişdi. Ancaq bilirdi ki, arvadının kəndin lap yuxarı başında, onların evindən, bulaqdan və məktəbdən tamam əks tərəfdə yerləşən tibb məntəqəsinə ayağı da dəyməyib.

– Tez ol, təsvir elə oranı, yoxsa səni öldürəcəm! – dedi.

Tibb məntəqəsinin həyətində, lap girəcəkdə Leninin büstü vardı. Birmərtəbəli məntəqənin qapısının üstündə isə yenə həmin gorbagorun şəkli və onun səhiyyə barədə dediyi hansısa sözləri yazılıb vurulmuşdu.

Nədimə gözləri bərəlmiş halda susub ona baxırdı...

Daha özünü heç cür elə ala bilməyən Firdovsi arvadını var gücü ilə sillələməyə başladı:

– Günahsız bacımı sən öldürdün, qatil, araqarışdıran kaftar, qancığın balası qancıq...

İki sillədən sonra Nədimənin də dili açıldı. İndi əri onu vurduqca çığırıb bir-birindən iyrənc söyüşlər söyürdü:

Scanned by CamScanner

–Yaxşı eləmişəm, it oğlu it! Oğraş! Əcəb eləmişəm! Bacının ölümü nə yaman yandırır səni, hə?! Bəs mənim qardaşımı sən öldürmədin? Sənin bacın adamdır, mənim qardaşım adam deyil? Sən öləsən, səni türmələrdə çürütdürəcəm! Sənin başına elə oyunlar açdıracam ki, gavur görsə, sənə rəhmi gəlsin...

Bu zaman qapı zərblə taybatay açıldı. Əhəd müəllim otağa girdi. Firdovsi atasını heç vaxt bu halda görməmişdi. Kişinin gözləri qəzəbdən az qalırdı pırtlayıb yerindən çıxsın. Əli də, dodaqları da əsim-əsim əsirdi. Sən demə, qızının kimin böhtanının güdazına getdiyini o da indicə öyrənibmiş.

Onu bu halda görən Firdovsi dərhal arvadını buraxıb kənara çəkildi. Atası isə onu sanki heç görmürdü. Birbaşa gəlininin üstünə yeridi. Ona çatanda sağ əlini yuxarı qaldırdı. Lakin Nədiməni vura bilmədi. Kökündən kəsilmiş ağac kimi birdən-birə döşəməyə sərildi.

Firdovsi dərhal küçəyə çıxıb oradan bir uşağı Şakir həkimi çağırmağa göndərsə də, artıq gec idi. Qəfildən infarkt keçirmiş atasını ölümdən xilas etmək mümkün olmadı...

17

Zaman kiməsə sürətli, kiməsə yavaş görünən kələ-kötür hərəkəti ilə qarşısına çıxan hər şeyə toxunub keçir və onların heç birini təsirsiz buraxmırdı. Nələrisə ayaqları altında əzib-tökür, sındırır, nələrinsə əyrisini, sınığını düzəldirdi...

Scanned by CamScanner

Atasının kəfənlənmiş cəsədini öz əlləri ilə qəbrə qoyan Firdovsi o anlarda ağlına da gətirə bilməzdi ki, nə vaxtsa yenidən Nədimə ilə kəlmə kəsib danışacaq, onunla bir süfrə arxasında oturacaq, iştahsız da olsa onun bişirdiyi xörəkdən yeyəcək. Lakin bütün bunlar tədricən baş verdi.

Yadigarla arvadı Sonaxanım dəfnə gəlib çata bilməsələr də, səhəri gün gəldilər və on günə yaxın kürəkənlərinin evində qaldılar. Firdovsi nifrət etdiyi arvadı ilə onların yanında yalnız iki gün küsülü qala bildi. Sonra məsələni böyütməmək, Yadigarla Sonaxanımı duyuq salmamaq üçün onlarla bir yerdə olanda az-az danışmağa başladılar.

Firdovsi bir daha qəti şəkildə anladı ki, Tanrının verdiyi tale qismətindən qaçıb qurtulmaq mümkünsüzdür, dünya yaranandan bu, heç kəsə nəsib olmayıb və olmayacaq.

Anasının isə dili onlara qarşı lal olmuşdu sanki. Qızının və ərinin ölümündən sonra nə oğlunu, nə də gəlinini danışdırmırdı. Yataqda uzanıb hey susur, bəzən isə səssizcə ağlayırdı. Qudalarını da danışdırmadı. Yeməyini bacısı bişirib gətirirdi. Onun gətirdiyindən başqa evdə heç nəyə dilini də vurmur, danışanda da yalnız bacısı ilə danışırdı.

Ancaq kəndin o biri başında yaşayan bacı nə vaxta kimi ona yemək daşıya bilərdi? Bunun səhəri, günortası, axşamı vardı. Nəhayət, Səbirə arvad elə bacısının təhriki ilə yavaş-yavaş yola gəldi, nifrət bəslədiyi gəlininin bişirdiklərindən yeməyə başladı.

Scanned by CamScanner

İndi üçü bir yerdə yaşayırdılar – o, anası və Nədimə. Həzidən olan uşağını götüzdürəndə mamaça naşılığından nə eləmişdisə, Nədimənin uşağı olmurdu və həkim deyirdi ki, onun ana olmaq ehtimalı da yoxdur. Buna baxmayaraq, Firdovsi onu boşamağı ağlına belə gətirmirdi. Təkcə ona görə yox ki, boşayacağı təqdirdə Nədimə onu tutduracaqdı. Həm də ona görə ki, öz talesizliyi, bədbəxtliyi ilə barışıb arvadını necə varsa, eləcə qəbul etmişdi.

Onun bu qərarında arvadının da rolu az deyildi. Nədimə baldızının və qaynatasının ölümündən sonra sanki bir qədər mütiləşmiş, xasiyyətini dəyişib əsl ev arvadı olmuşdu. Qaynanasına "ana" deyə müraciət edir, qulluğunda durmağa çalışırdı.

Səbirə arvad da gəlininin bişirdiyi dadsız-tamsız yeməklərə alışmalı olmuşdu, onun pintiliyinə və başqa xoşagəlməz xasiyyətlərinə göz yumurdu. Xəstə qadın sanki bacısının ona həmişəlik baxa bilməyəcəyini, bundan sonra yalnız Nədiməyə möhtac olduğunu anlayaraq öz acınacaqlı taleyi ilə barışmışdı.

Ən qəribəsi, bəlkə də ən dəhşətlisi isə bu idi ki, o, qızının və ərinin ölümünə bais olmuş ifritə gəlinini az-az da olsa danışdırdığı halda doğma oğlu ilə münasibətdə hələ də lal idi.

Bir axşam yatağa girəndə Nədimə dilini bacardığı qədər şirin edib ərinə dedi ki, gəl ananı da götürüb Bakıya köçək. Bu söhbət sonradan da bir neçə dəfə təkrar olundu və Firdovsi arvadı ilə axır ki, razılaşdı.

Scanned by CamScanner

Anasının yatağına yaxınlaşaraq məqsədlərini ona açıqladı. Neçə aydan bəri onunla kəlmə kəsməyən anası xeyli susandan sonra dilə gəlib dedi ki, bu evi qoyub heç yana gedə bilməz, gedirlərsə qoy getsinlər, o, ölənə kimi burada qalacaq. Həmin söhbət beləcə qapandı.

Firdovsinin ailə həyatı öz yeknəsəqliyi ilə davam edirdi.

Bir gün məktəbdən qayıdanda anasının halının pisləşdiyini gördü. Nədimə dedi ki, arvad təxminən bir saatdır belədir. Tez Şakir həkimi çağırdılar. Həkim gəlib baxsa da, anasının halından bir şey anlamadı. Səbirə arvadın xəstəliyi başında idi. Ancaq indi mədə-bağırsağındakı kəskin ağrılardan şikayətlənirdi. Zəhərlənmə əlaməti isə hiss olunmurdu. Həkim ona bəzi ağrıkəsici iynələr vurub bir az sakitləşdirərək getdi.

Lakin ağrılar axşama yaxın yenidən şiddətləndi. Firdovsi anasını götürüb rayon xəstəxanasına apardı. Qadının dərdini orada da tam anlaya bilmədilər. Hətta bir cərrah onu əməliyyat edib kor bağırsağını da götürdü. Ağrılar yenə kəsmədi və yazıq anası beləcə nalə çəkə-çəkə palatada canını tapşırdı...

Firdovsini həmin günlərdə ən çox yandıran, ürəyini didib-parçalayan bu idi ki, yataqda can verən anası ayıq vaxtında da, sayıqlayanda da onun yox, Nədimənin adını çəkirdi: "Nədimə, mənə su ver", "Nədimə, ölürəm", "Nədimə, üstümü aç" və sair...

Bəli, Firdovsi xanım-xatın anasını ömrünün son illərində Nədimə kimi bir ifritəyə möhtac etmişdi

Scanned by CamScanner

və özünə nəyi bağışlasa da, bunu heç vaxt bağışlamayacaqdı...

Dəfndən sonra qırx gün kənddə qaldılar. Anasının qırxını verəndən sonra Nədimənin təhriki ilə yığışıb Bakıya köçdülər. O günlər Firdovsinin indiki kimi yadında idi. Şəhər siyasət meydanına dönmüşdü. Bir il əvvəl – 1990-cı ilin 20 yanvarında sovet qoşunları şəhərin dinc əhalisini güllələbaran edəndən sonra Azərbaycan daha sovetlər birliyinin tərkibində qalmaq istəmirdi. Onlar Bakıya köçəndən təxminən iki ay sonra bu arzu baş tutdu və Azərbaycan öz suverenliyini elan etdi.

Yadigar həyətdə tikib tələbə qızlara kirayəyə verdiyi ikinci evini onlar üçün boşaltdırdı və ər-arvad burada yaşamağa başladılar.

Şəhərə gələndən sonra Nədimə yenidən dəyişib əvvəlki adam oldu. Hətta daha pis! İndi heç ərini saymır, aralarında kiçik bir narazılıq düşən kimi onun atasının evində qaldıqlarını xatırladıb Firdovsinin qüruruna toxunurdu.

Bakıda müəllimlik işi tapmamışdı. Tapsaydı da, burada müəllim maaşı ilə dolanmaq mümkün deyildi. Ona görə də yenicə tanış olduğu bir bənnanın yanında fəhlə düzəlib ondan divar hörməyi, daşdan müxtəlif fiqurlar yonmağı öyrəndi, özü müstəqil sifariş qəbul edərək çörəyini bu yolla qazanmağa başladı.

Bir gecə anası yuxusuna girdi. Əslində bu yuxu beynin uydurması olan bir röya deyildi. Anasının ölümqabağı fəryadları yuxuda olduğu kimi təkrarlanırdı.

Scanned by CamScanner

Yazıq qadın "bağırsaqlarım doğranır" deyib acı nalə çəkirdi. O gündən bu yuxu onun beynindən çıxmadı. Hər gün, hər saat yalnız bu barədə düşünürdü. Firdovsi həmin səhər anasını sağ-salamat qoyub məktəbə getmişdi. Arvada birdən-birə nə ola bilərdi axı?! Nəhayət, sakitləşə bilməyəcəyini görüb evində usta işlədiyi tanış həkimə müraciət etdi. Çox savadlı, eyni zamanda təcrübəli biri kimi tanıdığı yaşlı həkim onu diqqətlə dinlədi. Anasının ölümqabağı keçirdiyi halları və digər xəstəlik əlamətlərini soruşub öyrəndi, fikrini yalnız bundan sonra bildirdi:

– Firdovsi, oğlum, belə məqamda dəqiq qərar vermək bir həkim kimi mənə bəlkə də yaraşmaz. Ancaq sən mənim evimdə işləmisən, səni dürüst, mərd bir oğlan kimi tanıdığım üçün ağlıma gələni gizlətməyəcəm. Anana hansısa yeməyin içində şüşə tozu uddurublar.

– Şüşə tozu? – Firdovsi heyrətləndi. – Siz buna əminsiniz?

Həkim başını ağır-ağır tərpətdi:

– Mənə inanmaya bilərsən, ancaq özlüyümdə əminəm ki, məhkəmə qərarı ilə eksqumasiya olarsa, meyitin bağırsaqlarında bir yığın xırda şüşə qırıntısı tapılacaq...

Anasının meyitini qəbirdən çıxartdırmaq istəməzdi. Buna əsla ürəyi gəlməzdi. Amma həkimə də inanırdı, bilirdi ki, anası öz əcəli ilə ölməyib, qəddarcasına öldürülüb və bu, Nədimənin işidir.

Bu iblis xislətli qadını layiqli cəzasına çatdırmaq istədi. Lakin bu məqsədlə evə gəlib çatana kimi

Scanned by CamScanner

fikri dəyişdi. O, qatil olmaq istəmirdi. Özünümüdafiə məqsədilə, istəmədən həyatdan məhrum etdiyi İntiqamın qisasçı ruhu ondan hələ indiyə kimi əl çəkməmişdi. İndi həqiqi qatil olub həbsxanaya düşmək və ya ömrü boyu qorxu ilə, vicdan əzabı ilə yaşamaq istəmirdi.

Lakin artıq Nədimənin üzünə də baxa bilmir, onun əli toxunan hər şeydən iyrənirdi. Az vaxtda xeyli arıqlamış, saçlarına vaxtsız dən düşmüşdü.

Hər gün taleyinə lənət oxuyur, o uğursuz gündə – 1983-cü il mayın 3-də Nədiməni taleyinin qisməti kimi ona göndərmiş Allaha asi çıxırdı. Nəhayət, yaşadığı əzablı həyatdan tamam bezəndə ölmək istədi. Bunu necə edəcəyini düşündü, bir qərara gələ bilmədi.

Həmin vaxtlar işğalçı Ermənistan böyük dövlətlərin gücünə güvənərək Azərbaycan torpaqlarını yenidən zəbt etməyə başlamışdı. Müharibə qızışırdı. Belə bir məqamda Firdovsinin ağlına könüllü olaraq döyüşə getmək gəldi. Düşündü ki, intihar edib günah işlətməkdənsə, vətən uğrunda vuruşub şəhid olsun.

Belə də etdi. Məktub yazıb masanın üstünə qoydu: "Mən Qarabağa döyüşməyə gedirəm. Geri qayıtmayacam. Necə istəyirsən, elə də yaşa. Əgər doğrudan da Allah varsa, qoy O özü sənin bəlanı versin, ifritə qadın!"

Və bir daha geri qayıtmamaq arzusu ilə evdən çıxıb getdi.

Qorxu da, cəsarət də müxtəlif məqamlarda özünü müxtəlif cür göstərir. Bir zaman həbsə düşməyin

Scanned by CamScanner

qorxusundan Nədimə ilə evlənən və illər keçdikcə ondan iblisdən qorxurmuş kimi qorxmağa başlayan Firdovsi indi açıq-aşkar onun qanına susamış silahlı düşməndən qorxmurdu. Bu, bir tərəfdən, onun genində olan qəhrəmanlıq duyğularının baş qaldırmasından irəli gəlirdisə, digər tərəfdən də həyatdan bezməsi, bura məhz ölmək məqsədilə gəlməsi ilə əlaqədar idi.

Qarabağda yaradılmış könüllü batalyonların birində vuruşurdu. Döyüş zamanı qorxu nə olduğunu bilmədən cəsarətlə düşmənin üstünə getməsi onu yoldaşları arasında cəsarətli və igid biri kimi tanıtdırdı. Hələ təkcə bir döyüşdə altı düşmən əsgərini necə məhv etdiyini yoldaşları da görmüşdülər.

Amma şəhid olmaq arzusuna çata bilmədi. Bir dəfə yanında partlayan minadan huşunu itirdi. Gözünü bir də Bakıdakı hospitalların birində açdı. Həkimlər ona dedilər ki, sağ ayağın daha heç vaxt dizdən qatlanmayacaq.

Deməli, o, daha döyüş bölgəsinə qayıda bilməyəcəkdi. Döyüşüb şəhid ola bilməyəcəkdi. Bu xəbərdən daha pis olanı isə bu idi ki, həmin vaxt Nədimə öz atası ilə ona baş çəkməyə gəlmişdi. Kor taleyinin qismәti...

Beləliklə, döyüşdə şəhid olub Nədimənin üzünü bir daha heç vaxt görməmək arzusu ilə cəbhəyə gedən Firdovsi oradan qazi kimi qayıtdı və yenidən Nədiməgildə yaşamağa başladı...

Scanned by CamScanner

18

Qarabağ müharibəsi veteranı kimi aldığı pensiyanı hər ay Nədimə gedib götürür, Firdovsiyə ondan bir qəpik də vermirdi. Yasamaldakı orta məktəblərin birində gecə gözətçiliyindən aldığı maaş isə siqaretinə və hər gün dərdini dağıtmaq üçün alıb içdiyi ucuz araqlara güclə çatırdı.

Gecə gözətçisi işləməyin onun üçün ən böyük üstünlüyü bu idi ki, gecələr Nədimə ilə eyni otaqda yatmaqdan qurtulmuşdu. Ümumiyyətlə, evdə çox az olurdu. Hər səhər məktəbdən evə gəlib yataq otağında dörd-beş saat tək yatır, qalan vaxtını yaxınlıqdakı kiçik parkda keçirirdi. İstər qış olsun, istər yay...

O gün... Yaddaşına həmişəlik yazılmış unudulmaz tarixlərdən daha biri – 16 dekabr, 1995-ci il... Qış fəsli olsa da, hava mülayim idi. Əyninə qalın gödəkcə geyinmiş Firdovsi Yasamaldakı evlərinə yaxın həmin adsız parkda, həmişəki taxta skamyada oturmuşdu. Dizdən qatlanmayan sağ ayağını qabağa uzadıb, əsasının ucunu daş döşəməyə dayayaraq ətrafa tamaşa edirdi.

Bu zaman qarşıdakı küçəni keçərək parka daxil olan biri diqqətini cəlb etdi. Təkcə ona görə yox ki, əyninə nazik qəhvəyi plaş geymiş bu gənc qadının cəlbedici bədən quruluşu, uzaqdan belə ətrafa nur saçan gözəl üzü vardı, həm də ona görə ki,

Scanned by CamScanner

Firdovsinin önündən tələsik gəlib keçən digər adamlardan fərqli olaraq, o, heç yerə tələsənə oxşamırdı. Əllərini plaşının cibinə qoyub dalğın halda, asta-asta addımlayırdı.

Bu gəlişlə qadın mütləq Firdovsinin əyləşdiyi skamyanın qarşısından keçməli idi. Hər addımında ona yaxınlaşırdı. Bütün normal kişilər kimi Firdovsidə də zərif cinsin nümayəndələrinə təbii maraq vardı. Nədimə ilə tale yoldaşı olması onda qadınlara qarşı nə qədər soyuqluq və laqeydlik yaratsa da, özünü xüsusi gözəlliyi ilə seçilən qadınlara baxıb daxilində gizli zövq almaqdan məhrum etmirdi.

Onun əyləşdiyi skamyaya doğru gələn bu qız, yaxud gənc qadın isə doğrudan çox gözəl idi. Ona baxmamaq, sadəcə, mümkün deyildi. Lakin Firdovsi düşündü ki, gözlərini beləcə zilləyib durmaq da heç yaxşı hərəkət deyil. Bu qadın diqqətini guya heç cəlb etməyibmiş kimi üzünü əks tərəfə çevirdi. Ancaq dözmədi. Üç saniyə keçməmiş üzünü yenidən ona tərəf döndərdi və bu an qəlbində sanki nəyinsə qəfil qırıldığını hiss etdi. Heyrətindən donub qaldı.

Ona doğru gələn gənc qadın Güləsər idi...

Heç ağlından belə keçirə bilməzdi ki, nə vaxtsa Köhnə Yasamaldakı bu kiçik, görkəmsiz, xəlvəti parkda Güləsərlə rastlaşacaq. Bu təsadüf taleyinin onunla yeni acı zarafatı idimi, ya öz bəndəsini bədbəxt edib diri ikən ölü halına salmış Tanrı onun bədbəxtliyini bir daha yadına salmaq istəyirdi? Ya bəlkə

Scanned by CamScanner

tam əksinə? Zülmət kimi qaranlıq ömrünə günəş doğmuşdu yoxsa?

Güləsər də Firdovsini görüb tanıdı. Bu, onun üzündəki təəccübdən, çaşqınlıqdan aydın görünürdü. Son saniyələr yəqin ki, hər ikisi üçün çox uzun keçdi. Nəhayət, qadın gəlib onun bərabərinə yetişdi:

– Firdovsi?!

Firdovsi bütün gücünü sağ əlindəki əsaya verib çətinliklə ayağa qalxdı:

– Güləsər?!

Üz-üzə dayandılar. Güləsər keçən bu illər ərzində daha da gözəlləşmişdi. Tələbə vaxtı təcrübəsiz qız uşağı idi necə olmasa. Əlinə nə keçdi geyinir, saçını necə gəldi darayır, üz-gözünü bəzən naşılıqla makiyaj edirdi. İndi isə ondakı hər şey – geyimindən tutmuş makiyajına kimi, son dərəcə incə və yüksək zövqdən xəbər verirdi. Gözlər isə həmin gözlər idi. Görənləri heyran edən mavi-boz badamı gözlər...

Bir sözlə, Firdovsinin qarşısında mükəmməl bir gözəllik dayanmışdı və o, bir neçə saniyə heç nə demədən bu gözəlliyə tamaşa edib ondan zövq aldı. Bundan artığı isə mümkün olacaq bir şeyə bənzəmirdi. Çünki bu gözəlliyi özündə daşıyan qadın ona məxsus deyildi. Tanrı Güləsəri ona layiq bilsəydi, vaxtında, o uğursuz gündə – 1983-cü il, mayın 3-də qismətinə o ifritəni yox, Güləsəri çıxarardı.

Qadının ona zillənmiş baxışlarında sevinclə, çaşqınlıqla, məhəbbətlə bərabər bir təəssüf hissi də oxudu. Bu, bəlkə də Firdovsinin bir qədər

Scanned by CamScanner

miskin görkəmi ilə bağlı idi. Çünki o, indi universitetdə öz yaraşığı, zövqlü geyimi ilə bütün qızların diqqətini cəlb edən həmin oğlan deyildi. 33 yaşa yenicə adlamasına baxmayaraq, ona azı 40-45 yaş vermək olardı. Saçının yarısı ağarmış, gözləri çuxura düşmüşdü. Həyat eşqi çoxdan öldüyü üçün üzünü də vaxtlı-vaxtında təraş etmirdi. Paltarı köhnə və əzik-üzük idi. Bu yandan da sağ ayağının şikəstliyi...

Qanlı müharibənin od-alovundan sağ çıxıb gələn Firdovsi indi balaca uşaq kimi özünü itirmişdi. Bəlkə də elə buna görə uzun illər sevgisini ürəyində daşıdığı qızla söhbətə necə başlayacağını bilmirdi:

– Salam, Güləsər. Xoş gördük. Necəsən? Burda neyləyirsən?

Bu qəfil görüş Güləsəri ondan az həyəcanlandırmamışdı. Onun da dili topuq vururdu:

– Sağ ol, yaxşıyam, sən necəsən? Heç... Bu gün işdən icazə almışam. Bir az gəzmək istədim...

Bir qədər naqolay da olsa, axır ki, söhbətə başlamışdılar.

– Harada işləyirsən? – deyə qeyri-ixtiyari soruşdu.

– "Gənclik" tərəfdə bir məktəbdə.

– Müəlliməsən?

– Hə, biologiyadan dərs deyirəm.

– Çox gözəl... Oğuldan-uşaqdan nəyin var?

Güləsər boynunu burub kədərli halda gülümsədi:

– Mən hələ ailə qurmamışam...

– Niyə?

Scanned by CamScanner

Qız duruxdu. Firdovsi isə hələ tam özünə gələ bilməmişdi və mexaniki olaraq sualları dalbadal yağdırırdı:

– Nəzakət xala necədir?

– Sağ ol, yaxşıdır.

– Yenə onlarda qalırsan?

– Yox, indi məktəbə yaxın yerdə ev tutmuşam, orada qalıram...

Firdovsi özünü nə qədər itirsə də, həmsöhbətinin danışığındakı bir uyğunsuzluq diqqətindən yayınmadı: "Gənclik" tərəfdə məktəbdə işləyən və elə oralarda ev tutub yaşayan Güləsər bu gün işdən icazə alıb və evə yaxın bir neçə gözəl parkı orada qoyaraq Yasamaldakı bu kiçik, darıxdırıcı parka gəlib...

Ancaq bunu, sadəcə, bir anlıq beynindən keçirdi. Sualları isə hələ davam edirdi:

– Rüfət necədir?

– O da yaxşıdır.

– Evlənməyib ki?

– Evlənib, – Güləsərin gözəl simasına bəxtəvər bir təbəssüm yayıldı. – Mən də onun hesabına bibi olmuşam. Səkkiz aylıq bir gözəl qızı var.

– Aaa... Nə yaxşı! Adını nə qoyublar?

– Faiqə.

– Faiqə?

– Hə. İranda babası əslən bizim Gəncədən olan gözəl bir müğənni yaşayır. Bəlkə adını eşidərsən, dünyada Ququş kimi tanınır. Qızına onun adını qoyub Rüfət...

– Hə, eşitmişəm. Gözəl addır. Adı ilə böyüsün!

Scanned by CamScanner

– Çox sağ ol.

Uzun illərin ayrılığından sonra Firdovsinin ondan üzünü yalnız bircə dəfə gördüyü Rüfəti, üstəlik, onun körpə uşağının adını soruşması Güləsərə bəlkə də qəribə gəlmişdi. Bu, elə Firdovsinin özünə də qəribə görünə bilərdi. Lakin əslində bütün bunlar təbii idi. Firdovsi Güləsəri qəlbindən çıxarmamış, ona olan sevgisini qəlbinin dərinliyində gizlətmişdi. Onun qəlbində daha nə var idi? Atasının, anasının, bacısının dərdi, özünün bədbəxt taleyinə qarğışı, bütün həyata biganəlik və xeyli mənasız boşluq... Belə çıxırdı ki, onun qəlbində Güləsərin xəyalından başqa yaxşı heç nə yox idi. Və Güləsərlə bağlı ən xırda bir şey də Firdovsiyə doğma, əziz ola bilərdi.

Bax, elə üzünü görmədiyi o körpə Faiqə... Güləsərin özünə qardaş hesab etdiyi xalası oğlu Rüfətin qızı... Əgər indi Güləsər həmin körpə Faiqənin qaş-gözündən, burnundan, məzəli hərəkətlərindən saatlarla danışmağa başlasaydı, bu söhbət Firdovsini qətiyyən yormazdı. Çünki həyata ümidini itirmiş, hər şeyə laqeydləşmiş Firdovsi indi birdən-birə öz keçmiş məhəbbəti ilə üzləşəndə qəlbinin dərinliyində gizlətdiyi o ülvi duyğular oyanıb üzə çıxmışdı. İndi həyat özü ona Güləsərin timsalında görünürdü və belə olduqda təbii ki, bu saat o balaca Faiqənin gözlərinin hansı rəngdə olması belə Firdovsi üçün çox maraqlı idi.

Birdən ayıldı ki, bayaqdan ayaq üstə dayanıb danışırlar.

Scanned by CamScanner

– Bəlkə əyləşəsən? – deyə təklif etdi.

Güləsər ani tərəddüddən sonra skamyada əyləşdi. Firdovsi də əlindəki əsadan dayaq kimi istifadə edib ehtiyatla oturdu və bu dəfə ilk olaraq Güləsər dilləndi:

– Ayağına nə olub?

Bu sualda kədərlə bərabər bir şəfqət, canıyanan-lıq vardı.

– Qarabağda qəlpə dəyib, – dedi.

– Döyüşdə olmusan?

– Hə...

– Ağrıdır hələ?

– Yox, ağrı yoxdur, ancaq dizdən qatlanmır.

– Sənin oğuldan-qızdan nəyin var?

– Heç nəyim... Təkəm... – Firdovsi belə dedi və tez səhvini düzəltdi: – Yəni elə ikimizik. Uşaq olmadı...

– Həə...

Arada uzun bir sükut yaransa da, Firdovsi yalnız deyəcəklərini içində götür-qoy edəndən sonra dilləndi:

– Güləsər...

– Aha... – qız da sanki hansısa xəyalından ayrıldı, – eşidirəm...

– Bəlkə o vaxt sən də, xalangil də mənim barəmdə pis şeylər düşünmüsünüz. Əslində haqlısınız. Ancaq istəyirəm biləsən ki...

– Lazım deyil, Firdovsi, – Güləsər onun sözünü kəsdi, – lazım deyil! Daha hər şey keçmişdə qalıb. Sən evlisən...

– Allah kəssin belə evliliyi! – Firdovsi dərindən ah çəkdi.

Scanned by CamScanner

Güləsər onu məzəmmətlə süzüb sözünə davam etdi:

– Elə bilirsən həyatının cəhənnəm əzabı olduğunu görmürəm, anlamıram? Anlamıram ki, taleyin gətirməyib sənin? Gözlərinin içində yazılıb bunların hamısı. Ancaq başına gələnlərə görə heç kəsi günahkar saymamalısan, Firdovsi. Heç kəsi!

– Hə, doğru deyirsən, mən qanmaz olmuşam. Onsuz da kor olan gözlərimi bir az da qapayıb Allahdan qismət istəmişəm. Nəticədə bu da qismətim...

– Bəli... – gözləmədiyi halda Güləsər onun sözlərini təsdiq etdi. – Sözlərimdən incimə, həqiqətən kor idin o vaxt. Ətrafını görmürdün. Anlamırdın ki, mən hər gün tənəffüslərdə sizin qrupa Yaquta görə yox, sənə görə gəlirdim...

– Hə, Yaqut demişdi mənə... – Firdovsi başını aşağı saldı.

Gözləri yaşarmış Güləsər bir anlıq duruxub dodaqlarını gəmirdi və yenidən kədərli səslə dilləndi:

– Çox nahaq deyib Yaqut! Ona yalvarmışdım ki, sənə heç nə deməsin. Çünki istəyirdim sən özün anlayasan bunu. Mən qız uşağı idim, nə edə bilərdim? Yaxınlaşıb sənə öz sevgimi etiraf edəsi deyildim ki... Bunu səndən gözləyirdim. Həm də hər gün gözləyirdim. O gün yadındadır? Mən birinci kursun axırında idim, sən üçüncü kursun. Mayın 3-ü idi. Həftənin ikinci günü. Həmin gün universitetə ikimiz də çox erkən gəlmişdik. Səni deyə bilmərəm, amma bilirsənmi mən niyə elə tez gəlmişdim? O gecə

Scanned by CamScanner

yatağıma girəndən sonra yenə səni düşünürdüm. Sanki birdən-birə haradansa, ilahi bir qüvvə tərəfindən içimə qəribə hisslər doldu. Sanki kimsə mənə dedi ki, sabah tezdən dur və universitetə həmişəkindən tez get, Firdovsi ilə görüş, o, bu gün mütləq sənə ürəyini açacaq... İnanırsan, o gecə yata bilmədim. Səhər tezdən evdən çıxanda Nəzakət xala soruşdu ki, nə əcəb belə tez çıxırsan, dedim dərs başlayana kimi bir rəfiqəmlə görüşüb ondan kitab alacam... Universitetin qapısından içəri girəndə səni orada gördüm. Gözətçinin yanında dayanmışdın. Ürəyim elə şiddətlə döyünməyə başladı ki... Axşam içimə dolan o səsi xatırladım. Özümə cəsarət verib sənə yaxınlaşdım. Salam verdim. Ancaq sən salamımı çox soyuq aldın. Heç üzümə də baxmadın. Və mən də pərt halda səndən uzaqlaşdım...

Firdovsi bir daha dərindən ah çəkib astadan, öz-özünə dodaqaltı mızıldandı:

– Çünki həmin vaxt sənin arxanca Tanrının mənə göndərdiyi qismətim gəlirdi. Bütün diqqətim onda idi...

– Nə? – Güləsər onu yaxşı eşitmədi.

– Heç... – başını buladı. – Sən danış...

Güləsər sözünə davam etdi:

– Həmin vaxt elə pis olmuşdum ki... Auditoriyaya girəndə ora boş idi. Hələ heç kəs gəlməmişdi. Partanın arxasında oturub səssizcə ağladım... Bir neçə gündən sonra səni o qızla gördüm. Öz-özümə dedim ki, əgər Firdovsi öz xoşbəxtliyini bu qızda

Scanned by CamScanner

tapıbsa, qoy belə olsun, təki xoşbəxt olsun. Daha sonra sən ondan nəyə görəsə müvəqqəti ayrıldın, mənə yaxınlaşdın. Nə isə... Bütün bunları niyə danışdım, heç özüm də bilmirəm... Yəqin sənə qəribə gəlir ki, mən gəzmək üçün işdən icazə alıb "Gənclik"dən bura niyə gəlmişəm... Bu gün mənim ad günümdür. 30 yaşım tamam olur. Onsuz da neçə illərdir ad günü keçirmirəm. Axşam düşündüm ki, bu gün yalnız sənin lə bağlı olan o azacıq xatirələrimlə baş-başa qalım. Məktəbdən çıxandan sonra ayaqlarım məni birbaşa bura gətirdi. Yasamalda yaşadığını bilirdim. Ancaq sənin lə rastlaşacağımı qətiyyən ağlıma gətirə bilməzdim. Təsadüfə bax...

– Təbrik edirəm! – hər ikisi bir müddət susandan sonra Firdovsi dilləndi.

– Niyə? – susub fikrə getmiş Güləsər onu anlamadı.

– Ad gününü deyirəm...

– Hə... Çox sağ ol. Ancaq burada təbrik etməli nə var ki?! Səni tanıyanda 18 yaşım vardı. Bu gün isə 30 yaşım tamam olur. Bu isə mənə yalnız onu xatırladır ki, o vaxtdan 12 il keçib...

– Ancaq sən heç dəyişməmisən, – Firdovsi birdən çılğınlıqla danışmağa başladı, – hətta əvvəlkindən də gözəl, cavan görünürsən. Yəqin ki, istəyənlərin də çoxdur. Biri ilə ailə qur, övlad sahibi ol. Mənim kimi nadan, qanmaz, gərəksiz, qorxaq biri üçün həyatını puç etməyə dəyərmi? Dəyməz vallah! Mən elə tələbə vaxtı da bu fikirdə idim ki, sənə layiq deyiləm. Qətiyyən layiq deyiləm!

Scanned by CamScanner

Öskürək tutduğu üçün susmağa məcbur oldu. Bir qədər öskürüb sakitləşəndən sonra cibindən siqaret çıxarıb yandırdı. Ağlamaq, var gücü ilə bağırmaq istəyirdi, lakin onu da anlayırdı ki, indi bunların heç bir mənası yoxdur.

– Sən gərəksiz biri deyilsən... – baxışlarını daş döşəməyə dikmiş Güləsər ağır-ağır dilləndi, – özünə böhtan atma. Sənin taleyin belə gətirdi, sadəcə. Qaldı mənə, hə, istəyənlər olub, rədd eləmişəm. Ancaq ona görə yox ki, səni gözləmişəm. Yox, sən artıq evlənmişdin. Mən isə, ümumiyyətlə, daha ailə qurmaq istəmirdim... İndi isə, səndən nə gizlədim, həmin düşüncəmdə bir az dəyişiklik olub. Xüsusilə də o körpə Faiqənin hesabına. Hərdən onlara qonaq gedirəm. Əsas da elə uşağı görməyə. Onu qucağıma götürürəm, əzizləyirəm. Belə qənaətə gəlmişəm ki, ən azı dünyaya uşaq gətirmək üçün ailə qurmaq lazımdır. Yəni bu dəfə qarşıma çıxıb evlilik təklifi edən biri, əgər ürəyimə yatsa, etiraz etməyəcəm...

Firdovsi özü də anlamadı ki, ona birdən-birə nə oldu. Nə oldu ki, onsuz da pozulmuş əsəbləri bir az da tarıma çəkilib içində fırtınalar yaratdı və onu çəkdiyi siqaretin kötüyünü hirslə kənara tullayıb ayağa qalxmağa məcbur elədi:

– Düz edirsən, – dedi, – mütləq ailə qurmaq lazımdır! Sənə xoşbəxtlik arzu edirəm. Birinə ərə get və xoşbəxt ol! İndi isə məni bağışla, evə getməliyəm, sevimli həyat yoldaşım, taleyimin qismәti məni evdə həsrətlə gözləyir...

Scanned by CamScanner

Bunları səsi titrəyə-titrəyə deyib cavab belə gözləmədən, ona təəccüb və çaşqınlıqla baxan qızdan uzaqlaşdı. Əlindəki əsanı döşəməyə vura-vura, axsaya-axsaya gedir, dodağının altında durmadan öz taleyinə lənətlər oxuyurdu.

Firdovsiyə görə, qismətinə Nədiməni yazmaqla onu bu dünyanın özündə cəhənnəm həyatına məhkum edən Tanrı bu gün Güləsəri qarşısına məhz bu səbəbdən çıxarmışdı ki, bədbəxtliyini ona xatırladıb yarasının qaysağını qoparsın, ona bir daha cəhənnəm əzabı versin...

19

Güləsərlə olan o gözlənilməz görüşdən bir həftə sonra Həzini cəza müddəti bitdiyi üçün azadlığa buraxdılar. İndi üç gün idi ki, qonşuluqda maqnitofonun səsi kəsilmirdi. O zaman Bakıda dəbdə olan mahnılar, meyxanalar ara vermədən bir-birini əvəz edirdi. Bu səs-küy yalnız Həzinin həyətini yox, qonşu həyətləri də başına götürmüşdü.

Yadigarın ailə üzvlərindən savayı bütün məhəllə sakinləri gedib Həziyə baş çəkirdi. Yadigarla Sonaxanım Həzini oğullarının qatili hesab etdikləri üçün düşmən sayırdılar və bu səbəbdən təbii ki, qonşu həyətə ayaqlarını belə qoymazdılar. Nədimə isə qorxusundan getməzdi ora. Axı kim bilməsə də, Həzi özü bilirdi ki, İntiqamı o öldürməyib və bu

Scanned by CamScanner

ifritə qadın onu hansısa naməlum səbəbdən bilərəkdən şərləyərək tutdurub.

Firdovsi Həzinin azadlığa çıxmasına daxilən sevinirdi. Düşünürdü ki, 12 ilə yaxın hər gün içəridən onu yeyib-bitirən vicdanı indi bir az toxtaqlıq tapacaq. Ancaq o da qorxusundan qonşu həyətə keçə bilməzdi. Təkcə ona görə yox ki, Həzini şərləyib tutduran Nədimənin əri idi. Yox, buna başqa səbəb də vardı. Həzi türmədən buraxılandan sonra Firdovsinin beynində belə bir yanlış hiss yaranmışdı ki, bu adam İntiqamı onun öldürdüyünü bilir və harada görsə, yaxasından yapışaraq: "Mən türmədə 12 il sənin əvəzinə yatdım, əclaf!" – deyəcək.

Bu da azmış kimi, on gün əvvəl parkda Güləsərlə rastlaşmasını, orada aralarında olmuş söhbəti bir dəqiqə belə yaddan çıxara bilmir, Güləsərin tənəli sözləri durmadan qulaqlarında cingildəyirdi: "Başına gələnlərə görə heç kəsi günahkar saymamalısan, Firdovsi!"

O gün – Həzinin azadlığa çıxdığının üçüncü günü səhər məktəbdən gəlib yataq otağında uzansa da, yata bilmirdi. Həm qonşudan gələn gur musiqinin səsindən, həm bu gecə beyninə hakim olub onu məktəbdə də yatmağa qoymayan fikirlərin təsirindən.

İndi o, heç kimi yox, yalnız özünü qınayırdı. Tay-tuşları öz talelərinin qismәti olacaq qızı gözləri və ağılları ilə axtardıqları halda, o, gözlərini yumub, ağlını qapayıb taleyi ilə qumar oynamış, bəxtini Tanrıya tapşırmışdı. Tanrı da onun qarşısına elə bir

Scanned by CamScanner

ifritə çıxarmışdı ki, onun bütün ailəsini məhv elədi, həyatını cəhənnəmə döndərdi.

Yaxşı, bu, bir axmaqlıq, eşşəklik idi eləmişdi, bəs sonra? Buraxdığı kobud səhvi düzəltmək üçün sonra mübarizə apardımı? Yox! Firdovsi indi ən çox buna görə söyürdü özünü. Nədimənin qarşısında acizlik göstərdiyinə, onun qorxusundan sevdiyi Güləsəri atdığına görə.

İntiqamı əslində o öldürməmişdi. O, yalnız özünü ölümdən qorumuşdu. Özünümüdafiə məqsədilə fənd işlədib bıçağı rəqibindən almış, bu zaman onu çarəsizlikdən yaralamışdı. Həmin vaxt həkim çağırsaydı və milisə xəbər versəydi, İntiqam ölməyəcəkdi, ona da özünü müdafiə edərkən qarşısındakına xəsarət yetirdiyi üçün cəza verməyəcəkdilər.

Bəli, İntiqamı o gecə Firdovsi yox, öz doğma bacısı öldürdü. Nədimə... Firdovsi qızın həmin gecənin qaranlığında qorxunc şəkildə parıldayan gözlərini və "Qoy ölsün! Qoy ölsün!" – deyən daha qorxunc pıçıltısını bu günə kimi unutmamışdı.

Yenə Güləsərlə görüşü xatırladı. Bu qız 30 yaşa çatsa da, qeyri-adi gözəlliyinə görə ətrafında onu sevib xoşbəxt edə biləcək oğlanların çoxluğuna baxmayaraq, ərə getməmişdi. Həm də Firdovsiyə görə. Həyatda öz məqsədi uğrunda mübarizə aparmağı bacarmayan qorxağın, acizin birinə görə...

Qarabağda vuruşduğu könüllülər batalyonunda hamı onu qəhrəman sayırdı. "Sənə mütləq Azərbaycanın Milli Qəhrəmanı adı verilməlidir" deyirdilər. Ancaq

Scanned by CamScanner

igidliyin də, cəsarətin də növləri, çalarları olurmuş. Çəkinmədən, ölümdən qorxmadan, tərəddüd etmədən əlisilahlı mənfur yağıların üstünə şığıyan Firdovsi adi həyatda Nədimədən qorxub onun qarşısında müti birinə çevrilmişdi. Nədimə onun atasını, anasını, bacısını, üstəlik, sevdiyi qızı əlindən aldı.

Əslində onun qorxduğu şəxsən Nədimənin özü yox, onun xəbərçiliyi ilə həbsxanaya düşəcəyi fikri olmuşdu. İstəməmişdi o xarabaya düşsün. Heç bu gün də istəmirdi. Azadlıqdan məhrum olunmağı ölməkdən də betər bir şey hesab edirdi.

Ancaq bu qədər də acizlik olmazdı axı... İnsan öz sevdiyinə qovuşmaqdan ötrü axıra kimi mübarizə aparmayacaqsa, daha onun yaşamağının nə mənası vardı?

Nə idi onun qarşısında duran məqsəd? Taleyin insafsızcasına qismətinə çıxardığı Nədimədən birdəfəlik qurtulmaq və Güləsərə qovuşmaq! Firdovsi bu məqsədi uğrunda gücü çatdığı qədər mübarizə aparmışdımı? Yox, yalnız düşünüb-düşünüb bu qərara gəlmişdi ki, guya bu mümkün deyil, Nədimədən ayrılsa, bu iblis onu tutduracaq, o da gedib türmədə yatacaq. O zaman tutulsaydı, hətta ədalətsiz hakimlər onu qəsdən adamöldürmə maddəsi ilə ittiham edib Həziyə verdikləri qədər iş versəydilər, indi azadlığa çıxıb evinə qayıtmışdı. Atası, anası, bacısı sağ idi, Güləsər də ərə getməyib onu gözləyirdi...

Nədimədən uzaqlaşmaq üçün hələ başqa variantlar da mümkün idi. Ən çətin problemlərin də hansısa

Scanned by CamScanner

həll yolları mütləq olur. Bu yollar çətinliklə dolu olsa da, bəzən hətta müəyyən şərəfsizliklərdən keçsə də, axır ki, olur. "Bu dünyada bircə ölümə çarə yoxdur", – deyib ağıllı kişilər. O isə hər şeydən əlini üzüb özünü Nədimənin aciz qurbanına çevirmişdi.

Bunu düşünən də az qaldı ki, yataqdan qalxıb var gücü ilə bağırsın. Sonra özünü birtəhər sakitləşdirdi. Fikirləşdi ki, elə indicə, bu saat həyatını dəyişdirəcək ciddi bir qərar qəbul etməlidir. Elə bir qərar ki, həmin qərarı yerinə yetirməklə Nədimədən həmişəlik qurtulub Güləsərlə qovuşsun, bundan sonrakı həyatını öz istədiyi kimi yaşasın.

O qorxunc gecə kənddəki həyətlərini işıqlandıran, dəhşətli çığırtı ilə ora-bura qaçan canlı tonqal gəldi gözlərinin önünə. Bacısının son nəfəsində atasına "Hamısı yalandır!" – deyib yanmış göz qapaqlarını əbədi yummasını xatırladı. Ömründə qadına əl qaldırmayan atasının Nədiməyə əl qaldırmasını, lakin onu vura bilməyib infarktdan canını tapşırmasını xatırladı. Bağırsaqlarını şüşə qırıntıları doğradığı üçün naləsi göyə yüksələn anasını xatırladı...

Yox, Firdovsi qadın cildinə girərək həyatına soxulmuş bu iblisdən elə bu gün qurtulmalı idi. Bu saat mətbəxdə qurdalanan arvadını çağırıb onunla son dəfə ciddi danışmalı, onu boşanmağa razı salmalı idi. Əgər razı olsaydı, bu, artıq Firdovsinin gələcək işıqlı həyatının ilk müjdəsi olacaqdı. Yox, əgər razı olmasa...

Qonşuluqdakı maqnitofondan Məmmədbağırın səsi gəlirdi. Müğənni o vaxt ən çox dəbdə olan mahnılarından birini oxuyurdu. Buna görə Həzinin oğlu

Scanned by CamScanner

maqnitofonun səsini ən yüksək həddə qaldırmışdı. Musiqi sanki Firdovsigilin evinin içində çalınırdı.

Qorxdu ki, bir az da düşünsə, fikrindən daşına bilər. Qalxıb geyinərək mətbəxə keçdi. Nədimə səhər yeməyindən və axşamdan qalmış bulaşıq qabları yenicə yuyub bitirmişdi. İndi isə nahara küftə hazırlamaq üçün əti maşından keçirməyə hazırlaşırdı.

Firdovsi qətiyyətli və buz kimi soyuq bir səslə:

–Yataq otağına gəl, sənlə söhbətim var, – dedi.

Nədimə dönüb bir anlıq ona baxsa da, ərinin gözlərindəki sakitliyi və qətiyyəti sezə bilmədi, ona görə də donquldandı:

– Nə söhbət?! Kor deyilsən ki, görürsən günortaya zəhrimar hazırlayıram.

– İçəri gəl, vacib söhbətim var, sonra bişirərsən zəhrimarını!

Qadın bu dəfə onun səsində nə hiss etdisə, əlindəki işini yarımçıq qoyub yataq otağına keçdi:

– Hə, buyur görək nə deyirsən?

– Otur! – onun arxasınca gələn Firdovsi çarpayını göstərdi.

– Oturmuram e, sözünü de görək, mən sənin kimi avara deyiləm, işim-gücüm var!

– Nədimə... – Firdovsi daha onun oturması üçün təkid etmədi. Bir qədər susub nəfəsini dərərək sözə başladı. – Mən artıq belə yaşaya bilmirəm. Gəl boşanaq. Mehribanlıqla... Sənlinki – səndə, mənimki – məndə... Mən çıxıb gedim, sən də yaşa burada. İstəsən başqasına ərə get. Xahiş edirəm!

Scanned by CamScanner

– Nə əcəb, xeyir ola? – Nədimə əllərini belinə qoyub kinayə ilə başını yellədi.

– Bu, elə ikimizin də xeyrinədir, vallah. Onsuz da çoxdandır ər-arvad kimi yaşamırıq. Gəl elə bu gün gedib ərizə verək, nə övladımız var, nə də bölüşdürməli ortaq malımız. Bizi lap tez boşaya bilərlər. Qoy bundan sonrakı həyatımda bir gün görüm...

– Elə şey ola bilməz, Firdovsi bəy! – arvadı etiraz etdi.

Firdovsi indi qəti qərara gəldiyi üçün çox sakit idi:

– Bax, sənə yalvarıram Nədimə, əlindən-ayağından öpürəm, gəl razı ol, ayrılaq. Mənə yazığın gəlsin...

– Gör necə yalvarır e... – Nədimə hikkə ilə fınxırdı. – Sən elə bilirsən qara qaşına, qara gözünə aşiq olmuşam, səndən ötrü ölürəm, ona görə boşanmıram? Ay sən öləsən! Nəyimə lazımsan sən? – əlini ikrahla yellədi. – Nə kişi kimi kişiliyini görürəm, nə ər kimi ərliyini. Evə beş-on manat pul gətirirsən, onun da çoxu öz siqaretinlə arağına gedir. İşin-gücün gündüzlər yatmaq, bir də şikəst ayağınla dartına-dartına küçələri sülənməkdir...

– Yaxşı da, – Firdovsi arvadının sözünü kəsdi, – indi ki, belədir, gəl ayrılaq, sən də birdəfəlik qurtul məndən.

Nədimə sağ əlini havada yellədi:

– Yoox, mən bilirəm axı nəyə görə boşanmaq istəyirsən. İstəyirsən ki, məni boşayıb o lotu sevgilini alasan. Güləsəri...

– Ağzını təmiz saxla! Danışığına fikir ver!

Scanned by CamScanner

– Nədir, acığına gəldi sevgilinə elə deməyim? Guya bilmirəm ki, o qancıq indiyə kimi ərə getməyib səni gözləyir? Bilmirəm ki, onunla gizlin-gizlin görüşürsən? Mən boşanan deyiləm səndən, Firdovsi! Özün boşanmağa ərizə versən, mən də polisə gedib intiqamı sənin öldürdüyünü deyəcəm. İndi özün bil, türmədə yatmaq istəyirsənsə, get boşa məni!

– Nədimə, bir daha yalvarıram, gəl xoşluqla ayrılaq! – Firdovsi qəzəbindən dişlərini qıcadı.

Nədimə birdən iyrənc ikrah hissi ilə gülümsəyib, sağ əlinin baş barmağını şəhadət barmağı ilə orta barmağının arasına soxub düz onun gözünün qabağına uzatdı:

– Ala! Bax, bunu görərsən boşanmaq yerinə!

Firdovsi pəncərəyə yaxınlaşıb, pərdəni aralayaraq həyətə baxdı. Qayınatasıgil görünmürdülər. Maqnitofonun gur səsi hələ də otağa dolmaqda idi. Arvadına tərəf qayıdıb əlindəki əsanın ucunu ona uzatdı:

– Mənim taleyimə yazıldığın o günə lənət olsun, Nədimə! Sən mənim bütün həyatımı söndürdün. Üç əzizimi sən öldürdün! Qardaşın da sənin ucbatından öldü. Bax, qonşudakı bu Həzi 12 il sənin ucbatından türmədə yatdı. Sən insan deyilsən, iblissən, şeytansan...

Nədimə onun gözlərindəki nifrətin çoxluğundan, deyəsən, qorxuya düşmüşdü. Bir addım arxaya – çarpayıya doğru çəkildi:

– Hamısı sənin öz günahındır. Sən əvvəl məni atmasaydın, evlənəndən sonra şəhərdə yaşamağa razı olsaydın, onların heç biri olmayacaqdı.

Scanned by CamScanner

Sağ əlindəki əsanın ucunu döşəməyə dayayan Firdovsi sol əlini uzadıb arvadının boğazından yapışdı və onu boğmağa başladı. Nədimə çırpındı, onun üz-gözünə əl atdı, şikəst ayağını təpiklədi. Ancaq sonda yorulub səndələyərək çarpayıya çökdü. İndi hər iki əli ilə ərinin qolundan tutub onun əlini boğazından qoparmağa çalışır, boğuq-boğuq xırıldayırdı.

Firdovsi ona bir addım da yaxınlaşıb barmaqlarını daha qüvvətlə sıxdı. Nədimənin üzü göyərirdi. Gözləri ağrı və dəhşətdən elə böyümüşdü ki, sanki pırtlayıb tökülәcəkdi.

– Öl, şeytandan əmələ gələn! Öl, qancığın balası!

Qəzəb və nifrətdən parıldayan gözləri Nədimənin gözlərindən o qədər də fərqlənməyən Firdovsi xırıltılı səslə söyür, dəmir kimi möhkəm barmaqlarını az qala qadının ətinə yeridirdi.

Birdən arvadı onun əlini buraxdı, qolları boşalıb yanına düşdü. Səsi kəsildi. Ancaq Firdovsi onun boğazını hələ də buraxmamışdı. Zəhərli ilanı yaralayan adam həmin ilandan əvvəlkindən daha çox qorxduğu kimi, o da Nədiməni yaralı buraxmaqdan qorxurdu. Bu anlarda ona elə gəlirdi ki, əgər arvadını buraxsa və o, özünə gəlsə, burada çox dəhşətli şeylər baş verəcək. Arvadı çığırıb ona həmişə himayədarlıq etmiş şeytanı yardıma çağıracaq, o da dərhal özünü yetirib Firdovsini caynaqlarına alacaq.

Arvadının öldüyünə tam əmin olandan sonra onu buraxdı. Nədimə arxası üstə çarpayıya yıxıldı. Bir müddət sakit dayanıb ona tamaşa edən Firdovsi

Scanned by CamScanner

birdən dönüb vanna otağına getdi. Orada əllərini sabunlayıb yudu. Deyəsən, bunu qeyri-ixtiyari olaraq edirdi. Sonra üzünə bir az su vurdu. Qurulanıb yenidən yataq otağına qayıtdı.

Meyitə baxanda öldürdüyü qadına azacıq da olsa rəhmi gəlmədi. Əksinə, düşündü ki, bu hadisənin özü də Nədimənin ona etdiyi pisliklərdən biridir. Meyitə baxıb nifrətlə tüpürdü. Bu ifritə qadın onu, nəhayət ki, həqiqi qatilə də çevirməyi bacardı. Bəli, həqiqi qatilə! O, İntiqamdan fərqli olaraq, arvadını bilərəkdən, düşünülmüş şəkildə qətlə yetirmişdi və indi həqiqətən də qatil sayılmalı idi.

Özünün belə sakitliyinə təəccüb edirdi. Sanki tələbə vaxtı İntiqamı vurandan sonra qorxudan tir-tir əsən, hər gecə yuxusunda sayıqlayan həmin Firdovsi deyildi. Belə görünürdü ki, ondan sonra yaşadığı məşəqqətli həyat, Nədiməyə sonsuz nifrəti və müharibədə duyğularının korşalıb sərtləşməsi onu yetərincə dəyişmişdi.

Yenə bir qədər beləcə dayanıb arvadının cansız cəsədinə tamaşa etdi. Sonra əlindəki əsanı onun başına vurub dodağının altında qəzəblə pıçıldadı:

–Axır ki, it kimi gəbərdin, ifritə! Səni mənim qismətimə çıxaran Allahının özü də sənə kömək etmədi. Yerin cəhənnəm olsun sənin, iblis xislətli qadın...

Bəli, onun həyatını bu dünyada ikən əsl cəhənnəmə çevirmiş Nədimə artıq ölmüşdü. İndi Firdovsiyə yalnız nəzərdə tutduğu planın davamını həyata keçirmək, arvadının murdar cəsədindən birdəfəlik

Scanned by CamScanner

qurtulmaq qalırdı. Nəzərdə tutduğu plan isə sadə idi: meyiti evdə gizlədib, qayınatasıgili Nədimənin harasa getdiyinə inandırmaq, sonra şəhərə çıxıb axşamın düşməsini gözləmək, Qarabağda könüllülər batalyonunda onunla vuruşmuş Kamrandan kömək istəmək. Gecə onun "Jiquli"sində evə gəlib cəsədi o qədər də uzaqda olmayan Qanlı gölə aparmaq, orada boğazına ağır daş bağlayaraq gölə tullamaq...

Bu işləri bitirən kimi maşını birbaşa gecə gözətçisi işlədiyi məktəbə sürdürəcəkdi ki, işə çox gecikməsin. Sonra qoy Nədiməni axtarıb tapsınlar görək necə tapırlar... Firdovsi bir neçə ay gözləyəndən sonra bu evdən birdəfəlik çıxıb gedəcək, o zaman Güləsərlə ailə həyatı qurmaq üçün qarşısında heç bir maneə qalmayacaqdı...

Bəli, Firdovsinin düşündüyü plan bundan ibarət idi və o, nəhayət ki, özündə cəsarət tapıb acınacaqlı taleyini dəyişmək üçün işə başlamışdı.

Meyiti bir əli ilə dartıb çarpayıdan yerə saldı. Sonra onu əlinin və ayağının köməyi ilə ikinəfərlik taxta çarpayının altına itələdi. Yatağın üstünə sərilmiş güllü örtüyün kənarlarını əli ilə hamarlayıb meyitin görünmədiyinə əmin olandan sonra otaqdan çıxdı. Evin çöl qapısını açarla bağlayıb həyətə düşəndə gündüz saat 12-ni yenicə ötürdü. Həyətdə heç kəs yox idi. Qonşuluqdan gələn musiqi səsi isə hələ kəsilmək bilmirdi.

Həmin anlarda etdiyi qeyri-adi əməli ya beyni hələ tam qavramamışdı, ya da başqa səbəbdən nədənsə sakit idi. Həyəcanını içində boğub saxlaya

Scanned by CamScanner

bilirdi. Bəlkə də ona görə belə idi ki, bütün gücü və qətiyyəti ilə mübarizə aparıb taleyini dəyişmək qərarına gəlmişdi və bu iş artıq ona qeyri-mümkün görünmürdü. Güləsərlə qovuşmağına mane ola biləcək ən böyük əngəl aradan götürülmüşdü. Gələcək xoşbəxt həyatının uzaqdan gələn sərin, xoş mehini indidən bütün qəlbi ilə duyub hiss edirdi.

Odur ki, yarıyoldan geri çəkilmək fikrində deyildi. Özünü toparlayıb qayınatasıgilin qapısına yaxınlaşdı və əsanın ucu ilə qapını döyəclədi. Qapıya Nədimənin anası çıxdı. Həmişə hicabda görməyə alışdığı qayınanasını ilk dəfə idi ki, başıaçıq görürdü. Arvadın açıq qəhvəyiyə boyadığı saçları sanki çoxdan daraq dəymədiyi üçün dağınıq və pırtlaşıq idi.

Firdovsi yalnız arvadı ilə Bakıya köçəndən bir qədər sonra bilmişdi ki, sən demə, qayınanası falçılıqla, cadugərliklə məşğuldur. Kiminsə ailəsini dağıtmaq, kimisə xəstələndirmək, kimisə öldürmək və ya bədbəxt etmək istəyən mərdimazar, qəlbiqara insanlar bu iyrənc məqsədlərini həyata keçirmək üçün onun yanına gəlirmiş...

– Ay Sonaxanım xala, Nədimə sizdədir? – deyə soruşdu.

–Yoox... – arvad təəccübləndi.

– Bəs bu yenə, görəsən, hara gedib?! Səhər işdən gələndən ac yatmışam. Yuxudan ayılıram, görürəm nə evdə, nə həyətdə yoxdur. Naharın da vaxtı çatıb...

– Mən haradan bilim?! – kürəkənini narazılıqla süzən qadın köntöy cavab verdi. – Bəlkə dükana-bazara gedib? Arvadını məndən niyə soruşursan?

Scanned by CamScanner

– Belə olmaz axı... – Firdovsi dönüb guya arvadının qarasınca deyinə-deyinə həyət qapısına doğru yönəldi. – Vallah, belə olmaz! Mən nə vaxta kimi yeməyi orda-burda yeyəcəm?! Axşam da çıxıb işə getməliyəm...

Qapıdan çıxanda arxadan Sonaxanımın donqultusunu eşitdi:

– Külü töküm sənin kimi kişinin başına...

Nədimədən həmişəlik qurtuluş planının ikinci mərhələsi də belə sona yetmişdi. İndi avtomat telefondan Kamranın evinə zəng vurmaq, onunla görüşüb danışmaq və qaranlığın düşməsini gözləmək lazım idi.

Axsaya-axsaya piyada yola düşdü. Özündən xəbərsiz sürətlə yeriyirdi. Bir azdan məhəlləni geridə qoyaraq, əvvəllər tələbə şəhərciyi olmuş, indi isə müharibə nəticəsində yurd-yuvalarını itirən adamlar tərəfindən tutulmuş yataqxanaların ərazisinə girdi. Uzun pilləkənlə aşağı enəndə buradan dəfələrlə Nədimə ilə üzüyuxarı qalxdığını xatırlayıb bir anlıq ayaq saxladı. Sanki indi qəflətən, bütün gerçəkliyi ilə dərk etdi ki, o qarayanız qız artıq həyatda yoxdur və onu öz əlləri ilə öldürüb.

Ürək döyüntüsü artdı. Bir zaman İntiqamı vurub yataqxanaya qaçanda olduğu kimi, içini müdhiş bir qorxu hissi bürüdü. Bir anlıq düşündü ki, qayınanasıgildə onun qaldığı evin açarı var və indicə bəlkə də Sonaxanım evə çıxaraq çarpayının altında qızının meyitini görüb. Görübsə, deməli, polisə zəng vuraraq

Scanned by CamScanner

qızını Firdovsinin öldürdüyünü bildirəcək. Dönüb arxaya baxdı. Yox, hələlik arxasınca polis-filan gəlmirdi. Özünə toxtaqlıq verib düşündü ki, Sonaxanım ondan şübhələnməyibsə, onların evində nə işi var...

Yoluna davam etdi. Mətbuat prospektini necə keçdiyindən xəbəri də olmadı. Ətrafına baxmadan gedirdi. "Elmlər Akademiyası" metrosunun yanında avtomat telefondan Kamranın evinə zəng vurdu. Bəxtindən döyüş yoldaşı evdə idi. Danışdılar ki, axşamüstü saat 6-da yaxınlıqdakı "Üfüq" kafesində görüşsünlər.

İndi qarşıdakı beş saatı birtəhər ötürməli idi. Həmin vaxt saat da saat deyildi ki... Hərəsi bir il idi, zülmlə gəlib keçirdi. Metronun yan tərəfindəki cızbızxanada nahar edərək, həyəcanını boğmaq üçün iki qədəh araq içdi. Sonra oradan çıxıb Akademiya bağında gəzişməyə başladı.

Güləsəri xatırladı. Bir vaxtlar burada qrup yoldaşı Yaqutla oturub Güləsər barədə danışdıqlarını, daha sonra sevdiyi qızın özü ilə görüşünü, Cəfər Cabbarlı kinoteatrına getmələrini xatırladı. "Az qalıb, Güləsər, – deyə ürəyində özü ilə danışırdı, – az qalıb. Mən artıq taleyimi dəyişirəm. Biz qovuşacağıq..."

Həmin bu bağda Nədimə ilə olan görüşləri yadına düşəndə isə qanı qaraldı. Onu taleyinə qismət kimi yazmış Tanrıya bir daha asi çıxdı. Öz bədbəxt taleyinə acıyıb Nədimənin qarşısına çıxdığı o uğursuz günə – 1983-cü ilin 3 may gününə bir daha lənət oxudu...

Scanned by CamScanner

Deyilən vaxtda Kamranla "Üfüq" kafesində görüşdülər. Masa arxasında tavakababla pivə içə-içə hər şeyi danışdı. Bu gün onu çağırmaqda məqsədini izah etdi. Kamran onun halına çox acımışdı. Dostunun öz taleyi barədə danışdıqlarını axıra kimi dinləyəndən sonra başını bulayıb dilləndi:

– Sən bunu çoxdan etməli idin, qardaş. İndi ki boşanmırdı, ilan kimi dolanmışdı boynuna, ata-ananı, bacını əlindən almamış öldürməli idin onu. Amma yenə də gec deyil. Yaxşı eləmisən. Sənə nə kömək lazımdırsa, mən hazıram...

Havanın tam qaralmasını gözləyib Kamranın "Jiquli"sində Köhnə Yasamal məhəlləsinə getdilər. Ehtiyat üçün maşınının nömrələrini çıxarmış Kamran onu həyət qapısından azacıq aralı saxladı. Küçə bu vaxtlar olduğu kimi qaranlığa bürünmüşdü. Həzinin həyətində yenə şadlıq idi. Gur musiqi səsi gəlirdi.

Firdovsi maşından enib sakitcə həyətə girdi. Alaqaranlıq həyətdə ins-cins gözə dəymirdi. Evin qapısını səs-küy salmadan, açarla açıb içəri daxil oldu. Dəhlizə həyətdən azacıq işıq düşürdü. Yataq otağı isə qaranlıq idi. Pərdəni yarıya kimi çəkdi ki, bura da həyətin işığı düşsün. Yalnız bundan sonra aşağı əyilib çarpayının altında gizlətdiyi meyiti özünə tərəf çəkdi.

Bədəni tamam soyumuş Nədimənin ona zillənmiş gözləri pəncərədən içəri düşən zəif işıqda qeyri-adi şəkildə parıldayırdı. Bu baxışlar birbaşa Firdovsiyə yönəlmiş nifrət dolu son baxışlar idi. Arvadı ona ölüm anında belə baxdığına görə öləndən sonra da gözlərində əbədi olaraq donub qalmışdı.

Scanned by CamScanner

Bəli, əbədi olaraq... Bu ifritə qadının sağlığında son duyduğu hiss Firdovsiyə qarşı nifrət hissi olmuşdusa, deməli, ruhu bədənindən çıxanda bu nifrəti də özü ilə bərabər aparmışdı. Ruhlar isə ölmür. Nə vaxtsa kimdənsə eşitmişdi ki, qətlə yetirilən insanın ruhu daim onun qatilinin ətrafında dolaşır, ondan intiqam almağa çalışır. Deməli, Nədimənin ruhu ondan heç vaxt əl çəkməyəcəkdi.

Firdovsi isə Güləsərlə evlənmək istəyirdi. Deməli, sevdiyi qadına qovuşandan sonra hər gün gündüzlər bir süfrə arxasında əyləşəndə də, gecələr eyni yatağa girəndə də Nədimənin ruhu onların başı üstə olacaqdı. Bunu təsəvvür edəndə bədəninə vahim bir üşütmə gəldi.

O, torpaq uğrunda döyüşlərdə üst-üstə 10-dan çox düşmən əsgəri öldürmüşdü. Lakin döyüşdə düşmən əsgərini öldürməklə dinc həyatda kimisə qətlə yetirmək arasında nə qədər böyük fərq varmış. Torpağını azad etmək uğrunda düşməni məhv edən əsgər buna görə heç vaxt vicdan əzabı çəkmir, belə hisslər yaşamır. Çünki bilir ki, Tanrı da, valideynləri də, xalqı da, dövləti də onun bu əməlini düzgün və vacib hesab edir.

Bəs dinc həyatda hansısa insanı qətlə yetirmək? Bu əməl yazılmış və yazılmamış bütün qanunlarda ağır cinayət sayılırdı. Bunun üçün ağır cəzalar müəyyənləşdirilmişdi. Azadlığından məhrum olub uzun müddət həbsxana divarları arasında yaşamalısan. Əlbəttə, əgər buna yaşamaq demək mümkünsə...

Scanned by CamScanner

Yalnız cəzanı çəkib bitirəndən sonra azad həyata qayıda, əgər öldürdüyün şəxsin yaxınlarının intiqam fikri yoxdursa, qalan həyatını normal yaşaya bilərsən. Bu zaman vicdanın da qismən rahat olur, cinayətini insanlardan gizlətmək zorunda qalmırsan. "Bəli, öldürdüm və cəzamı çəkdim. İndi mən də hamı ilə eyni hüquqlu insanam", – deyə bilirsən.

Bəs qatil olub ədalət məhkəməsindən yayınsan necə? Bu zaman rəsmən azadlıqdan məhrum edilmirsən, amma bütün ömrünü qorxu, səksəkə, vicdan əzabı içində yaşamalı olursan ki, buna heç də azad yaşamaq demək olmazdı.

Firdovsi nə vaxtsa Güləsərə evlənmək təklifi edəndə nə deyəcəkdi? Deyəcəkdi ki, Nədimə harasa çıxıb getdi və qayıtmadı? Sevdiyi insanı aldadacaqdı və sonra da ömrü boyu onu aldada-aldada yaşayacaqdı? Yaxud etiraf edib deyəcəkdi ki, Nədiməni sənə qovuşmaq üçün öldürdüm? Güləsər onda onun üzünə tüpürərək həyatından həmişəlik getməzdimi?

Bir də ki, Nədimənin kinli və məkrli ruhu həmişə onların başı üstündə olduğu halda Güləsərlə necə yaşayacaqdı, ona necə sarılacaqdı, onun gül ətirli bədənindən, bal kimi şirin dilindən, saf sevgi dolu qəlbindən necə zövq alacaqdı? Yox, bu, Firdovsi üçün mümkün olan bir şeyə bənzəmirdi...

Dizi üstə döşəməyə çöküb arvadının meyitinə baxırdı. Bu qadın onun həyatına daxil olmaqla bütün ömrünü, bütün hiss və duyğularını zəhərləmişdi. Onu öldürməyinə peşman deyildi. Hətta indi

Scanned by CamScanner

istəyirdi ki, arvadı ayılıb gözlərini açsın, ayağa qalxsın və Firdovsi bu qadının əməllərini bir-bir üzünə vurub onu yenidən, bu dəfə daha əzabla öldürsün.

Firdovsi indi anlayırdı ki, cəsədi döşəmədə uzanmış bu qadın sağlığında ona etdiyi pisliklərlə kifayətlənməyəcək, onun həyatını bundan sonra da məhv etməkdə davam edəcək. Bəli, deyəsən, belə idi. Bu ifritə qadın ölmüşdü, ancaq onun ölümü Firdovsini öz arzusuna çatmağa qoymayacaqdı. Onun bundan sonra sevdiyi qadınla xoşbəxt bir ömür yaşaması nəsə mümkün görünmürdü.

Firdovsi öz taleyini dəyişmək, Nədimədən qurtulub Güləsərə qovuşmaq üçün plan quranda işin bu tərəfini nəzərə almamışdı. Heç onu da nəzərə almamışdı ki, polis də boş oturmayacaq, Nədimənin qatilini axtaracaq və böyük ehtimalla Həzidən şübhələnərək onu yenidən həbs edəcək. Beləliklə, bir dəfə Firdovsiyə görə 12 ilə yaxın türmədə yatmış Həzi indi yenə onun ucbatından istintaqa çəkiləcəkdi. Yox, bu dəfə Firdovsinin vicdanı buna dözə bilməzdi...

Bütün bunları düşünəndə özünü birdən-birə dünyanın ən aciz məxluqu hiss etdi. Öldürdüyü qadına olan nifrəti indi bir az da aşıb-daşır, taleyinə artıq neçənci dəfə lənət oxuyurdu.

Nəhayət, birdən yadına düşdü ki, Kamran küçədə onu gözləyir. Əlini döşəməyə dayayıb ağır-ağır ayağa qalxdı. Otağın kədərli alaqaranlığında meyitə son dəfə nəzər salıb kövrəlmiş halda:

Scanned by CamScanner

– Məni niyə məhv elədin, ay zalım qadın? – deyərək əvvəlcə yataq otağını, daha sonra evi tərk etdi.

Bu dəfə qapını qıfıllamağa ehtiyac duymadı. Küçəyə çıxıb onu burada gözləyən "Jiquli"yə əyləşdi və içini yandıran kədərli bir səslə döyüş yoldaşına dedi:

– Kamran, burada yaxında balaca park var, ora sür.

Onun boş qayıtdığını görən döyüş yoldaşı təəccüblənmişdi:

– Bəs meyit?

– Kamran, – Firdovsi hövsələsiz halda zarıdı, – mən ölüm, sənə nə deyirəmsə, onu elə!

– Yaxşı, nə deyirəm...

"Jiquli" bir neçə dəqiqədən sonra həmin kiçik parkın yanında dayandı. Firdovsi çətinliklə yerə enib qaranlıq parka daxil olanda onun halının heç də yaxşı olmadığını görən Kamran daha heç bir sual vermədən maşında qaldı.

Parkda adam yox idi. Burada canlı qismindən yalnız iki sahibsiz it gəzişirdi. Əsasını yerə döyə-döyə həmin skamyaya yaxınlaşdı. O skamyaya ki, on gün əvvəl burada Güləsərlə yanaşı əyləşmişdi. Keçib özünün o günkü yerində oturdu. Boynunu yana burub on gün əvvəl Güləsərin oturduğu yerə baxdı və sanki qız hələ də burada imiş kimi ona xitabən danışmağa başladı:

– Mən nə sənə, nə də sənin sevginə layiq ola bilmədim, Güləsər. Alın yazıma qarşı çıxmağa çalışsam da, buna gücüm çatmadı. Nə edim, Tanrı səni mənim taleyimə yazmayıbmış. Taleyimə yazdığı qismət

Scanned by CamScanner

o ifritə oldu ki, o da həyatımı puç elədi. Dünyamı cəhənnəmə çevirdi. Deməli, mənim qismətimə də bu yazılıbmış... – sözünə ara verib əlinin dalı ilə göz yaşlarını sildi. – Ancaq sən qismətinə çıxan biri ilə xoşbəxt ol. Məni də unut. Mən daha yoxam. Ölüyəm... Heç kimim yoxdur mənim. Nə ailəm var, nə dostum, nə də Allahım...

Parkda gəzişən itlərdən biri gəlib başını onun şikəst ayağına sürtdü. Firdovsi dönüb bir neçə saniyə ona baxdı və birdən başını bulayıb ah çəkdi:

– Nə istəyirsən, ay heyvan? Elə mən də sənin kimi kimsəsiz, sənin kimi zavallı biriyəm... – dedi və nə düşündüsə, azacıq susub əlavə etdi: – Ancaq yox... Özümü sənlə müqayisə edə bilmərəm. Sən heç olmasa azadsan...

Əl ağacını yerə dayayıb ayağa qalxdı. Oturduğu skamyaya son dəfə baxıb onu gözləyən maşına doğru yeridi. Qapını açıb döyüş yoldaşının yanında oturdu və kədərli, eyni zamanda qətiyyətli bir səslə:

–Yasamal polisinə sür! – dedi...

20

Firdovsi istintaq zamanı Nədiməni öldürməsinin səbəbini qısaca belə əsaslandırdı ki, arvadını sevmirdi, boşamaq istəyirdi, o da boşanmağa etiraz etdiyi üçün öldürdü, vəssalam. Üstəlik, İntiqamı da Həzinin yox, onun özünün öldürdüyünü də etiraf etdi.

Scanned by CamScanner

Məhkəmə iclasında Sonaxanım iki övladının qatili olan məhkuma hücum çəkib bildiyi ən pis söyüşləri yağdırır, Yadigar gözlərini bərəldib onu ölümlə hədələyirdi. Sonra prokuror çıxış edib ona ağır cəza verilməsini tələb etdi. Bütün bu müddət ərzində təmkinlə susan Firdovsi məhkəmə zalında heç kəsi görmürdü. Gözləri önündə yalnız gecənin qaranlığında alışıb yanan bacısı, ürəyini tutub evin döşəməsinə sərilən atası, "bağırsaqlarım doğranır" deyə nalə çəkib can verən anası, bir də boynubükük Güləsər vardı. Hakim ona son söz verəndə isə xəyallarından ayrılıb yalnız bunu dedi:

– Peşman deyiləm. Yaxşı eləyib öldürmüşəm...

Cəzaçəkmə müəssisəsinə göndərildiyi gün də sakit idi. Yəni onun üçün daha heç nəyin mənası, əhəmiyyəti qalmamışdı. Bircə qorxusu vardısa, o da bu xarabada aşağılanmaq, özündən aşağı səviyyəli adamların qarşısında əyilmək idi.

Ancaq onun Qarabağda igidliklə döyüşməsi, xeyli düşmən əsgəri öldürməsi kalona elə ilk gündən məlum olmuşdu. Bu səbəbdən nəzarətçilər də, məhkumlar da ona bir qədər hörmətlə baxırdılar. Və hansı səbəbdən bura düşdüyünü də bilirdilər. Bilirdilər ki, qaynını, daha sonra isə arvadını öldürüb. Onun burada adına kölgə salacaq bir şey vardısa, o da İntiqamı öldürdüyünü bir vaxtlar gizlətməsi, Həzinin onun əvəzinə həbsdə yatmasına göz yummaması idi. Bircə bu işinə görə ona əyri baxanlar vardı burada.

Scanned by CamScanner

Kalonda onu xoşlamayan məhkumların başında Rza adlı biri dururdu. Başının qabağı dazlaşmış bu orta boylu, arıq, donqarburun adam Firdovsidən beş yaş böyük idi. İki nəfərlə pul üstündə dalaşıb ikisini də amansızcasına öldürdüyü üçün azadlıqdan məhrum edilmişdi. Həmin hadisədən sağ gözünün altında aypara şəkilli bir çapıq yadigar qalmışdı ki, buna görə dustaqlar ona "Çapıq" ayaması vermişdilər. Çapıq Rza bu kalondakı məhkumların hamısının gözünün odunu aldığı üçün ondan qorxur, bir sözünü iki eləmirdilər.

Firdovsinin cəzaçəkmə müəssisəsinə düşdüyü ilk günlər idi. Bir gün Çapıq Rza həyətdə gəzinti zamanı məhkumların gözü qarşısında ona söz atdı:

– Hə, arvad qatili, nə sakit dayanmısan?

Dünya-aləm gözünə görünməyən Firdovsi dönüb ona baxdı və bu sözlərin ani olaraq ağzından necə çıxdığını özü də bilmədi:

– Əgər arvad qatiliyəmsə, deməli, sən məndən qorxmalısan...

Yaxınlıqdakı məhkumlar dərhal söhbətlərini kəsib bu işin necə qurtaracağını maraqla gözləməyə başladılar. Rza bu sözlərdən azacıq tutuldu. Kalona yeni gələn bu axsaq məhkum ona cavab qaytarmışdı. Bu isə dözülməz idi. Onun buradakı nüfuzuna xələl gətirə bilərdi, deməli, məsələni sonraya saxlamadan dərhal tədbir görməli idi. Rza əlini köynəyinin altına salıb oradan bir bıçaq çıxardı və zorla gülümsəyib dedi:

Scanned by CamScanner

– Niyə səndən qorxmalıyam, bəyəm mən arvadam?

İndi bütün məhkumlar Firdovsiyə baxırdılar. O isə Çapıq Rzanın gözlərinə. Həm də çox sakit baxırdı. Bir vaxtlar Akademiya bağında Nədimə ilə öpüşərkən milis gələndə beyninin reallığa xidmət edən şöbəsi necə dayanıb öz işini alt qatdakı başqa şöbəyə vermişdisə, deyəsən, indi də həmin vəziyyət idi. Heç nə barədə düşünmürdü. Nə ölüm, nə də bıçaqlanıb xəstəxanaya düşmək barədə. Təkcə bunu düşünürdü ki, bu kalonda bundan sonrakı həyatının necə olacağı indi verəcəyi cavabdan asılıdır. Əgər qorxub: "Yox, əşi, sözgəlişi dedim, arvad niyə olursan, sən əsl kişisən", – desəydi, onda Çapıq Rzanın qarşısında sınacaq, bütün məhkumların gözündən düşəcək, Rzanın buradakı müti əlaltılarından birinə çevriləcəkdi. Hirslənsə, dili-dodağı əsəbdən əsə-əsə "hə, arvadsan" desəydi, yenə eyni nəticə olacaqdı. Rza onu bıçaqlamasa da, buradaca dustaqlara döydürəcək, onda da həmişəlik diligödək, qapazaltı birinə çevriləcəkdi. Yox, əgər...

Birdən gülümsəyib çox sakit bir səslə:

– Hə, arvadsan, özü də lap gəzəyənindən! – dedi.

Hazırda beyninin naməlum alt şöbəsinin idarə etdiyi Firdovsinin bu cavabı bir zamanlar Akademiya bağında milis leytenantına göstərdiyi eyni təsiri göstərdi. Rza qorxub bıçağını yaxasında gizlətdi. Ətrafa boylanaraq, guya burada qan tökmək istəmirmiş kimi başını buladı və: "Nə olar, göstərərəm sənə arvad kimdir", – deyib uzaqlaşdı.

Scanned by CamScanner

Ancaq artıq gec idi. Rza uduzmuş, burada bir döyüşçü kimi əvvəldən hörməti olan Firdovsi isə dustaqların gözündə bir az da yüksəlmişdi.

Sonradan Rza özü ona yaxınlaşıb üzr istədi, münasibətləri yoluna qoydu. Münasibət isə bundan ibarət idi ki, daha bu kalonda Rzanın yox, Firdovsinin sözü keçəcəkdi.

Çapıq Rza qumarbaz idi. Hər gün bir dəstə məhkumu başına yığıb qumar oynayırdı. Tələbəlik illərində otaq yoldaşı Qəşəmdən bu oyunun bütün "nəzəri" sirlərini öyrənmiş Firdovsi də həmin "bilik"lərini ilk dəfə burada sınaqdan keçirdi.

Onun görüşünə gələsi, ona pul və yemək gətirəsi heç kəsi yox idi. İlk oyunların birində bir məhkumdan borc aldığı pulu Rzaya uduzdu. Yenidən oynayıb pulunu geri qaytarmaq istəyəndə Rza onun qabağına şərt qoydu: "Əgər udsan, pulunu geri alırsan, ancaq uduzsan, filan nəzarətçiyə gözümüzün qabağında bir sillə vuracaqsan".

Firdovsi yenə uduzdu və qumarın qanunlarını yaxşı bildiyi üçün başqa yolu olmadığını anlayıb, onun dediyini etdi. Bir də ki, bundan sonra həbsxanada neçə il qalacağının onun üçün fərqi yox idi. Heç bir bəhanə axtarmadan həmin nəzarətçiyə dustaqların gözü qarşısında bir sillə vurdu. Onu məhkəməyə verib cəzasını artırdılar.

İlk vaxtlar dustaq yoldaşlarının azadlıqdakı yaxınları vasitəsilə Güləsərdən xəbər tutmağa çalışırdı. Türmədə keçirdiyi ikinci il sevdiyi qızın Yaşar adlı

Scanned by CamScanner

birinə ərə getdiyini eşitdi, bundan sonra daha onun həyatı ilə maraqlanmadı. Çünki bunun daha heç bir mənası da yox idi.

Qumara aludə olan Firdovsi sonrakı oyunlarda yalnız udurdu. İndi dustaqların "Topal" ayaması verdiyi Firdovsinin pulu da, kifayət qədər nüfuzu da var idi. Həbsxana həyatı artıq onun normal həyatına çevrilmişdi. Qəlbində isə yalnız nifrət vardı. Öz taleyinə və bu taleyi ona gətirən hər şeyə dərin nifrət... Hətta hər il bir dəfə gələn 3 may tarixinə, 1983 rəqəminə belə nifrət edirdi...

Nəzarətçini vurduğu üçün cəza müddəti artırılmış Firdovsi bir də 17 ildən sonra – 2012-ci ildə azadlığa buraxıldı.

Bakıda nə ev-eşiyi vardı, nə də bir yaxını. Ona görə də həbsxanadan çıxan kimi avtobusa minərək Oğuza getdi və oradan bir maşın tutub kəndə sürdürdü.

Həyətini başdan-başa kol-kos basmış ata evinin özü də baxımsızlıq üzündən bərbad halda idi. Divarların suvağı nəmdən sökülüb-tökülmüş, hər yeri hörümçək toru bürümüşdü. Bütün otaqlardan kif və çürüntü iyi gəlirdi. Uzun şüşəbənd eyvanda bir saata yaxın heykəl kimi dayanıb xəyala qapıldı. Bu evin necə xoş, şad-xürrəm günləri vardı! Atası, anası, bacısı və o necə bəxtəvər imişlər o vaxtlar! Atasının: "Səbirə, bu süfrəyə bir az pendir də qoy"; anasının:

Scanned by CamScanner

"Ay Nazlı, ana qurban, qaç bulaqdan bir qab su gətir", – deməsi; bacısı Nazlının: "Firdovsi huuuy, hardasan, anam səni çağırır", – deyə şən qışqırtısı gəldi qulaqlarına.

İndi bu ev o vaxtkından daha səs-küylü, daha şən əhval-ruhiyyəli olmalı idi əslində. Firdovsi təxəyyülünü işə salaraq bunu da gördü. Həyətdəki iri tut ağacının kölgəsindəki stolda süfrə açılıb. 80-ə yaxın yaşları olan Əhəd müəllimlə arvadı Səbirə başda əyləşiblər. Firdovsi də, onun iki qızı ilə iki oğlu da buradadır. Nisbətən böyüklər stulda oturub, balacalar yerdə gəzirlər. Güləsər stəkanlara çay süzür. Bu zaman həyət qapısı səs-küylə açılır. Nazlı qucağında körpə qızı, yanında oğlu və əri həyətə girirlər...

Gözləri doldu. Özünü acı-acı ağlamaqdan saxlaya bilmədi...

İkinci dəfə kənd qəbiristanlığında – əzizlərinin məzarı başında ağladı. Qəbirlərin üçünün də torpağı çökmüş, üstünü tikan, ot-alaf basmışdı.

Ata evində gecələmək mümkün olmadığı üçün xalasıgilə getdi. Xalası 10 il əvvəl rəhmətə gedibmiş. Onun oğlu Sirac saç-saqqalı ağarmış, üzü qırışmış Firdovsini əvvəlcə tanımadı. Tanıyandan sonra da o qədər mehriban qarşılamadı. Gecəni onun evində keçirən Firdovsi anladı ki, kənddə heç kəs – nə yadlar, nə də qohumlar onun barəsində yaxşı fikirdə deyillər. İfritənin birini alıb evinə gətirməklə bütün ailəsini bədbəxt etdiyinə, sonra da adam öldürüb türməyə düşdüyünə görə...

Scanned by CamScanner

Ertəsi gün kənddən ömürlük ayrıldı. Bakıya gəlib kirayə ev tutdu. Bir özəl obyektdə gözətçi işinə düzəldi.

Çapıq Rza və bir neçə başqa dustaq yoldaşı azadlığa ondan əvvəl buraxılmışdılar. Bir-birilərini axtarıb tapdılar. Gizli qumar məclisləri yenidən qızışdı və Firdovsi bir qədər pullanan kimi gözətçilik işini birdəfəlik atdı.

Bir gün "Space" telekanalının binasının qabağından keçəndə ayaq saxlamalı oldu. Bu bina onun tələbəlik illərində Cəfər Cabbarlı kinoteatrı idi. İstər-istəməz Güləsəri xatırladı. Burada birlikdə "Fillər mənim dostumdur" filminə baxmışdılar. Necə gözəl, unudulmaz gün idi o gün! Necə bəxtəvər idi hər ikisi!

Qəfildən anladı ki, əslində həbsxanada keçirdiyi 17 il ərzində Güləsəri heç bircə gün də unutmayıb. Sevdiyi qadın həmişə onun qəlbinin dərin, gizli bir guşəsində olub. Firdovsi onu həmin gizli guşədən ona görə çıxarmayıb ki, qəlbinin bütün digər guşələrini bürüyən nifrət, taleyinə lənət hissi onun təmiz, zərif xatirəsini ləkələyib bulaşdırmasın.

O gündən Güləsəri axtarmağa başladı və tezliklə onun barəsində hər şeyi öyrəndi. Güləsər onun həbsindən bir il sonra Yaşar adlı subay bir oğlana ərə gedibmiş. İndi hansısa nazirlikdə sanballı işdə işləyən həmin Yaşardan bir qızı, bir oğlu varmış.

Onların yaşadığı ünvanı öyrəndi. Hər gün gəlib saatlarla orada durur, gizlicə binaya göz qoyurdu. Beləliklə, hansı balkonun onlarınkı olduğunu

Scanned by CamScanner

öyrəndi. Balkondakı dibçək güllərini sulamağa çıxan Güləsəri ilk dəfə görəndə halı elə pisləşmişdi ki, yıxılmamaq üçün yaxınlıqdakı maşın təmiri emalatxanasına girib oturmağa icazə istəməli olmuşdu.

Bir neçə gündən sonra isə sevdiyi qadını yaşadığı binanın birinci mərtəbəsindəki marketə girən gördü. Özü də küçəni keçərək həmin marketə daxil oldu. Bu zaman çalışdı ki, satıcıdan çörək alan Güləsər onu görməsin.

Həmin vaxt Güləsərin 48 yaşı olmalı idi. Ancaq ona heç kim bu yaşı verməzdi. 30-35 yaşlı bir çox qadınlardan daha qıvraq və gənc görünürdü. Balıq ətli idi, yaşına görə ideal bədən quruluşu vardı. Saçlarını bir qədər açıq rəngə boyamışdı. Bu da simasının gözəlliyini heç də itirmir, əksinə, ona tam başqa çalarda, başqa biçimdə gözəllik verirdi. Baxanlarda özünə rəğbət, qibtə və təmiz sevgi hissi oyadan bir gözəllik...

Həmin gün marketdə satıcı kişi ilə danışan Güləsərin əvvəlki şirinliyini saxlamış səsini də eşitdi:

– Salam.

– Aaa, salam, Güləsər xanım, buyurun, xoş gəldiniz.

– Mənim təndir çörəyimdən qalıb?

– Bəli, əlbəttə. Az verirlər, gündə cəmi on dənə. Ancaq siz tapşırandan sonra dərhal ikisini götürüb kənara qoyuram.

– Ay çox sağ olun. İkicə həftədə bu çörəyə elə alışdıq ki, daha başqasını yeyə bilmirik.

Scanned by CamScanner

– Bəli, Güləsər xanım, gündə bir çörək sexi açırlar, ancaq yaxşı bişirə bilmir çoxu.

– Əşi, hə, xəmirinə nə gəldi qatırlar vicdansızlar.

Satıcı iki təndir çörəyini torbaya qoyub ona uzatdı:

– Buyurun. Başqa nəsə lazımdır?

– Yox, hələlik heç nə lazım deyil. Ancaq siz hər gün mənim çörək payımı saxlayın ha... Bunu bişirib gətirən qadına da mənim adımdan təşəkkür edin, deyin halal olsun sənə.

– Baş üstə, Güləsər xanım, deyərəm...

Qadın alış-verişini bitirib marketdən çıxdı. Onun arxasınca çıxıb baxışları ilə binanın tininə kimi ötürən Firdovsi düşündü ki, Güləsər bir az kökəlib xanımlaşsa da, elə həmin tələbəlik dövründəki Güləsərdir. Hamı ilə ünsiyyət quran, şirin dili ilə özünə rəğbət qazanan Güləsər... Hələ marketin satıcısı da onun adını bilirmiş...

Elə yerişi də həmin yeriş idi. Sadəcə, indi yeriyəndə əndamının yırğalanmağı daha çox diqqəti cəlb edirdi. Bir də o hərəkəti... Satıcı ilə danışanda fikir verdi Firdovsi. Başını eynən gənclik illərindəki kimi nazla yana ataraq sağ əli ilə üzünə tökülən saçlarını düzəltdi...

Təkcə gözlərini görə bilmədi o gün marketdə. Mavi-boz badamı gözlərini...

Həmin gün Güləsərgilin evi ilə üzbəüz – küçənin o biri tərəfindəki köhnə üçmərtəbəli binanın divarına "Tək adamam, bu binada kirayə mənzil istəyirəm" məzmunlu elan yapışdırdı. Altdan da yeni aldığı mobil telefonunun nömrəsini yazmışdı.

Scanned by CamScanner

Bir-iki həftədən sonra həmin binadan bir nəfər zəng vurub mənzilini kirayə vermək istədiyini dedi. Firdovsi gedib mənzilə baxdı və kirayə haqqının bir az çox olmasına baxmayaraq, dərhal razılaşdı. Onun bəxtindən, üçüncü mərtəbədə yerləşən bu mənzilin balkonu Güləsərgilin balkonu ilə üzbəüz idi. İndi sevdiyi qadının balkonuna buradan hər gün baxa biləcəkdi...

Güləsər balkona gündə bir, iki, bəzən üç dəfə çıxırdı. Həmişə də dibçək güllərinə baxmaq, onlara qulluq etmək üçün. Qadın yalnız bir neçə həftədən sonra qarşı binanın balkonunda oturmuş yaşlı kişinin ona göz qoyduğunun fərqinə vardı. Amma özünü o yerə qoymadı. Balkona çıxanda Firdovsiyə tərəf yalnız ani nəzər salır, sonra öz işi ilə məşğul olurdu.

Bir gün isə... Firdovsinin bu mənzilə köçdüyünün üçüncü ayı idi, deyəsən. Güləsər qəfildən onu tanıdı və tanıdığı an ayaq üstə yerindəcə quruyub qaldı. Su ilə dolu plastik qab əlindən balkonun döşəməsinə düşdüyü üçün içindəki su oradan axıb birbaşa səkiyə tökülürdü.

Həmin an özünü itirən Firdovsi də əsasını döşəməyə dayaq verərək ayağa qalxmışdı. Aralarındakı on metrdən də az məsafədən bir-birilərinə baxmağa başladılar. Həmin anlarda Firdovsi heç nə haqda düşünmürdü. Yalnız baxırdı. Bu, beş dəqiqə çəkdi, ya bəlkə də çox, Güləsər birdən qəfildən dönərək evə girdi.

O gündən balkona daha tez-tez çıxmağa başlayan qadın ona tərəf ya heç baxmırdı, ya da elə oğrun-oğrun

Scanned by CamScanner

baxırdı ki, Firdovsi bunu sezə bilmirdi. Sonra bu adətini tərgitdi və balkona yenə əvvəlki kimi gündə iki-üç dəfə, yalnız dibçək güllərinə qulluq etmək üçün çıxmağa başladı.

İndi Firdovsinin bu mənzilə köçməsindən düz dörd il keçirdi. Dörd il idi ki, gününün çox hissəsini bu balaca balkonda keçirir, Güləsərin haçan balkona çıxıb çiçəklərə su verəcəyini gözləyirdi.

Həftədə bir dəfə Çapıq Rzanın Masazırdakı evinə yığışan qumarbazlarla qumar oynayır, onlardan udduğu pulla dolanırdı. Qalan günlər isə vaxtının demək olar ki, hamısını bu kiçik balkonda keçirirdi.

Bu dörd ildə heç bircə dəfə də görüşüb kəlmə kəsməmişdilər. Şəxsən Firdovsi özü bunu heç lazım da bilmirdi. Güləsər ərli qadın idi, iki gözəl övladı vardı və Firdovsi öz balkonundan apardığı müşahidələrindən bilirdi ki, bu qadın öz həyatından razıdır. Ərini və uşaqlarını sevir, maddi cəhətdən tam təmin olunub. Əüər beladirsə, deməli, onun Firdovsi kimi uğursuz taleli biri ilə yenidən uğursuz macəra yaşamağa həvəsi olmamalı idi.

Bəli, hələ də öz bədbəxt taleyinə nifrət edən, bundan sonrakı həyatından fərəhli, ürəkaçan nəsə gözləməyən Firdovsi sevdiyi qadının onun üçün əbədiyyən əlçatmaz olduğunu çoxdan anlamışdı. Buna baxmayaraq, qalan ömrünü beləcə keçirmək istəyirdi. İstəyirdi ki, hər gün bir neçə dəqiqəlik də olsa Güləsəri görsün.

Və bu, ona bəs idi...

Scanned by CamScanner

III FƏSİL

ŞÜBHƏLİ ADAM

Əgər Tanrının sizi sevdiyinə və həmişə Onun diqqətində olduğunuza əminsinizsə, qarşınıza çıxan həyat cığırlarının ağlınıza ilk gələnini tutub gedin. Çünki onu sizin ağlınıza Tanrı özü salır. Əgər tərəddüd edib başqa cığırı seçsəniz, bilin ki, sizi o cığıra yönəldən şeytandır.

Mavi cins şalvar və əyninə bir qədər boş olan uzunqollu boz kofta geymiş gənc qız vanna otağında əl-üzünü yuyub dişlərini fırçalayandan sonra güzgünün qarşısında bədənini sağa-sola oynadaraq bir neçə ritmik rəqs hərəkəti etdi və güzgüdəki əksinə baxıb məzəli şəkildə göz vurdu. Bu günlərdə magistratura imtahanının nəticəsini öyrənəndən sonra kefinə kef çatmırdı. Çünki zəhməti hədər getməmiş, bu yüksək təhsil pilləsinin pulsuz bölməsində oxumaq hüququ qazanmışdı.

İki ay əvvəl 22 yaşını qeyd etmiş bu qızın olduqca sadə, sərbəst, eyni zamanda bir qədər şıltaq görkəmi

Scanned by CamScanner

vardı. Dörd illik tələbə həyatında yoldaşları onu bir dəfə də olsun makiyajda görməmişdilər. Qızların çoxundan fərqli olaraq saçını rəngləmir, fenlə ütüləyib hamarlamır, dodaq boyasından və sürmədən istifadə etmirdi.

Təkcə bir həftə əvvəl qrupun xatirə fotoalbomu üçün fotosessiya edəndə yoldaşlarının təhriki ilə özünü bəzətdirməyə razı oldu. Fotolar hazır olandan sonra onlara baxan rəfiqəsi Gülnar heyrətini gizlətməmişdi:

– Canın ölməsin, ay qız, sən nə gözəl imişsən! Bəs indiyə kimi niyə özünə baxmırdın? Vallah, gözəllikdə bizim qrupda birincisən...

Sonra söz-sözü gətirdi və Gülnar yoldaşlarının onu necə sevdikləri barədə danışdı. Dedi ki, sənin çox gözəl ürəyin var, bu dörd ildə qızlarımızın hamısının xasiyyətində nəsə, az da olsa nöqsan gördük, səndə isə yox. Bir az soyuqqanlı olsan da, qrupa bir o qədər qaynayıb-qarışmasan da, səni hiylədən, kindən, paxıllıqdan uzaq, saf ürəkli, səmimi biri kimi tanımışıq. Öz aramızdır, qrupumuzda ən yaxşı oxuyanlardan biri də sən olmusan. Üstəlik, qeyri-adi, məlahətli səsin var. Bircə xarici gözəlliyini bu qədər bilmirdik, o da hamıdan üstün imiş. Tanrı səndən heç nə əsirgəməyib, Faiqə, inan mənə, sən onun ən sevimli bəndələrindənsən...

İnsanın yaxşı cəhətlərini sağlığında üzünə deyib onu fərəhləndirmək ən düzgün əməllərdən biridir. Bu, eyni zamanda həmin adamın məsuliyyətini artırır, onu daha yaxşı olmağa sövq edir.

Scanned by CamScanner

Qarşınızdakının nöqsanlarını deməyə isə heç tələsməyin. Əgər o, pis adamdırsa, deməli, özünü hamıdan yaxşı hesab edir və sənin iradlarını paxıllıq kimi qəbul edəcək. Əgər həqiqətən yaxşı adamdırsa, üzüləcək, ruhdan düşəcək. Bir də axı o, öz nöqsanlarını səndən də aydın görür və bilir. Onun bilmədiyi yaxşı cəhətləridir ki, sən də əgər xain, paxıl biri deyilsənsə, ona bunları xatırlat.

Faiqə də özündə bu qədər gözəl xüsusiyyətlərin olmasından, yəni yoldaşlarının onu belə tanımasından xəbərsiz idi. İndiyə kimi özünü qrupda heç kimdən fərqli, artıq hesab etməmişdi.

Sadəlövhcəsinə soruşdu:

– Səncə, Tanrı məni doğrudan sevir?

– Əlbəttə, sevir, – Gülnar gülümsədi: – Görmürsən qızların çoxu sənə qibtə edir? Hətta paxıllığını çəkənlər də az deyil.

– İndi sən deyəndən sonra fikirləşirəm, görürəm həqiqətən həmişə, hər işimdə hansısa naməlum bir qüvvə məni qoruyur, mənə kömək edir. Lap elə dərslərdə də. Düzdür, həmişə oxumuşam, çalışmışam. Ancaq hiss etmişəm ki, çox da əziyyət çəkmirəm. Bizim qrupda məndən dəfələrlə çox çalışanlar var, amma nəticələri həmişə məndən aşağı olub. İmtahanlarda mənim qədər yaza bilməyiblər. Yaxşı, deməli, bütün işlərimdə Tanrı köməyim olub. Mən bunu belə də qəbul etmişəm. Ancaq bir şeyi anlamıram: O, məni niyə sevsin axı? Mən kimdən artığam?

Gülnar cavabı çox gecikdirmədi:

– Əslində bu məni də düşündürüb və Tanrının səni nə üçün bu qədər sevdiyinin səbəbini tapmışam.

Scanned by CamScanner

– Nədir o səbəb? – Faiqə özünəməxsus sadəliklə gözünü rəfiqəsinin ağzına dikdi.

– Sən heç kəsin pisliyini istəmirsən. Bizim hamımızda az da olsa paxıllıq var, səndə isə yerli-dibli yoxdur.

– Elə bu?

– Məgər bu azdır? Tanrının öz bəndəsində xoşladığı əsas əməllər elə bunlardır də...

Gülnarın sözlərindən sonra yenə bir qədər düşünüb anladı ki, o, doğrudan da Tanrının sevimli bəndəsidir. Çünki indiyədək arzusunda olduğu hər məqsədinə nail olmuşdu. Əlbəttə, zəhmətə qatlaşaraq...

– Faiqə, süfrə hazırdır, gəl yemək ye, ac getmə, – mətbəxdən Güləsər xanımın həlim və mələhətli səsi gəldi.

Güləsər onun atasının xalası qızı idi. Bakıda universitetə qəbul olunandan sonra onların evində yaşamışdı. Atası Rüfətlə bacı-qardaş kimi imişlər və bu səbəbdən Faiqə onu uşaqlıqdan bibisi kimi tanıyıb sevmişdi. Onun fikrincə, Gülü bibisi həqiqətən sevilməyə layiq biri idi. Tanrının bir qadına verə biləcəyi bütün gözəl şeylər var idi onda – zahiri gözəllik, daxili zənginlik, əsl mələk xasiyyəti, işgüzarlıq, qayğıkeşlik... 52 yaşı vardı, ancaq Güləsəri tanıyan gənc qızların çoxu ona qibtə edirdi. Bir sözlə, Faiqənin fikrincə, bibisinin əri Yaşar dayı özünü dünyanın ən xoşbəxt kişisi hesab etməli idi.

İnsafla deyəndə, Yaşar dayı özü də bunu anlayır, Güləsərin başına pərvanə şamın başına fırlandığı kimi dolanırdı. Onun bütün arzularını yerinə yetirir, heç

Scanned by CamScanner

vaxt ən xırda çətinliyə belə düşməyə qoymurdu. Bir sözlə, kişi əsl Məcnun idi. Faiqə onun bibisini necə sevməsini universitetdə qrup qızlarına da danışmışdı. Hətta həmin söhbəti dinləyən Könül adlı qız gülə-gülə dedi ki, ay Faiqə, nə olar, o Güləsər bibini bircə dəfə mənimlə görüşdür, sağ əlini qoysun başıma, bəlkə gələcəkdə mənə də belə yaxşı bir ər qismət ola...

Amma Yaşar dayı doğrudan da canlara dəyən kişi idi: boylu-buxunlu, yarlı-yaraşıqlı, gülərüz, mehriban... O qədər sadə adam idi ki, heç deməzdin nazirlikdə şöbə rəisi işləyir. Faiqə onun xətrini az qala atası qədər istəyir, o da Faiqəni qızı Dünyadan, oğlu Ramindən ayırmırdı.

Güləsər bibinin övladları da nümunəvi uşaqlar idilər. Necə olmasa da, Yaşar kimi atanın, Güləsər kimi ananın tərbiyəsini görmüşdülər. Dünya Odlar Yurdu Universitetinin ikinci kursunda idi, Ramin isə tam orta məktəbi bu il bitirirdi. Tibb Universitetinə qəbul olunmaq arzusu ilə durmadan çalışır, repetitorların yanına gedirdi. Bu məqsədlə oxuduğu orta məktəbin direktoru ilə danışıb icazə almışdılar ki, Ramin bütün XI sinif boyu məktəbə getməsin.

Faiqənin atası Rüfət həyat yoldaşını və oğlunu özü ilə götürüb Neftçaladakı qohumlardan birinin toyuna getmişdi. Ona görə də Faiqə iki gün idi burada – Güləsər bibisigildə qalırdı.

Universitetdə dördüncü kursların dərsləri keçən aydan bitmişdi. Bu tələbələr indi evdə oturub dövlət imtahanlarına hazırlaşır, universitetə yalnız vacib işləri olanda gedirdilər. Məsələn, oxu zalına, il ərzində

Scanned by CamScanner

aldıqları kitabları kitabxanaya qaytarmağa və sair. Faiqə də bu gün universitet kitabxanasından götürdüyü "Şərq xalqları ədəbiyyatı" kitabını qaytarmağa gedəcəkdi. Bu kitab onun başına az qala bəla olmuşdu. Deməli, bir il əvvəl onu kitabxanadan götürəndə necə olubsa yolu bibisigilə düşüb və kitabı burada qoyaraq gedib. Sonradan onu elə unudub ki, bir də mart ayında kitabxanaya borcunun olduğunu eşidəndə xatırlayıb. Öz evlərini ələk-vələk etsə də, kitabı tapmayıb. Universitetdə də kitab məsələsi elə ciddi idi ki, aldığın kitabın məhz özünü tapıb qaytarmasaydın, kitabxana sənə "buraxılış vərəqi" verməyəcək, nəticədə diplomunu ala bilməyəcəkdin. Faiqə kitabı itirməyinə elə pis olmuşdu ki, az qalırdı oturub ağlasın.

Dünən burada təsadüfən kitab şkafını araşdıranda həmin kitabı görüb heyrətə gəldi və sevincindən qışqırdı. Səsə gələn Güləsərlə qızı Dünya məsələnin nə yerdə olduğunu biləndə ona doyunca güldülər. Hə, Faiqə bu gün universitetə ancaq bu kitaba görə gedirdi ki, qaytarıb "buraxılış vərəqi" alsın. Səhər saatlarında kitabxanada sakitlik olurdu. Ona görə yuxudan bir az tez durmuşdu, yoxsa hələ 9-a kimi yatardı.

İndi yəqin ki, Yaşar dayı səhər yeməyini yeyib, geyinib-gecinərək, ətirlənərək, mənzilin qapısı ağzında Güləsərlə öpüşərək öz işinə getmişdi. Dünya da indi yəqin ki, "Gənclik" metrosundan çıxmışdı, öz universitetinə gedirdi. Ramin günlük cədvəl üzrə birinci repetitorun yanına saat 11-də gedirdi. Ona görə də səhərlər istədiyi qədər yata bilərdi...

– Ay Faiqə... – bibisi onu bir də səslədi.

Scanned by CamScanner

– Gəlirəm, bibişko!

Uzun, qıvırcıq saçlarını əlləri ilə tələsik arxaya daradı. Vəssalam! Mətbəxdə tələbəsayağı bir-iki tikə nəsə "atışdırıb" qapının ağzındakı mavi-çəhrayı kətalarını da geysəydi, deməli, universitetə getməyə hazır idi. Yanlarını ritmik bir ahənglə oynadaraq çox sevdiyi məşhur mahnını dodaqaltı zümzümə edə-edə mətbəxə keçdi.

– Dünyanın ən gözəl, ən nazlı bibişkosunun sabahı xeyir olsun! – deyib Güləsəri öpdü və dərhal süfrə arxasında əyləşdi. – Tənbəl Ramin hələ bay-bay eləyir?

– Sabahın xeyir, canım. Hə, yatır, indi durar, – bibisi dedi.

Tərtəmiz bəyaz süfrədə çay, yağ-pendir, şəkər, qayğanaq, duza qoyulmuş zeytun, bir də ev sahibəsinin öz əli ilə bişirdiyi piroq vardı. Çörək isə az idi. Cəmi iki dilim...

– Bundan başqa çörək yoxdur? – deyə əsl tələbə sürəti ilə yeməyə girişərək bibisindən soruşdu.

– Məgər sənə çatmaz? – Güləsər təəccübləndi.

– Mənə çatar e, bəs siz?

– Sən ye məktəbinə get, bizi fikirləşmə, Ramin dursun, düşüb marketdən alar.

Beş dəqiqədən sonra artıq yeməyi bitirmiş Faiqə qalın "Şərq xalqları ədəbiyyatı" kitabını qoltuğuna vuraraq mənzilin qapısı ağzında zümzümə edə-edə ayaqqabılarını geyinirdi.

– Bu nə saçdır, ay Faiqə?! Bunu darayaydın heç olmasa, – qızı yola salmağa çıxan Güləsər xanım

Scanned by CamScanner

gileyləndi. – Dünya da belədir e... Vallah, indiki qızları anlaya bilmirəm. Mən tələbəlik vaxtı hər səhər durub universitetə gedəndə düz bir saat güzgünün qarşısında hazırlaşırdım, üz-gözümə, üst-başıma baxırdım.

– O vaxt başqa, indi başqa, bibişko, – Faiqə güldü. – Biz XXI əsrin cocuqlarıyıq, rahatlığı hər şeydən üstün tuturuq.

Bu vaxt Ramin yuxulu halda otağından çıxıb onlara baxdı:

– Sabahınız xeyir! Sənə yaxşı yol, Faiqə...

– Sabahın xeyir, oğlum, – anası dedi, – əl-üzünü yu, sonra düş marketdən çörək al. Səhər yeməyinə qalmayıb.

Ramin üz-gözünü qırışdırdı:

– Faiqə daha geyinib də, qoy o alsın çörəyi. Gətirib verər, sonra gedər universitetə.

– Yox, əşi, daha nələr, nələr... – ayaqqabısını geyinib qaçmağa hazır olan Faiqə forsla başını bulayıb güldü. – Faiqə sənin hambalın-zadındı? Zəhmət çək, get özün al çörəyini!

– Xahiş edirəm, dayıqızı... – Ramin məzəli şəkildə boynunu burdu.

– Qələt eləyirsən!

– Nə çətin işdi e, beşcə dəqiqəyə al gətir ver, sonra çıx get də... Özün də, maşallah, fakültənizin idmançı qızlarındansan...

Oğlanın son sözləri Faiqənin canına yağ kimi yayıldığı üçün bir anlıq tərəddüddən sonra yumşaldı:

– Yaxşı, nə deyirəm, alaram...

Scanned by CamScanner

Onun razılaşdığını görən bibisi yalnız indi dilləndi:

– Onda satıcıya mütləq de ki, çörəyi Güləsər xanım üçün alıram. O, mənə həmişə təzə təndir çörəyi saxlayır.

Sonra isə tələsik yan otağa keçərək:

– Gözlə, pul verim, – dedi.

– Lazım deyil, pulum var, bibişko! – Faiqə onu gözləmədən tələsik qapıdan çıxdı.

Pillələri sürətlə enib binanın küçəyə baxan tərəfinə keçəndə qeyri-ixtiyari olaraq başını qaldırıb üzbəüz binaya nəzər saldı. Həmin o yaşlı, üzütüklü kişi yenə də öz balkonunda oturub gözünü qarşı binaya zilləmişdi. Faiqə yaxşı bilirdi ki, bu kişi bibisinin balkona çıxmasını gözləyir...

Birinci mərtəbədəki marketə girdi. Burada alıcılara iki nəfər qulluq edirdi. Sol tərəfdə – içkilər şöbəsində cavan bir oğlan, qarşıdakı piştaxtanın arxasında isə orta yaşlı bir kişi. Faiqə marketə daxil olan kimi cavan satıcı onu xüsusi maraqla süzməyə başladı. Qız belə məftun baxışlara çoxdan alışmışdı, bu səbəbdən oğlanı vecinə almadan qabağa yeridi. Çörəyi ona hazırda bir alıcı ilə söhbət edən orta yaşlı satıcı verməli idi. Onun qarşısındakı qadın isə heç də tələsənə oxşamırdı:

– Deyirsiniz, bu həmin mən deyən duzdandır?

– Hə, yüz faiz ondandır, sadəcə, qabı dəyişib.

– Yodu var bunun?

– Bəli, var. Baxın, üstündə yazılıb.

– Əşi, yalandan yazırlar da...

– Nə deyim, vallah...

Scanned by CamScanner

– Bəs başqa duz yoxdur sizdə?

Qadının arxasında dayanmış Faiqə adəti üzrə, soyuqdan üşüyən adamlar kimi vücudunu qısıb əllərini koftanın uzun qolları içində gizlədərək yerində astadan dingildəyirdi. Cavan satıcının isə acgöz nəzərləri hələ də onun üstündə idi. Elə vurğunluqla baxırdı ki, indicə kimsə marketə girib onun şöbəsindən bir-iki şüşə içki oğurlasaydı, bundan xəbəri olmazdı.

Qızın birdən ağlına gəldi ki, deyəsən, bu qadının alış-verişi uzun çəkəcək, ən yaxşısı budur çıxıb öz işinin dalınca getsin. Çörəyi Ramin özü alardı.

Beyninə haradansa gələn bu qəfil fikir qətiləşən kimi dönüb qapıya tərəf getdi və cavan satıcının xüsusi nəvazişlə verdiyi "Nə lazım idi, xanım?" sualını cavabsız qoyaraq küçəyə çıxdı. Marketin qarşısındakı səkidə heç kəs yox idi. Qarşı binadakı yaşlı kişi isə hələ də balkonda oturmuşdu.

Bədəninə kip oturmuş dar cins şalvarının arxa cibinə soxduğu mobil telefonunu çıxarıb Raminin adını ekrana gətirəndə küçənin o biri tərəfindən bu səkiyə yenicə adlamış biri diqqətini cəlb etdi.

60 yaşlarında olan bu kişinin uzun, donqar burnu və sağ gözünün altındakı aypara şəkilli iri çapıq onu olduqca kifir göstərirdi. Ancaq başının qabağı tamam dazlaşmış bu arıq kişi Faiqənin diqqətini yalnız buna görə cəlb etməmişdi. Məsələ burasında idi ki, Tanrının sanki başdansovdu, həvəssiz yaradıb dünyaya buraxdığı bu kələ-kötür adamın özü də anlaşılmaz bir maraqla ona baxırdı. Qız bu israrlı, sırtıq baxışlarda nəsə qeyri-adi, xoşagəlməz bir şey hiss

Scanned by CamScanner

etdi. Hə, nəsə çox pis bir şey... Həm də bu, çapqın bir kişinin gənc, cazibədar qıza baxan baxışlarına bənzəmirdi. Nəsə başqa bir şey vardı bu baxışlarda. Daha pis, daha qorxunc bir şey...

Özünü bir qədər narahat hiss edən Faiqə: "Manyak", – deyə dodaqaltı mızıldanıb üzünü çevirdi və telefonun zəng düyməsini basdı.

Bibisi oğlu telefonu gec açdı. Yəqin vanna otağında əl-üzünü yuyurmuş.

– Hə, Faiqə? – nəhayət, oğlanın şən səsi eşidildi.

Qız şıltaqcasına gülümsəyib:

– Mən gedəsi oldum, – dedi, – düş çörəyi özün al!

– Yaxşı daa... – Ramin narazılıqla səsini uzatdı.

– Tənbəl olma, düş aşağı, qoy bir az əl-ayağın da açılışsın.

– Yaxşı, sən evə gələndə sənin o pırpız saçlarını yolmasam, mən də Ramin deyiləm! – oğlan çığırdı.

Onun sözlərinə qəhqəhə çəkən Faiqə:

– Bacarsan yolarsan! – deyib telefonu qapadı.

Dönüb gözlərini hələ də ondan ayırmayan kişiyə ani nəzər salaraq tez də üzünü çevirdi və səki ilə üzüaşağı yeriməyə başladı. Metronun "Nizami" stansiyası bura yaxın idi. Bir neçə dəqiqədən sonra o, artıq nəzarətçi polislərin qarşısından keçib stansiyaya daxil olmuşdu.

Ona lazım olan qatar dərhal gəldi və qız bir-birini itələyən adamların arasında içəri necə soxulduğunu özü də anlamadı. Kitabı qoltuğundan salmamaq üçün bərk-bərk böyrünə sıxırdı. İçəridə basabasdan tərpənmək mümkün deyildi. Nə yaxşı ki, bu qatarla

Scanned by CamScanner

cəmi bir stansiya gedəcəkdi. Keçid stansiyasında enib başqa qatara minməli idi.

Qatar "28 may" stansiyasına çatıb dayandı. Az əvvəl minəndə olduğu kimi, enəndə də gur sərnişin topasının içində çölə atıldı. "İçərişəhər"ə gedən qatarda bayaqkı ilə müqayisədə xeyli seyrəklik idi. Faiqə burada hətta oturmağa da yer tapdı.

İndi bir az əvvəl bibisigilin binası ilə üzbəüz balkonda gördüyü yaşlı kişi barədə düşünürdü. O kişini həmin balkonda iki, ya üç il bundan əvvəl görmüşdü. Bibisigilə qonaq gedən Faiqə küçəyə baxmaq üçün balkona çıxmışdı. Təbii ki, belə yaxın məsafədən ona tərəf baxan adam diqqətini cəlb etməyə bilməzdi. Kişinin yarıdan çoxu ağarmış saçları dağınıq, üzü tüklü idi. Sağ ayağını kiçik balkonda yana uzadıb oturmuşdu. Bir əlində əsa vardı.

Faiqə Güləsərin bəslədiyi gözəl dibçək güllərinə heyranlıqla baxıb, nəyisə soruşmaq üçün bibisini çağırdı. Bibisi uzağı iki nəfərin sığışdığı balkona gələndə qarşıdakı kişinin özünü yığışdırıb onlar tərəfə daha diqqətlə, eyni zamanda həsrətlə baxması Faiqənin nəzərindən qaçmadı. Növbəti dəfə yenə buna bənzər bir şey oldu və "çoxbilmiş" qız dəqiq bildi ki, bu kişi Güləsərə baxmaq üçün balkonda oturur.

Əvvəl buna ciddi əhəmiyyət vermədi. Bibisi kifayət qədər gözəl qadın idi və bu gözəlliyin fərqinə varan istənilən kişi ona vurula bilərdi. Haçansa bir dəfə bibisi ilə "28 Mall" ticarət mərkəzinə getmişdi. Güləsər özünə bəzi yay geyimləri almaq istəyirdi. Şöbələri gəzərkən Faiqə orta yaşlı bir kişinin dallarınca

Scanned by CamScanner

düşüb arxadan bibisinə necə iştahla baxdığını görəndə gülməkdən uğunmuşdu. Təəccüblənmiş Güləsər ondan nəyə güldüyünü soruşanda bibisinin qulağına demişdi ki, bu arxadakı kişi bayaqdan səni yaman maraqlayır. Bibisi də gülmüş, sonra ciddiləşib demişdi ki, baxır baxsın da, gedib gözlərini qapamayacam ki...

Hə, Faiqə əvvəl balkondakı o şikəst kişinin də bibisinə münasibətini belə anlamışdı. Düşünürdü ki, yəqin nə vaxtsa balkondan baxanda qadını görüb və ona vurulub. İndi də işsiz-gücsüz adamdır və axşama kimi orada oturub Güləsərin balkona çıxmasını gözləyir ki, ona baxıb müftə həzz alsın.

O şikəst kişi Dünyanın da diqqətindən yayınmamışdı. Deyəsən, keçən il idi, bibisi qızı nəyə görəsə balkona çıxmış və qayıdıb anasına ucadan demişdi ki, bu kişi elə bil ağac kimi bitib o balkonda, nə vaxt baxıram oradadır. Güləsər də qızına cavab vermişdi ki, nəyinə lazımdır, öz balkonudur oturub də, yəqin təkdir, ailəsi-zadı yoxdur...

Ancaq bir gün Faiqə yenə bibisigildə olanda yeni bir şeyin fərqinə vardı. Bibisi suqabını götürüb gülləri sulamaq üçün balkona çıxmışdı. Faiqə otaqda Dünya ilə söhbət edir, Ramin televizora baxırdı. Güləsər içəri bir az gec qayıtdı, bu zaman bibisinin üzünə baxan Faiqə onun gözlərində indiyədək heç vaxt duymadığı bir kədər sezdi. Bu kədər hansısa bir günün, iki günün dərdi, problemi ilə bağlı bir şeyə bənzəmirdi. Uzun illərin həsrəti vardı bu kədərli gözlərdə...

Bibisi otaqdan keçib mətbəxə gedəndə Faiqə ayağa qalxaraq balkona açılan qapıya yaxınlaşdı. Pərdəni

Scanned by CamScanner

aralayıb baxdı. Həmin kişi yenə öz balkonunda oturub birbaşa ona tərəf baxırdı. Uzaqdan-uzağa onun da baxışlarında, az əvvəl bibisinin gözlərində gördüyü kimi, bir həsrət gördü...

Belə hal sonradan ona rast gəlməsə də, həmin günkü kəşfini unutmamışdı və hərdən o barədə düşünürdü. Yəni adını bilmədiyi o kişi və bibisi Güləsər barədə. Düşünürdü ki, ola bilsin, onlar gənclik illərində bir-birini sevibmiş. Seviblər, ancaq qovuşa bilməyiblər. Görəsən, niyə? Kim və niyə mane olub onların qovuşmasına? Faiqə çox istəyərdi ki, bunu bilsin.

Bir dəfə bunu öyrənməyə cəhd etdi. Güləsərlə otaqda tək olanda balkona çıxdı. Şikəst kişi yenə həmişəki yerində idi. Geri qayıdıb bibisinə bilərəkdən belə bir sual verdi:

– Bu kişi kimdir, bibişko? Tanıyırsan?

Güləsər açıq-aşkar özünü itirdi və bu, kifayət qədər dərrakəsi olan zirək qızın diqqətindən yayınmadı:

–Yoox... Mən haradan tanıya bilərəm onu?

– Ancaq yaxşı adama oxşayır, hə? – Faiqə gözlərini qıyıb hiyləgər müstəntiqlər kimi ondan söz almağa çalışdı.

– Fikir verməmişəm... – bibisi çiyinlərini çəkdi.

– Həm yaxşı adama oxşayır, həm də bədbəxt. Sanki taleyi gətirməyib.

– Ola bilər...

Güləsər belə deyib sonra dərhal söhbəti dəyişdi. Faiqə ondan həmin kişi barədə heç nə öyrənə bilməsə də, qəti əmin oldu ki, bibisi ilə onun arasında haçansa sevgi macərası olub.

Scanned by CamScanner

Ancaq bu necə ola bilərdi axı? Həmin bu mənzil Yaşar dayının mənzili idi və Güləsər bura ona ərə gələndən sonra köçmüşdü. Yəni bibisi bu ayağı şikəst adamla ərli vaxtında sevişmişdi?! Bu, qətiyyən ola bilməzdi axı. Onun tanıdığı Güləsər Yaşar dayıya heç vaxt xəyanət etməzdi. Əgər onların arasında sevgi macərası olubsa, bu, lap çoxdan olubmuş. Yəni Güləsərin hələ Yaşarı tanımadığı vaxtlarda. Ancaq əgər belədirsə, onda bu şikəst kişinin balkonunun Yaşar dayının balkonu ilə üzbəüz olması təsadüf idimi? Yəni bu boyda təsadüf olardımı?

Vaqonun qəfil silkələnməsi Faiqəni fikirlərindən ayırdı. Başını qaldırıb ətrafa nəzər salanda isə heyrətindən içini çəkdi. Bayaq marketdən çıxanda ona göz qoyan manyak baxışlı kişi vaqona söykənib birbaşa ona baxırdı. Belə çıxırdı ki, bu kişi onu marketdən bura kimi izləmiş, "28 may" stansiyasında vaqonu dəyişərək onun ardınca bu vaqona minmişdi.

Görəsən, 60 yaşı şübhəsiz olan bu çirkin sifətli kişi ondan – gənc bir tələbə qızdan nə istəyir? Əgər Faiqə açıq-saçıq geyinmiş, makiyajdan çox istifadə etmiş biri olsaydı, düşünərdi ki, bu adam onu bəzi yüngülxasiyyət qızlara bənzədib. Axı o, sadə bir tələbə idi və ilk baxışdan bugünkü tələbə qızların çoxundan seçilmirdi...

Seçilmirdi? Ancaq Gülnar deyirdi ki, o, nə qədər sadə geyinib bəzək-düzəkdən, makiyajdan az istifadə etsə də, diqqətli adamların nəzərində öz gözəlliyi və şirinliyi ilə dərhal seçilirmiş...

Scanned by CamScanner

Qorxusundan titrəməyə başladı. Ona elə gəlirdi ki, kişi bu saat vaqondakı sərnişinlərin gözü qarşısında ona hücum edəcək. Əlbəttə, manyakdan bunu gözləmək olardı...

Elə bu zaman qatar "Sahil" stansiyasına yetişib dayandı. Qapının açılmasını gözləyən Faiqə yerindən qəfil sıçrayıb özünü hamıdan qabaq çölə atdı və içəri girmək üçün dayanmış sərnişinlərdən birinə bərk toxundu. Zərbənin təsirindən səndələyib özünü yıxılmaqdan birtəhər saxlaya bilən orta yaşlı qadın onun arxasınca bərkdən deyinirdi:

– Ay qız, yavaş ol da... Vəhşidir elə bil qız...

Qadından üzr istəməyə imkanı olmayan Faiqə arxasına belə baxmadan eskalatorlara doğru yüyürürdü. Yuxarı qalxan eskalatora minəndən sonra da dayanmadı. Adamları yara-yara üzüyuxarı qaçdı. "Sahil" stansiyasından çıxıb eyniadlı bağla universitetə doğru yeriyəndə də qorxudan arxasına baxmırdı.

Beləcə, gəlib universitetə yetişdi və yalnız qapıdan içəri girib tələbə biletini mühafizəçilərə göstərərək onların yanından keçəndən sonra rahatlandı. İndi daha o manyakdan qorxusu yox idi. Bilirdi ki, arxasınca gəlsə də, mühafizəçilər onu içəri buraxmayacaqlar.

Scanned by CamScanner

IV FƏSİL

SOYUQQANLI ƏR

Ailə həyatı quracağın insan sənə ya xoşbəxtlik gətirəcək, ya da bədbəxtlik, burada orta vəziyyət yoxdur.

Dünənki hadisəyə görə hələ də kədərli olan Nilufər xanım mətbəxdə səhər yeməyinə hazırlıq görürdü. Hafizə müəllimə heç yadından çıxmırdı. Yazıq qadın dünən səhər məktəbə gəlmiş, Pərvanədən onu soruşmuş, sonra lotereya oynadığı müəllimlərdən toplanmış 900 manatı qızdan alıb evə qayıtmışdı. Belə çıxır ki, kimlərsə onun dünən məktəbə pulu almağa gələcəyini bilirmiş. Başqa cür ola bilməzdi.

Hafizə müəlliməni addım-addım izləyib yaşadığı binaya girərkən öldürmüşdülər. Dünən yas yerində qadınlar danışırdı ki, qatil onu bıçaqla arxadan – düz ürək nahiyəsindən vurubmuş.

Scanned by CamScanner

Dünən səhər Nilufəri maşınla ora aparan əri isə Cahidlə Hafizə müəllimənin məktəbdən evə qayıdarkən yolüstü alış-veriş etdiyi marketə getmişdi. Bunu ona qardaşı dedi və bildirdi ki, Hafizə müəllimə marketdə olarkən çantasındakı lotereya pulunu üzə çıxarmayıb. Cahidin fikrincə, qadının həmin gün məktəbdən çoxlu pulla çıxacağını əvvəldən bilənlər varmış və qatil məhz məktəb kollektivinin yaxın ətrafında axtarılacaqdı.

Əri isə marketə getmələri barədə Nilufərin sualına cavab olaraq yalnız bunu dedi ki, orada nəzarət kamerasının qeydlərini izləyiblər və Hafizə müəllimənin marketdə həmin pulu çantasından çıxarmadığı məlum olub. Vəssalam!

Qaraqabaq əri onsuz da evdə onunla iş barədə danışmazdı. Nilufər bu evə gəldiyi ilk günlərdən ərinin bu xasiyyətini kəşf etmişdi. Ona görə də apardığı təhqiqatlarla bağlı ona artıq suallar vermirdi.

Ancaq əri dünən evə qayıdandan çox fikirli idi. İş otağında oturub saatlarla düşüncəyə dalmış, hətta Nilufərin onun üçün gətirdiyi qəhvəni tamam soyutmuşdu. Axşam yatağa girəndə də dinib-danışmırdı. Əllərini başının altında çataqlayıb gözlərini alaqaranlıq tavana zilləmişdi.

Nilufər bir qədər susub küçədən gələn maşın səslərini dinləyəndən sonra özünü sual verməkdən saxlaya bilmədi:

– Bugünkü ölüm işi barədə düşünürsən?

Əri bir az gec cavab verdi:

Scanned by CamScanner

– Hə...

– Cahid deyir ki, Hafizənin bu gün məktəbdən pul alacağını bilən birinin işidir bu.

– Ola bilər...

– Bir də dedi ki, dünən səhər bu rayonda yaşlı bir kişini də bloklarında bıçaqlayıblar. Təsadüfə bax ki, o da Hafizənin ərzaq aldığı həmin marketdən çörək alıb evə qayıdırmış...

– Səncə, bu, təsadüfdür?

– Başqa nə ola bilər ki?

Əri bu dəfə gec dilləndi:

– Sən yat, mən hələ bir az fikirləşməliyəm...

Nilufər də daha ona mane olmaq istəməyib susdu, az sonra yuxuya getdi.

Görəsən, axşam ərini düşündürən nə idi? O yaşlı kişi ilə Hafizə arasında heç bir əlaqə ola bilməzdi axı. Bakının ayrı rayonlarında yaşayırdılar. Qohum-filan olsaydılar, bu gün səhər yas evində qadınlar o kişinin ölümündən də danışardılar...

Çevrilib mətbəxin divarındakı saata baxdı. 9-a on dəqiqə qalırdı. Süd almağa göndərdiyi Nərmin isə hələ gəlib çıxmamışdı. Qobustan rayonundan bir qadın həftədə iki dəfə Bakıya satmaq üçün təmiz, keyfiyyətli inək südü gətirir, gətirdiyi 15-20 litr südü "Nizami" metrosunun yaxınlığında müştərilərinə satıb geri qayıdırdı. Onun daimi müştərilərindən biri də Nilufər idi. Həftənin həmin günləri bəzən özü, bəzən də bacısı gedib orada növbəyə durur, qadın gələndə ondan bir-iki litr süd alırdılar.

Scanned by CamScanner

İndi evdə süd qurtarmışdı, səhər yeməyinə südlü düyü sıyığı bişirmək istəyən Nilufər bacısını gözləməyə məcbur idi.

– Bu qız harada qaldı? – deyə astadan öz-özünə dilləndi.

Onun Nərminə yazığı gəlirdi. Çünki bacısının taleyi yaxşı gətirməmişdi. Hələ orta məktəbin son sinfində olarkən özündən yaşca xeyli böyük birini sevdi. Nilufərin həyatının beş illik uğursuz səhifəsini yazmış Təhmini... Ola bilsin ki, Təhmin də onu sevirmiş. Ancaq yüksək təhsil görməsinə, ömrü boyu saysız-hesabsız kitablar oxumasına baxmayaraq, Tanrıdan heç bir hikmət payı almamış bu adam öz həyat yolunu düzgün müəyyənləşdirə bilmədi. Yanlış yola düşdü və hələ heç bir həyat təcrübəsi olmayan Nərmini də bu yola sürüklədi. Sən insanda nadanlığa bax! Aradakı yaş fərqini bəhanə edərək, onu dəlicəsinə sevən qızla ailə qurmağa çalışmadı. Bunu qeyri-mümkün hesab etdi və sevdiyi qızı hər gün yanında görmək üçün onun bacısına – nişanlısı qəzada ölmüş Nilufərə yaxınlaşdı. Onu sevdiyini deyib bu yalanına inandırdı. Evləndilər. İlk günlərdən aldandığını anlayan Nilufər xəstə ata-anasına dərd verməmək üçün taleyi ilə barışıb dözməyə məcbur oldu. Əslində bu da bir yanlış yol idi ki, Nilufər bilmədən bu yola qədəm qoymuşdu...

Ancaq bəlkə də yox... İnsan həyatı o qədər mürəkkəbdir ki, heç kəs həyat yolunda qarşısına çıxan cığırların hansının gələcəyi üçün daha sərfəli

Scanned by CamScanner

olduğunu bilmir. Bunu yalnız Tanrı bilir və taleyini yaxşı görmək istədiyi bəndələrini ən doğru cığırlara yönəldir. Əgər evliliklərinin ilk illərindən Təhminin onu sevmədiyini anlayan Nilufər ata-anasını nəzərə almayaraq ondan boşansaydı, qədəm qoyduğu həmin bu cığır onu bugünkü yerə gətirib çıxarmayacaq, Qanbay müəllimlə qovuşdurmayacaqdı. Həmin cığırın sonunda onu başqa sürprizlər gözləyəcəkdi. Bəlkə yaxşı, bəlkə də çox pis sürprizlər...

Təhminin səhv yola qədəm qoyması onun özü üçün faciə ilə nəticələndi. O öldü. İlk sevgisindən yarımamış Nərmin isə o gündən özünə qapandı. Yazıq qız indi içində həm bu əbədi ayrılığın dərdini, həm də bacısına etdiyi xəyanətin vicdan əzabını çəkirdi.

Nilufər bacısının düşdüyü bu duruma görə müəyyən qədər özünü günahkar sayırdı. Çünki vaxtında hər şeyi anlayıb nəsə edə bilərdi. Düşdükləri bəladan həm onu xilas edərdi, həm Təhmini, həm də elə özünü. Lakin etmədi, edə bilmədi. Bu səbəbdən çalışırdı ki, heç olmasa indi bacısına mənəvi dayaq olub onu yenidən fərəhli həyata qovuşdursun. Bunun üçün əlindən gələni əsirgəmirdi.

Saat artıq 9-u göstərirdi. Nərmin isə hələ də yox idi. Narahat olub onun cib telefonuna zəng vurdu:

– Ay qız, harada qaldın?

– Südü indi aldım, gəlirəm, – bacısı dedi.

Südlü sıyıq bişirmək artıq gec olacaqdı. Ərinin yuxudan durmaq vaxtı idi. Bir də ki, süfrədə yeməyə kifayət qədər təam vardı, sıyıqsız da keçinmək olardı.

Scanned by CamScanner

Önlüyünü çıxarıb yerindən asdı. Vanna otağına keçib güzgüdə üst-başına, üz-gözünə baxdı və yalnız bundan sonra yataq otağının qapısını açdı:

– Sabahın xeyir.

Əri oyaq idi. Əllərini boynunun altında çarpazlayıb tavana baxırdı. Yenə fikirli idi. Hətta o qədər fikirli idi ki, həyat yoldaşının salamını yalnız başını tərpətməklə aldı.

Buna əhəmiyyət verməyən Nilufər:

– Süfrə hazırdır, dura bilərsən, – deyərək mətbəxə qayıtdı.

Və həmin an birdən-birə fərqinə vardı ki, o, evli olduqları bir ildən də çox dövrdə, ümumiyyətlə, tanışlıqlarından bu yana bu adamı adı ilə çağırmayıb. Yəni ərinə bir dəfə də olsun "Qanbay" deyə xitab etməyib. Evlənənə kimi "Qanbay müəllim" deyirdi. Bəs sonra? Bir çox gənc qadınlar kimi "həyatım", "aşkım", "əzizim", "canım", ya nə? Yox, ümumiyyətlə, heç nə demirdi.

Başını bulayıb öz-özünə gülümsədi. Bu indiyə kimi necə mümkün olmuşdu, görəsən? Nə vaxta kimi belə gedəcəkdi? Deməli, ərini adı ilə çağırmağa alışmalı idi. Qərara gəldi ki, hökmən buna çalışacaq.

Ciddi, səbirli, eyni zamanda hər şeyi anlayan bu mədəni insanla bir evdə yaşamaq, onun üçün cürbəcür dadlı yeməklər bişirmək, paltarlarını yuyub-ütüləmək, iş otağında elmi işlə məşğul olarkən onun üçün qəhvə hazırlayıb aparmaq Nilufərə zövq verirdi. Təkcə elə bunlarmı? Əlbəttə, yox. Əri o qədər

Scanned by CamScanner

üzə vurmasa da, dilinə gətirməsə də, onu bir qadın kimi bəyənib qiymətləndirirdi. Bunu duyan Nilufər həmişə evin içində də özünə, üst-başına fikir verir, ərinin məmnun baxışlarından özünü hər an qadın kimi hiss edərək fərəhlənirdi.

Bütün bunlar onun xoşbəxtliyinin göstəriciləri deyildimi? Xoşbəxt olmaq üçün başqa nə lazım idi? Sevgi, məhəbbət? Bəlkə də əri ilə onun arasındakı münasibətə məhəbbət demək olardı. Bəlkə də yox. Bu, məhəbbət məfhumunu kimin necə anlamasından çox asılı idi. Bir də axı, nəyə lazımdır məhəbbəti qeyri-adi, əlçatmaz bir şey kimi anlayıb, öz hissini və ya özünə qarşı olan hissi onunla müqayisədə zəif və cılız görəsən? Nəyə lazımdır iddialarını böyüdüb şişirdəsən, sonra da özünün böyütdüyün bu iddiaların altında qalıb sıxılasan, özünü kiçik, bədbəxt görəsən?

Məhəbbəti əks cinsin nümayəndələrinin bir-birini tamamilə bəyənməsi, bir-birini başqalarından daha çox istəməsi, bir-birindən ayrı qalanda bunu bir boşluq kimi hiss etməsi, nəhayət, bir-birinin bədənini öz bədəni qədər doğma qəbul etməsi kimi anlamaq və bununla kifayətlənmək daha məqsədəuyğun olmazdımı? Əgər belə idisə, bəli, Nilufərlə əri Qanbay arasında məhəbbət var idi və şəxsən Nilufər bu məhəbbəti ömürlərinin sonuna kimi qoruyub saxlamağa çalışacaqdı.

O, həyatı az-çox anlayırdı. Bilirdi ki, bu dünyada mütləq heç nə yoxdur, hər şey nisbidir və insan

Scanned by CamScanner

öz durumunu qiymətləndirərkən bunu başqaları ilə, əsasən də özündən daha pis durumda olanlarla müqayisə etməlidir. Bu baxımdan Nilufər kitabxanadakı iş yoldaşı, yaşı 40-a yaxınlaşsa da, hələ ərə getməmiş, ailə-uşaq fərəhi yaşamamış Pərvanə ilə, ərə gedəndən bir xoş gün görməyən, indi isə bir qatil tərəfindən öldürülərək torpaq altında yatan Hafizə ilə, lap elə gözünün qarşısındakı doğma bacısı Nərminlə müqayisədə xoşbəxtlərin xoşbəxti deyildimi?

Ərinin bir çoxlarının nəzərində mənfi görünə biləcək xüsusiyyətləri də vardı. Məsələn, çox az danışırdı. Öz hisslərini həyat yoldaşı ilə bölüşmür, xüsusilə təhqiqat apararkən rastlaşdığı maraqlı məqamları ona danışmırdı. Keçirdiyi hissləri üzündən anlamaq çətin idi. Nilufər yalnız evliliklərinin dördüncü-beşinci ayından sonra buna bir qədər alışa bildi. İndi qadın qaraqabaq ərinin əhvalını onun üz cizgilərindən anlayır, nə istədiyini duyurdu.

Lakin onun yaxşı cəhətləri daha çox idi axı. Məsələn, son dərəcə səbirli, təmkinli olması. O, yeməyin gecikməsinə, paltarının gec ütülənməsinə görə hələ indiyədək bircə dəfə də danışmamışdı. Eyni zamanda qayğıkeş idi. Bəzən elə olmuşdu ki, mətbəxdə kartof soyan Nilufər uşağın ağladığını eşidib işini yarımçıq qoyaraq onun yanına qaçıb, qayıdanda isə görüb ki, kartof artıq soyulub.

Bütün bunlar öz yerində, əslində Nilufər üçün Qanbayın ən əvəzolunmaz müsbət cəhəti qarşısındakını dinləmək bacarığı idi. Nilufər özünü unudub nəsə barədə saatlarla danışsa da, əri sakitcə oturub onu axıra

Scanned by CamScanner

kimi dinləyirdi. Kişinin təkcə elə bu xasiyyəti, yəni həyat yoldaşını dinləyə bilməsi kifayət idi ki, həyat yoldaşı onu özünün ən yaxın adamı hesab etsin...

Yenə saata baxdı. Artıq 10-a yeddi dəqiqə işləyirdi. Qanbay isə hələ qalxmamışdı. Məlum məsələdir, gecə çox gec yatıbmış yəqin. Hafizənin qətli barədə düşünüb bütün gecəni.

Nilufər dərindən köks ötürdü.

Bədbəxt Hafizənin əyyaş bir əri vardı. Ailə qurduqları gündən evə bircə manat da pul gətirməmişdi. Qazandığının hamısı arağa-siqaretə gedirdi. Hafizə üç uşağını, elə ərinin özünü də 15 ildən çox idi ki, evdə yuxa-zad bişirib mağazalara satmaqla saxlayırdı. Müəllim maaşı ilə dolanmaq mümkün deyildi. Bir neçə il əvvəl direktordan xahiş etmişdi ki, onun onsuz da az olan musiqi dərslərini cədvəldə həftənin iki-üç gününə yerləşdirsin, evdə yuxa bişirmək üçün boş vaxtı çox qalsın. Direktor da hər ay Hafizənin maaşının üçdə birini özünə götürmək şərtilə ona bu imkanı yaratmışdı.

Olduqca mehriban qadın idi yazıq. Nilufərin də xətrini çox istəyirdi. Məktəbə gəldiyi günlər mütləq kitabxanaya baş çəkib onunla dərdləşir, bir stəkan çayını içirdi. İndi belə bir namuslu, fədakar qadın 900 manat puldan ötrü hansısa alçağın biri tərəfindən öldürülmüşdü...

Vanna otağından suyun şırıltısı gəlirdi. Beş-altı dəqiqədən sonra üzü tərtəmiz qırxılmış, yuyunub qurulanmış əri mətbəxə daxil oldu. "Sabahın xeyir"

Scanned by CamScanner

deyib süfrə arxasında oturdu. Nilufər hər ikisi üçün çay süzüb özü də əyləşdi və yeməyə başladılar.

Bax, Nilufərin ərinin çoxlarına qəribə görünə biləcək əcaib soyuqqanlılığı, qaraqabaqlığı bu idi. Onun yerində istənilən başqa bir kişi olsaydı, mətbəxə girən kimi arvadına ən azından "Uşaq yatır?" və "Nərmin hanı, görünmür?" suallarını verər, bu suallar günün əvvəlindən ünsiyyətə başlamağa bəhanə baxımından hər kəsə təbii görünərdi. Nilufərin qaraqabaq əri – məşhur cinayət-axtarış eksperti Qanbay Qasımlının isə özünəməxsus dəyişməz xarakteri vardı. Heç vaxt, əgər buna ciddi ehtiyac yoxdursa, artıq söz danışmaz, bildiyi nəyisə soruşmazdı. O, yaxşı bilirdi ki, körpə oğlu bu vaxt mətbəxdə deyilsə, qonşu otaqdan səsi gəlmirsə, deməli, yatır və əgər həftənin bu günündə Nərmin səhər evdə görünmürsə, deməli, qobustanlı qadından süd almağa gedib. Bunları bildiyi halda, sadəcə, danışmaq xatirinə sual vermək onun xarakterinə zidd idi. Və nə yaxşı ki, Nilufər bunu bilirdi...

Qapının zəngi çalındı. Ev sahibəsi qapıya gedib tez də əlində süd bidonu olan bacısı ilə geri qayıtdı:

– Sən harada qaldın, ay Nərmiş, gəlib çıxmırsan?

– Neyləyim, arvad gec gəldi də, – qız bidonu yerə qoyub yeznəsinə salam verdi: – Sabahınız xeyir!

Sonra bacısına baxdı:

– Aqil yatır?

– Hə, yatır hələ, – Nilufər onun üçün də çay süzüb dedi. – Sən də keç otur, yeməyini ye.

Qız süfrə arxasına keçən kimi yenidən danışmağa başladı:

Scanned by CamScanner

– Papamın canı üçün, bir az gec getsəydim, mənə süd çatmayacaqdı. Növbədə on beşdən çox adam vardı. Mən altıncı idim. Arvad mənə iki litr verəndən sonra yerdə uzaqbaşı dörd-beş litr süd qalmışdı. Yəqin ki, arxadakılara heç nə çatmadı.

– Hə, bilirəm, – Nilufər onun sözünü təsdiq edib ərinə müraciətlə dilləndi: – Hər dəfə növbəyə nə qədər adam durur, ancaq qəti deyərəm ki, indiyə kimi onuncu adama heç vaxt süd çatmayıb.

Ona qulaq asan əri başını astadan tərpətdi. Bu zaman o, pendir diliminə batırdığı çəngəli yenicə ağzına tərəf uzadırdı. Birdən əl saxladı. Sonra fikirli halda çəngəli boşqaba qoyub:

– Siz yeməyinizi yeyin, mən təcili getməliyəm, – deyərək ayağa qalxdı.

İndi telefonla danışan ərinin səsi dəhlizdən gəlirdi:

– Cahid, salam. Haradasan? Elə bu dəqiqə əlində nə işin varsa, kənara qoyub dünənki marketə gəl, mən də evdən çıxıram. Orada danışarıq, vaxt yoxdur...

Sonra o, yəqin geyinmək üçün yataq otağına getdi. Bir dəqiqədən sonra isə evin qapısı açılıb-örtüldü.

Bax, bu hərəkət Qanbayın xarakterinə tamamilə zidd bir şey idi və Nilufər bunu ondan heç gözləmirdi. Axı o, bu insanı ən fövqəladə hallarda belə öz təmkinini və soyuqqanlılığını qoruyub saxlayan biri kimi tanımışdı...

Ev sahibəsi hələ də təəccüblə qapıya baxırdı. Görəsən, onun soyuqqanlı ərini süfrədən yarımçıq qalxaraq belə tələsik marketə getməyə məcbur edən nə idi?

Scanned by CamScanner

V FƏSİL

TƏCİLİ AXTARIŞ ƏMƏLİYYATI

Yaxşılıq etdim deyə sevinməyə, pislik etdim deyə kədərlənməyə tələsməyin. Nəyin yaxşılıq, nəyin pislik olduğunu zaman göstərəcək.

Mülki geyimdə olan polis kapitanı Cahid Nəzərli saat 09:25-də öz avtomobilində Binəqədi polis idarəsinə gedirdi. Orada saat 10:00-da başlayacaq iclasda rayondakı kriminogen vəziyyət müzakirə ediləcəkdi.

Binəqədi rayonu ölkənin kənd rayonlarından axın-axın gələn sakinlər hesabına şəhərin ən sıx ərazisinə çevrilmişdi. Bu baxımdan buradakı mürəkkəb kriminogen duruma nəzarət etmək çətinlik törədirdi.

Yeznəsi Qanbay Qasımlı zəng vurub təcili olaraq dünən səhər olduqları marketə gəlməsini tapşıranda Cahid artıq Azadlıq prospektində idi. Binəqədi

Scanned by CamScanner

polisinə çatmağına az qalırdı. O, saat 10-da başlayacaq iclasa bölmə rəisinin tapşırığı ilə gedirdi və orada öz bölmələrini təmsil etməli idi. İclasda yəqin ki, Binəqədi sakini olmuş Hafizənin də qətlindən söhbət gedəcəkdi. Qasımlı ilə dünən səhər olduqları market isə başqa rayonun ərazisində idi və orada hər hansı təhqiqat aparmaq üçün həmin rayonun polisi ilə işbirliyi lazım gəlirdi.

Lakin yeznəsinin səsində nadir hallarda özünü göstərən bir həyəcan hiss etmişdi. İndiyə kimi öz yüksək analitik düşüncəsi, sərt məntiqi mühakiməsi və soyuqqanlı davranışı ilə çox cinayətlərin üstünü açmış dəmir iradəli polkovnik Qasımlı ona zəng vurub təcili olaraq marketə gəlməsini tələb edir və bu zaman səsi az da olsa titrəyirdisə, deməli, məsələ olduqca ciddi idi.

Yol hərəkəti qaydasını pozmasına baxmayıb maşını geri döndərdi və sürəti artıraraq dünəndən beynini məşğul edən sirli marketə doğru sürməyə başladı.

Yolboyu düşünərək Qasımlının onu niyə belə təcili çağırdığını anlamağa çalışırdı. Əgər bu adam Hafizə müəllimənin qatilinin izinə düşmüşdüsə, öz dəyişməz xarakterinə sadiq qalıb mütləq təmkin göstərməli, qatili ustalıqla öz toruna salmalı idi. Əlbəttə, bu işdə Cahidin köməyinə ehtiyacı ola bilərdi. Amma daha belə yox ki... "Elə bu dəqiqə əlində nə işin varsa, kənara qoyub dünənki marketə gəl. Mən də evdən çıxıram..."

Yox, burada nəsə başqa şey vardı. Elə bir şey ki, Qasımlı kimi adamı həyəcanlandırmışdı. Bu nə ola

Scanned by CamScanner

bilərdi? Hə... Əlbəttə, insan həyatı! Bu dəqiqələrdə hansısa bir insanın həyatı ölüm təhlükəsi altında olmalı idi...

Marketin qarşısına yetişəndə tanış "Porşe"nin küçənin kənarında dayandığını görüb yeznəsinin artıq burada olduğunu anladı. Belə də olmalı idi, çünki bura onun evinə yaxın idi. Maşını "Porşe"nin arxasında saxlayıb düşdü. Qeyri-ixtiyari olaraq başını qaldırıb küçənin o biri tərəfindəki binaya baxanda Firdovsi adlı şikəst kişinin yenə öz balkonunda oturduğunu gördü. Məlum məsələdir, bu dəli aşiq marketin üstündə, üçüncü mərtəbədə yaşayan gözəl qadına baxırdı.

Cahid kinayə ilə gülümsəyərək başını buladı. Marketə daxil olanda satıcı onu tanıyaraq:

– O, buradadır, – dedi və əli ilə yan otağı göstərdi.

Qanbay Qasımlı bu kiçik otaqdakı kompüterin qarşısında əyləşmişdi. Nəzarət kamerasının srağagün səhər saatlarına təsadüf edən görüntülərinə baxıb dünənki görüntülərə yenicə keçirdi. Cahid salam verib yeznəsinin yanında oturdu.

Onun salamını almayan xəfiyyə bütün diqqətini monitora yönəltmişdi. Orada dünən səhər marketə girib-çıxmış alıcılara baxırdı. Budur, bu da rəhmətlik Hafizə müəllimə... O, içəri girən kimi satıcıya yaxınlaşdı. Günəbaxan yağı, makaron və toyuq budu alıb pulqabısından bir beşlik çıxardı...

Ancaq deyəsən, Qasımlı ona axıra kimi baxmaq fikrində deyildi. Kadrı saxlayıb bugünkü görüntüləri

Scanned by CamScanner

ekrana gətirdi. Cahid dönüb onun üzünə baxanda təəccüblənməyə bilmədi. Sevimli yeznəsini heç belə görməmişdi. Üzü sərtləşib sanki daşa dönmüş, qaşları çatılmış, dodaqları bir-birinə kip sıxılmışdı.

Hə, Qasımlı nəyə görəsə çox narahatlıq keçirirdi...

İndi monitorda bu gün səhərdən marketə girən alıcılar görünürdü. Cahid də onları izləməyə başladı. Budur, satıcının qarşısında dayanmış orta yaşlı bir qadın. O, əlində tutduğu duz qutusuna baxaraq satıcıya nəsə deyirdi.

Bu zaman marketə qoltuğunda qalın bir kitab olan gənc qız girdi. Uzun, qıvrım saçları sərbəst halda çiyinlərinə tökülmüş bu qızın əynində cins şalvar və boz rəngli kofta vardı. Qəşəng qız idi və elə bu səbəbdən girişin solundakı içki şöbəsində işləyən oğlan onu dərhal gözaltı elədi. Qız duz alan qadının arxasında növbəyə durmuşdu və heç kəsə baxmadan yerində astadan yırğalanırdı. Dodaqlarının xəfifcə tərpənməsi isə göstərirdi ki, o, bu dəqiqə ürəyində hansısa oynaq ritmli bir mahnını zümzümə edir.

Sonra qız nə düşündüsə, heç nə almadan qəfildən geri dönüb marketi tərk etdi. Qasımlı kadrı dayandırdı. Geri qaytarıb qızın üzünü böyütdü. Fotonu telefonuna köçürüb dilləndi:

– Cahid, nə edirsən et, təcili olaraq bu qızın kimliyini müəyyənləşdir. Hətta bir saniyə belə yubanmaq olmaz. Biz bu qızı tapıb xilas etməsək, onu da öldürəcəklər...

– Necə yəni? – Cahid heç nə anlamadı.

Scanned by CamScanner

Gözünü naməlum gənc qızın ekranda dondurulmuş gülümsər və bir qədər şıltaq simasına dikərək sağ əli ilə bərk-bərk çənəsini ovuşduran polkovnik cavab vermədi. O, indi, deyəsən, özü ilə danışırdı:

– Qız marketdən saat 08:45-də çıxıb. İndi isə saat 09:54-dür. Bir saat 9 dəqiqə... Bəlkə də biz gecikmişik... Əgər buradan evə qayıdıbsa, mütləq evin girişində öldürülüb... Yox, o, marketdən heç nə almadı axı... Həm də, görünür, universitet tələbəsidir. Əlində də kitab var. O, bu erkən saatlarda yalnız oxuduğu universitetə getməlidir. Ya da hansısa kitabxanaya. Əgər belədirsə...

Dönüb Cahidə təəccüb və məzəmmətlə baxdı:

– Sən hələ heç nə etməmisən? Tez şöbənizə və bu ərazinin polisinə xəbər ver, bu qızı tapsınlar. Onu qaçılmaz ölüm gözləyir və biz təcili olaraq işə qarışmasaq, bunun qarşısını heç kəs ala bilməyəcək. Heç kəs!

– Axı siz niyə belə düşünürsünüz ki, bu qızı öldürəcəklər? – Cahid çiyinlərini çəkib soruşdu. – Buna əminsinizmi?

– Əmin deyiləm. Ancaq əgər o manyak qatil hələ işini yekunlaşdırmayıbsa, bu gün bu qızı qətlə yetirəcək. Çünki bu qız 14-cü adamdır...

– 14-cü adam? Necə yəni?

– Yəni bu gün bu marketə daxil olan 14-cü alıcıdır. Mən iki gün ərzində baş vermiş qətllərin sirrini bir az bundan əvvəl evdə səhər yeməyini yeyərkən anladım. İndi yoxlayanda gördüm ki, yanılmamışam. Srağagün öldürülən Behbud adlı kişi də, dünən qətlə yetirilmiş Hafizə müəllimə də marketə daxil olmuş 14-cü adam idilər.

Scanned by CamScanner

Cahid işin nə yerdə olduğunu başa düşsə də, məsələnin mahiyyətini tam anlaya bilmirdi:

– Axı niyə məhz 14-cü adam ölməlidir?

– Bilmirəm, Cahid, bilmirəm! – Qasımlı əsəbi halda dilləndi. – Sən cəld ol, bu qızın kimliyini müəyyənləşdir! Ancaq nə özünü, nə də ətrafını duyuq salmasınlar. Biz bu manyak qatili onun vasitəsilə tuta bilərik.

Bunu deyib siqaret yandırdı və otaqdan çıxdı.

Cahid əvvəlcə öz bölmələrinə zəng vurub naməlum qızın şəklini ora göndərdi. Sonra həmin fotodan tabe olduğu rayon şöbəsinə, daha sonra Nəsimi və Yasamal polisinə göndərib xahiş etdi ki, baş verəcək qətl hadisəsinin qarşısını almaq üçün qızın kimliyi ən qısa müddətdə müəyyənləşdirilsin.

Sonra maraq ona üstün gəldi, nəzarət kamerasının srağagünkü və dünənki qeydlərinə özü yenidən baxmağa başladı. Bəli, Behbud adlı qoca da, Hafizə müəllimə də marketin qapısı açılandan sonra bura daxil olan 14-cü adam idilər...

Birinci qeydlərdə Cahidin diqqətini bir şey cəlb etmişdi və geri qayıdıb həmin yeri bir daha izlədi. Burada marketə girmək üzrə olan bir gənc arxasınca gələn Behbud kişini görüb ayaq saxlayır və onu hörmətlə qabağa verirdi. Beləliklə, marketə 14-cü girməli olan oğlan yerini qocaya verərək, 15-ci olmuşdu...

Cahid kədərlə gülümsəyib başını buladı. Sən bir işə bax! Bu oğlanın heç vaxt ağlına da gəlməyəcək ki, yaşına hörmət qoyub özündən qabağa verdiyi adamı öz əvəzinə ölümə təslim edibmiş...

Scanned by CamScanner

Kompüteri söndürüb otaqdan çıxdı. Küçədə siqaretini çəkib geri qayıtmış Qasımlı indi telefonundakı fotonu orta yaşlı satıcı ilə onun cavan köməkçisinə göstərərək bu qızı əvvəllər görüb-görmədiklərini soruşurdu. Məlum oldu ki, hər iki satıcı bu naməlum qızı bu gün səhər ilk dəfə görüb.

Burada işləri qalmadığı üçün satıcılara təşəkkür edib küçəyə çıxdılar. Firdovsi hələ də öz balaca balkonunda oturmuşdu. Qasımlı ona tərəf yalnız ani bir nəzər salıb Cahidə baxdı:

– Əgər qatilin məqsədi və ya ona verilmiş sifariş yalnız iki günlə yekunlaşırsa, deməli, bu qızı heç bir təhlükə gözləmir. Belə olanda qatili axtarmaq üçün başqa üsullardan istifadə etmək lazım gələcək və ola bilsin ki, mən artıq bu işi sizin öhdənizə buraxacam. Yəni polisin. Yox, əgər sifariş hələ yekunlaşmayıbsa... Onda ya monitorda gördüyümüz bu qız artıq haradasa xəlvət bir yerdə bıçaqlanıb, ya da mən əlimdən gələn hər şeyi edib onu ölümdən qurtaracam.

– Belə məntiqsiz bir sifarişin məqsədi nə ola bilər? – Cahid istedad və bacarığına pərəstiş etdiyi polkovnikin bu məsələ barədə fikrini öyrənmək istədi.

Onlar səkidə – Qasımlının avtomobilinin yanında dayanmışdılar. Polkovnik bir anlıq nəsə düşünüb dilləndi:

– Buna bənzər bir hadisə mən Moskvada Baş cinayət-axtarış idarəsində işləyərkən Daşkənddə baş vermişdi. Avtobus dayanacağında gənc bir qızı bıçaqlayıb öldürmüşdülər. Orada olmuş şahidlərdən birinin sözlərinə görə, dayanacağa bir kişi gəlib. Bir yerdə

Scanned by CamScanner

qərar tuta bilməyən bu şübhəli şəxs həyəcanlı halda gəzişir, dayanacağa yeni gələn sərnişinlərə göz qoyurmuş. Nəhayət, ora gənc bir qız da gəlir və həmin kişi onu görən kimi üstünə yeriyib bir neçə yerdən bıçaqlayaraq qaçır. Bu cinayətin üstünü açmaq üçün məni Daşkəndə göndərdilər. Qatilin fotorobotu hazırlanaraq yayılmışdı. Hər yerdə onu axtarırdılar. Düzünü deyim ki, mən ölən qızın yaxın ətrafını və kimin onunla düşmənçilik edə biləcəyini bir aya yaxın araşdırsam da, bundan bir şey çıxmadı. Ancaq bir ay sonra qatili şəhər kənarındakı qəsəbədə görən bir qadın milisə zəng vurub məlumat vermişdi və Daşkənd milisi onu yaxaladı. Məlum oldu ki, bu adam qumarda bütün pullarını uduzandan sonra yenə oynayıb uduzduqlarını geri qaytarmaq istəyib və bu zaman onunla belə şərt kəsiblər: əgər yenə uduzsan, sabah səhər şəhərin filan avtobus dayanacağına gedib orada gözləyəcək və dayanacağa səndən sonra 7-ci gələn adamı, onun kim olmasından asılı olmayaraq, öldürəcəksən.

– Və o, yenə uduzub?

– Bəli. Özün bilirsən ki, qumarın dəyişməz ciddi qanunları var. Uduzdunsa, sənə deyiləni etməlisən, yoxsa bu sənə çox baha başa gələ bilər.

– Sizcə, Hafizə müəlliməni və o qoca kişini öldürən də bu işi qumarda uduzduğu üçün edib?

– Mən belə güman edirəm... – Qasımlı başını tərpətdi və qarşı binanın balkonunda oturmuş Firdovsiyə yenə ani nəzər salaraq əlavə etdi: – Cahid, yaxşı olar ki, biz buradan uzaqlaşaq.

– Niyə?

Scanned by CamScanner

– Hissiyyatım mənə deyir ki, balkonunda oturub bizi gözucu seyr edən Firdovsi adlı bu kişinin baş vermiş qətllərlə nəsə bir əlaqəsi var.

– Onda bəlkə elə bu saat onu bölməyə aparıb danışdıraq?

–Yox... Düzdür, hissiyyatım məni heç vaxt aldatmır, ancaq əlimə tutarlı sübut da vermir. Sübutsuz isə bu adamdan nəsə qopara biləcəyinizə inanmıram. Gəl buradan gedək.

Maşınlara oturub marketin qarşısından uzaqlaşdılar və bir də sakit bir səkinin kənarında saxlayıb yerə düşdülər. İndi heç nə danışmadan xəbər gözləyirdilər. Nəhayət, 20 dəqiqədən sonra Cahidin Binəqədi polisində işləyən tanışından xəbər gəldi:

– Cahid, biz qızın fotosunu kompüterə salıb oxşar şəkilləri axtarmaqla onun kimliyini müəyyənləşdirdik. Deyim yazırsan?

– Sən de, yadımda qalacaq, – Cahid məmnun halda Qasımlıya baxıb cavab verdi. – De, eşidirəm...

– Deməli, göndərdiyin foto Ələkbərli Faiqə Rüfət qızınındır, – tanışı dedi, – Pedaqoji Universitetdə təhsil alır. 8-ci mikrorayonda yaşayır. Ancaq bu dəqiqələrdə evlərində heç kəs yoxdur. Ev telefonlarına zəng vurdum, götürən olmadı...

–Yaxşı, çox sağ ol!

Cahid Qasımlının işarəsi ilə söhbəti bitirib telefonu qapadı və eşitdiklərini ona çatdırmaq istəyəndə polkovnik dilləndi:

– Eşidirdim. Məncə, ev ünvanına ehtiyac yoxdur. Qız böyük ehtimalla indi universitetdədir.

Scanned by CamScanner

– Maraqlıdır, – Cahid dedi, – qız 8-ci mikrorayonda yaşayır, ancaq səhər vaxtı burada marketə girib...

– Əlbəttə, hansısa qohumunun mənzilində gecələyibmiş. Eşitdin ki, öz evlərində telefonu götürən yoxdur. Yəqin ailə harasa gedib və Faiqə evdə tək qalmamaq üçün bu rayondakı qohumugilə gəlib. Biz indi universitetə gedib qızın orada olduğunu dəqiqləşdirməliyik.

15 dəqiqədən sonra onlar artıq avtomobillərini Sahil bağının kənarında park edərək yaxınlıqdakı universitet binasına tərəf addımlayırdılar. Bu zaman Cahidin telefonuna zəng gəldi. Zəng vuran onun işlədiyi polis bölməsindən Zaur Əhmədli idi. Bir az əvvəl Cahid Faiqənin fotosunu bu zirək təhqiqatçıya da göndərib təcili araşdırma aparmasını tapşırmışdı.

– Cahid, – Zaur məlumat verməyə başladı, – mən qeydiyyat bölməsinin köməyi ilə o qız barədə hər şeyi öyrəndim: Ələkbərli Faiqə Rüfət qızı. Pedaqoji Universitetin son kursunda oxuyur. 8-ci mikrorayonda olurlar. Atası Rüfət əslən Neftçaladandır. Mən mobil telefon nömrəsini öyrənib ona zəng vurdum. Bir neçə gündür ki, qızdan başqa bütün ailə Neftçaladadır. Qız isə Bakıda bibisigildə qalır. Bibisinin adı Güləsərdir. Güləsər xanımın ünvanını deyirəm, yaza bilərsən. Atasının dediyinə görə, qız indi əslində bu ünvanda olmalı idi. Çünki universitetdə dərsləri bitib...

Zaur Güləsər adlı qadının ev ünvanını deyəndə Cahid təəccübləndi. Bu, az əvvəl çıxdıqları həmin marketin yerləşdiyi bina idi.

Scanned by CamScanner

– Atasına nahaq zəng etmisən, Zaur, – dedi, – indi o da narahat olub qızına zəng edəcək, planlarımız pozulacaq.

Zaur onu arxayın etdi:

– Düzdür, mən qızının həyatının təhlükədə olduğunu ona dedim, amma qəti tapşırdım ki, ona bu barədə heç nə deməsin. Rüfət elə indicə qızı ilə danışdı. Faiqə bu dəqiqə universitetdədir. Orada azacıq işi var, onu bitirib bibisigilə qayıdacaq. Atası məndən dönə-dönə xahiş etdi ki, qızını qoruyaq. Dedim narahat olmasın, ən yaxşı təhqiqatçımız Cahid müəllim bu işlə məşğuldur.

Universitet binasına çatmışdılar. Zaurla sağollaşıb telefonu qapayan Cahid onun dediklərini olduğu kimi Qasımlıya təkrarlayıb axırda dedi:

– Deməli, qız altında market olan həmin binada qonaq imiş...

– Bu, sadəcə, təsadüfdür... – Qasımlı dodaqaltı pıçıldadı.

Universitetin giriş qapısı önündə də, küçənin əks tərəfindəki səkidə də tək-tək və ya iki-üç nəfərlik qruplarla adamlar dayanmışdılar. Qasımlı burada əsl peşəkarlara məxsus gizli baxışlarla ətrafı nəzərdən keçirərək, səsini başqalarının eşitməməsi üçün lap astadan, təmkinlə dilləndi:

– Cahid, deyəsən, mən axtardığımız adamı görürəm. Küçənin o biri tərəfində dayanıb. Əgər bu adam doğrudan da odursa, deməli, qətl sifarişi bitməyib və Faiqə xanımın həyatı həqiqətən də təhlükədədir...

Scanned by CamScanner

Cahid ehtiyatla dönüb küçənin əks tərəfindəki səkidə dayanmış adamlara baxdı. Orada 6-7 adam vardı. Hamısı da kişi.

– Qollarını sinəsində çarpazlamış qırmızı köynəklini deyirsiniz? – deyə o da astadan soruşdu.

–Yox, – Qasımlı dedi, – onun arxasındakını. Başının yarısı keçəl, sağ gözünün altında çapığa oxşar nəsə var. Onun özünü bir qədər narahat hiss etməsi gözümdən qaçmadı...

Cahid bir də ora baxdı:

– Hə, gördüm. Bəlkə bölmədən adam çağırım və bu adamı dərhal həbs edək?

– Lazım deyil, – polkovnik başını buladı. – Əvvəla, biz bu adamın axtardığımız qatil olduğuna yüz faiz əmin deyilik, ikincisi isə, əgər qatil budursa, onu iş başında yaxalamaq daha məqsədəuyğundur. Sənin gözün qapıda olsun, Faiqə adlı o qız çıxanda mənə xəbər ver və onu izləməyə başla. Şübhə doğurmadan, axıra kimi izlə. Maşının qoy burada qalsın, sonra gəlib apararsan. Narahat olma, bizim tələbə qızımız taksiyə-filana minməyəcək, böyük ehtimalla, evə metro ilə qayıdacaq.

– Bəs siz?

– Sən dediyimi elə, burada mənə artıq ehtiyac yoxdur. Qatili qızın getdiyi evə daxil olarkən həbs edəcəksən. İstəsən bölmənizdən kömək də istəyə bilərsən.

Polkovnik bunları deyib ondan qəfil aralandı və küçənin o biri tərəfinə keçib Cahidin gözündən itdi.

Scanned by CamScanner

Təəccüblənmiş Cahid bir neçə saniyə onun arxasınca baxandan sonra kənara çəkilib qapıya nəzarət etməyə başladı. Qapıdan girib-çıxan çox idi və bu onun işinə çətinlik yaradırdı. Ancaq Faiqəni görən kimi boz rəngli uzunqol koftasından və uzun, gur, qıvrım saçlarından dərhal tanıyacağına əmin idi. Bir də gülümsər, məsum və bir qədər şıltaq simasından...

On dəqiqədən sonra marketdəki kompüterdə görüb hərəkətlərini izlədiyi qız başqa bir qızla universitetin qapısından küçəyə çıxdı. Onun Faiqə olduğuna şübhəsi yox idi. Qız nəyə görəsə əvvəlcə çaşqın və bir qədər qorxaq nəzərlərlə ətrafa baxdı. Bu zaman Cahid də dönərək Qasımlının ona göstərdiyi 60 yaşlarındakı kişiyə nəzər saldı və sağ gözünün altında aypara şəkilli çapıq olan bu adamın Faiqənin baxışlarından yayınmağa çalışdığını gördü. Deməli, polkovnik Qasımlı yanılmamışdı...

Faiqə onu izləyən adamı görmədi və rəfiqəsinə gülə-gülə nəsə deyib ondan elə buradaca ayrıldı. Rəfiqəsi üzüyuxarı – avtobus dayanacağına doğru getdi. Faiqə isə öz nazlı yerişi ilə, onu gözləyən ölüm təhlükəsindən xəbərsiz halda küçəni keçərək Sahil bağına girdi, bağın içi ilə yaxınlıqdakı metro stansiyasına tərəf yeriməyə başladı.

Çapıqlı kişi bacardığı qədər şübhə oyatmamağa çalışaraq qızın arxasınca gedirdi. Onları addım-addım izləyən Cahid vəziyyət barədə Qasımlını məlumatlandırandan sonra Zaura zəng vurub tapşırdı ki, özü ilə bir polis götürüb "Nizami" metrosunun qarşısına gəlsin və orada rastlaşanda yaxın məsafədən onu təqib etsinlər.

Scanned by CamScanner

Faiqə "Sahil" metrosuna daxil oldu. Behbud adlı qoca ilə Hafizə müəllimənin qatili olduğuna artıq şübhə yeri qalmayan çapıqlı kişi də, Cahid də onu təqib edirdilər.

Vaqonda sıxlıq deyildi. Faiqə içəri girən kimi özünə yer tapıb əyləşdi. Qatil isə bir qədər qabağa gedib elə dayandı ki, arxası Faiqəyə tərəf düşsün. Deməli, qızın onu görməsini istəmirdi. Ancaq Faiqənin yaxınlığında ayaq üstə dayanmış Cahid yaxşı bilirdi ki, bu qoca qurd vaqonun pəncərəsindən güzgü kimi istifadə edərək öz günahsız qurbanını diqqətlə izləyir.

"28 may" stansiyasında vaqondan çıxıb "Nizami"yə gedən qatara minəndə də eyni vəziyyət təkrar olundu. Burada Cahid qızı bir an belə gözdən qoymadan mövcud durum barədə Qasımlıya ismarış göndərib ondan "təqibi davam etdir" cavabını aldı və yenə ismarışla Zaura indicə metrodan çıxacaqlarını bildirdi.

Beş dəqiqədən sonra isə "Nizami" metro stansiyasının qarşısındakı geniş meydançada şəhərin şimal istiqamətində hərəkət edən belə bir təqib zənciri vardı: qabaqda qulaqlarına telefonun qulaqlıqlarını taxaraq ətrafda baş verənlərdən tamamilə xəbərsiz musiqi dinləyən Faiqə gedirdi; onu inadla izləyən qatil təxminən 7-8 metr arxada idi; qatildən 5-6 metr arxada adi mülki geyimdə olan Cahid, ondan 4-5 metr arxada isə polis uniformasında olan Zaurla bir çavuş addımlayırdı.

Qız bir azdan bibisigilin binası yerləşən küçəyə keçdi, eyni arxayın və sərbəst addımlarla səki ilə

Scanned by CamScanner

yoluna davam etdi. Burada qatil qızla arasında olan məsafəni bir qədər azaltdı. Onun hərdən arxaya boylandığını görən Cahid Zaurgilə işarə etdi ki, geri qalsınlar. Zaurla gənc çavuş onu anlayaraq addımlarını xeyli yavaşıtdı.

Artıq yolun sonuna yetişmişdilər. Faiqə qaldığı binanın tininə çatanda sola dönüb binanın arxasındakı həyətə girdi. Qızdan cəmi 4-5 metrlik məsafədə olan qatil də onun dalınca. Bu an tini burulmaq üzrə olan Cahid öz ovunun dalınca dabanbasma yeriyən qatilin yenə arxaya boylanacağını nəzərə alıb bir anlıq ləngiməli oldu. Sonra bu bir anlıq gecikmənin qızın ölümünə səbəb olacağını düşünərək cəld həyətə keçdi. Qız artıq gözə dəymirdi. Binaya daxil olmuş qatilin isə blokun qapısında yalnız kürəyi görünürdü. Bir saniyə sonra o da gözdən itdi. Tapançasını çıxarıb irəliyə atılan Cahid hələ qapıya yetişməmiş içəridən çığırtı səsi eşidərək sarsıldı. Artıq gecikdiyini düşünsə də, sürətini azaltmadan binaya soxuldu və bu zaman gördüyü mənzərədən heyrətlənib elə qapı ağzındaca dayanmalı oldu.

Arxası ona tərəf durmuş qatil əlindəki iri bıçağı yerə ataraq əllərini yuxarı qaldırmışdı. Qorxusundan titrəyən Faiqə bir neçə pillə yuxarıda dayanıb nifrətlə ona baxırdı. Polkovnik Qasımlının sol əli qızın çiynində idi, sağ əlində qatilə tuşlanmış tapançanı tutmuşdu...

Bu zaman arxadan özlərini çatdıran Zaurla gənc çavuş çapıqlı kişinin qollarını arxaya burub qandalladılar...

Scanned by CamScanner

O gecəni səhərə kimi polis bölməsində keçirib kriminal aləmdə "Çapıq Rza" adı ilə tanınan şübhəlini sorğu-suala çəkmiş Cahid səhəri gün saat 10-un yarısında vacib əməliyyata getmək üçün kabinetindən çıxarkən Qasımlıya zəng vurdu:

– Sabahınız xeyir, Qanbay müəllim. Dünən tutduğumuz adamı danışdırdım. Behbud adlı qocanı və Hafizə müəlliməni öldürdüyünü boynuna aldı. Siz haqlı imişsiniz. Həm qumarla bağlı dediyiniz fikirdə, həm də Firdovsidən şübhələnməkdə. Deməli, Rza adlı bu adam keçən həftə öz evində oynanılan qumarda neçə il bir yerdə həbsdə yatdığı Topal Firdovsiyə külli miqdarda pul uduzub. Pullarını geri qaytarmaq ümidi ilə oyunu davam etdirmək istəyəndə Firdovsi bunun qarşısına şərt qoyub: əgər udsan, pulların sənin olsun, amma uduzsan, qarşıdakı həftənin ilk günündən başlayaraq ardıcıl olaraq üç gün hər səhər mənim balkonumun qarşısındakı marketi izləyəcək və market açılandan sonra ora daxil olan 14-cü adamı öldürəcəksən.

– Hmm... Maraqlıdır... – Qasımlı dedi və bir neçə saniyə susub yenidən dilləndi: – Niyə məhz 14-cü adamı?

– Təəssüf ki, Rza bunu bilmir. Bildiyi təkcə odur ki, Topal Firdovsi hələ həbsxanada olduğu vaxtlardan 14 rəqəminə, bu rəqəmlə bağlı hər şeyə nifrət edirmiş. Biz bir az bundan əvvəl Firdovsinin yaşadığı ərazinin polis şöbəsinə məlumat verdik. O, həbs olunacaq. Elə mən də bu saat əməliyyatda iştirak etmək üçün ora gedirəm.

Scanned by CamScanner

– Aha, sizə uğurlar! – Qasımlı dedi. – Dünən mən maşını həmin evin yaxınlığında saxlayıb gözləyirdim. Sənin mesajını alandan sonra evə qalxıb pilləkəndə dayandım. Qalanını özün bilirsən. Ancaq siz gedəndən sonra qızla bibisigilin mənzilinə qalxdıq. Bibisi Güləsər xanım, bir də oğlu evdə idilər. Vəziyyəti izah edib artıq təhlükənin sovuşduğunu dedim. Qızın bibisi Firdovsinin balkondan hər gün izlədiyi, portretini mənzilinə vurduğu həmin qadın imiş. Açığını deyim ki, Güləsər xanım hərtərəfli gözəl insandır. Məni gilas mürəbbəsi ilə çaya qonaq etdi. Artıq dəqiq bilirəm ki, Firdovsi ilə onun keçmişdə qalmış maraqlı macərası var və bu 14 rəqəminin onların taleyində uğursuz rolu olub. İnan ki, bu sirri öyrənmək üçün çox şey verərdim.

– Darıxmayın, – Cahid güldü, – mən müstəntiqdən xahiş edərəm, o macəranı öyrənib mənə desin, mən də sizə deyərəm.

– Hə, – bu zaman, deyəsən, qaraqabaq xəfiyyə də gülümsədi, – onda mən də səni evə qonaq dəvət edərəm və Nilufər xanımdan xahiş edərəm ki, sənin çox sevdiyin Naxçıvan dolması bişirər.

– Danışdıq...

Cahid bunu deyərək telefonu qapayıb kabinetindən çıxdı.

Scanned by CamScanner

VI FƏSİL

"DAMA – QIRMIZI ÜRƏK"

Biz çox vaxt özümüz də bilmədən taleyimizlə qumar oynayırıq. Ya uduruq, ya uduzuruq və bu zaman bizə uduzduqlarımızı təkrar geri qaytarmaq imkanı verilmir...

Dikəlib yataqda oturdu. Gözlərini ovuşdurub divardakı qədim saata baxdı. Əqrəblərin saat 10-u göstərməsinə bir-iki dəqiqə qalırdı. Nə vaxt yuxuya getdiyini xatırlamağa çalışdı. Hər halda, səhər hava işıqlaşmağa başlayanda o, hələ yatmamışdı. Axırıncı qədəhi bir dilim kolbasa ilə həmin vaxt içib paltarlı halda yatağa uzanmışdı.

Stula söykədiyi əl ağacını götürüb, onun köməyi ilə ayağa qalxdı. Başında küt, zəhlətökən bir ağrı vardı. Vanna otağına keçib güzgüyə baxanda gözlərinin şişdiyini, qıpqırmızı qızarıb qan çanağına döndüyünü gördü. Üzünə su vurub qurulanaraq bayaqkı otağa qayıtdı.

Scanned by CamScanner

Masanın üstündən telefonunu götürüb baxdı. Yox, heç kəs zəng vurmamışdı. Heç kəs deyəndə ki, Rzadan xəbər gözləyirdi. Başqa kim zəng vuracaqdı ki?! Kimi vardı bu vəfasız dünyada?

Bir neçə gün bundan əvvəl Masazırdan gələndə taksi şoferi təsadüfən həmkəndlisi çıxdı. Cavan adam idi, nə Firdovsi onu tanıdı, nə də o, Firdovsini. Kim olduğunu bildirmədən sürücüdən o kənddə Firdovsi adlı birini tanıyıb-tanımadığını soruşdu. Dedi ki, onunla həbsxanada bir yerdə olublar.

– Həə... Rəhmətlik Əhəd müəllimin oğlu Firdovsi... – sürücü ucadan dilləndi. – O, bizim kənddən çoxdan çıxıb, doğrusu, heç üzünü də görməmişəm, ancaq ata evi hələ orada durur. Evi deyəndə ki, yəni evinin xarabalığı. Ev çoxdan uçub, həyətini kol-kos basıb, az qala cəngəlliyə dönüb. İndi o xarabalıqda hər gecə bayquşlar ulayır. Kənd camaatı danışır ki, Əhəd müəllim də, arvadı da çox yaxşı adamlar olublar. Ancaq oğulları biqeyrət çıxıb. Haradansa bir ifritəni alıb gətirib, özünə arvad eləyib. Bu arvad əvvəl onun bacısını şərləyib. Bacısı da abırlı-ismətli, gül kimi təmiz qız imiş. Şərə dözməyərək üstünə neft töküb yandırıb özünü. Qeyrətsiz Firdovsi də bunu bildiyi halda arvadını boşamayıb. Sonra atası qızının dərdindən ölüb. Bu dəfə də arvadı Firdovsinin anasını zəhərləyib öldürüb. Nə isə... Sonra bunlar Bakıya köçüblər, orada arvadı başqa kişi ilə Firdovsiyə xəyanət elədiyinə görə Firdovsi onu öldürüb, girib türməyə.

Scanned by CamScanner

Sonrasından xəbərimiz yoxdur, indi hansı cəhənnəmdədir bilmirik...

Barəsində danışdığı xoşagəlməz sözlərə görə həmkəndlisinə heç nə deməyən Firdovsi evə çatanbundan sonra dilləndi:

– O Firdovsi barədə düz deyirsən, əclafın, alçağın biridir o...

Onun səhəri günü yad nömrədən Firdovsiyə zəng vurdular. Telefonu açıb qulağına aparanda ona tanış gələn bir səs eşitdi:

– Salam. Firdovsidir?

– Bəli...

– Bax, görürsən, mən istəsəm, adamı necə tapa bilirəm...

Bir az gec də olsa, universitet illərindəki yataqxana yoldaşı Sənanın səsini tanıdı. Xoş-beşdən sonra Sənan bildirdi ki, Qəşəm Moskvadan gəlib, Oruca da xəbər veriblər, Ağsudan gələcək, günorta saat 1-də universitetin yanında görüşəcəklər. Dedi ki, yaxşı oldu səni də tapa bildim, mütləq gəl...

Keçmişi ilə görüşməyə heç həvəsi olmasa da, yoldaşlarını qırmayıb getdi. Qucaqlaşıb öpüşəndən, ayaqüstü hal-əhval tutandan sonra oradakı kafelərin birində oturdular.

Hər kəs özündən danışmağa başladı. Məlum oldu ki, bu dörd yoldaşın heç biri beş il universitetdə oxuyub aldığı riyaziyyatçı-müəllim diplomundan bəhrələnmir. Sənan o zamandan vəzifə dalınca

Scanned by CamScanner

gedibmiş, indi icra hakimiyyətində məsul bir işdə çalışırdı. Bakıda evi-eşiyi, bahalı maşını vardı. Tanınmış bir şəxsin qızı ilə evlənmiş, ondan bir oğlu, bir qızı olmuşdu. İndi qızı İngiltərədə, oğlu Amerikada təhsil alırdı.

Qəşəm universiteti bitirəndən sonra bir kəndçisinə qoşularaq Rusiyaya gedibmiş. İndi orada sanballı iş adamlarından biri idi. Saçı azacıq ağarsa da, tələbə Qəşəmlə müqayisədə indi daha yaraşıqlı görünürdü. O, rus qızı ilə evlənib. İki oğlu vardı.

Oruc bir qədər kökəlmiş, başı keçəlləşmişdi. Dərisi isə qapqara idi. Məlum oldu ki, universiteti bitirəndən sonra bir gün belə müəllim işləməyib. Kəndlərinə gedərək orada mal-qara saxlamağa başlayıb. İndi özünün deməsinə görə, sürü ilə qoyunu, xeyli mal-heyvanı vardı. 8 qızından 3-nü ərə veribmiş. Bu dörd yoldaşdan təkcə Oruc baba olmuşdu.

Keçmiş otaq yoldaşlarının üçü də xoşbəxt idi. Bərkdən deyib-gülür, tələbəlik illərində olub-keçən maraqlı əhvalatları xatırlayırdılar. Təkcə Firdovsi özündən danışmırdı. Maraqlıdır ki, onun taleyi ilə maraqlanmaq yoldaşlarının yadına da düşmədi.

Kafedə oturandan artıq dörd saatı keçsə də, durmaq fikirləri yox idi. Söhbət get-gedə qızışırdı. Qəşəm ofisiantı çağırıb növbəti sifarişlər verəndə Firdovsi özünü yaxşı hiss etmədiyini bəhanə edərək süfrədən qalxdı və bu görüşlə bədbəxtliyini ona bir daha xatırlatmış tələbə yoldaşları ilə soyuq şəkildə sağollaşıb evə qayıtdı...

Scanned by CamScanner

Yenə telefona baxdı. Rzadan bir xəbər gəlməməsi onu getdikcə daha çox narahat edirdi.

Dünən artıq üçüncü gün idi ki, yatağından əvvəlki günlərlə müqayisədə daha erkən qalxıb balkonda oturur, qarşıdakı marketin açılmasını gözləyirdi. Son iki gündə onun tapşırığı ilə iki nəfəri qətlə yetirmiş Rza küçənin bu tərəfində, onun balkonunun altında dayanıb marketin bağlı qapısını pusurdu. Sonra həmişəki kimi, o orta yaşlı satıcı ilə cavan oğlan gəldilər. Marketin qapısını açıb içəri keçdilər. Bir qədər həyəcanlanmış Firdovsi diqqətini toplayıb marketə girən alıcıları saymağa başladı. Lap 1983-cü ilin mayının o uğursuz günündə universitetə girən tələbələri saydığı kimi... 14-cü adamı gözləyirdi. Bu uğursuz rəqəm srağagün yaşlı bir qoca kişini, dünən isə orta yaşlı bir qadını Rzanın qurbanına çevirmişdi. Bəs görəsən, bu gün kim düşəcəkdi bu siyahıya?

Marketə 14-cü daxil olan müştəri qoltuğunda qalın kitab tutmuş gənc, suyuşirin qız oldu. Əynində göy cins şalvar, boz kofta olan bu şux yerişli qızın üzü ona tanış gəldi. Ancaq sonra düşündü ki, yanılır. Hər halda, Güləsərin qızı Dünya deyildi bu. Firdovsi isə Bakıda Dünyadan başqa heç bir qızı tanımırdı.

14 rəqəminin günahsız qurbanı marketə girən kimi Rza küçənin o tayına keçdi. Bir azdan qız çıxdı. Telefonla kiməsə zəng vurub bərkdən güldü. Necə də şirin, qayğısız gülürdü. Sonra üzüaşağı – metroya tərəf getdi. Çapıq Rza da körpə quzunu parçalamağa hazırlaşan ac canavar kimi onun arxasınca...

Scanned by CamScanner

Firdovsi yalnız bundan sonra balkondan otağa keçdi və yuxu normasının qalanını yatmaq üçün yatağa uzandı. Yerindən qalxanda saat 11-ə işləyirdi. Çay qoyub səhər yeməyini yedi və Rzadan xəbər gözləməyə başladı. Telefon isə susurdu.

Çıxıb bir qədər balkonda oturdu. Güləsər nədənsə bu gün heç görünməmişdi. Saat 12-ni yenicə keçirdi ki, dibçəklər düzülmüş balkona bir qız çıxdı. Firdovsi heyrətindən az qaldı ki, çığırsın. Bu, həmin o qız idi. Səhər marketə 14-cü daxil olmuş boz koftalı qız...

Bu qızda digər yaşıdlarında olmayan nəsə xüsusi bir cazibədarlıq vardı. Bu sirli cazibə onun birbaşa içindən gəlirdi. Sanki bir işıq vardı onda. Ən qaranlıq qəlbləri belə nura qərq edə biləcək bir işıq... Bələləri ətrafındakılara həmişə xoş aura bəxş edir, lakin özləri bundan xəbərsiz olurlar. Üzərlərinə gözəl qoxulu ətir vurmuş qadınların özlərinin bu qoxunu duymadıqları kimi...

Qız balkondan Firdovsiyə maraqla baxırdı. Sonra içəri keçdi. Firdovsi də çətinliklə ayağa qalxıb otağa qayıtdı. Həyəcandan bütün bədəni əsirdi. Xatırladı ki, bu qızı nə zamansa həmin bu balkonda görüb və qız səhər elə buna görə ona tanış gəlibmiş. Görəsən, Güləsərin nəyidir? Hər halda, yaxın qohumu, əzizi olmalı idi...

Deməli, Rza bu qızı öldürməyə hələ imkan tapmamışdı. İndi Firdovsi buna sevinirdi. O, Güləsərin hansısa yaxınının öldürülməsinə heç vaxt razı olmazdı.

Scanned by CamScanner

Ən azı ona görə ki, sevdiyi qadının kədərlənməsini istəməzdi. Rzanın nömrəsini yığdı ki, zəng vurub işi dayandırmağı tapşırsın. Lakin Çapığın telefonu söndürülmüşdü. Bir qədər sonra yenə zəng vurdu. Telefon bağlı idi...

Beləcə, dünən axşama qədər Rzadan bir xəbər çıxmadı. Firdovsi artıq onun ələ keçdiyini düşünürdü. Bütün gecəni yatmayıb gözlədi. Bir şüşə arağı içib qurtarmış, səhərə yaxın necə yuxuya getməsindən xəbəri olmamışdı.

Bütün bunları xatırlayan Firdovsi Rzaya yenə zəng vurdu. Telefon yenə bağlı idi. Bu əclafın dünən qızı izləməyə başlamasından bir sutkadan artıq vaxt keçirdi. Əgər indiyə kimi Firdovsiyə zəng vurmamışdısa, deməli, polisə ilişmişdi, başqa cür ola bilməzdi.

Görəsən, onu satmazdı ki?

Firdovsi bir daha həbsxanaya düşmək istəmirdi. Ən azı ona görə ki, tutulub getsəydi, Güləsəri hər gün bir dəfə də olsa görmək imkanı əlindən çıxacaqdı...

Birdən-birə 34 il əvvəlki o günü xatırladı. Hər şey o gün başlamışdı – 3 may 1983-cü il tarixində. Daha doğrusu, bir gün əvvəlki axşam...

Hə, axşam idi. Yataqxanadakı o tozlu, səliqəsiz otaqlarında dördü də paltarlı halda çarpayılarına sərilmişdilər. Qəşəm nəsə gülməli bir əhvalat danışır, Sənanla Oruc qarınlarını tutub bərkdən gülürdülər.

Scanned by CamScanner

Firdovsi isə çarpayısında arxası üstə sakitcə uzanaraq gözlərini divara dikmişdi. Əlindəki oyun kartlarını durmadan, sürətlə qarışdırsa da, fikri tamam başqa yerdə idi. Anasıgilin qız tapıb nişanlanması üçün ona verdikləri vaxt azalırdı. Demişdilər ki, özün orada birini tapa bilmirsənsə, kənddə qız çoxdur, biz birini nişanlayaq sənə. Ana idi də, onu anlamaq olardı. İstəyirdi ki, yeganə oğlunu tez evləndirsin, ölməzdən oğul toyu, nəvə görsün...

Qəşəm danışdığı əhvalatı bitirən kimi ona üz tutdu:

– Ay Firdovsi, sən canın, o kartları qoy kənara. Deyəsən, mən yalan oldum, sən doğru, əməlli-başlı qumarbaz olub getdin e. Nə olub, dəryada gəmilərin batıb?

Onun əvəzinə Sənan cavab verdi:

– Firdovsinin problemi böyükdür. Özü təcili olaraq bir qız tapmasa, kəndçilərindən biri ilə evləndirəcəklər.

– Çətin məsələdir, – Qəşəm dedi, – ancaq bu boyda problemə döndərmək də lazım deyil. Onsuz da arvad almaq qarpız almaq kimi bir şeydir, kəsməsən içindəkini bilməzsən. Bəxt məsələsidir bu. Ona görə də başını yormağın xeyri yoxdur. Bəxtinə ilk çıxan qıza yaxınlaş, vəssalam.

– Haradan bilsin ki, bəxtinə çıxan kimdir? – Sənan etiraz etdi.

Qəşəm nə düşündüsə, birdən gülməyə başladı:

– Səhər tezdən gedib dursun universitetin qabağında, birinci hansı qız gəlsə, ona da evlənmək təklifi etsin. Mən ölüm, necədir? Məncə, ən ağıllı yol budur.

Scanned by CamScanner

Sənanla Oruc da ona qoşulub güldülər. İki əli ilə kart dəstini qarışdırmağa davam edən Firdovsi isə birdən yerində dikəldi:

– Elə edəcəm, Qəşəm, ancaq sənin dediyin kimi yox. Bax, bu kartların biri bəxtimə düşəcək qız olsun. Məsələn, "dama – qırmızı ürək". Kartları qarışdıracam, sonra həmin kart neçənci yerdə çıxsa, sabah universitetə o rəqəm sırasında gələn qız taleyimin qisməti olsun.

– Pis fikir deyil, – birinci Oruc rəy bildirdi, – ancaq kartları qarışdıranda yenə fırıldaq işlədəcəksən?

Firdovsi duruxdu:

– Yox, burada fırıldağa nə ehtiyac var ki? Söhbət bəxtdən gedirsə, əlbəttə, kartları düzgün qarışdıracam.

Uşaqlar onunla razılaşdılar. Onsuz da Qəşəmin bayaqdan danışdığı məzəli əhvalat bitmişdi və başlarını qarışdırmağa yeni bir şey axtarırdılar.

Firdovsi onların marağını görüb bir az da həvəsləndi və qalxıb çarpayıda oturdu. Kartları yatağın üzərinə qoyaraq əllərini göyə açdı:

– Ey böyük Yaradan, məni eşit! Mən indi bu kartları qarışdıracam. Sonra üstdən bir-bir götürəcəm. "Dama – qırmızı ürək" neçənci çıxsa, sabah universitetin qapısı açılandan sonra ora daxil olan həmin sıradakı adam mənim taleyimin qisməti olsun. Sənə qurban olum, taleyimə ən yaxşı qisməti yaz...

– Sən indi Allahla qumar oynayırsan? – Qəşəm yenidən güldü.

– Yox, niyə ki?! – o zamanlar yoldaşları ilə müqayisədə Allahın varlığına daha çox inanan Firdovsi

Scanned by CamScanner

tutuldu. – Mən öz gələcək taleyimlə qumar oynayıram. Həm də ədalətlə. Hiyləsiz-filansız. Allaha da yalvarıram ki, bu oyunda udmağıma kömək etsin.

–Yaxşı, qarışdır görək! – Sənan onu tələsdirdi.

Firdovsi kartları götürüb gözüyumulu qarışdırdı. Sonra onları üstdən bir-bir götürüb yoldaşlarına göstərməyə başladı. Nəzərdə tutulmuş kart, yəni "dama – qırmızı ürək" 14-cü yerdə çıxanda həyəcanla dilləndi:

– Deməli, sabah tezdən durub universitetin qabağına gedəcəm. Qapı açılandan sonra içəri girən 14-cü adam kim olsa, deməli, Allah taleyimin qismətinə onu yazıb.

– Bura bax! – Oruc yerindən dik atıldı. – Sən indi Allaha üz tutanda dedin ki, "14-cü adam". "Qız" demədin ha, "adam" dedin. Birdən universitetə 14-cü girən oğlan oldu?

Qəşəm yoldaşının sözlərinə gülüb əlavə etdi:

–Ya birdən bufetçi Asya xala olsa, hə?

–Yaxşısı budur, sən "14-cü qız" de! – Sənan təklif etdi.

–Yox, – Firdovsi başını buladı, – artıq sözümü demişəm, dəyişmək olmaz. Allaha acıq gedər. Həm də belə yaxşıdır. Universitetə 14-cü girən qız olsa, biləcəm ki, mənim bəxtim odur, oğlan, kişi, yaxud Asya xala kimisinin biri olsa, deməli, ya Allah məni eşitməyib, ya da...

– Ya da eşidib, sadəcə, səni barmağına dolayır, – Qəşəm onun yarımçıq qalan fikrini tamamladı.

Scanned by CamScanner

– Sabahkı işində sənə uğurlar arzu edirəm. İndi isə gəlin yataq, gecə keçir...

Firdovsi gecə yarısına kimi yata bilməyib səhər taleyinin qismətinə çıxacaq o qız barədə düşündü. Durmadan Tanrıya yalvardı ki, o qız həm onun, həm anasının xoşuna gələcək biri olsun.

Səhər nəzərdə tutduğu vaxtda ayıldı. Əl-üzünü yuyub geyinərək universitetə qaçdı. Əsas korpusun qarşısında heç kəs yox idi. Qapının açılmasını gözləyib içəri girdi. Gözətçi ilə görüşüb onun yanında dayandı.

Kişi danışır, amma Firdovsi onu dinləmədən, həyəcanla universitetə daxil olanları sayırdı: birinci, ikinci, üçüncü...

13-cü Güləsər gəldi. Onu söhbətə tutmağa çalışırdı, lakin Firdovsi Güləsərin arxasınca gələn 14-cü adamı görmüşdü artıq. Onun qız olduğuna sevinir, həyəcanlanırdı. Necə də həyəcanlanmasın?! Tanrının onun taleyinə yazdığı qismət gəlirdi. Firdovsi çox sonralar bildi ki, 14-cü gələn heç də qız deyilmiş. Heç adam da deyilmiş, ifritənin, iblisin biri imiş. Daş düşəydi o günə! Lənət olsun 14-ə! Bu dünyada 14-cü olan hər şeyə!

Topal Firdovsi keçmişin acı xatirələrini beynindən qovub yenə Rza barədə düşündü. Bu əclaf hara qaldı, görəsən? Yəni doğrudanmı polis tərəfindən tutulmuşdu?

Güləsəri görmək ümidi ilə balkona çıxdı. Lakin al-əlvan dibçək güllərinə bürünmüş balkonda heç kəs yox idi. Nədənsə ürəyi sıxıldı.

Scanned by CamScanner

Bu zaman diqqətini aşağıdan gəlib marketin önündə dayanan bir polis avtomobili cəlb etdi. Onun dalınca daha iki polis maşını da gəldi, ancaq onlar küçənin bu biri tərəfində, onun yaşadığı binanın qarşısında dayandılar. Maşınlardan silahlı polislər çıxıb evin tinində gözdən itdilər.

– Deməli, Rza nadürüst məni satıb... – deyə dodağının altında qorxu və qəzəblə mızıldanan Firdovsi qalxıb otağa keçdi.

Və elə bu vaxt qapının zəngi çalındı. Sonra kimsə qapını əli ilə döyəcləyib:

– Açın, polisdir! – deyə səsləndi.

Başqa çarəsi yox idi. Qapını açdı. Polislər evə doluşdular. Bunlar Nəsimi və Yasamal rayonlarının polisləri idi. Ancaq srağagün Qasımlı soyadlı mülki geyimli o adamla mənzilinə gəlmiş kapitan Cahid Nəzərli də onların arasında idi.

– Siz üç nəfərin qətlini sifariş verməkdə təqsirli bilinərək həbs olunursunuz! – mayor rütbəli biri dedi və onun işarəsi ilə bir çavuş yaxınlaşıb Firdovsinin üst-başını axtardı. Sonra isə onun sol qolunu qandalla özünün sağ qoluna bənd etdi. Əsa yenə Firdovsinin sağ əlində idi.

Başqa polislər isə otaqları ələk-vələk eləməklə məşğul idilər. Hətta kiçik balkonu da nəzərdən keçirdilər.

Nəhayət, axtarış bitdi. Firdovsinin qumarda uddu-ğu 45 min manat puldan və bir neçə qızıl-zinət əşyasından savayı qeyri-qanuni heç nə tapmamışdılar.

Scanned by CamScanner

Onu aparmaq istəyəndə üzünü burada başçı sayılan mayora tutub ölgün səslə dilləndi:

– Xahiş edirəm, beş dəqiqəliyə balkona çıxmağıma icazə verin.

– Niyə? – mayor təəccüblə onun üzünə baxdı.

– Son dəfə küçəyə baxmaq istəyirəm...

Ümid edirdi ki, bəlkə Güləsəri son dəfə görə bilər. Həmin an Cahid Nəzərli yaxınlaşıb mayorun qulağına nə dedisə, mayor razılaşdı:

–Yaxşı, balkona çıxa bilərsən. Beş dəqiqə vaxt verirəm!

Ona qandalla bağlı olan çavuşla birlikdə balkona tərəf yeridi. Uzun illərdən sonra ilk dəfə idi ki, yenə Tanrıya pənah aparmışdı. Ürəyində Tanrıya yalvarırdı ki, sevdiyi qadın balkona çıxsın.

İki dəqiqəyə kimi çavuşla balkonda sakitcə dayanıb durdular. Firdovsi gözlərini qarşıdakı balkona zilləmişdi. Güləsər isə görünmürdü. "Çıx, Güləsər, çıx səni son dəfə görüm", – deyə dodaqaltı pıçıldadı.

Elə bu zaman əynində qırmızı ev xalatı olan qadın balkonda göründü. Tanrımı eşitdi Firdovsini, ya Güləsər özü duydu onun bir neçə dəqiqə sonra gedərgəlməzə gedəcəyini? Hər halda, Firdovsi buna bir möcüzə kimi baxdı və sevincini gizlədə bilməyib ucadan: "Şükür sənə, İlahi!" – dedi.

Qadının əlində su qabı yox idi. Deməli, gülləri sulamağa çıxmamışdı balkona. Ani olaraq Firdovsiyə tərəf nəzər saldı. Sonra başını aşağı salıb özünü güllərə baxan kimi göstərdi. Ancaq tez də başını qaldırmalı

Scanned by CamScanner

oldu. Deyəsən, Firdovsinin yanındakı polisə qandalla bağlandığını indi anlamışdı. İndi qadının baxışlarında təəssüf qarışıq heyrət vardı. Firdovsidən gözünü çəkə bilmirdi.

– Bu qadın kimdir? – çavuş soruşdu.

Firdovsi ona cavab vermədi. Sanki heç eşitməmişdi onu. Bütün diqqətini toplayaraq son kərə gördüyü Güləsərin bu görünüşünü həmişəlik xatirində saxlamaq istəyirdi. Hər şeyini! Çiyinlərinə tökülmüş hamar, şabalıdı saçlarını, üzündəki çaşqın ifadəni, ağappaq əllərini, hətta qırmızı xalatındakı iri bəyaz gülləri... Bütün bunları uzun illər həbsxanada xatırlayacaqdı. Hər gün... Hər saat... Hər dəqiqə...

– Gəlin görək! – içəridən mayorun zəhmli səsi eşidildi.

Bunu eşidən Firdovsi Güləsərə son kərə baxıb vidalaşma mənasında başını tərpətdi. Necə kədərli olduğu uzaqdan bilinən qadın isə heykəl kimi donub yerində qalmışdı.

Otağa qayıtdılar.

Və bu zaman Firdovsinin ağlına qəfildən elə bir şey gəldi ki...

O gün – 34 il bundan əvvəl, 3 may 1983-cü il tarixinin əvvəlki axşamı, Firdovsi əlindəki kartları qarışdırmazdan əvvəl Tanrıya əl açıb yalvardı. Dedi ki, buradan "dama – qırmızı ürək" kartı neçənci çıxsa, sabah səhər universitetin qapısı açılandan sonra binaya daxil olan həmin sıradakı adam mənim taleyimin qismәti olsun. "Dama – qırmızı ürək" 14-cü

Scanned by CamScanner

çıxdı. Deməli, səhər universitetin qapısı açılandan sonra ora daxil olan 14-cü adam onun qismətinə yazılmış qız olmalı idi.

Səhər tezdən qalxıb ora gedən Firdovsi əslində universitetin əsas korpusunun qarşısında dayanaraq binaya daxil olanları buradan saymaq fikrində idi. Lakin necə oldusa, fikrini dəyişdi. Gözətçi qapını açandan sonra binaya girərək gələnləri içəridən saymaq istədi. Beləliklə, qapı açılandan sonra ilk olaraq içəri daxil olan Firdovsi özü oldu. Gözətçi ilə görüşüb onun yanında dayandı və özündən sonra binaya daxil olanları saymağa başladı: "Birinci, ikinci, üçüncü..."

Belə çıxır ki, Firdovsi özünü nəzərə almamışdı...

Lakin əgər içəri girmişdisə, mütləq nəzərə almalı və birinci özünü saymalı idi. Bu halda qapı açılandan sonra içəri daxil olan14-cü adam Nədimə yox, başqası olacaqdı!

Ağlına qəfildən gəlmiş bu həqiqəti bütün çılpaqlığı ilə dərk edəndə birdən ucadan:

– 14-cü adam o imiş! – deyə çığırdı.

– Nə dedin? – onu anlamayan mayor soruşdu.

Gözləri heyrətdən qəribə şəkildə böyümüş Firdovsi:

– 14-cü adam o imiş! – deyərək bu dəfə dəli kimi öz-özünə gülməyə başladı.

– Kim imiş 14-cü adam? Sən nə danışırsan?

Firdovsi gülməyini kəsərək mayorun sualına cavab verməyə çalışdı. Ancaq sanki dili tutulmuşdu. Heç nə deyə bilmirdi.

Polis əməkdaşları ona təəccüblə baxırdılar...

Scanned by CamScanner

ELXAN ELATLI

ON DÖRDÜNCÜ ADAM

Nəşriyyat redaktoru: Famil Cəfərli
Korrektor: Fəxriyyə Abdullayeva
Dizayner: Sevinc Ələkbərova
İllustrator: Ruhulla Həsənzadə

Çapa imzalanıb: 16.10.2017
Kağız formatı: 64x90, $^{1}/_{32}$
Fiziki çap vərəqi: 10,375

Scanned by CamScanner

Detektiv əsərlər müəllifi Elxan Elatlının "On dördüncü adam" romanı bir insanın gəncliyində buraxdığı səhv ucbatından yaşadığı faciəli həyatdan bəhs edir. Roman detektiv süjet üzərində qurulsa da burada Tanrıya münasibət, insanın öz taleyində daşıdığı rol və məhəbbət mövzuları ön plana çəkilib.

Evin yeganə oğul övladı olan gənc böyük arzularla Bakıya ali təhsil almağa gəlir. Bir neçə ildən sonra anlayır ki, ömrünün ən gözəl çağlarını yaşayan əksər tələbələr kimi onun da sevib-sevilməyə ehtiyacı var. Amma universitetdə yüzlərlə gözəl qızın arasında olan bu gənc öz taleyinin qismətini qəribə üsulla seçməyə qərar verir, həyatını qumara qoyur. O ümidlə ki, taleyi qismətinə də elə ilk baxışdan vurulduğu həmin o qızı çıxaracaq...

Amma tale onunla amansız oyun oynayır. Həyat eşqi aşıb-daşan, gələcək xoşbəxtliyinin xəyallarını quran gəncin qarşısına sonradan evlənməyə, az sonra isə boğub öldürməyə məcbur olacağı qızı çıxarır. Bu qadın onu qatilə, qumarbaza, bədbəxt bir adama çevirir...

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

ISBN 978-9952-520-
9 789952 520798
www.teaspress.az
TEAS PRESS

Scanned by CamScanner